ƏZİZ ƏLƏKBƏRLİ

# QƏRBİ AZƏRBAYCANLILARIN 1988-Cİ İL SOYQIRIMI

***(SƏNƏDLƏRİN DİLİ İLƏ)***

**BAKI – 2008**

*Kitabın ərsəyə gəlməsində göstərdikləri köməyə görə müəllif Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin sədri* ***Əli Şamil oğlu Həsənova,*** *Azərbaycan Qaçqınlar Cəmiyyətinin sədri* ***Abbas İbrahim oğlu Səfərova*** *öz dərin təşəkkürünü bildirir.*

**MƏSLƏHƏTÇİLƏR:** **Əli Şamil oğlu HƏSƏNOV,**
*Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin sədri;*
**Abbas İbrahim oğlu SƏFƏROV**
*Azərbaycan Qaçqınlar Cəmiyyətinin sədri.*

**REDAKTORLAR:** **Budaq BUDAQOV**
*akademik;*
**Həsən MİRZƏYEV**
*filologiya elmləri doktoru, professor;*
**Hüseyn İSMAYILOV**
*filologiya elmləri doktoru, professor.*

**RƏYÇİLƏR:** **Qurban SADIQOV**
*Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qaçqınların, məcburi köçkünlərin problemləri, miqrasiya və beynəlxalq təşkilatlarla iş şöbəsinin müdiri;*
**İsrafil MƏMMƏDOV**
*tarix elmləri namizədi.*

**Əziz Ələkbərli. Qərbi azərbaycanlıların 1988-ci il (sənədlərin dili ilə)**, Bakı, "Nurlan" nəşriyyatı, 2008.

Kitab ermənilərin azərbaycanlılara qarşı son iki yüz ildə davam edən soyqırımı siyasətinin ən faciəli mərhələlərindən birinə – qərbi azərbaycanlıların 1988-ci il soyqırımına həsr edilmişdir.

Kitabda Azərbaycan Qaçqınlar Cəmiyyətinin arxiv materiallarından istifadə olunmuşdur.

**Ə $\frac{0503020907}{N-098-2008}$ Qrifli nəşr**

**© Ə.Ələkbərli, 2008.**

*Erməni şovinist millətçilərinin azərbaycanlılara qarşı soyqırımı siyasətinin iki yüz ildən artıq tarixi vardır. Bu mənfur siyasətin qayəsi azərbaycanlıları öz tarixi torpaqlarından qovmaq, bu ərazilərdə mifik "Böyük Ermənistan" yaratmaq olmuşdur. Müəyyən tarixi dövrlərdə bəzi aparıcı dünya dövlətlərinin planlarına uyğun gələn bu siyasəti reallaşdırmaq üçün ardıcıl olaraq ideoloji, hərbi və təşkilati xarakterli tədbirlər həyata keçirilmişdir. Xalqımızın tarixi kobud şəkildə təhrif olunmuş, erməni tarixçiləri və ideoloqları toponimlərimizi, mədəniyyət abidələrimizi öz adlarına çıxmaq üçün davamlı səylər göstərmişlər.*

**HEYDƏR ƏLİYEV**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 27 mart 2003-cü il*

*Azərbaycan hökuməti və vətəndaşları qarşısında bu gün birbiri ilə sıx bağlı olan iki mühüm vəzifə durur: ərazilərimizin işğaldan azad olunmasına, məcburi köçkünlərin öz doğma yerlərinə qaytarılmasına nail olmaq və azərbaycanlıların soyqırımı haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq, hiyləgər erməni təbliğatının saxta tezislərini ifşa etmək. Bu vəzifələrin həlli üçün biz işğalçı Ermənistana qarşı siyasi, hüquqi, iqtisadi, ideoloji təzyiq vasitələrindən istifadə etməli, bütün daxili və xarici imkanlardan bəhrələnməliyik.*

**İLHAM ƏLİYEV**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 29 mart 2007-ci il*

## MÜƏLLİFDƏN

Qafqazın planlı şəkildə erməniləşdirilməsinin təxminən altı yüz ilə yaxın bir tarixi var – 1431-ci ildə Qriqor Makulu adlı bir nəfər İran ermənisi pulla Ağqoyunlu Yaqub padşahın nümayəndəsi Əmir Rüstəmdən Üçkilsənin (Eçmiədzinin) yerləşdiyi Vağarşabad kəndinin bir hissəsini və bir neçə ətraf kəndlərin torpaqlarını satın almışdır...

Ermənilərin azərbaycanlılara qarşı soyqırımının tarixi isə iki yüz ildən çoxdur – 1801-ci ildə Gürcüstanın Rusiya tərəfindən işğal edilməsi ilə Loru mahalında yaşayan azərbaycanlıların soyqırımının ilk aktı həyata keçirilmişdir...

Nəhayət, bu faciələrin kulminasiya nöqtəsi – 1988-ci il! Həmin il tariximizə təkcə ermənilərin Qarabağı tələb etməsi ilə düşmədi. Həmin il biz Azərbaycan türkləri tarixi torpaqlarımızın böyük bir parçasını – Qərbi Azərbaycan adlandırdığımız, zaman-zaman itirə-itirə gəldiyimiz 29,8 min kv. km-lik bir Ərazini, Vətəni, Torpağı, Yurdu itirdik...

Hələ 20 Yanvar, Xocalı faciələri baş verməmişdi. Hələ Dağlıq və Aran Qarabağ Ermənistan hərbi qüvvələri tərəfindən işğal olunmamışdı. Hələ bir milyon nəfərə yaxın qaçqınımız, məcburi köçkünümüz yox idi. Hələ torpaqlarımızın iyirmi faizi işğal altında deyildi.

Amma Qərbi Azərbaycanda – Ermənistan Respublikası ərazisində, öz tarixi dədə-baba torpaqlarında azərbaycanlıların soyqırımı start götürmüşdü. Hər gün əlbəyaxa toqquşmalar, lokal münaqişələr, həbslər, təzyiqlər bir-birini əvəz edir, baş alıb gedirdi. Biz o vaxt bunu nəinki dünyaya, heç Azərbaycanın o vaxtkı rəhbərlərinə, məmurlarına, dövlət və partiya işçilərinə, hətta bəzi sıravi adamlarına da başa sala bilmirdik.

Ermənilər Azərbaycandan Qarabağı tələb edirdi. Qərbi azərbaycanlılar isə Ermənistanda ermənilərə qarşı Qarabağ uğrunda mübarizəyə qalxmışdılar. Lakin o çətin vaxtlarda qərbi azərbaycanlılara nə Moskvadan, nə də Bakıdan heç kəs kömək etmədi, daha doğrusu, yuxarılar kömək etmək istəmədi, aşağılar isə kömək edə bilmədi.

Cəzasızlıqdan ürəklənən, əl-qol açan, rus qoşunları tərəfindən silahlandırılan ermənilər artıq açıq-aşkar meydan sulayır, özlərinin bütün milli yaramazlıqlarını ortaya qoyurdular. Artıq son iki yüz ildə neçənci dəfə idi ki, qul öz zəncirini qırırdı. Qul isə zəncirini qıranda müxtəlif faciələr törədir. Çünki qulun içərisi həmişə kin-küdurət, paxıllıq, qisasçılıq, yaramazlıq, hiyləgərlik və s. kimi mənfi keyfiyyətlərlə dolu olur. Zaman-zaman mənən alçaldılan, addımbaşı təhqir olunan, əxlaqı, namusu əlindən alınan qul əlinə düşən ilk fürsətdə kimdən gəldi bunun acısını çıxmaq istəyir, sanki bundan mənəvi rahatlıq tapır. “Ermənilər ağ dərililər arasında ən pis

qullardır" – Adam Metsin bu fikri heç də təsadüfən deyilməyib. Heç biz də qullardan təsadüfən bəhs etmədik. Assuriyanın və Urartunun qul koloniyaları olmuş Hayasa və Arme şəhər-vilayətlərində saxlanıb, bu vilayətlərin qul bazarlarında dünyanın hər tərəfindən gələn tacirlərə satılan və bu cür də bütün dünyaya yayılan, sənətkar millət (ixtisaslaşmış qullar!) kimi tanınan hay-ermənilər öz qul psixologiyalarından, qul əxlaqlarından heç vaxt qurtara bilməyiblər və görünür, bundan sonra da qurtara bilməyəcəklər...

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı vahid mərkəzdən idarə olunduğu və həyata keçirildiyi üçün bu soyqırımının mərhələləri və xarakteri bütün Ermənistan ərazisində eyni idi. Hər yanda birinci mərhələdə erməni quldur dəstələri polisin və rayon rəhbərlərinin nəzarəti və iştirakı ilə azərbaycanlı evlərinə basqın və onların çıxıb getməsini tələb edirdilər.

Artıq azərbaycanlı işçilər iş yerinə, uşaqları isə məktəbə buraxılmır, dükan-bazarda azərbaycanlılara ərzaq və s. satılmır, azərbaycanlıların işığı, telefonu, suyu, qazı kəsilir, onların həyat şəraiti dözülməz vəziyyətə gətirilirdi. Bu, əsl mənəvi, psixoloji terror idi ki, tez-tez fiziki terrorla da əvəz olunurdu. Çox vaxt ermənilər azərbaycanlı evlərinə əvvəl-əvvəl cüzi qiymət qoyur, sonra hədə-qorxu gəlir, bir şey çıxmayanda ev sahibini döyür, hücum edib ev-eşiyini dağıdır, od-vurub yandırırdılar. Artıq başqa yol görünmürdü. Beləcə, rayonların azərbaycanlı kənd və məhəllələri ev-ev boşalır, erməniləşirdi. Xüsusilə ermənilərin qat-qat çoxluq təşkil etdiyi kəndlərdə azərbaycanlıların vəziyyəti dözülməz idi. Adamlar səhərə qədər bel, yaba, balta və s. ilə "silahlanıb" tonqal yandırıb küçələrdə keşik çəkirdilər.

Lakin noyabrın sonlarında ermənilər bütün Ermənistan üzrə azərbaycanlı kəndlərinin üzərinə qəti hücuma keçdilər. Bir həftənin içində bütün azərbaycanlı kəndləri boşaldıldı, mal-mülkləri əllərindən alındı, ələ keçənlər vəhşicəsinə qətlə yetirildilər. Azərbaycanlılar ayaqyalın, başaçıq, qışın şaxtasında, qarında dağlara, meşələrə üz tutdular. Ölən öldü, donan dondu, ürəyi partlayanlar, ağlını itirənlər oldu... Bu, heç bir insanlıq qanununa sığmayan bir müsibət idi. Bu, tarix boyu qul olaraq yaşamış hayların-ermənilərin bütün insanlıqdan intiqam alması idi...

Biz bu kitaba 1988-ci ildə Qərbi Azərbaycanda həlak olanların hələ də tam olmayan siyahısını, qərbi azərbaycanlıların Ermənistanda qalan ictimai (kolxoz-sovxoz) təsərrüfatlardakı əmlaklarının (fərdi təsərrüfatlardakı əmlaklar bundan qat-qat çox idi) cədvəlini, azərbaycanlılara qarşı həyata keçirilmiş cinayətlərin sənədlərini, dağıdılmış azərbaycanlı qəbiristanlıqlarının şəkillərini daxil etmişik.

Gec-tez əlahəzrət Tarixin hər şeyi öz yerinə qoyacağı ümidindəyik!

# 1988-Cİ İLDƏ QƏRBİ AZƏRBAYCANDA (İNDİKİ ERMƏNİSTAN RESPUBLİKASI ƏRAZİSİNDƏ) AZƏRBAYCANLILARA QARŞI TÖRƏDİLMİŞ SOYQIRIMININ ONLARA VURDUĞU MADDİ VƏ MƏNƏVİ ZİYAN HAQQINDA

## A R A Y I Ş

Hazırda Ermənistan Respkbilkası adlanan Qərbi Azərbaycan ərazisindəki azərbaycanlı kəndlərinin və rayonlarının adlarının dəyişdirilib erməni adları ilə əvəz olunması və azərbaycanlı əhaliyə qarşı göstərilən digər demoqrafik təzyiqlər Ermənistan SSR yaradılan zamandan başlayaraq, 1988-ci ildə son kulminasiya həddinə çatdı.

1988-ci ildə Qərbi Azərbaycan (indiki Ermənistan Respublikası) təkcə azərbaycanlılar yaşayan 172 kənddən, 89 qarışıq kənd və 6 şəhərtipli yaşayış məntəqəsindən 49.928 ailə (250.000 nəfər azərbaycanlı) öz doğma yurdarından zorla qovuldular. Bu zaman 226 nəfər soydaşımız ermənilər tərəfindən öldürülmüş (güllələnmiş, qəsdən avtomobil qəzasına salınmış, dağ yollarında donmuş və s.), 400 nəfərdən çox adam bədən xəsarəti almışdır. Bir çox azərbaycanlıların evləri, əmlakları yandırılmışdır.

Əsas qaçqınlıq dövrü 1988-ci ilin noyabr-dekabr aylarına təsadüf etdiyindən, soydaşlarımızın kolxozda olan illik əmək haqqları ermənilərə qalmış, bir çoxları dövlət banklarında olan əmanətlərini götürə bilməmiş, məcburiyyət qarşısında qalaraq, öz geniş bağ-bağçalarını və xüsusi evlərini Azərbaycanda dövlət binasında yaşayan ermənilərin 2-3 otaqlı mənzilləri ilə dəyişməli olmuşlar.

Bu zaman Ermənistandan gəlmiş qaçqınların əmlakı, mal-qarası, bağ-bağçasının dəyəri Azərbaycan Qaçqınlar Cəmiyyətində toplanmış sənədlər əsasında təxmini hesablanaraq müəyyən olunmuşdur ki, qaçqın əhaliyə dəyən maddi ziyan 2,5 milyard ABŞ dolları təşkil edir. Kolxozlarda azərbaycanlılara məxsus olan 43.789 baş iribuynuzlu, 454.660 baş xırdabuynuzlu mal-

qara, çoxsaylı ev quşları və donuzları, arı ailələri, 170 mədəniyyət evi, 274 məktəb binası, 119 kitabxana, uşaq bağçaları, həkim məntəqələri, məscid binaları, 1.381 yardımçı təsərrüfat tikintiləri, 2.169 avtomaşın, 1.976 traktor, 3.132 kənd təsərrüfatı texnikası, minlərlə hektar üzüm və meyvə bağları ermənilərə qalmışdır. Bunların hamısının dəyəri təxmini hesablamalara uyğun olaraq, 17,5 milyard ABŞ dolları təşkil edir.

Beləliklə, qaçqınlara dəyən ümumi maddi ziyan 20 milyard ABŞ dolları təşkil edir. Soydaşlarımıza dəyən mənəvi ziyanın qədəri isə ölçüyə gəlməzdir. Yuxarıda qeyd olunanlar haqqında SSRİ Prokurorluğundan, Ermənistan SSR prokurorluğundan və Ermənistan SSR-in rayon prokurorluqlarından, o zamankı Rayon İcraiyyə Komitələrindən və digər səlahiyyətli dövlət qurumları tərəfindən təsdiq edilmiş möhürlü-imzalı sənədlər Azərbaycan Qaçqınlar Cəmiyyətində saxlanılır.

Bu gün Ermənistandan qaçqın düşən əhalidən su, hava, iqlim şəratinin dəyişməsi nəticəsində ölənlərin sayı yüzlərlədir.

***Azərbaycan Respublikası Qaçqınların***
***və Məcburi Köçkünlərin İşləri Üzrə***
***Dövlət Komitəsinin sədri: Ə.HƏSƏNOV***

***Azərbaycan Qaçqınlar***
***Cəmiyyətinin sədri: A.SƏFƏROV***

***Azərbaycan Qaçqınlar***
***Cəmiyyətinin məsul katibi: Q.BAYRAMOV***

# 1988-Cİ İLƏ QƏDƏR QƏRBİ AZƏRBAYCANDA (İNDİKİ ERMƏNİSTANDA) MÖVCUD OLAN AZƏRBAYCANLI YAŞAYIŞ MƏNTƏQƏLƏRİ

## İRƏVAN//EREVAN (YEREVAN) ŞƏHƏRİ

Ağrı vadisinin şimal kənarında, Araz çayının sol qolu olan Zəngi çayının sahilində, dəniz səviyyəsindən 850-1300 m yüksəklikdə qədim Türk qala-şəhəri.

Müxtəlif dövrlərdə Çuxur-Sakat//Çuxur Səd bəylərbəyliyinin, İrəvan xanlığının, İrəvan quberniyasının, nəhayət, "Ermənistan SSR"-in mərkəzi olub.

1936-cı ilə qədər Erivan (müxtəlif mənbələrdə İrəvan, Erevan Ervan, Rəvan və s.), həmin tarixdən etibarən isə Yerevan adlandırılıb.

Tarixi mənbələrə istinad edən müəlliflər Erevan adının ilk dəfə eramızın VI yüzilində çəkildiyini qeyd edirlər. Şəhər Urartu carı I Arquztu (Aşur mənbələrində – Argişti) tərəfindən miladdan əvvəl 782-ci ildə tikilmiş Erebuni (Er-bi-uni, yəni Ərlər boyunun ölkəsi) qalasının xarabalıqları yaxınığında salınmışdır. Yeri gəlmişkən, erməni alimlərinin İrəvanın tarixini daha çox qədimləşdirmək yolu ilə özlərinin qədim xalq olmalarını sübut etmək cəhdləri gülüş doğurur. Çünki nə İrəvanın, nə də Erebuni qalasının indiki ermənilərə, yəni haylara və onların hələ də elmdə mübahisəli olan əcdadlarına qətiyyən dəxli yoxdur. Əslində ermənilər İrəvanın qədimliyini sübut etməklə bu ərazilərdə Türk-Oğuz tayfalarının daha qədimlərdən yaşadıqlarını təsdiq etmiş olurlar.

İrəvan şəhəri müxtəlif vaxtlarda Sasanilər xanədanının, Ərəb xilafətinin, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər dövlətlərinin tərkibinə daxil olmuşdur. Xüsusilə Səfəvilər dövründə İrəvan Şah İsmayıl Xətainin diqqət mərkəzində olub. O, özünün sərkərdəsi olan Rəvanqulu xanı bu yerlərə hakim təyin edərkən şəhərin abadlaşdırılmasına xüsusi diqqət yetirməsini tapşırmışdır. Beləliklə, Rəvanqulu xan qədim Erebuni qalasının xarabalıqları yaxınlığında Əmir Teymurun sevimli adamlarından olan tacir Xoca xan Lahicaninin 1407-1408-ci illərdə saldırdığı yaşayış məntəqəsinin yerində möhtəşəm qala ucaldır. Bundan sonra Erevan şəhər adı ilə Rəvan//İrəvan (Rəvanqulu xanın şərəfinə) qala adı mənbələrdə yanaşı işlənməyə başlanır. Həmin vaxtdan Rəvan (İrəvan) qalası Çuxur-Sakat//Çuxur Səd bəylərbəyliyinin inzibati mərkəzi olur.

Məhəmməd Xubabəndə (1578-1587) dövründə Erevan şəhərinin

abadlaşdırılması sahəsində yeni işlər görülmüş, burada gözəl bir Xan imarəti və Xan bağı salınmışdır. Həmin dövrdə şəhər torpaqlarının su təchizatı ilə bağlı xeyli iş görülmüş, yeni su arxları və suvarma üçün böyük bir göl tikilmişdir. Sovet dövründə daşnak Şaumyanın adı verilmiş bu gölə yerli azərbaycanlılar həmişə Toxmaq gölü demişlər ki, bu da həmin vaxtlar İrəvanda hökmdarlıq etmiş Məhəmməd xan Ustaclının (1576-1583) ləqəblərindən biri olmuşdur.

Erevan xanlığı mövcud olduğu tarixi zaman kəsimində həmişə Türkiyə, İran və Kartli-Kaxeti dövlətlərinin müharibə meydanı olduğundan İrəvan şəhəri də tez-tez hücumlara sinə gərməli olmuşdur. XIX yüzilin əvvəllərindən etibarən isə Erevan şəhəri xüsusilə rus qoşunlarının hücum hədəfinə çevrilmişdir. Məsələn, 1804-cü ildə general Sisyanov, 1808-ci ildə general Qudoviç, 1826-cı ildə general Yermolov Erervan qalasını almağa cəhd ediblər. Nəhayət, 1827-ci il oktyabrın 1-də rus generalı Paskeviçin komandanlığı altında rus qoşunları böyük çətinliklə şəhəri işğal etmiş, Türkmənçay müqaviləsi ilə Erevan şəhəri Erevan xanlığı tərkibində zorla Rusiyaya birləşdirilmişdir. Bu zamandan etibarən qədim Türk-Oğuz şəhəri olan Erevanın erməniləşdirilməsi prosesi böyük sürət götürmüşdür.

1849-cu il iyunun 9-da Erevan quberniyası yaradıldıqdan sonra bu quberniyanın mərkəzi kimi Erevan şəhəri yeni inzibati əhəmiyyət kəsb etmişdir. 1918-1920-ci illərdə Erevan şəhəri erməni daşnak hökumətinin, 1920-ci ildən isə Ermənistan SSR-in paytaxtı olmuşdur.

Erevan//İrəvan qala-şəhərinin əhalisini həmişə əsasən Azərbaycan türkləri təşkil etmişlər. Hələ XVII yüzil Avropa səyyahlarının şahidliyinə görə bu qalada yaşayanlar ancaq müsəlmanlar olmuşlar. Yazılı məlumatlara görə, 1827-ci ildə Erevanda 2.400 ailədə 12 min nəfər əhali yaşamışdır. Lakin qalanın ruslar tərəfindən işğalından sonra yerli kübar əhalinin bir qismi İrana və Türkiyəyə köçməyə məcbur olmuş, onların evləri, mülkləri isə həmin ölkələrdən gələn ermənilər tərəfindən zəbt edilmişdir. Nəticədə 1828-ci ildə artıq Erevanda azərbaycanlıların sayı 1.807 ailədə 7.331 nəfərə enmiş, ermənilərin sayı isə 567 ailədə 2.379 nəfərə yüksəlmişdir. Bununla belə, burada hələ də 4 xan, 41 bəy və sultan ailəsinə qarşı cəmi 8 erməni məlik və ağa ailəsi yaşayırdı. 50 nəfər axund və mollaya qarşı isə cəmi 19 nəfər keşiş vardı.

Erevan şəhərinin tarix boyu Azərbaycan türk şəhəri olduğunu onun kimlər tərəfindən idarə edildiyi göstərən aşağıdakı siyahı da təsdiq edir:

1. Əmir Səd - XIV yüzilin axırı – 1410.
2. Pir Hüseyn (Əmir Sədin oğlu) – 1410-cu ildən.

3. Pir Yaqub (Pir Hüseynin oğlu) – 1420-ci il.
4. Əbdül (Pir Hüseynin oğlu) – 1430-cu illərdə
5. Yaqub bəy – Cahan şahın əmri ilə 1440-cı il
6. Həsən Əli Qaraqoyunlu – 1460-cı illərdən.
7. Həsən bəy Bayandurun nəvəsi – 1475-ci il.
8. Rəvanqulu xan – 1501-ci ildən
9. Div Sultan Rumlı – 1515-ci ildən.
10. Bədir xan Ustaclı – 1538-ci ildən
11. Hüseyn xan Sultan – 1550-ci ilədək.
12. Şahqulu Sultan ustaclı – 1550-1575.
13. Lələ paşa ("Qara Mustafa" adlı Sultan Murad dövrü) – 1577.
14. Məhəmməd xan Toxmaq Ustaclı
(Xudavənd şah dövrü) – 1576-1583.
15. Fərhad paşa (Sultan Murad dövrü) – 1583-cü il.
16. Məhəmməd Şərif paşa – 1604-cü ilədək
17. Əmirquna Xan Qacar (Şah Abbas dövrü) – 1605-1625.
18. Təhməzqulu (Əmirqunanın oğlu) – 1635.
19. Murtuza paşa (Sultan Murad bəy dövrü) – 1635.
20. Kəlbəli xan – 1636-1639.
21. Məmmədxan "Çağata Götük" – 1639-1648.
22. Xosrov xan – 1648-1652.
23. Məhəmmədqulu xan (Lələ bəyin oğlu) – 1652-1656
24. Nəcəfqulu xan – 1656-1663
25. Abasqulu xan (Əmirqunanın oğlu) – 1663-1666
26. Səfiqulu xan – 1666-1674
27. Sarıxan bəy (2 il əvəz edir) – 1674-1675
28. Səfiqulu xan (Təbrizli Rüstəm xanın oğlu) – 1675-1679
29. Zal xan –1679-1688
30. Murtuzaqulu (Naxçıvanlı Məmmədrza xanın oğlu) – 1688-1691
31. Məmmədqulu xan – 1691-1694
32. Zöhrab xan – 1691
33. Fərzəli xan (Əmirqunanın nəvəsi,
Sultan Əhməd dövrü) – 1694-1700
34. Zöhrab xan – 1700-1705
35. Əbdül Məhəmməd xan – 1705-1709
36. Mehrəli xan – 1709-1719
37. Allahqulu xan – 1719-1725
38. Rəcəb paşa – 1725-1728

39. İbrahim və Mustafa paşalar – 1728-1734
40. Əli paşa – 1734
41. Hacı Hüseyn paşa (Əli paşanın müavini) – 1734
42. Məmmədqulu xan – 1735-1736
43. Pirməhəmməd xan – 1736
44. Xəlil xan – 1752-1755
45. Həsənəli xan Qacar – 1755-1762
46. Hüseynəli xan (Həsənəli xanın qardaşı) – 1762-1783
47. Qulaməli xan (Hüseynəli xanın oğlu) – 1783-1784
48. Məhəmməd xan (Qulaməli xanın qardaşı) – 1784-1805
49. Mehdiqulu xan – 1805-1806
50. Məhəmməd xan Marağalı – 1806-1807
51. Hüseyn xan Qacar qardaşı Həsən xanla – 1807-1827

Erevan qala-şəhəri arxitektura baxımından da Şərqin, Türk dünyasının mühüm mədəniyyət mərkəzlərindən biri olmuşdur. Erevan//İrəvan qalasının özünün 50-60 bürcü olub. Qaladakı Xan sarayı, XVII yüzilin nadir memarlıq incisi olan Göy məscid səyyahları həmişə heyran qoymuşdur. Qalada çoxlu məscid, iki-üç mərtəbəli evlər, kişi və qadın hamamları, çoxlu sayda karvansaralar və s. olmuşdur. Buradakı Gürcü, Culfa, Sərdar, Tağlı, Sulu, Susuz, Hacı Əli karvansaralarının hər birində onlarla dükan fəaliyyət göstərmişdir.

Təkcə belə bir faktı xatırlatmaqla kifayətlənirik ki, 1832-ci ildə İ.Şopen Erevan şəhərində 12 məscid qeydə almışdır: 1) Qala məscidi, 2) Şah Abbas məscidi, 3) Zal xan məscidi, 4) Novruzəli bəy məscidi, 5) Sərtib xan məscidi, 6) Hüseynəli xan məscidi, 7) Hacı İmamverdi məscidi, 8) Hacı Cəfər məscidi və daha dörd məscidin xarabalıqları.

Yazılı mənbələrin verdiyi məlumata görə, XVIII yüzildə Erevanın üç böyük məhəlləsi olmuşdur: Şəhər, Təpəbaşı və Dəmirbulaq məhəllələri. Həmin məhəllələr öz ilkin adlarını yaşadaraq günümüzə qədər gəlib çıxmışdılar.

Lakin İrəvan şəhərinin zaman-zaman erməniləşdirilməsi çox keçmədən öz acı nəticələrini verməkdə idi. İrəvan azərbaycanlılarının ermənilər tərəfindən ilk kütləvi soyqırımına məruz qalması 1905-ci ildə baş verir. 1918-ci ildə bu soyqırımı daha dəhşətli şəkildə təkrar olunur.

Azərbaycan Demokratik Cümhuriyyətinin yaradılmasının səhərisi günü – 1918-ci il mayın 29-da Azərbaycan Milli Şurasının iclasında İrəvan şəhərinin və İrəvan qəzasının ermənilərə güzəştə gedilməsi məsələsinin müzakirə olunub səs çoxluğu ilə Azərbaycan tərəfin buna razılıq

verməsi və İrəvan şəhərini “Ermənistan (Ararat) Respublikasının mərkəzi kimi tanıması həmin soyqırımına yeni təkan verir. Əslində bu məsələ Azərbaycan Milli Şurasının içlasına çıxarılmamışdan öncə “Ermənistan” Milli Şurası ilə sövdələşdirilmiş, razılaşdırılmışdı. “Ermənistan” tərəfi özlərinin həmin addımını bu vaxta qədərki paytaxtları olan Gümrü (Aleksandropol) şəhərini Türkiyə qoşunlarının tutması ilə əsaslandırsalar da, mahiyyətcə, ermənilərin bu arzusuna xeyir-dua verməklə gənc Azərbaycan dövləti erməni daşnak dövlətinin İrəvan vilayətinin içərilərinə doğru irəliləməsinə rəsmi viza vermiş oldu.

Təsadüfi deyil ki, həmin yığıncaqda Milli Şuranın bəzi üzvləri Azərbaycanın bu addımını çox təhlükəli və İrəvan vilayəti müsəlman əhalisinin gələçək taleyini zərbə altında qoyan bir addım hesab etmişdilər. Milli Şuranın həmin iclasında İrəvan müsəlmanlarını təmsil edən B.Rzayevin: “Müstəqil Azərbaycan uğrunda çalışmaqla yanaşı, riça edirik, bizi – erməni respublikası ərazisində qalanları da unutmayasınız, - deməsi də bir tərəfdən İrəvana sahib olan erməni millətçilərinin gələcəkdə daha dəhşətli faciələr törədə biləcəklərindən doğan narahatçılığın ifadəsi idisə, digər tərəfdən gənc Azərbaycan siyasətçilərinə atdıqları addımın tarixi məsuliyyətini dərk etmək üçün xəbərdarlıq idi.

Hadisələrin sonrakı gedişi də sübut etdi ki, bu “güzəşt” ermənilərin əl-qolunu daha da açaraq Azərbaycanı yeni-yeni faciələrə doğru sürüklədi.

Nəhayət, Qərbi Azərbaycan torpaqlarında “Ermənistan SSR” adlı qondarma dövlətin yaradılması bölgədə, o cümlədən İrəvan şəhərində azərbaycanlı əhalinin sıxışdırılıb çıxarılmasının dinc dövrünün başlanğıcı oldu.

1948-1953-cü illər deportasiyası zamanı İrəvan şəhəri azərbaycanlıları daha bir zərbə aldı – onların böyük əksəriyyəti Azərbaycana köçməyə məcbur edildi. Zaman-zaman İrəvan şəhərində yaşayan azərbaycanlıların sıxışdırılması onunla nəticələndi ki, 1988-ci ildə 1 milyon nəfərdən çox əhalisi olan bu şəhərdə artıq cəmi 2 min nəfər azərbaycanlı qalmışdı. 1988-ci ilin noyabr-dekabr aylarında isə şəhərdə yaşayan azərbaycanlılar şəhərdən zorla və tamamilə çıxarılıb qovuldular. 1988-ci ilin dekabr ayından İrəvanda bir nəfər belə azərbaycanlı yaşamır.

Bununla ürəyi qızmayan ermənilər İrəvan azərbaycanlılarına məxsus Toxmaq şəhər qəbiristanlığını da yerlə-yeksan etdilər.

# AXTA (HRAZDAN) RAYONU

Dərəçiçək mahalı ərazisində rayon. 1930-cu il sentyabrın 9-da təşkil edilmiş, 1959-cu il iyunun 30-a qədər Axta rayonu, həmin tarixdən etibarən isə Hrazdan rayonu adlanmışdır.

Ərazisi 936 kv.km idi. Dəniz səviyyəsindən 1500-2400 m yüksəklikdə yerləşirdi.

Rayon mərkəzi respublika tabeli Axta (30.06.1959-cu ildən – Hrazdan) şəhəri idi. Rayon mərkəzindən İrəvan-Yelenovka (Sevan) dəmiryol xətti keçirdi.

Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 50 km idi.

1988-ci ildə rayonda cəmi 18 yaşayış məntəqəsi vardı. Onlardan 2-i xalis azərbaycanlı, 2-i isə azərbaycanlılarla başqa millətlərin yanaşı yaşadığı qarışıq yaşayış məntəqəsi idi.

### 1988-ci ilə qədər Axta rayonunda mövcud olan azərbaycanlı yaşayış məntəqələrinin siyahısı

**Xalis azərbaycanlı yaşayış məntəqələri**

1. Dədəqışlaq
2. Təkəlik

**Qarışıq yaşayış məntəqələri**

3. Qorçulu
4. Misxana

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı rayonun bütün azərbaycanlı əhalisi qovulub çıxarılmışlar.

### Axta rayonu azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Klub – | 3 əd. |
| İdarə binası – | 2 əd. |
| Uşaq bağçası – | 2 əd. |
| Xəstəxana – | 2 əd. |

| | |
|---|---|
| Həkim məntəqəsi – | 3 əd. |
| İribuynuzlu mal-qara – | 5100 baş |
| Xırdabuynuzlu mal-qara – | 15000 baş |
| Mal-qara üçün bina – | 26 ədəd. |
| Enerji şəbəkəsi – | 7 əd. |
| Dəyirman – | 2 əd. |
| Anbar binası – | 10 əd. |
| Məscid binası – | 1 əd. |
| Avtomaşınlar – | 52 əd. |
| K/t maşınları – | 47 əd. |
| K/t texnikası – | 50 əd. |
| Məktəb, kitabxana – | 6 əd. |
| Su nasosu stansiyası – | 2 əd. |
| Quşlar – | 20000 baş |
| Arı ailəsi – | 810 yeşik |
| Bağlar – | 18 ha |
| Hamam – | 2 əd. |
| Sair tikili – | 109 əd. |

## DƏDƏQIŞLAQ (QAYQOCALI, AXUNDOV)

Dərəçiçək mahalında, Axta rayonu ərazisində, Zəngi çayının yuxarı axarı boyunda, Misxanaçay çayının yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kənddə 1832-ci ildə 5 təsərrüfatda 23 nəfər (12 kişi, 11 qadın), 1873-cü ildə 20 təsərrüfatda 176 nəfər (116 kişi, 60 qadın), 1886-cı ildə 26 təsərrüfatda 278 nəfər (155 kişi, 123 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

1988-ci ildə kənddə 1000 nəfərdən çox azərbaycanlı yaşamışdır.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin bütün azərbaycanlı əhalisi qovulub çıxarılmışlar.

**Dədəqışlaq kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Klub – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| İribuynuzlu mal-qara – | 1400 baş |
| Xırdabuynuzlu mal-qara – | 5000 baş |
| Enerji şəbəkəsi – | 2 əd. |
| Anbar binası – | 2 əd. |
| Avtomaşınlar – | 19 əd. |
| K/t maşınları – | 5 əd. |
| Məktəb, kitabxana – | 2 əd. |
| Sair tikili – | 39 əd. |
| Su nasosu stansiyası – | 2 əd. |
| Quşlar – | 5000 baş |
| Arı ailəsi – | 380 yeşik |

## TƏKƏLİK

Dərəçiçək mahalında, Axta rayonu ərazisində, Zəngi çayının yuxarı axarı boyunda, Misxanaçay çayının kənarında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kənddə 1832-ci ildə 7 təsərrüfatda 41 nəfər (24 kişi, 17 qadın), 1873-cü ildə kənddə 29 təsərrüfatda 335 nəfər (174 kişi, 161 qadın), 1886-cı ildə 49 təsərrüfatda 469 nəfər (245 kişi, 224 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

Bundan əlavə, İ.Şopen yazır ki, kəndə çatmamış, çayın sağ sahilində çox qədim və tənha bir monastır var və etiraf edir ki, bu monastırın ermənicə adı ona məlum deyil.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin bütün azərbaycanlı əhalisi qovulub çıxarılmışlar.

**Təkəlik kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| İribuynuzlu mal-qara – | 1200 baş |
| Xırdabuynuzlu mal-qara – | 4000 baş |
| Mal-qara üçün bina – | 12 ədəd. |
| Enerji şəbəkəsi – | 2 əd. |
| Dəyirman – | 1 əd. |
| Anbar binası – | 5 əd. |
| Məscid binası – | 1 əd. |
| Avtomaşınlar – | 12 əd. |
| K/t maşınları – | 18 əd. |
| K/t texnikası – | 20 əd. |
| Məktəb, kitabxana – | 2 əd. |
| Sair tikili – | 20 əd. |
| Quşlar – | 5000 baş |
| Arı ailəsi – | 130 yeşik |
| Bağlar – | 6 ha |
| Hamam – | 1 əd. |

## QORÇULU (ALLAHVERDİKƏND)

Dərəçiçək mahalında, Axta rayonu ərazisində, Zəngi çayının yuxarı axarı boyunda, Misxanaçay çayının sağ qolu kənarında kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılarla ermənilər qarışıq yaşamışlar.

Kənddə 1832-ci ildə 14 təsərrüfatda 82 nəfər (45 kişi, 37 qadın), 1873-cü ildə 16 təsərrüfatda 170 nəfər (86 kişi, 84 qadın), 1886-cı ildə isə 26 təsərrüfatda 257 nəfər (124 kişi, 133 qadın) azərbaycanlı əhali yaşamışdır.

1873 və 1886-cı illərin statistik məlumatlarında kəndin başqa adının Allahverdikənd olduğu da göstrilmişdir.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin bütün azərbaycanlı əhalisi qovulub çıxarılmışlar.

**Qorçulu kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| İribuynuzlu mal-qara – | 1500 baş |
| Xırdabuynuzlu mal-qara – | 6000 baş |
| Mal-qara üçün bina – | 14 əd. |
| Enerji şəbəkəsi – | 3 əd. |
| Dəyirman – | 1 əd. |
| Anbar binası – | 3 əd. |
| Avtomaşınlar – | 21 əd. |
| K/t maşınları – | 24 əd. |
| K/t texnikası – | 30 əd. |
| Məktəb, kitabxana – | 2 əd. |
| Sair tikili – | 50 əd. |
| Quşlar – | 10000 baş |
| Arı ailəsi – | 300 yeşik |
| Bağlar – | 12 ha |
| Hamam – | 1 əd. |

## MİSXANA

Dərəçiçək mahalında, Axta rayonu ərazisində, Zəngi çayının yuxarı axarı boyunda, Misxanaçay (Soyuqbulaq, Dərəçiçək) çayının yuxarı axarında, Quruboğaz dağının ətəyində kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonralar isə yunanlar, malakanlar və azərbaycanlılarla qarışıq yaşamışlar.

İ.Şopendə (1832) İrəvan əyalətinin Dərəçiçək mahalının xaraba kəndləri siyahısında qeydə alınmışdır. Bu, İrəvan xanlığının ruslar tərəfindən işğalı ilə nəticələnən 1826-1828-ci illər Rusiya-İran müharibəsi zamanı darmadağın edilməsini təsdiqləyir.

1873-cü ilin statistik məlumatlarında **Mixaylovka kəndi** kimi qeydə alınmış, kəndin başqa adının **Misxana** olduğu və burada 19 təsərrüfatda 96 nəfər (53 kişi, 43 qadın) yunan əhalinin yaşadığı göstərilmişdir. Bundan əlavə, kənddə 1 pravoslav kilsəsi, qədim kilsə qalıqları, mərmər yatağı, misəritmə zavodu da qeydə alınmışdır.

1886-cı ilin statistikasında isə kənd **Yeni Mixaylovka kəndi** kimi qeydə alınmış, kəndin başqa adlarının **Misxana** və **Berzen** olduğu, kənddə 24 təsərrüfatda 118 nəfər (71 kişi, 47 qadın) malakan əhalinin yaşadığı göstərilmişdir.

Sonralar kənddə həm də azərbaycanlılar yaşamış, qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı isə kəndin bütün azərbaycanlı əhalisi qovulub kənddən çıxarılmışlar.

## VEDİ (ARARAT) RAYONU

Vedibasar mahalı ərazisində rayon. 1930-cu il sentyabrın 9-da təşkil edilmiş, 1968-ci il mayın 15-ə qədər Vedi rayonu, həmin tarixdən etibarən isə Ararat rayonu adlandırılmışdır.

Ərazisi 1399 kv.km idi.

Rayon mərkəzi şəhər tipli Böyük Vedi (04.04.1946-cı ildən – Vedi) qəsəbəsidir.

Rayon mərkəzinə ən yaxın dəmiryol dayanacağı 7 km kənarda yerləşən Şirazlı (Aygevan) stansiyasıdır.

Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 49 km-dir.

1988-ci ildə rayonda cəmi 32 yaşayış məntəqəsi olmuşdur. Onlardan 1-i xalis azərbaycanlı, 19-u isə azərbaycanlılarla başqa millətlərin yanaşı yaşadığı qarışıq yaşayış məntəqəsi idi.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı Vedi rayonunda azərbaycanlıların yaşadığı kəndlərə ilk kütləvi hücumlar həmin il aprelin 26-da Kiçik Vedi kəndindən başladı.

Vedibasar kəndlərində növbəti belə hadisə 1988-ci il mayın 11-də baş verdi. Həmin gün rayonun Şirazlı kəndi erməni millətçilərinin irimiqyaslı planlı hücumuna məruz qaldı. Həmin hücum zamanı ermənilər 64 azərbaycanlı evini dağıdıb sıradan çıxartdılar, onlardan 8-ə od vurub yandırdılar. 330 ailənin əmlakı talan edildi, 80-dən çox azərbaycanlı döyülərək bədən xəsarəti aldı. Bu kənddə yaşayan Seyid Ağbal ağanın ocağı dağıdıldı, özü döyüldü. Üç ay çadır qurub Araz qırağında, Türkiyə sərhədində yaşayan şirazlılılar səslərini bütün dünyaya yaydılar. Sərhəd qırağında şirazlılılar Vedibasarın ilk şəhidlərini – 90 yaşlı Seyid Ağbal ağanı (Nağıyev İqbal Miryaqub oğlunu) və Əkbərin iki aylıq oğlunu torpağa tapşırdılar.

...Noyabrın 30-da rayonun, demək olar ki, bütün rəhbərlərinin iştirakı ilə yüzlərlə erməni "saqqallı"sı Xalisa kəndinə basqın etdilər. Görünməmiş soyğunçuluq, qarət başlandı. Yalnız hərbçilərin qəfil gəlişi əhalini kütləvi qətldən xilas edə bildi. Hərbçilər əhalini tanklarla daşıyıb qonşu Şərur rayonuna çatdırdılar.

Mühasirədə qalan Şidli kəndi də yalnız Naxçıvan tərəfdən tanklarla gələn hərbçilərin köməyi ilə xilas ola bildi. Erməni millətçiləri o dərəcədə quduzlaşmışdılar ki, sovet hərbçiləri azərbaycanlı əhalini hətta tankların içində belə erməni kəndlərinin içi ilə aparmağa cəsarət etmədilər. Şidli camaatı Araz çayının kənarı, sərhəd dirəklərinin arxası ilə Şərur rayonuna daşındı. 1988-ci il dekabrın 3-də sonuncu azərbaycanlı Vedibasar mahalını beləcə tərk etdi...

**1988-ci ilə qədər Vedi rayonunda mövcud olan azərbaycanlı yaşayış məntəqələrinin siyahısı**

**Xalis azərbaycanlı yaşayış məntəqəsi**

| | |
|---|---|
| 1. Şidli | (19.04.1991-ci ildən – Yexeqnavan ) |

**Qarışıq yaşayış məntəqələri**

| | |
|---|---|
| 2. Avşar | |
| 3. Arazdəyən | (03.07.1968-ci ildən – Yerasx) |
| 4. Armaş | |
| 5. Bayburt | – Qəmərli rayonu ərazisində qalmışdı |
| 6. Böyük Vedi | (04.04.1946-cı ildən – Vedi) |
| 7. Qaralar | (25.01.1978-ci ildən – Aralez) |
| 8. Daşlı | (03.07.1968-ci ildən – Daştakar) |
| 9. Dəvəli kəndi | (03.01.1935-ci ildən – Ararat k.) |
| 10. Dəvəli sement zavodu qəsəbəsi | (1947-ci ildən – 10.04.Ararat şəh.) |
| 11. Yeni həyat | (... – Nor Qyank) |
| 12. Yengicə | (19.04.1991-ci ildən – Sisavan) |
| 13. Kiçik Vedi | (... – Pokr Vedi) |
| 14. Taytan | (25.01.1978-ci ildən – Vanaşen) |
| 15. Xalisa | (19.04.1991-ci ildən – Norakert) |
| 16. Çəmbərək | (... – Surenavan) |
| 17. Çimənkənd | (25.01.1978-ci ildən – Urdzadzor) |
| 18. Şampan | |
| 19. Şirazlı | (19.04.1991-ci ildən – Vosgetap) |
| 20. Şıxlar | (26.12.1968 – Lusarat) |

**Vedi rayonu azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| İdarə binası – | 9 əd. |
| Məktəb – | 12 əd. |
| Klub – | 9 əd. |
| Poçt – | 9 əd. |
| Pavilyon – | 9 əd. |

| | |
|---|---|
| Xəstəxana – | 12 əd. |
| Uşaq bağçası – | 9 əd. |
| Mal-qara üçün bina – | 64 əd. |
| İribuynuzlu mal-qara – | 7800 baş |
| Xırdabuynuzlu mal-qara – | 24500 baş |
| Donuz – | 5050 baş |
| Toyuq – | 97.000 baş |
| Üzüm bağları – | 1540 ha |
| Meyvə bağları – | 860 ha |
| K/t maşınları – | 372 əd. |
| Avtomaşınlar – | 295 əd. |
| Qaraj – | 14 əd. |
| Taxıl anbarı – | 15 əd. |
| Yanacaq anbarı – | 9 əd. |
| Dəmirçi sexi – | 9 əd. |
| Dülgərxana – | 10 əd. |
| Artezian quyusu – | 55 əd. |
| Su nasos stansiyası – | 29 əd. |
| Enerji şəbəkəsi – | 44 əd. |
| Dəyirman – | 4 əd. |
| Mağaza – | 45 əd. |
| Yeməkxana – | 16 əd. |
| Hamam – | 9 əd. |
| Şərab zavodu – | 3 əd. |
| Yem kombinatı – | 3 əd. |

## ŞİDLİ (QARAQOYUNLU ŞİDLİ)

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Ağrı dağı ilə üzbəüz, Araz çayının sahilində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 13 km cənub-qərbdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Vedibasar mahalının Şidli kəndində 1832-ci ildə 35 ailədə 263 nəfər (135 kişi, 128 qadın), 1873-cü ildə isə 106 ailədə 806 nəfər (453 kişi, 353 qadın), 1886-cı ildə 127 təsərrüfatda 823 nəfər (460 kişi, 363 qadın), 1897-ci ildə 993 nəfər Azərbaycan türkü yaşamışdır.

1918-1920-ci illərdə kənd daşnaklar tərəfindən dağıdılmış, kəndin sağ qalan əhalisi Arazın o tayına mühacirət etmişdir.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra geri qayıdan 571 nəfər kənd sakini kəndi yenidən bərpa etmiş, dinc həyata başlamışlar. 1926-cı ildə kənddə 607 nəfər, 1931-ci ildə 465 nəfər, 1972-ci ildə isə 236 təsərrüfatda 1.357 nəfər azərbaycanlı əhali qeydə alınmışdır.

Şidli kəndi 1988-ci il hadisələrinə qədər Vedi rayonu ərazisində yeganə xalis azərbaycanlı kəndi idi.

Sürətlə inkişaf edən kənddə 1988-ci ildə əhalinin sayı artıq 400-ə yaxın təsərrüfatda 1.900 nəfərə çatmışdı ki, onlar da 1988-ci il dekabrın 3-də sonuncu nəfərinə qədər qovulub kənddən çıxarılmışdır. Həmin gün (dekabrın 3-də) Naxçıvanın Şərur rayonu tərəfdən tanklar və BTR-lərlə gələn hərbçilər mühasirəni yararaq kəndə girmiş, hər 3-4 ailəni bir zirehli maşına doldurub, sərhəd zolağı ilə camaatı sağ-salamat çıxarıb Naxçıvan ərazisinə çatdırmışdılar. Adamlar quru canlarından başqa, bütün əşyalarını buraxıb çıxmağa məcbur olmuşdular.

1991-ci il aprelin 9-da isə kəndin adı dəyişdirilərək **Yexeqnavan** qoyulmuşdur.

1950-ci illərə qədər Şidli kəndi ərazisində qalmaqda olan iri daş parçasının üzərindəki yazılar, at və qoç şəkilləri Şidli kəndinin 1300-1350 il əvvəlki tarixinin nişanələri idi. Lakin təəssüf ki, ermənilər tarixi abidə adı ilə həmin daşı oradan apardılar və məhv etdilər. Kəndin ərazisində – **Qaxanov kanalı** ilə **Məşədi Seyfulla arxı** arasında **Qoçdaşı** deyilən ərazidəki iri qoç daşı, kəndin Sünnü qəbiristanlığı adlanan köhnə qəbiristanlığındakı **Atdaşı** adlanan kiçik at böyüklükdə yəhərli-yüyənli daş at heykəli bu yerlərin qədimdən türk yurdu olduğunu təsdiq edir.

Araz qırağında, Məşədi Seyfulla arxının başında **Pirəl-Mürsəl ocağı** və ya **İlğınlı ocaq** deyilən ziyarətgah vardı. bu ziyarətgah kənd adamlarının inanc yeri idi.

**Şidli azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Klub – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Pavilyon – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Mal-qara üçün bina – | 4 əd. |
| İribuynuzlu mal-qara – | 600 baş |
| Xırdabuynuzlu mal-qara – | 2500 baş |
| Toyuq – | 6000 baş |
| Üzüm bağı– | 120 ha |
| Meyvə bağı – | 50 ha |
| K/t maşınları – | 20 əd. |
| Avtomaşınlar – | 18 əd. |
| Qaraj – | 1 əd. |
| Taxıl anbarı – | 2 əd. |
| Yanacaq anbarı – | 1 əd. |
| Dəmirçi sexi – | 1 əd. |
| Dülgərxana – | 1 əd. |
| Artezian quyusu – | 4 əd. |
| Su nasos stansiyası – | 3 əd. |
| Enerji şəbəkəsi – | 4 əd. |
| Mağaza – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Hamam – | 1 əd. |

## AVŞAR

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 12 km cənub-qərbdə, Vedi çayından ayrılan su arxının və İrəvan-Naxçıvan avtomobil yolunun üstündə, İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin kənarında, dəniz səviyyəsindən 847 m yüksəklikdə kənd.

1919-cu ilə qədər kənddə ancaq Azərbaycan türkləri yaşamış, 1922-1988-ci illərdə isə azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur.

Kənddə 1832-ci ildə 13 ailədə 80 nəfər (42 kişi, 38 qadın), 1873-cü ildə 115 ailədə 886 nəfər (500 kişi, 386 qadın), 1886-cı ildə isə 149 ailədə 1.059 nəfər (542 kişi, 517 qadın) azərbaycanlı yaşamışdır. Sonrakı siyahıyaalmalarda əhalinin sayı belə dəyişmişdir: 1897-ci ildə 1.166 nəfər, 1905-ci ildə 1.094 nəfər, 1914-cü ildə 1.107 nəfər azərbaycanlı.

1918-1920-ci illərdə Vedibasar mahalının başqa kəndləri kimi, Avşar kəndi də erməni daşnaklarının vəhşi hücumlarına məruz qalmış, erməni təcavüzünə qarşı mərdliklə mübarizə aparmışlar. Bu hadisələr zamanı kəndin dinc əhalisinin bir hissəsi ermənilər tərəfindən qəddarcasına qətlə yetirilmiş, sağ qalanlar isə kənddən didərgin düşmüşlər.

Vedibasar sovetləşəndən sonra qaçqın avşarlılar kəndlərinə dönmüşlər. Bu vaxt artıq kənddə Türkiyənin Van bölgəsindən qaçıb gəlmiş ilk erməni ailələri yerləşdirilmişdilər. Geri dönən 420 nəfər azərbaycanlı avşarlı bundan sonra ermənilərlə yanaşı yaşamağa məcbur olmuşdur.

1926-cı ildə kənddə 533 nəfər azərbaycanlı, 317 nəfər erməni, 1931-ci ildə isə 608 nəfər azərbaycanlı, 327 nəfər erməni yaşamışdır.

1946-1947-ci illərdə kənddə Türkiyə və İrandan gətirilmiş yeni erməni ailələri yerləşdirilmişdir.

1951-ci il aprel ayının 17-də isə Avşar kəndinin bütün azərbaycanlı əhalisi zorla Azərbaycana köçürümüşdür. Bu vaxt Avşar kəndində 260 ev azərbaycanlı, cəmi 50 ev erməni yaşayırdı. Azərbaycana deportasiya olunan avşarlılar burada 6 rayon – Salyan, Əli Bayramlı, Şəmkir, Ağcabədi, Şəki, Sabirabad rayonları arasında bölüşdürülmüşlər. İ.Stalinin ölümündən sonra yaranmış siyasi vəziyyətdən istifadə edən 10 avşarlı ailəsi isə 1954-cü ilin martında geriyə – doğma kəndlərinə qayıtmışlar.

Həmin ailələrdən bir qismi erməni təzyiq və təqiblərinə dözməyərək 1970-ci ildə yenidən Azərbaycana üz tutmuşlar.

Vedi rayonunun Avşar kəndində yaşamaqda davam edən bir neçə azərbaycanlı ailəsi isə 1988-ci ildə bütünlüklə Azərbaycana qovuldular.

# ARAZDƏYƏN

Vedibasar mahalının aran hissəsində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 28 km cənub-qərbdə, rayonun Naxçıvan MR (Şərur rayonu) ilə sərhədində, İrəvan-Naxçıvan avtomobil yolunun və İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin üstündə kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonra azərbaycanlılarla yanaşı müsəlman kürdləri, yezidi kürdlər və ermənilər qarışıq halda yaşamışlar.

Arazdəyən kəndində eyniadlı dəmiryol stansiyası vardı. Arazdəyəndən başlanan daha bir avtomobil yolu Bağırsaq dərəsi boyunca uzanıb Kərki, Keşişverən, Çanaxçı kəndlərindən keçərək Dərələyəz mahalına, oradan da Sisiyan rayonuna daxil olurdu. Bu, qədimdə Albaniya dövləti ilə Armaniya və Atropatena dövlətlərini birləşdirən ən işlək karvan yollarından olmuşdur. Arazdəyənin Şərur tərəfə uzanan torpaqları isə Vedi və Şərur rayonlarının sərhədində – Vəli dağı və Qurd ağzı deyilən yerdə bitirdi.

1897-ci ildə kənddə 381 nəfər əhali – azərbaycanlılarla ermənilər qarışıq halda yaşamışlar.

1918-1920-ci illər erməni-müsəlman müharibəsi zamanı dəfələrlə ayaq altında qalan Arazdəyən kəndi sonralar xeyli dərəcədə öz funksiyasını itirərək kiçik kənd kimi yaşamış, 1941-1945-ci illər müharibəsindən sonra yenidən dirçəlməyə başlamışdır. 1968-ci il iyulun 3-də kəndin adı erməniləşdirilərək **Yerasx** qoyulmuşdur.

Son zamanlara qədər kənddə azərbaycanlılar, müsəlman kürdləri, yezidi kürdlər və ermənilər qarışıq halda yaşayırdılar. Kəndin müsəlman əhalisi qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı öz doğma yurd-yuvalarından qovulmuş, Azərbaycanın ayrı-ayrı bölgələrində məskunlaşmışlar.

### Arazdəyən kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı

| | |
|---|---|
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Klub – | 1 əd. |

| | |
|---|---|
| Poçt – | 1 əd. |
| Pavilyon – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Mal-qara üçün bina – | 4 əd. |
| İribuynuzlu mal-qara – | 400 baş |
| Xırdabuynuzlu mal-qara – | 1500 baş |
| Donuz – | 600 baş |
| Toyuq – | 20.000 baş |
| Üzüm bağları – | 140 ha |
| Meyvə bağları – | 60 ha |
| K/t maşınları – | 22 əd. |
| Avtomaşınlar – | 17 əd. |
| Qaraj – | 1 əd. |
| Taxıl anbarı – | 2 əd. |
| Yanacaq ambarı – | 1 əd. |
| Dəmirçi sexi – | 1 əd. |
| Dülgərxana – | 1 əd. |
| Artezian quyusu – | 8 əd. |
| Su nasos stansiyası – | 2 əd. |
| Enerji şəbəkəsi – | 3 əd. |
| Dəyirman – | 1 əd. |
| Mağaza – | 4 əd. |
| Yeməkxana – | 3 əd. |
| Hamam – | 1 əd. |
| Şərab zavodu – | 1 əd. |
| Yem kombinatı – | 1 əd. |

## ARMAŞ

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, İrəvan-Naxçıvan avtomobil yolunun və İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin kənarında, rayon mərkəzi olan Böyük Vedi qəsəbəsindən 25 km cənub-qərbdə kənd.

Kənddə Azərbaycan türkləri, sonralar azərbaycanlılıarlı yanaşı, xaricdən köçüb gəlmiş ermənilər və müsəlman kürdləri də yaşamışlar.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kənddə yaşayan bütün azərbaycanlı ailələri yurd-yuvasından qovulmuş, kəndin erməniləşdirilməsi başa çatdırılmışdır.

## BAYBURT

Vedibasar mahalının Millidərə bölgəsində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən şimal-şərqdə, Qəmərli (04.09.1945-ci ildən – Artaşat) şəhərindən 24 km cənub-şərqdə, Dəvəgözü çayının (Gərni çayının Mil qolunun) kənarında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kənddə 1832-ci ildə 19 ailədə 96 nəfər (54 kişi, 42 qadın), 1873-cü ildə 21 ailədə 143 nəfər (82 kişi, 61 qadın), 1886-cı ildə kənddə 27 ailədə 184 nəfər (102 kişi, 82 qadın), 1897-ci ildə 224 nəfər, 1914-cü ildə 284 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-ci ilin mayında erməni daşnaklarının Millidərə bölgəsinə hücumu zamanı Bayburt kəndi qəddarcasına dağıdılmış, sağ qalanlar Millidərə əhalisi ilə birlikdə müvəqqəti olaraq Vedibasar mahalının aran kəndlərinə sığınmışlar.

Kənd bir də bu bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra canlanmışdır. Belə ki, 1922-ci ildə kəndin qaçqın əhalisindən yalnız 22 nəfəri geri – öz doğma kəndlərinə qayıda bilmiş, 1926-cı ildə onların sayı 164 nəfərə, 1931-ci ildə 140 nəfərə çatmışdır.

1952-ci ildə kəndin əksər əhalisi məcburi surətdə Azərbaycana – Ağdaş rayonunun Ərəbocağı kəndinə köçürülmüşdür. Bu yerin isti iqlim şəraitinə dözə bilməyən bayburtlular bir il sonra Bərdə rayonunun Kətəlparaq kəndinə köçməyə məcbur olmuşlar.

1952-ci ildə kənd əhalisi deportasiya olunanda kənddəki 52 ailədən 5-6 ailə köçməkdən imtina etmiş və həmişəlik kənddə qalmış, 1988-ci ilə qədər orada yaşamaqda davam etmişlər. 1988-ci il hadisələri başlayanda kəndin təxminən 150 nəfər (30-40 ev) azərbaycanlı sakini vardı. Həmin il onlar da doğma yurddan didərgin düşüb, Bərdə rayonundakı qohum-əqrəbalarının yanına üz tutmuşlar.

Vedibasar mahalının məşhur ocaqlarından biri də Bayburt kəndində yerləşən **Ərəb ocağı** idi. Tarixi çox qədimlərə gedən bu ocağın sahibi keçən yüzildə **Seyid Abdulla** olmuş, o, dünyasını dəyişdikdən sonra ocağa oğlu **Seyid Abbas,** ondan sonra onun oğlu **Seyid Qəşəm** sahiblik etmişlər.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı Seyid Qəşəm də Bərdə rayonunun Kətəlparaq kəndinə köçmüş və burada rəhmətə getmişdir. Bayburtdakı Ocaqdan Kətəlparaq kəndinə gətirilmiş Ocaq daşı bu gün də Ocaq sahibinin evində saxlanmaqda, Ocaq isə öz fəaliyyətini bu gün də Kətəlparaq kəndində davam etdirməkdədir. Seyid Qəşəmdən sonra Ocağa oğlu **Seyid Abbas** sahiblik edir.

## BÖYÜK VEDİ (VEDİ)

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, İrəvan şəhərindən 49 km aralıda, Vedi çayının kənarında qəsəbə.

1828-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri (2 erməni ailəsi istisna olmaqla) yaşamışlar. 1828-ci ildə kəndə həm də ermənilər köçürülmüş, sonralar onlar çıxıb getmiş, 1920-ci ilə qədər yenə də kənddə ancaq azərbaycanlılar yaşamışlar. 1920-1988-ci illərdə isə kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuş, 1988-ci ildə kənd tamamilə erməniləşdirilmişdir.

1832-ci ildə kənddə 131 ailədə 799 nəfər (441 kişi, 358 qadın) müsəlman və cəmi 2 ailədə 15 nəfər (9 kişi, 6 qadın) erməni yaşamışdır. Türkmənçay müqaviləsindən sonra isə bölgəyə İrandan 98 ailədə 430 nəfər (220 kişi, 210 qadın) erməni köçürülüb gətirilmiş, lakin sonrakı illərin (1873, 1886 və s.) statistik məlumatlarında kənddə heç bir erməninin qeydə alınmaması söyləməyə əsas verir ki, həmin erməni ailələri kənddən çıxıb, ermənilərin çoxluq təşkil etdiyibaşqa kəndlərdə məskunlaşmışlar.

1873-cü ildə Böyük Vedi kəndində 241 ailədə 1.743 nəfər (890 kişi, 853 qadın), 1886-cı ildə 286 təsərrüfatda 2.110 nəfər (1.133 kişi, 977 qadın) azərbaycanlı yaşamışdır. Sonuncu statikada onlardan 360 nəfərini (186 kişi, 174 qadın) Vedi bəylərinin ailə üzvləri təşkil etmişlər.

1905-ci ildə kənddə 2.387 nəfər, 1914-cü ildə 2672 nəfər azərbaycanlı yaşamışdır.

Sovet hakimiyyətinin ilk illərində mühacirlikdən geri qayıdan azərbaycanlı əhalinin sayı 1.504 nəfər olmuşdur. Lakin bu vaxt "Sovet Ermənistanı"nın erməni rəhbərliyi bütün strateji məntəqələr kimi, Böyük Vedi kəndində də xaricdən gələn çoxlu erməni yerləşdirməyə çalışırdı. 1922-ci ildə Böyük Vedidə belə ermənilərin sayı artıq 453 nəfərə çatdırılsa da, 1926-cı ildə kənddə 1.545 nəfər azərbaycanlı, 261 nəfər erməni, 1931-ci ildə 1254 nəfər azərbaycanlı, 214 nəfər erməni yaşamışdır.

1946-cı il aprelin 4-də Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə kəndin **Böyük Vedi** adı dəyişdirilərək **Vedi** qoyulmuşdur.

1948-1953-cü illər köçürülməsi zamanı Vedi rayonundan birincilər sırasında köçürülməsi nəzərdə tutulan kəndlərdən biri də Böyük Vedi olmuşdur. 1949-cu ildə kəndin azərbaycanlı əhalisi bütünlüklə Azərbaycana köçürülmüşdür. Həm də maraqlıdır ki, bu camaatın bir yerə köçürülməsinə məqsədli şəkildə mane olmuş, camaatı Beyləqan, İmişli, Bərdə, Şəmkir və b. rayonlara səpələmişlər.

İ.Stalinin ölümündən sonra kənd əhalisinin bir hissəsi – 122 ev geri

qayıda bilmiş və təzədən dədə-baba yurdlarında məskunlaşmışlar. Lakin ermənilərin düşünülmüş siyasəti nəticəsində onlar tədricən sıxışdırılıb çıxarılmış, 1968-ci ildə kənddə cəmi 45 ev azərbaycanlı qalmışdır.

1988-ci ildə Böyük Vedi qəsəbəsi əhalisinin sayı 10 min nəfərə yaxın idi. Bu vaxt qəsəbədə azərbaycanlılar xeyli azlıqda qalmışdılar. Qəsəbədə cəmi 40 təsərrüfat azərbaycanlı yaşayırdı. Həmin il Böyük Vedi azərbaycanlılarının başı üstünü yeni təhlükə aldı, erməni millətçiləri onları bu dəfə açıq-aşkar zorakılıqla öz doğma yurd-yuvalarından qovub-çıxardılar.

Kənd sakini Hüseyn Həsənovun evini yandırıb, özünü də məcbur etdilər desin ki, guya evini özü yandırıb.

Məhərrəm Haqverdiyevin mənzilinə hücum çəkmişdilər, o güc-bəla canını qurtarıb qaçmışdı. C.Abbasovun, A.Məmmədəliyevin, İ.Rəhimovun, A.Məmmədovun və b.-nın qabağını kəsib rayonu təcili tərk etmələrini tələb eləmişdilər və s.

Böyük Vedidə 5 qəbiristanlıq vardı. **Mahmudlu qəbiristanlığı** kəndin yuxarısında, Gavur qalasının yaxınlığında, **Kosanlı qəbiristanlığı** kəndin aşağısında, **Vedililər qəbiristanlığı** Qalabürcün dəyirmanları tərəfdə yerləşirdi. **Paskilərin** isə iki **qəbiristanlığı** vardı: biri kəndin içində, digəri Sarı dolamada.

Kosanlı və Paskili qəbiristanlıqlarının hər birində 3 ədəd qoç heykəli 1948-1953-cü illər köçürülməsi zamanı hələ də dururdu. Bu heykəllər canlı qoç boyda olub, burma buynuzlu idilər. Sonralar ermənilər qəbiristanlıqlarla birlikdə bu heykəlləri də məhv edib, izlərini itirdilər.

Paskili məhəlləsində 2 məscid, Vəliuşağı məhəlləsində 1 məscid, Vedililər məhəlləsində 2 məscid fəaliyyət göstərirdi. Bu məscidlərdə **Şeyx Qəmbər, Şeyx Əli, Molla Məhəmmədtağı, Kəlba Əhməd, Molla Hüseyn Nuriyev** kimi din xadimləri otururdu. Təəssüf ki, sovet dövründə həmin məscid binalarının birini MTS-ə, digərini anbara çevirdilər. O birilər isə zaman-zaman uçulub-dağıldı. Təkcə Vəliuşağı məscidi 1988-ci ilə qədər qalmaqda idi. O da daha fəaliyyət göstərməsə də, kəndin azərbaycanlıları onu qoruyub saxlayır və ziyarət edirdilər.

Böyük Vedi kəndində **Mirəli ocağı** adlı ziyarətgah da mövcud olmuşdur. Ocaq onun sahibi Mirəli ağanın adı ilə adlanırdı. Mirəli ağanın qəbri kəndin yuxarısında yerləşirdi. 1948-1953-cü illər deportasiyasına qədər Ocaq fəaliyyət göstərirdi. Deportasiya zamanı Mirəli ağanın övladları Beyləqana köçürüldüyündən sonralar oğlanları gəlib seyidin qəbrini və ocağını köçürüb apardılar.

**Böyük Vedi azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 2 əd. |
| Klub – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Pavilyon – | 1 əd. |
| Xəstəxana – | 3 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Mal-qara üçün bina – | 12 əd. |
| İribuynuzlu mal-qara – | 1600 baş |
| Xırdabuynuzlu mal-qara – | 4000 baş |
| Donuz – | 1200 baş |
| Toyuq – | 13.000 baş |
| Üzüm bağları – | 200 ha |
| Meyvə bağları – | 100 ha |
| K/t maşınları – | 80 əd. |
| Avtomaşınlar – | 60 əd. |
| Qaraj – | 3 əd. |
| Taxıl anbarı – | 2 əd. |
| Yanacaq anbarı – | 1 əd. |
| Kübrə anbarı – | 1 əd. |
| Dəmirçi sexi – | 1 əd. |
| Dülgərxana – | 1 əd. |
| Artezian quyusu – | 6 əd. |
| Su nasos stansiyası – | 4 əd. |
| Enerji şəbəkəsi – | 9 əd. |
| Dəyirman – | 1 əd. |
| Mağaza – | 10 əd. |
| Yeməkxana – | 3 əd. |
| Hamam – | 1 əd. |
| Şərab zavodu – | 1 əd. |
| Yem kombinatı – | 1 əd. |

## QARALAR

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 7 km cənub-qərbdə, Vedi çayının qolu olan Böyük çayın üstündə, İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin kənarında, İrəvan-Naxçıvan avtomobil yolunun 600-700 metrliyində kənd.

1920-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. 1921-1988-ci illərdə isə azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1988-ci ildə kənd bütünlüklə erməniləşdirilmişdir.

İ.Şopendə (1832) kəndin adına Vedibasar mahalının xaraba kəndləri siyahısında rast gəlirik. Görünür, kənd 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalmışdır.

Vedi nahiyəsinin Qaralar kəndi 1832-ci ildən sonra yenidən məskunlaşmış, kənddə 1873-cü ildə 58 ailədə 443 nəfər (253 kişi, 190 qadın), 1886-cı ildə 64 ailədə 549 nəfər (308 kişi, 241 qadın), 1897-ci ildə 557 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illərdə erməni daşnaklarına qarşı müharibədə fəal iştirak edən qaralarlılar Vedibasarın işğalından sonra bütün vedililərlə bərabər Arazın o tayına – Cənubi Azərbaycana mühacirət etmiş, kənd ermənilər tərəfindən dağıdılmış və yandırılmışdır. Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra geri qayıdan qaralarlılar kəndi yenidən bərpa etmişlər. Kəndə ilk ermənilər də elə o vaxtdan köçürülüb yerləşdirilmişlər.

1922-ci ildə kənddə 241 nəfər azərbaycanlı, 273 nəfər erməni qeydə alınmışdır. 1931-ci ildə bu nisbət 297 azərbaycanlı, 292 erməni şəklində dəyişmişdir. 1945-1950-ci illərdə Qaranlıq (Martuni) və Qarakilsə (Sisiyan) rayonlarından, 1946-cı ildə isə İrandan və Livandan gəlmə xeyli erməni Qaralar kəndində məskunlaşdırılmış, 1948-1953-cü illər deportasiyası zamanı isə bir çox azərbaycanlı ailələri Azərbaycana köçürülmüşlər. Beləliklə, kənddə ermənilərin sayı süni şəkildə çoxaldılmış, azərbaycanlıların sayı isə azaldılmışdır.

1978-ci il yanvarın 25-də kəndin adı dəyişdirilərək Türkiyənin Van vilayətinin Lezk kəndindən gələn ermənilərin təkidilə **Aralez** qoyulmuşdur.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kənddə yaşayan bütün azərbaycanlı əhali (150 azərbaycanlı, 20 müsəlman kürd ailəsi) yurd-yuvasından qovulmuş, kəndin erməniləşdirilməsi başa çatdırılmışdır.

Buna qədər isə 1948-ci ildən üzü bəri 70-ə qədər azərbaycanlı ailəsi erməni təzyiqləri nəticəsində kəndi tərk edib, Azərbaycana köçməyə məcbur olmuşdu.

**Qaralar kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Klub – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Pavilyon – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Mal-qara üçün bina – | 6 əd. |
| İribuynuzlu mal-qara – | 800 baş |
| Xırdabuynuzlu mal-qara – | 2000 baş |
| Donuz – | 4600 baş |
| Toyuq – | 10.000 baş |
| Üzüm bağları – | 120 ha |
| Meyvə bağları – | 70 ha |
| K/t maşınları – | 30 əd. |
| Avtomaşınlar – | 26 əd. |
| Qaraj – | 1 əd. |
| Taxıl anbarı – | 2 əd. |
| Yanacaq anbarı – | 1 əd. |
| Kübrə anbarı – | 1 əd. |
| Dəmirçi sexi – | 1 əd. |
| Dülgərxana – | 1 əd. |
| Artezian quyusu – | 4 əd. |
| Su nasos stansiyası – | 2 əd. |
| Enerji şəbəkəsi – | 4 əd. |
| Mağaza – | 5 əd. |
| Yeməkxana – | 2 əd. |
| Hamam – | 1 əd. |

## DAŞLI (DAŞDI)

Vedibasar mahalının Cığındərə bölgəsində, Vedi çayının kənarında, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 3 km şimal-şərqdə kənd.

Kənddə 1920-ci ilə qədər ancaq Azərbaycan türkləri yaşamışlar. 1922-1988-ci illərdə azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1988-ci ildən sonra kənd bütünlüklə erməniləşdirilmişdir.

Kənddə 1832-ci ildə 16 təsərrüfatda 84 nəfər (43 kişi, 41 qadın), 1873-cü ildə 24 ailədə 147 nəfər (83 kişi, 64 qadın) Azərbaycan türkü yaşamışdır.

Kənd əhalisinin sayı 1886-cı ildə 23 təsərrüfatda 135 nəfərə (80 kişi, 55 qadın), 1897-ci ildə 184 nəfərə, 1904-cü ildə 238 nəfərə, 1914-cü ildə 261 nəfərə çatıb.

1918-1920-ci illərdə erməni-daşnak təcavüzünə məruz qalan kənd dağıdılmış, əhalisinin bir hissəsi ermənilərlə döyüşlərdə həlak olmuş, sağ qalanları qaçqın düşmüş, Arazın o tayına – Cənubi Azərbaycana mühacirət etmişlər.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kənd əhalisinin az bir hissəsi geri dönmüşdür. Bu vaxt kənddə İrandan, Türkiyədən gələn ermənilər də yerləşdirilmişdilər. 1922-ci ildə kənddə 93 nəfər azərbaycanlı, 78 nəfər erməni, 1926-cı ildə 95 nəfər azərbaycanlı, 60 nəfər erməni, 1931-ci ildə 117 nəfər azərbaycanlı, 78 nəfər erməni yaşamışdır.

1937-1948-ci illərdə Qarabağlar rayonunun tərkibində mövcud olan kəndin əksər azərbaycanlı əhalisi 1948-ci ildə məcburi şəkildə Azərbaycana köçürülmüş, onların boşalmış hazır evlərində 1946-1947-ci illərdə xaricdən gətirilmə ermənilər yerləşdirilmişlər.

1968-ci il iyulun 3-də kəndin adı dəyişdirilərək **Daştakar** qoyulmuşdur. Əslində isə ermənilər kəndin Daşdı (Daşlı) adına **daş** (ermənicə **kar)** sözü əlavə edib, **Daştakar** kimi qondarma ad almışlar. Son illərə qədər kənd Böyük Vedi qəsəbə sovetliyinin tərkibinə daxil idi.

Kənddə yaşayan sonuncu azərbaycanlı ailələri qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı doğma yurdlarından qovulmuş, kənd bütünlüklə erməniləşdirilmişdir.

## DƏVƏLİ (ARARAT) KƏNDİ

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 14 km cənub-qərbdə, İrəvan şəhərindən 48 km aralıda, İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin və İrəvan-Naxçıvan avtomobil yolunun üstündə kənd.

1828-ci ilə qədər kənddə ancaq azərbaycanlılar yaşamış, həmin ildən 1988-ci ilə qədər azərbaycanlıların, müsəlman kürdlərinin və ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur.

1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalan Dəvəli kəndində 1832-ci ildə cəmi 2 təsərrüfatda 28 nəfər (11 kişi, 17 qadın) Azərbaycan türkü qeydə alınmışdır. Kəndin qalan əhalisinin isə 1828-1829-cu illərdə İranın Maku və Salmas qəzalarından köçüb gələn ermənilər (639 nəfərdən ibarət 101 ailə) olduğu və onların kənddəki boşalmış müsəlman evlərində yerləşdirildiyi də həmin mənbədə göstərilmişdir.

1873-cü ildə Dəvəli kəndində 19 təsərrüfatda 207 nəfər (113 kişi, 94 qadın) Azərbaycan türkü, 24 təsərrüfatda 209 nəfər (113 kişi, 96 qadın) müsəlman kürdü, 217 təsərrüfatda 1760 nəfər (917 kişi, 843 qadın) erməni yaşamışdır.

1886-cı ildə Dəvəlinin azərbaycanlı, kürd və erməni əhalisinin birgə sayı 355 təsərrüfatda 2.525 nəfər (1.319 kişi, 1206 qadın) olmuş, onun 35 təsərrüfatda 263 nəfərini (140 kişi, 123 qadın) Azərbaycan türkləri, 29 təsərrüfatda 287 nəfərini (143 kişi, 144 qadın) kürdlər, 291 təsərrüfatda 2.075 nəfərini (1.036 kişi, 939 qadın) isə ermənilər təşkil etmişlər.

1905-ci ildə Dəvəli kəndində 159 nəfər, 1914-cü ildə 263 nəfər azərbaycanlı yaşamışdır.

Sovet hakimiyyəti illərində kəndin erməniləşdirilməsi siyasəti davam etdirilmişdir. 1922-ci ildə artıq kənddə 1.533 nəfər erməninin müqabilində cəmi 3 nəfər azərbaycanlı yaşamışdır. 1931-ci ildə kənddə azərbaycanlıların sayı 41 nəfərə çatmışdır.

1949-1950-ci illərdə kəndin azərbaycanlı əhalisinin əksəriyyəti məcburi şəkildə Azərbaycana köçürülmüş, yerdə qalanları isə 1988-ci ildə doğma yurdundan qovularaq kənd tamamilə erməniləşdirilmişdir. 1988-ci ildə Dəvəli kəndində yaşayan azərbaycanlıların sayı 30-40 evə çatırdı.

1935-ci il yanvarın 1-də kəndin adı dəyişdirilərək **Ararat** qoyulmuşdur.

## DƏVƏLİ ŞƏHƏRİ
## (DƏVƏLİ SEMENT ZAVODU QƏSƏBƏSİ)

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 14 km cənub-qərbdə, İrəvan şəhərindən 48 km-lik məsafədə, İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin və İrəvan-Naxçıvan avtomobil yolunun üstündə, Dəvəli kəndinin yanında rayon tabeli şəhər.

1923-cü ildən 1988-ci ilə qədər qəsəbədə azərbaycanlılar, ermənilər, kürdlər və ruslar yanaşı yaşamışlar.

Şəhərin bünövrəsi 1923-cü ilin əvvəllərində Abbasqulu bəyin təşəbbüsü ilə Dəvəli kəndi kənarındakı kirəc mədəninin inşası ilə qoyulmuşdur. Belə ki, 1922-ci ilin sonlarında ordudan tərxis olunub, Böyük Vediyə dönən Abbasqulu bəy Şadlinski bir neçə ay sonra İrəvan Qəza İcraiyyə Komitəsi qarşısında Dəvəli kəndi kənarındakı kirəc təpələrinin inşaat üçün istifadə edilməsi haqqında məsələ qaldırır və müsbət cavab alır. Kirəc mədəninə müdir təyin olunan Abbasqulu bəy dərhal işə başlayır.

Əvvəllər kirəc mədənində, sonralar burada tikilən sement zavodunda işçi qüvvəsinə böyük ehtiyac olduğundan tezliklə burada **Dəvəli sement zavodu** adlı iri fəhlə qəsəbəsi salınır. Qəsəbədə erməni, azərbaycanlı, kürd, rus millətlərinin nümayəndələri yaşasalar da, xüsusilə 1946-1947-ci illərdə bura xaricdən gəlmə çoxlu erməni yerləşdirilir, 1948-1950-ci illərdə isə azərbaycanlılar deportasiya olunur və nəticədə qəsəbə əhalisi arasında ermənilər böyük əksəriyyət təşkil edirlər.

1947-ci il aprelin 10-da Dəvəli sement zavodu qəsəbəsinin adı dəyişdirilərək **Ararat qəsəbəsi** qoyulur. 1962-ci ildə isə qəsəbəyə rayon tabeli şəhər statusu verilir. Dəvəli sement zavodu respublika əhəmiyyətli sement-şifer kombinatına çevrilir.

Dəvəli şəhərində yaşayan sonuncu azərbaycanlı ailələri qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı doğma yurdlarından vəhşicəsinə qovulmuş, şəhər bütünlüklə erməniləşdirilmişdir.

## YENİ HƏYAT (NOR QYANK)

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin 1 km-liyində, İrəvan-Naxçıvan avtomobil yolunun üstündə, Qaralar kəndi yaxınlığında kənd.

Kənddə ermənilər və müsəlman kürdləri yaşamışlar.

Kənd 1946-1947-ci illərdə xaricdən köçürülüb gətirilən ermənilərin yerləşdirilməsi üçün salınmışdır. O vaxtdan kənddə ermənilər və müsəlman kürdləri məskunlaşmışlar. Əvvəllər **Yeni həyat kəndi** Kiçik Vedi kənd sovetliyinin tərkibində mövcud olmuş, sonralar ayrılıb müstəqil sovetliyə çevrilmişdir.

Kəndin **Yeni həyat** adı ermənicə tərcümə olunaraq **Nor** (yeni) **qyank** (həyat) şəklinə düşmüşdür.

1988-1990-cı illərdə "Ermənistan SSR"də yaşayan azərbaycanlıların məruz qaldığı dəhşətli soyqırımı Yeni həyat kəndində də öz qanlı izini qoymuşdur. Belə ki, kəndin varlı kürd ailələrindən biri – **Süleymanov Şamo** və arvadları **Seyran Kəlo qızı** və **Gözəl Həsən qızı** erməni daşnakları tərəfindən üstlərinə benzin tökülərək od vurulub yandırılmışdır. Bundan sonra ermənilər onların var-dövlətlərini, çoxlu mal-heyvanlarını talayıb aparmışlar.

## YENGİCƏ

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 5 km cənub-qərbdə, Vedi çayının qolu olan Böyük çayın üstündə kənd.

1920-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. 1922-ci ildən 1988-ciilədək azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1988-ci ildə kəndin azərbaycanlı əhalisi qovulmuş, kənd bütünlüklə erməniləşdirilmişdir.

1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalan Yengicə kəndində 1832-ci ildə cəmi 4 təsərrüfatda 37 nəfər (18 kişi, 19 qadın) müsəlman əhali qeydə alınmışdır.

Kənddə 1873-cü ildə 18 təsərrüfatda 189 nəfər (104 kişi, 85 qadın), 1886-cı ildə 23 təsərrüfatda 197 nəfər (138 kişi, 59 qadın), 1897-ci ildə 313 nəfər, 1904-cü ildə 470 nəfər, 1914-cü ildə 475 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı ən çox dağıntılara məruz qalan kəndlərdən biri də Yengicə kəndi olmuşdur. Doğma yurdunu müvəqqəti tərk etməyə məcbur olan bütün vedibasarlılar kimi, Yengicə kəndinin qaçqın əhalisi də yalnız Sovet hakimiyyəti illərində geri qayıtmaq imkanı qazanmışdır. 1922-ci ildə kəndin qaçqınlıqdan geri qayıdanların sayı 162 nəfər olmuşdur. Lakin elə həmin il dövlət kənddə Türkiyədən gəlmə 187 nəfər erməni də yerləşdirmişdir.

1931-ci ildə isə kənd əhalisinin sayı aşağıdakı nisbətdə idi: 182 nəfər azərbaycanlı, 192 nəfər erməni.

1948-1953-cü illərdə kənd əhalisinin bir hissəsi deportasiyaya məruz qalaraq Azərbaycana köçürülmüş, boşalmış azərbaycanlı evlərinə isə xaricdən gətirilən ermənilər yerləşdirilmişlər.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin azərbaycanlı əhalisi vəhşicəsinə qovulmuş və kənd bütünlüklə erməniləşdirilmişdir.

1991-ci ildə kəndin Yengicə adı dəyişdirilərək **Sisavan** qoyulmuşdur.

1919-cu ildə Yengicə kəndi güclü erməni hücumuna məruz qalmış, elə o vaxtdan da kəndin məscid binası daşnaklar tərəfindən yandırılmışdı. 1988-ci ilə qədər həmin məscid binasının xarabalıqları kəndin içində, Böyük çayın yanı ilə uzanan küçənin qırağında qalmaqda idi.

Yengicənin yuxarısındakı təpəliklərdə ferma tikintisi aparmaq istərkən geniş ərazidə qədim qəbiristanlaq aşkar edilmişdi. Bu qəbirlərin ölçüsü (uzunluğu 3 metrə qədər) onların Oğuz qəbirləri olduğunu aşkar sübut edirdi. Adamlar bura **Oğuzlar qəbiristanlığı** deyirdilər. Lakin ermənilər

bu faktı ört-basdır edib, ictimaiyyətdən gizlətdilər.

Yengicə kənd müsəlmanlarının qəbiristanlığı əvvəllər Yengicə və Qaralar kəndləri arasındakı Qaralar kənd qəbiristanlığına yapışıq idi. 1950-ci illərdə ermənilər bu qəbiristanlığın yengicəlilərə aid olan hissəsini dövlətin əli ilə ləğv edib, yerində Qaralar kənd kolxozunun alma bağlarını salmağa nail oldular. Yengicə kəndinin yeni qəbiristanlığı kəndin kənarında salındı.

### Yengicədə azərbaycanlıların 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Klub – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Pavilyon – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Mal-qara üçün bina – | 4 əd. |
| İribuynuzlu mal-qara – | 600 baş |
| Xırdabuynuzlu mal-qara – | 2500 baş |
| Donuz – | 450 baş |
| Toyuq – | 4000 baş |
| Üzüm bağı – | 110 ha |
| Meyvə bağı – | 80 ha |
| K/t maşınları – | 20 əd. |
| Avtomaşınlar – | 22 əd. |
| Qaraj – | 1 əd. |
| Taxıl anbarı – | 1 əd. |
| Yanacaq anbarı – | 1 əd. |
| Dəmirçi sexi – | 1 əd. |
| Dülgərxana – | 1 əd. |
| Artezian quyusu – | 5 əd. |
| Su nasos stansiyası – | 3 əd. |
| Enerji şəbəkəsi – | 2 əd. |
| Mağaza – | 3 əd. |
| Yeməkxana – | 1 əd . |
| Hamam – | 1 əd. |

## KİÇİK VEDİ

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, İrəvan-Naxçıvan avtomobil yolunun kənarında, rayon mərkəzi olan Böyük Vedi qəsəbəsindən 15 km qərbdə, Vedi çayından ayrılan su arxının üstündə kənd.

1920-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri, 1921-1988-ci illərdə isə azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur.

Kənddə 1832-ci ildə 28 təsərrüfatda 166 nəfər (83 kişi, 83 qadın), 1873-cü ildə 94 təsərrüfatda 639 nəfər (360 kişi, 279 qadın), 1886-cı ildə 106 təsərrüfatda 599 nəfər (361 kişi, 238 qadın), 1897-ci ildə 971 nəfər, 1914-cü ildə 1056 nəfər, 1916-cı ildə 1034 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı kənd daşnak təcavüzünün qurbanı olmuş, evlər yandırılmış, adamlar qətlə yetirilmiş, sağ qalanlar baş götürüb Arazın o tayına getmişlər.

1922-ci ildə kəndin qaçqın əhalisindən cəmi 186 nəfər geri qayıda bilmiş və bu vaxt artıq kənddə 193 nəfər Türkiyədən gəlmə erməninin yerləşdirildiyini görmüş, onlarla yanaşı yaşamağa məcbur olmuşlar.

1926-cı ildə kənddə 256 nəfər azərbaycanlı, elə o qədər də (256 nəfər) erməni yaşamışdır. 1931-ci ildə əhalinin nisbəti 379 nəfər azərbaycanlı, 295 nəfər erməni şəklində dəyişmişdir.

1946-cı ildə xaricdən gəlmə xeyli erməni Kiçik Vedi kəndində yerləşdirilmiş, 1949-1950-ci illərdə isə xeyli azərbaycanlı məcburi şəkildə Azərbaycana köçürülmüşdür.

1950-ci illərdə kəndin adı qeyri-rəsmi yolla sətri tərcümə edilərək **Pokr** (Kiçik) **Vedi** qoyulmuş, sonra bütün rəsmi sənədlərdə elə Pokr Vedi kimi də getmişdir.

1988-ci ildə kənddə yaşayan 200-dən çox azərbaycanlı ailəsi vəhşicəsinə kənddən qovulmuş, kənd tamamilə erməniləşdirilmişdir.

1988-ci ildə Vedi rayonunda ermənilərin azərbaycanlı kəndlərinə açıq hücumları öncə Kiçik Vedi kəndindən başladı. Belə ki, aprelin 26-da küçəyə çıxan azərbaycanlılar döyüldülər. Axşama yaxın kənd yad maşın və yad adamlarla doldu. Azərbaycanlılar küçələrdən çəkilib, öz evlərində, həyətlərində daldalandılar. Axşam saat 5-də 400-dən artıq erməni əllərində dəmir çubuq, lom, ağac, balta, daş, tüfəng, bıçaq və s. azərbaycanlı məhəllələrinə axışdı. Kənd ermənilərinin bələdçiliyi ilə azərbaycanlı evləri daş-dəmir yağışına tutuldu. Qapı-pəncərələr, damların şiferləri daş, balta ilə vurulub sındırıldı. İşıq və telefon xətləri kəsildiyindən kəndlər tamam təcrid olunmuş vəziyyətdə idi.

İnsidentə rayon milis şöbəsinin rəisi Papoyan rəhbərlik edirdi. Bir

saatdan sonra onun göstərişi ilə də əməliyyat dayandırıldı. Bu müddət ərzində kənddə 27 ev daha çox dağıntılara məruz qaldı, telefon, işıq, qaz, su xətləri sıradan çıxarıldı.

Həmin günlərdə kəndin sakinlərindən biri – 1958-ci il təvəllüdlü **Məmmədov Salman Məmməd oğlu** erməni daşnakları tərəfindən işgəncə ilə qətlə yetirilmişdi.

**Kiçik Vedi kənd azərbaycanlılarınının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 2 əd. |
| Klub – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Pavilyon – | 1 əd. |
| Xəstəxana – | 2 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Mal-qara üçün bina – | 11 əd. |
| İribuynuzlu mal-qara – | 1400 baş |
| Xırdabuynuzlu mal-qara – | 5000 baş |
| Donuz – | 1000 baş |
| Toyuq – | 12000 baş |
| Üzüm bağı – | 270 ha |
| Meyvə bağı – | 200 ha |
| K/t maşınları – | 70 əd. |
| Avtomaşınlar – | 50 əd. |
| Qaraj – | 2 əd. |
| Taxıl anbarı – | 1 əd. |
| Yanacaq anbarı – | 1 əd. |
| Dülgərxana – | 2 əd. |
| Dəmirçi sexi – | 1 əd. |
| Artezian quyusu – | 10 əd. |
| Su nasos stansiyası – | 6 əd. |
| Enerji şəbəkəsi – | 8 əd. |
| Mağaza – | 7 əd. |
| Yeməkxana – | 2 əd. |
| Hamam – | 1 əd. |

## TAYTAN

Vedibasar mahalının aran hissəsində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 4 km cənub-şərqdə, Vedi çayının kənarında, İrəvan-Vedi avtomobil yolunun üstündə kənd.

1920-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. 1922-1988-ci illərdə kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1988-ci ildə kənd tamamilə erməniləşdirilmişdir.

1873-cü ilin statistik məlumatlarında Vedibasar mahalının aran hissəsində, indiki **Taytan kəndi** yerində eyniadlı kənd haqqında ilk məlumatlara rast gəlirik. Kənddə həmin vaxt 18 təsərrüfatda 166 nəfər (91 kişi, 75 qadın) Azərbaycan türkü qeydə alınmışdır.

Kənd əhalisini sayı 1886-cı ildə 23 təsərrüfatda 177 nəfərə (110 kişi, 67 qadın), 1897-ci ildə 316 nəfərə, 1916-cı ildə 366 nəfərə çatmışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı kənd erməni daşnakları tərəfindən dağıdılmış, əhalisi isə yurd-yuvasından qovulmuşdur.

1922-ci ildə kəndin qaçqın əhalisindən cəmi 183 nəfər geri qayıda bilmişdir. Həmin il kənddə Türkiyədən gəlmə 81 nəfər erməni mühaciri də yerləşdirilmiş və kənd qarışıq kəndə çevrilmişdir.

Kənddə yaşayan əhalinin nisbəti 1926-cı ildə 175 nəfər azərbaycanlı, 114 nəfər erməni, 1931-ci ildə 217 nəfər azərbaycanlı, 224 nəfər erməni şəklində dəyişmişdir. Göründüyü kimi, kənddə azərbaycanlıların təbii, ermənilərin isə süni artımı göz qabağındadır. Bu proses sonrakı illərdə davam etdirilmişdir. Xüsusilə 1946-1947-ci illərdə xaricdən gətirilən xeyli erməninin kənddə yerləşdirilməsi, 1949-cu ildə isə kəndin azərbaycanlı əhalisinin zorla Azərbaycana köçürülməsi Taytanın erməniləşdirilməsində həlledici rol oynamışdır.

1978-ci il yanvar ayının 25-də kəndin adı dəyişdirilərək Türkiyənin Van şəhərindən gəlmiş ermənilərin adına **Vanaşen** qoyulmuşdur.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kənddə azlıqda yaşayan azərbaycanlı əhali sonuncu nəfərinə qədər qovulmuş, kəndin erməniləşdirilməsi başa çatdırılmışdır. Bu vaxt kənddə cəmi 24 ev azərbaycanlı əhali yaşayırdı. Onlar bu dəfə daha çox Salyan rayonuna və Bakı şəhərinə üz tutdular.

## XALİSA (XALİSƏ)

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 10 km cənub-qərbdə, İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin, İrəvan-Naxçıvan avtomobil yolunun 3 kilometrliyində, Vedi çayından ayrılan su arxının üstündə kənd.

1920-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri yaşamış, 1922-1988-ci illərdə azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur

Kənddə 1832-ci ildə 23 ailədə 149 nəfər (51 kişi, 68 qadın), 1873-cü ildə 138 təsərrüfatda 864 nəfər (476 kişi, 388 qadın), 1886-cı ildə 176 təsərrüfatda 960 nəfər (535 kişi, 425 qadın), 1897-ci ildə kənddə 1165 nəfər, 1916-cı ildə 1159 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı kənd erməni daşnakları tərəfindən yerlə-yeksan edilmiş, əhalisi qətl və qarətlərə məruz qalmış, doğma yurd-yuvasından qovulmuşdur.

1922-ci ildə kəndin sağ qalmış qaçqın əhalisindən cəmi 311 nəfər geri qayıda bilmiş, lakin bu vaxt kənddə artıq 290 nəfər ermənininin yerləşdirildiyinin şahidi olmuşlar. 1926-cı ildə kənd əhalisinin nisbəti 331 nəfər azərbaycanlı, 240 nəfər erməni, 1931-ci ildə 588 nəfər azərbaycanlı, 276 nəfər erməni şəklində dəyihmişdir.

1953-cü ildə kənddən cəmi 13 ailə Azərbaycana deportasiya olunmuş, az sonra onların əksəriyyəti yenidən doğma kəndlərinə qayıtmışlar.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımına qədər Xalisa kəndində 500 evə qədər azərbaycanlı, cəmi 40 ev erməni vardı. 1988-ci il noyabrın 30-da səhər tezdən kənd erməni maşınları ilə mühasirəyə alınmış, az sonra rayon rəhbərləri – katib Akopyan, RİK sədri Vartanyan, prokuror Adamyan, müavini Barseqyan, milis rəisi Papoyan və b.-ları xüsusi maşınlarda kəndə daxil olub, əhalini gözlənilən hücum barədə "xəbərdar etmiş", yüngül şeylərini (yəni qızıl və pullarını) götürüb, kənddən çıxmağı məsləhət gördülər.

Lakin bir qədər sonra Avşar və Dəvəli kəndləri tərəfdən erməni quldurlarının maşın karvanında 300-dən çox "saqqallı" kəndə dolmuş, əvvəl adamları qorxudub, söyüb, döyüb, bütün pul və qızıl əşyalarını əllərindən almış, sonra qiymətli ev əşyalarının talanına keçmişlər. Sonda kəndin azərbaycanlı əhalisini qabaqlarına salıb, artıq tam erməniləşmiş Şirazlı kəndinə tərəf aparmağa başlamışlar. Lakin Şərur rayonundan tanklarla gələn hərbçilər yolda onların qarşısını kəsib, girovları xilas etmiş və onları Şərur rayonuna apardılar.

Xalisa kəndindən **İsmayılova Gülgəz Məhəmməd qızı, Hüseynov Hüseyn Bəbir oğlu** və **Səfərov Şirzad Qəfər oğlu** bu hadisələrin qurbanı oldu.

1991-ci il aprelin 19-da kəndin Xalisa adı dəyişdirilərək **Norakert** qoyulmuşdur.

Kəndin kənarındakı qədim qəbiristanlıqda üzərində ərəb əlifbası ilə, vəfat etmə tarixləri hicri tarixlə 480-ci, 486-cı, 494-cü illərə təsadüf edən xeyli qəbir daşları vardı. Təəssüf ki, sonralar ermənilər onların hamısını tamamilə məhv etdilər.

### Xalisa azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Klub – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Pavilyon – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Mal-qara üçün bina – | 8 əd. |
| İribuynuzlu mal-qara – | 900 baş |
| Xırdabuynuzlu mal-qara – | 3000 baş |
| Donuz – | 350 baş |
| Toyuq – | 12000 baş |
| Üzüm bağı – | 180 ha |
| Meyvə bağı – | 90 ha |
| K/t maşınları – | 40 əd. |
| Avtomaşınlar – | 32 əd. |
| Qaraj – | 1 əd. |
| Taxıl anbarı – | 2 əd. |
| Yanacaq anbarı – | 1 əd. |
| Dəmirçi sexi – | 1 əd. |
| Dülgərxana – | 1 əd. |
| Artezian quyusu – | 6 əd. |
| Su nasos stansiyası – | 4 əd. |
| Enerji şəbəkəsi – | 6 əd. |
| Dəyirman – | 1 əd. |
| Mağaza – | 3 əd. |
| Yeməkxana – | əd. |
| Hamam – | 1 əd. |

## ÇƏMBƏRƏK

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 15 km cənub-qərbdə, Armaş kəndi yaxınlığında, İrəvan-Naxçıvan avtomobil yolunun, İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin kənarında kənd.

1918-1920-ci illər erməni-müsəlman davasına qədər kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. 1922-1988-ci illərdə kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur.

1918-1920-ci illərdə Vedi rayonunun Çəmbərək kəndi erməni daşnakları tərəfindən dağıdılmış, əhalisi yurd-yuvasından qovulmuşdur.

Sovet hakimiyyəti illərində kənd yenidən məskunlaşmış, oraya xeyli Türkiyə ermənisi yerləşdirilmişdir. 1935-ci ildə Çəmbərək və qonşu Əfşarlı kəndlərinin əsasında Spandaryan adına sovxoz yaradılmış və az sonra da adı dəyişdirilərək **Surenavan** kəndi qoyulmuşdur.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kənddə yaşayan tək-tük azərbaycanlı ailələri də Azərbaycana qovulmuş, kənd tamamilə erməniləşdirilmişdir.

## ÇİMƏNKƏND

Vedibasar mahalının Cığındərə bölgəsində, Vedi rayonun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 9 km şərqdə, Vedi çayının kənarında, Aşağı Qarabağlar kəndi yanında kənd.

1920-ci ilədək kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. 1922-1988-ci illərdə azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuş, kənddə qismən müsəlman kürdləri də yaşamışlar.

1870-ci illərin sonu – 1880-ci illərin əvvəllərində Aşağı Qarabağlar kəndindən çıxan ailələr tərəfindən salınmışdır. Çimənkənd kəndində Aşağı Qarabağlar kəndi ilə bir yerdə 1886-ci ildə 85 ailədə 853 nəfər (461 kişi, 392 qadın), 1914-cü ildə isə 1879 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illərdə Vedibasar azadlıq ordusunun ən aparıcı bölüklərindən biri də Çimənkənddə yerləşirdi. Ona Vedibasar Milli Komitəsinin 11 nəfər üzvündən biri olan **Sultan xan Mərəndi** rəhbərlik edirdi.

1920-ci ildə Vedibasar erməni daşnakları tərəfindən işğal edildikdən sonra Çimənkənd kəndlərinin camaatı da Cənubi Azərbaycana pənah aparmış, yalnız bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra onlar doğma yurdlarına qayıda bilmiş və əksəriyyəti Çimənkənd ərazisində məskunlaşmağa üstünlük vermişlər.

1922-ci ildə artıq geri qayıdan çimənkəndlilərin sayı 880 nəfər idi. Lakin camaatın etirazına baxmayaraq, erməni hökuməti həmin il Çimənkəndə xaricdən gəlmiş 210 nəfər erməni mühaciri də yerləşdirmişdi.

1926-cı ildə kənddə azərbaycanlıların sayı 690 nəfər, ermənilərin sayı 141 nəfər, 1931-ci ildə azərbaycanlılar 663 nəfər, ermənilər 178 nəfər olmuşlar. 1931-ci ildə kənddə 34 nəfər müsəlman kürdü də yaşamışdır.

1937-ci ildə Vedi rayonunun iki inzibati rayona ayrılması və rayonun dağlıq hissəsində Çimənkənd mərkəz olmaqla **Qarabağlar rayonunun** yaradılması Çimənkəndin sürətlə inkişafına imkan yaratmışdır. Artıq 1939-cu ildə kənddə azərbaycanlı əhalinin sayı 4.600 nəfərə çatmışdır.

1948-1953-cü illər deportasiyası zamanı Qarabağlar rayonunun başqa kəndləri kimi Çimənkəndin də bütün azərbaycanlı əhalisi zorla Azərbaycana köçürülmüşlər. Onların az bir hissəsi sonralar geri qayıtmışlar.

1978-ci il yanvarın 25-də Ermənistan hökumətinin qərarı ilə Çimənkənd kəndinin adı dəyişdirilərək **Urtsadzor** qoyulmuş,

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kənddə hələ də yaşamaqda davam edən bütün azərbaycanlı əhali (15 ailədə 60 nəfər azərbaycanlı, 15 ailədə 75 nəfər müsəlman kürdü) öz doğma kəndlərindən vəhşicəsinə qovulmuşdur.

## ŞAMPAN (ŞƏRAB ZAVODU QƏSƏBƏSİ)

Vedibasar mahalının aran hissəsində, Ağırdağ vadisində, Kirov qəsəbəsindən 2 km şərqdə, Yeni yol qəsəbəsi yanında qəsəbə.

Qəsəbədə Azərbaycan türkləri, müsəlman kürdləri və ermənilər yaşamışlar. 1988-ci ildə kənd bütünlüklə erməniləşdirilmişdir.

Qəsəbədə daha çox 1946-1947-ci illərdə xarici ölkələrdən köçürülüb gətirilmiş ermənilər yerləşdirilmiş, sonralar isə yaxın kəndlərdən də xeyli erməni köçüb burada məskunlaşmışdır.

Qəsəbə son illərə qədər Kirov qəsəbə sovetliyinin tərkibinə daxil idi.

Lakin belə bir faktı da xatırlatmağı vacib bilirik ki, bu qəsəbənin salındığı ərazidə qədim yaşayış məskəninin qalıqları qalmaqda idi. Bu, hansı qədim kəndin, qalanın xarabalıqları idi – bunu müəyyənləşdirmək bizim üçün çətindir. Goreşən xislətli ermənilərin isə gözləri qabağındakı bu fakta soyuq və laqeyd yanaşması təsdiq edir ki, burada türk mədəniyyətinin faktı olan qədim yaşayış məntəqələrindən biri yerləşmişdir.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kənddə yaşayan bir neçə müsəlman ailəsi də qovulmuş və kənd tamamilə erməniləşdirilmişdir.

## ŞİRAZLI

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 9 km cənub-qərbdə, Vedi çayından ayrılan su arxının, İrəvan-Naxçıvan avtomobil yolunun və İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin (Aygevan stansiyası) üstündə kənd.

1920-ciilədək kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. 1922-1988-ci illərdə kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur.

1832-ci ilin statistikasında kəndin Vedibasar mahalının xaraba kəndləri siyahısında verilməsi onun 1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qaldığını sübut edir.

1832-ci ildən sonra yenidən məskunlaşan kənddə 1873-cü ildə 19 təsərrüfatda 150 nəfər (100 kişi, 50 qadın), 1886-cı ildə 35 təsərrüfatda 234 nəfər (158 kişi, 76 qadın), 1905-ci ildə 229 nəfər, 1914-cü ildə 237 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illərdə kənd erməni daşnakları tərəfindən vəhşicəsinə dağıdılmış, əhalisi ev-eşiyindən didərgin salınmış, bütün Vedibasar camaatı kimi, müvəqqəti olaraq Cənubi Azərbaycana mühacirət etmişdir.

1922-ci ildə kənd camaatı (216 nəfər) geriyə dönmüş, kəndi yenidən bərpa etmişlər. Bu vaxt kəndə 114 nəfər Türkiyədən gəlmə erməni də yerləşdirilmişdi. Ona görə də 1926-cı ildə kənddə yaşayan əhalinin nisbəti 243 nəfər azərbaycanlı, 130 nəfər erməni, 1931-ci ildə 250 nəfər azərbaycanlı, 182 nəfər erməni şəklində olmuşdur.

1935-ci ildə qonşu Cadqıran kəndi ləğv edilərək Şirazlı kəndinin tərkibinə qatılmış, az vaxtda kənd sürətlə böyümüşdür.

1946-1947-ci illərdə xaricdən gətirilən bir çox erməni ailələri zorla Şirazlı kəndində məskunlaşdırılsa da, 1972-ci ildə kənddəki 583 təsərrüfatda 3.489 nəfər əhalidən 300 təsərrüfatdan çoxu azərbaycanlılar idi.

Lakin 1988-ci il hadisələri Şirazlı camaatının da ev-eşiyindən qovulması ilə nəticələndi. Mayın 8-də Bakı-İrəvan qatarı Şirazlı stansiyasında saxlanıb, bir saat ərzində ona basqın edildi, vaqon bələdçiləri, azərbaycanlı sərnişinlər döyülüb-söyüldülər. Rayonda vəziyyətin gərginliyi o həddə çatmışdı ki, sabahısı – mayın 9-da SSRİ Ali Soveti sədrinin müavini Demiçev, Ermənistan KP MK-nın ikinci katibi Koçetkov, Ermənistan Nazirlər Soveti sədrinin müavini S.Harutunyan Vediyə gəlib burada geniş müşavirə keçirdilər. Azərbaycanlı nümayəndələr çıxış edib, vəziyyəti olduğu kimi açıqladılar, ermənilərin hadisələri milli qırğına apardıqlarını, milli ədavət və düşmənçiliyi yaydıqlarını onların üzünə dedi. Lakin heç bir tədbir görülmədi.

Mayın 10-da da davam edən gərginlik mayın 11-də Şirazlı kəndinə ermənilərin dağıdıcı hücumu ilə nəticələndi. Gün ərzində hazırlıq işləri görən (küçələrə evləri daşlamaq üçün lafetlərlə daş gətirilməsi, erməni evlərinin üstünə xüsusi bayraqlar taxılması, kəndə qıraq yerlərdən maşınlarla saqqallıların daşınıb gətirilməsi, milis işçilərinin yolları bağlaması və s.) ermənilər axşam hava qaralanda dörd dəstəyə ayrılıb, hər dəstə 400-500 nəfər olmaqla azərbaycanlı məhəllələrinə yeridilər. Dəstələrə milis zabitləri başçılıq edirdilər. Rayonun bütün rəhbərləri Şirazlıda idilər. Demək olar ki, bütün azərbaycanlı evləri dağıdıldı və qarət edildi. Adamlar qaranlıqda bağçada, dalda yerlərdə gizlənib erməni vəhşiliyini müşahidə edirdilər. Ermənilər evlərdən apara bildiklərini aparır, yerdə qalanını sındırır və ya yandırırdılar. Bəzi həyətlərdə erməni vəhşiliyinə dözməyən azərbaycanlılar ermənilərlə əlbəyaxa olmaqdan da çəkinmirdilər.

Gecə saat 3-ə qədər davam edən erməni vəhşiliyi həmin vaxt kəndə girən hərbçilərin gəlişindən sonra dayandırıldı. Əhali evləri dağıdıldıqdan və təhlükəsizliklərinə təminat olmadığından Türkiyə ilə sərhəddəki Şidli kəndinə tərəf hərəkət etdilər, SSRİ-Türkiyə sərhədinə sığındılar.

Şirazlı faciəsi zamanı kəndin 64 azərbaycanlı evi tamam dağıdılmış, 8 ev yandırılmış, 330 ailənin əmlakı məhv edilmiş, 80-dən çox adam döyülmüşdü. Əslən vedili olan görkəmli yazıçı **Fərman Kərimzadə** şirazlıların harayına gəldi, Şirazlı və kənar kəndlərdən 20 nəfər ziyalı ilə Bakıya, Moskvaya üz tutdu. Lakin nə Bakıdan, nə də Moskvadan onların dərdinə şərik çıxan tapılmadı.

Şirazlılılar üç ay Araz çayı sahilində, Türkiyə sərhədində çadırlarda yaşadılar, 80 yaşlı **Seyid Ağbal ağa (İqbal Miryaqub oğlu,** o, kənd erməni-daşnak terrorçularının vəhşi hücumuna məruz qalanda sinəsindən vurulmuş daş parçası ilə ağır yaralanmış ) və Əkbərin iki aylıq oğlu burada şəhid oldu və yaxınlıqdakı Şidli qəbiristanlığında dəfn edildi.

Vedibasar mahalının ən məşhur ocaqlarından olan **Ağbal ağa ocağı** Şirazlı kəndində yerləşirdi. Bütün bölgədə məşhur olan bu ocağa yaxın-uzaq rayonlardan təkcə müsəlmanlar yox, həm də ermənilər pənah gətirirdilər.

Şirazlı kəndində böyük məscid də fəaliyyət göstərirdi. Möhrə palçıqdan tikilmiş bu qədim məscidə kəndin ağsaqqalları yığışar, ibadət edərdilər.

Şirazlı kəndinin iki müsəlman qəbiristanlığı vardı. Qədim qəbiristanlığın yerində sonralar kolxoz üçün bir sıra tikililər salınmış, qəbiristanlıq ləğv edilmişdi. Lakin burada məşhur seyid Miryaqub ağanın qəbri üsündə tikilmiş gümbəzə toxunmağa heç kəs cəsarət etməmişdi.

1991-ci il aprelin 9-da kəndin adı dəyişdirilərək **Vosgetap** qoyulmuşdur.

**Şirazlı azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 2 əd. |
| Klub – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Pavilyon – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Mal-qara üçün bina – | 10 əd. |
| İribuynuzlu mal-qara – | 1200 baş |
| Xırdabuynuzlu mal-qara – | 4000 baş |
| Donuz – | 800 baş |
| Toyuq – | 15000 baş |
| Üzüm bağı – | 250 ha |
| Meyvə bağı – | 120 ha |
| K/t maşınları – | 60 əd. |
| Avtomaşınlar – | 45 əd. |
| Qaraj – | 2 əd. |
| Taxıl anbarı – | 2 əd. |
| Yanacaq anbarı – | 1 əd. |
| Dəmirçi sexi – | 1 əd. |
| Dülgərxana – | 1 əd. |
| Artezian quyusu – | 7 əd. |
| Su nasos stansiyası – | 2 əd. |
| Enerji şəbəkəsi – | 4 əd. |
| Dəyirman – | 1 əd. |
| Mağaza – | 6 əd. |
| Yeməkxana – | 2 əd. |
| Hamam – | 1 əd. |
| Şərab zavodu – | 1 əd. |
| Yem kombinatı – | 1 əd. |

## ŞIXLAR (ŞEYXLƏR)

Vedibasar mahalının aran hissəsində, Araz çayının kənarında, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 10 km cənub-qərbdə, Vedi çayından ayrılan su arxının üstündə kənd.

1920-ci islədək kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. 1922-1988-ci illərdə azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuş, 1988-ci ildə bütün azərbaycanlı əhalisi qovularaq kənd tamamilə erməniləşdirilmişdir.

1832-ci ilin statistikasında Vedibasar mahalında 34 ailədə 232 nəfər Azərbaycan türkündən ibarət **Şeyxlər tayfasının** adı çəkilmiş və bu tayfanın Xorvirab yaxınlığında (Şıxlar kəndi yerində) qışlağı olduğu göstərilmişdir.

1873-cü ildə kənddə 79 təsərrüfatda 649 nəfər (371 kişi, 278 qadın), 1886-cı ildə 97 təsərrüfatda 714 nəfər (382 kişi, 332 qadın), 1897-ci ildə 790 nəfər, 1905-ci ildə 802 nəfər, 1914-cü ildə 815 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-1920-ci illərdə kənd erməni daşnakları tərəfindən dağıdılmış, qarət edilmiş, əhalisi qətl və qarətlərə məruz qalmış, qəddarlıqla qovulmuşdur.

1922-ci ildə kəndin qaçqın əhalisindən 216 nəfər geri qayıtmışdır. Həmin il kənddə Türkiyədən gəlmə 144 nəfər erməni də yerləşdirilmişdir. Kənddə əhalinin nisbəti 1926-cı ildə 115 nəfər azərbaycanlı, 48 nəfər erməni, 1931-ci ildə 167 nəfər azərbaycanlı, 94 nəfər erməni şəklində dəyişmişdir.

1949-cu il köçürülməsi zamanı kəndin bütün azərbaycanlı əhalisi zorla Azərbaycana köçürülsə də, sonralar onların bir hissəsi geri – öz doğma kəndinə qayıtmış, 1988-ci ilə qədər burada yaşamışlar.

1968-ci il dekabrın 26-da kəndin adı dəyişdirilərək **Lusarat** (ermənicə "**işıqlı kənd**" məzmununda) qoyulmuşdur.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin azərbaycanlı əhalisi ermənilərə xas vəhşiliklə kənddən qovulmuş və kəndin erməniləşdirilməsi başa çatdırılmışdır.

**Şıxlar kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Klub – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Pavilyon – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Mal-qara üçün bina – | 2 əd. |
| İribuynuzlu mal-qara – | 300 baş |
| Donuz – | 250 baş |
| Üzüm bağı – | 250 ha |
| Meyvə bağı – | 90 ha |
| K/t maşınları – | 30 əd. |
| Avtomaşınlar – | 25 əd. |
| Qaraj – | 1 əd. |
| Taxıl anbarı – | 1 əd. |
| Yanacaq anbarı – | 1 əd. |
| Dəmirçi sexi – | 1 əd. |
| Dülgərxana – | 1 əd. |
| Artezian quyusu – | 5 əd. |
| Su nasos stansiyası – | 3 əd. |
| Enerji şəbəkəsi – | 4 əd. |
| Mağaza – | 4 əd. |
| Yeməkxana – | 1 əd. |
| Hamam – | 1 əd. |

## ZƏNGİBASAR (MASİS) RAYONU

Zəngibasar mahalı ərazisində rayon. 1937-ci il dekabrın 31-də Zəngibasar adı ilə təşkil edilmiş, 1969-cu il yanvarın 14-də Masis rayonu adlandırılmışdır. Ərazisi 170 kv.km-dir.

Rayon mərkəzi şəhər tipli Uluxanlı (1925-ci ildən – **Nərimanlı,** 1937-ci ildən – **Zəngibasar,** sonra qısa müddət **Razdan,** 1950-ci ildən – **Masis**) qəsəbəsi idi.

Rayon mərkəzindən Bakı-Naxçıvan-İrəvan dəmiryol xətti keçir (Uluxanlı stansiyası).

Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 20 km-dir.

1988-ci ildə rayonda cəmi 28 yaşayış məntəqəsi olmuşdur.

Zəngibasar mahalı başlanğıcını Göyçə gölündən götürən, uzunluğu 146 km, hövzəsinin sahəsi 2.560 kv.km olan **Zəngi çayı** tərəfindən iki yerə bölünürdü.

1937-ci ildə təşkil ediləndə rayon 32 kənddən ibarət idi. Bu kəndlərdən 21-i xalis azərbaycanlı kəndi, 6-ı (Arbat, Göygümbət, Ağcaqışlaq, Ağhəmzəli, Xarratlı, Cəbəçili) azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd, 5-i (Təzəkənd, Gələrə, Yenicə, Azadaşen, Cəfərabad) erməni kəndi idi. Bu xalis erməni kəndlərindən ikisində – Təzəkənd və Gələrədə ermənilər XVIII yüzildən, üçündə – Yenicə, Azadaşen və Cəfərabadda 1920-ci ildən sonra məskunlaşmışdılar.

1948-1951-ci illərdə Zəngibasar rayonunun Rəncbər kəndindən başqa bütün Arazqırağı (Həbilkənd, Reyhanlı, Seyidkənd, Sarıcalar, Qulucan, Həsənli, Sarvanlar) və Mehmandar, Çobankərə, Arbat, Rəhimabad, Hacı Elləz, Göygümbət, Cəbəçili, Xarratlı, Ağhəmzəli, Ağcaqışlaq, Şorlu kəndləri tamam, Uluxanlı, Zəngilər, Aşağı Necili isə qismən deportasiya olunmuşlar.

İ.Stalinin ölümündən sonra Zəngibasar rayonundan köçürülmüş ailələrin, demək olar ki, yarısı geri qayıdıb, doğma kəndlərini bərpa etmişlər.

1988-ci il hadisələri zamanı Zəngibasar rayonunda azərbaycanlı kəndlərinə ilk kütləvi hücum iyunun 17-də baş verdi. Həmin gün axşam saat 6-7 radələrində Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsinin azərbaycanlı əhalisi – təxminən 500 ev erməni hücumu ilə üz-üzə dayandı. İrəvandan mütəşəkkil halda gələn erməni saqqallıları rayon hüquq-mühafizə orqanlarının müşayiəti və kəndin erməni gənclərinin bələdçiliyi ilə azərbaycanlı evlərini hədəfə götürdülər. Azərbaycanlıların şiddətli müqavimətinə baxmayaraq, həmin gün neçə-neçə azərbaycanlı evi yandırıldı, 20-dən çox azərbaycanlı yaralandı və kəndin 3.000 nəfərə ya-

xın azərbaycanlı əhalisi qovulub kənddən çıxarıldı. Camaat Türkiyə sərhədində yerləşdiyi üçün nisbətən təhlükəsiz olan Rəncbər kəndinə sığınmağa məcbur oldu. Səhərisi gün Zəngilər və Aşağı Necili kəndlərinə basqın edildi. Zəngilər kəndində güclü müqavimətlə rastlaşan ermənilər on uşaq atası **Südeyif Kərimovun** evinə od vurub yandırdılar.

Azərbaycanlılarla ermənilərin qarışıq yaşadığı Aşağı Necili kəndinə isə həmin gün gecə saat 12-də hücum olundu. Gündüzdən kəndin girəcəyinə tökülən çay daşları gecə kəndə hücum edən 500 nəfər erməni saqqallısı tərəfindən azərbaycanlı evlərinin üstünə yağdırıldı. Erməni quldurları **Seyid Məmmədin, Xalid Məmmədovun** evlərini talan etdilər, **Sərvət Əliyevin** evinə od vurub yandırdılar, **Xalid Məmmədovun** şəxsi avtomobilini əzik-əzik etdilər, maşının təzə təkərlərini isə çıxarıb elə oradaca əməliyyata başçılıq edən rayon DİŞ rəisinin müavini İsgəndəryana bağışladılar.

Son hadisələr zamanı Zəngibasar rayonundan **Müşviq Tağı oğlu Tağıyev, Məhərrəm Adoş oğlu Quliyev, Sabir Qurbanəli oğlu Mehdiyev, Abbas Mürsəl oğlu Əliyev** və b. ermənilər tərəfindən işgəncələrlə qətlə yetirildilər. Ümumiyyətlə isə, 1988-ci ildə təkcə Zəngibasar rayonundan 21 nəfər azərbaycanlı erməni vəhşiliyinin qurbanı oldu.

### 1988-ci ilə qədər Zəngibasar rayonunda mövcud olan azərbaycanlı yaşayış məntəqələrinin siyahısı

**Xalis azərbaycanlı yaşayış məntəqələri**

1. Haçaparaq (03.01.1935-ci ildən – Zəhmət, 19.04.1991-ci ildən – Xaçpar)
2. Qaraqışlaq (25.01.1978-ci ildən – Dostluq, 19.04.1991-ci ildən – Hayanist)
3. Kiçik Şöllü Dəmirçi (03.01.1935-ci ildən – Dəmirçi, 19.04.1991-ci ildən – Darpbnik)
4. Sarvanlar (19.04.1991-ci ildən – Sis)
5. Rəncbər
5. Donuzyeyən (03.01.1935-ci ildən – Zəngilər, 19.04.1991-ci ildən – Zorak)
6. Həbilkənd (1955-ci idən – Kalinin qəsəbəsi, 19.04.1991-ci ildən – Noramarq)
7. Reyhanlı
8. Seyidkənd
9. Sarıcalar

**Qarışıq yaşayış məntəqələri**

10. Yuxarı Necili (25.01.1978-ci ildən – Nizami)
11. Aşağı Necili (25.01.1978-ci ildən – Sayat Nova)
12. Rəhimabad
13. Şöllü Mehmandar (03.01.1935-ci ildən – Mehmandar, 25.01.1978-ci ildən – Hovtaşat)
14. Şöllü (əvvəllər – Böyük Şöllü Dəmirçi, 25.01.1978-ci ildən – Daştavan)
15. Arbat
16. Uluxanlı (31.12.1937-ci ildən – Zəngibasar, 31.07.1950-ci ildən – Masis)
17. Qulucan

**Zəngibasar rayonu azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| İdarə binası – | 16 əd. |
| Kino binası – | 14 əd. |
| Mədəniyyət evi – | 18 əd. |
| Həkim məntəqəsi – | 13 əd. |
| Xəstəxana – | 15 əd. |
| Uşaq bağçası – | 14 əd. |
| Poçt – | 13 əd. |
| Əczaxana – | 14 əd. |
| Yeməkxana – | 14 əd. |
| Kitabxana – | 17 əd. |
| Məktəb – | 20 əd. |
| X/b mal-qara – | 6340 baş |
| İ/b mal-qara – | 1660 baş |
| K/t maşınları – | 313 əd. |
| Avtobus – | 14 əd. |
| Avtomaşınlar (yük, minik) – | 190 əd. |
| Məscid – | 19 əd. |
| Anbar binaları – | 35 əd. |
| Ding və dəyirman – | 15 əd. |
| Transformator – | 24 əd. |
| Quşçuluq ferması – | 15 əd. |
| X/b mal-qara tövləsi – | 31 əd. |
| İ/b mal-qara tövləsi – | 32 əd. |

## HAÇAPARAQ (ZƏHMƏT)

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 8 km şimal-qərbdə, İrəvan şəhərinin 6 kilometrliyində, Zəngi çayının sağ kənarında, Arbat kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kənddə 1832-ci ildə 75 təsərrüfatda 326 nəfər (182 kişi, 144 qadın), 1873-cü ildə 99 təsərrüfatda 716 nəfər (377 kişi, 339 qadın), 1886-cı ildə 117 təsərrüfatda 753 nəfər (440 kişi, 313 qadın), 1897-ci ildə 1.194 nəfər, 1905-ci ildə 992 nəfər, 1914-cü ildə 1.135 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ildə Zəngibasar mahalının başqa kəndləri kimi, Haçaparaq kəndi də Türkiyədən gəlmə ermənilərin vəhşi hücumlarına məruz qalmış, kənd ermənilər tərəfindən dağıdılmış, yandırılmış, əhalisi qəddarlıqla qətlə yetirilmiş, sağ qalanlar baş götürüb, Arazın o tayına mühacirət etmişlər. Kənd bir neçə il xaraba qalmış, yalnız Sovet hakimiyyətinin ilk illərində qaçqın haçaparaqlılar Vətənə geri dönmək imkanı qazanmışlar. Onların sayı 1922-ci ildə 492 nəfər olmuş, 1926-cı ildə kənd əhalinin sayı 676 nəfərə, 1931-ci ildə 795 nəfərə çatmışdır.

Lakin 1988-ci il soyqırımı zamanı kənd növbəti dəfə soyqırımına məruz qalaraq, onun 3.000 nəfərdən çox azərbaycanlı əhalisi işgəncələrlə kənddən qovuldular.

1935-ci il yanvarın 3-də kəndin adı dəyişdirilərək Zəhmət, 1991-ci il aprelin 19-da isə **Xaçpar** qoyulmuşdur.

Kəndin qədimliyinə dəlalət edən faktlardan biri onun qəbiristanlığındakı baş və sinə daşları, qəbirlərin üstündəki qoç, at və öküz heykəlləri idi. Qoç heykəllərinin döşünə dəfn olunanın özünün, atasının və tayfasının adı, öldüyü il qeyd olunmuşdu. At fiqurlu qəbir daşlarının üstündə yuxarıdakı məlumatlarla yanaşı, mərhumun həm də yaşı yazılmışdı. Kənd qəbiristanlığında yalnız iki məzarın üstündə buynuzlu öküz heykəli vardı ki, onlarda həmçinin ölənin ailə üzvlərinin sayı da göstərilmişdi.

Bundan əlavə, Zəngi çayının yarğanından baxanda kənd qəbiristanlığındakı 15-16 qəbrin bir-birinin üstündə yerləşdiyi görünürdü. Lap aşağı mərtəbədəki qəbrin skeleti, qol-qıç sümükləri xeyli uzun və yoğun idi.

Haçaparaq kəndində iki məscid vardı: **Böyük məscid** və **Kiçik Məscid.** Böyük məscidin həyətində iri tut ağacları, arxasında qocaman qələmə ağacı ucalırdı. Böyük məscidin eyvanının divarları Quran surələri ilə bəzədilmiş, minbərin baş tərəfindəki kitabənin içində “981“ (çox güman ki, hicri tarixi ilə) yazılmışdı. Sovet hakimiyyətinin ilk illərində kəndin hər iki məscidinin qapısına qıfıl vurulur və onların fəaliyyəti

dayandırılır. Böyük Vətən müharibəsi başlayandan bir ay sonra isə hansı mülahizələrə görəsə Böyük Məscidin fəaliyyətinə təzədən icazə verilir.

Kənddəki Kiçik Məscid isə XIX yüzilin ortalarında tikilmişdi. Məscidin qarşısından çay axırdı.

1988-ci il hadisələri Haçaparaq kəndinə də böyük fəlakətlər gətirdi. 500 ailədə 3.000 nəfərə yaxın əhalisi olan kənd bir ilə yaxın erməni mühasirəsində qaldı. Kəndə girə bilməyən ermənilər, nəhayət ki, həmin ilin noyabrında vertolyotlarla kəndin qırağına hərbi geyimli erməni saqqallıları atıb, kəndi hücumla aldılar. Kəndi qorumalı olan Sovet əsgərləri özlərini görməməzliyə vurdular.

**Haçaparaq kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| İdarə binası – | 1 əd. |
| Kino binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Əczaxana – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| X/b mal-qara – | 125 baş |
| İ/b mal-qara – | 120 baş |
| K/t maşınları – | 17 əd. |
| Avtobus – | 1 əd. |
| Avtomaşınlar (yük, minik) – | 19 əd. |
| Məscid – | 1 əd. |
| Anbar binaları – | 2 əd. |
| Ding və dəyirman – | 1 əd. |
| Transformator – | 3 əd. |
| Quşçuluq ferması – | 1 əd. |
| X/b mal-qara tövləsi – | 2 əd. |
| İ/b mal-qara tövləsi – | 3 əd. |

## QARAQIŞLAQ (HACI BAYRAM, DOSTLUQ)

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 9 km şimal-qərbdə, Zəngi çayının sağ tərəfində, su arxının üstündə, Gərnigöz bulağı kənarında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kənddə 1832-ci ildə 23 təsərrüfatda 151 nəfər (84 kişi, 67 qadın), 1873-cü ildə 77 təsərrüfatda 735 nəfər (389 kişi, 346 qadın), 1886-cı ildə 93 təsərrüfatda 751 nəfər (468 kişi, 283 qadın), 1897-ci ildə 1.007 nəfər, 1905-ci ildə 832 nəfər, 1914-cü ildə 1.123 nəfər azərbaycanlı əhali yaşamışdır.

Qaraqışlaq 1918-ci ildə İrəvan qəzasında erməni-daşnak hücumları nəticəsində ən çox dağıdılan və qətl-qarətlərə məruz qalan kəndlərdən biri olmuşdur. Erməni süngüsündən canını qurtaranlar baş götürüb Arazın o tayına pənah aparmışlar.

Sovet hakimiyyətinin ilk illərində kənd əhalisinin sağ qalanları doğma kəndə qayıtmaq imkanı qazanmış, iki-üç ildən bəri xaraba qalmış kəndi bərpa etməyə başlamışlar. 1922-ci ildə geri qayıdanlar 514 nəfər olmuş, 1926-cı ildə onların sayı 753 nəfərə, 1931-ci ildə 850 nəfərə çatmışdır.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin bütün sakinləri qovulub, öz ata-baba yurdlarından vəhşiliklə çıxarıldılar. Noyabrın 28-də gündüz saat 3-də qəflətən kəndə hücum edən mütəşəkkil erməni quldur dəstələrinə əliyalın müqavimət göstərməyin daha mümkün olmadığını görən dinc camaat ermənilərlə əlbəyaxa ola-ola, nəhayət, Türkiyə sərhədinə sığınmaq məcburiyyətində qaldı, bir neçə gündən sonra isə hərbiçilərin köməyi ilə Naxçıvana üz tutdular. Bu vaxt kənddə 580 təsərrüfatda təxminən 3.500 nəfər azərbaycanlı yaşayırdı. Həmin hadisələr zamanı kəndin 1955-ci il təvəllüdlü sakini **Tağıyev Müşviq Tağı oğlu** erməni vəhşiliyinin qurbanı olaraq, qəddarcasına qətlə yetirildi.

Kəndin Qaraqışlaq adı 1978-ci il yanvarın 25-də dəyişdirilərək **Dostluq,** 1991-ci il aprelin 19-da isə **Hayanist** qoyulmuşdur.

Qaraqışlaq kəndi ilə Dəmirçi kəndi arasında **Xaraba kəndi** adlanan yer vardı. Bu xarabalıqlarda 1970-ci illərdə qazıntı işləri aparılmış, çoxlu təndir qalıqları və qədim qəbirlər aşkar edilmişdi.

Kənddə iki məscid binası vardı, onlardan birinin xarabalıqları qalırdı, digəri isə 1988-ci ilə qədər işləyirdi.

Kəndin qəbiristanlığı kəndin qırağında yerləşirdi.

Kənddə **Seyid ocağı** deyilən ocaq adamların inam və inanc yeri idi. Bu ocaq **Bəyim nənənin** evində yerləşirdi. **Həcər bəyim** də kəndin seyidlərindən idi.

**Qaraqışlaq kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| İdarə binası – | 2 əd. |
| Kino binası – | 1 əd. |
| Mədəniyyət evi – | 2 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Əczaxana – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Kitabxana – | 2 əd. |
| Məktəb – | 4 əd. |
| X/b mal-qara – | 190 baş |
| İ/b mal-qara – | 140 baş |
| K/t maşınları – | 18 əd. |
| Avtobus – | 1 əd. |
| Avtomaşınlar (yük, minik) – | 22 əd. |
| Məscid – | 2 əd. |
| Anbar binaları – | 3 əd. |
| Ding və dəyirman – | 1 əd. |
| Transformator – | 1 əd. |
| Quşçuluq ferması – | 1 əd. |
| X/b mal-qara tövləsi – | 3 əd. |
| İ/b mal-qara tövləsi – | 3 əd. |

## DƏMİRÇİ (DƏMİRÇİLİ, KİÇİK ŞORLU DƏMİRÇİ)

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 6 km şimal-qərbdə, Zəngi çayının sağ sahilində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1832-ci ildə kənd **Dəmirçili** tayfası kimi siyahıya alınmış, bu tayfanın 29 ailədə 220 nəfərdən (118 kişi, 102 qadın) ibarət olduğu qeyd olunmuşdur. Sonrakı dövrlərdə kənd Şorlu kəndinin yanında kiçik kənd kimi mövcud olduğundan **Kiçik Şorlu//Şöllü Dəmirçi** adı ilə tanınmışdır.

1918-ci ildə kənd erməni vəhşiliyinin qurbanı olmuş, əhalisi qətl və qarətlərə məruz qalmış, kəndi müvəqqəti tərk etməyə məcbur olmuşlar.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisi geri qayıtmış, dağıdılmış ev-eşiklərini bərpa etməyə başlamışlar. O vaxtdan kənd bütün mənbələrdə ayrıca göstərilmişdir. Kənddə 1922-ci ildə 238 nəfər, 1926-cı ildə 471 nəfər, 1931-ci ildə 453 nəfər azərbaycanlı qeydə alınmışdır.

Kəndin **Kiçik Şorlu Dəmirçi** adı 1935-ci il yanvarın 3-də dəyişdirilərək sadəcə **Dəmirçi**, 1991-ci il aprelin 19-da Darpbnik qoyulmuşdur.

Lakin 1988-ci il soyqırımı zamanı Qərbi Azərbaycan ərazisindəki bütün azərbaycanlı kəndləri kimi, Dəmirçi kəndi də (bu vaxt kənddə 220 təsərrüfatda 1.300 nəfərdən çox əhali vardı) erməni vəhşiliyinin qurbanı oldu. Rayonun daşnak rəhbərliyinin iştirakı ilə kənd əhalisinə kəndi üç gün ərzində tərk etmək barədə ultimatum verildi və deyilən vaxtda – noyabrın 27-də erməni saqqallıları əhaliyə məxsus bütün ictimai və fərdi əmlakı əllərindən alaraq onları zorla İrəvan-Bakı qatarına mindirib kənddən qovdular.

Kəndin salınması ilə bağlı belə rəvayət var ki, bir gün kəndin sakinləri görüblər ki, göydən mələklər enib yerə, onların endikləri yerə müqəddəs qan ləkələri düşüb. Adamlar həmin yerdə məscid tikiblər və tezliklə məscidin ətrafında evlər peyda olub. Kənd beləcə salınıb. Həmin məscid binası kəndin mərkəzində yerləşirdi. XX yüzilin əvvəllərində tikilmiş bu məscid 1940-cı ilə qədər fəaliyyət göstərmiş, sonra dayandırılmış, bir də 1960-cı illərdə fəaliyyətini bərpa edib, 1988-ci ilə qədər kəndin dindarlarının ibadət yeri olmuşdur.

Kəndin əsasən iki qəbirstanlığı olub. Birincisi Şöllü kəndində yerləşib. Daha doğrusu, Şöllü kənd qəbirstanlığı ilə bir yerdə olub. Bu qəbiristanlıqda qoç qəbir daşları son illərə qədər qalmaqda idi. 1950-ci ildə Dəmirçi kəndinin öz qəbiristanlığı salınıb. Lakin son zamanlar kənddən rəhmətə gedənlərin əksəriyyəti məşhur Ağadədə ziyarətgahının qəbiristanlığında dəfn edilirdi.

**Dəmirçi kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| İdarə binası – | 1 əd. |
| Kino binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Əczaxana – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| X/b mal-qara – | 170 baş |
| İ/b mal-qara – | 100 baş |
| K/t maşınları – | 20 əd. |
| Avtobus – | 1 əd. |
| Avtomaşınlar (yük, minik) – | 14 əd. |
| Məscid – | 1 əd. |
| Anbar binaları – | 2 əd. |
| Ding və dəyirman – | 1 əd. |
| Transformator – | 2 əd. |
| Quşçuluq ferması – | 1 əd. |
| X/b mal-qara tövləsi – | 2 əd. |
| İ/b mal-qara tövləsi – | 2 əd. |

## SARVANLAR (ULİYA SARVANLAR)

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 6 km cənub-qərbdə, Zəngi çayının sağ sahilində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Mənbələr bu kəndin **Sarvanlar** adı ilə 1501-ci ildən məlum olduğunu təsdiq edir. Statistik məlumatlarda (1832, 1873, 1886 və s.) kənd **Uliya Sarvanlar** adı ilə qeydə alınmışdır.

Kənddə 1832-ci ildə 28 təsərrüfatda 153 nəfər (86 kişi, 67 qadın), 1873-cü ildə 110 təsərrüfatda 970 nəfər (516 kişi, 454 qadın), 1886-cı ildə 156 təsərrüfatda 1.024 nəfər (590 kişi, 434 qadın), 1905-ci ildə 1.465 nəfər, 1914-cü ildə 1.910 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-ci ildə kənd erməni daşnaklarının aramsız hücumları nəticəsində dağıdılmış, talan edilmiş, əhalisinin bir hissəsi qətlə yetirilmiş, sağ qalanlar kənddən qovulmuş, Türkiyə və İran ərazilərinə mühacirət etmişlər.

Sovet hakimiyyətinin ilk illərində kəndin qaçqın əhalisinin az bir qismi Vətənə qayıda bilmiş, 1922-ci ildə onların sayı 372 nəfər, 1926-cı ildə 418 nəfər, 1931-ci ildə 404 nəfər olmuşdur. Onlar dağıdılmış evlərini bərpa etmiş, təzədən özləri üçün gün-güzəran düzəltmişlər.

1988-ci ildə Qərbi Azərbaycan türklərinin növbəti soyqırımı zamanı kənd əhalisinin bütün var-dövləti əllərindən alınaraq, vəhşicəsinə qovulmuşlar. Bu hadisələr zamanı Sarvanlar kəndindən iki nəfər – **Əliyev Abbas Mürsəl oğlu** və **Abbasov Bəxtiyar Məhəmməd oğlu** ermənilər tərəfindən qəddarlıqla qətlə yetirilmişlər.

Kəndin əvvəlki **Uliya Sarvanlar** adı Sovet dövründə rəsmi sənədlərdə sadəcə **Sarvanlar** kimi qeydə alınmış və kəndin Sarvanlar rəsmi adı isə 1991-ci il aprelin 19-da dəyişdirilərək **Sis** qoyulmuşdur.

Kənd ərazisində beş qəbiristanlıq mövcud olmuşdur. Onlardan biri Ərzənli körpüsünün yanında, digəri Qara Şor deyilən yerdə, üçüncüsü Dəmirçi kanalının yanında (burada çoxlu qoç başdaşıları vardı), dördüncüsü “Ocaq“ ziyarətgahının yanında, beşincisi Qarasuyun kənarında yerləşirdi.

Kənddəki **Qara Pirim ocağı** və **Soybulaq** adamların inam yeri idi. **Qara Pirim ocağının** qabağında yulğun ağacı vardı, onu qıranda qan axırmış. Sultan adlı bir kişi bu yulğunun budağını qırıb gətirir evə, baxır ki, ağacdan qan axır, aparır molla yanına, molla deyir ki, apar qoy yerinə, sən böyük ziyan çəkəcəksən. Az sonra kişinin Qəmər adlı qızı təndirə düşüb yanır. Özü isə müharibəyə gedib, bir daha qayıtmır.

**Sarvanlar kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| İdarə binası – | 1 əd. |
| Kino binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Əczaxana – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Məktəb – | 2 əd. |
| X/b mal-qara – | 170 baş |
| İ/b mal-qara – | 100 baş |
| K/t maşınları – | 22 əd. |
| Avtobus – | 1 əd. |
| Avtomaşınlar (yük, minik) – | 8 əd. |
| Məscid – | 1 əd. |
| Anbar binaları – | 3 əd. |
| Ding və dəyirman – | 1 əd. |
| Transformator – | 1 əd. |
| Quşçuluq ferması – | 1 əd. |
| X/b mal-qara tövləsi – | 2 əd. |
| İ/b mal-qara tövləsi – | 2 əd. |

## RƏNCBƏR (ŞORKƏND)

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 12 km cənub-qərbdə, Araz və Böyük Qarasu çaylarının arasında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kənddə 1873-cü ildə 36 təsərrüfatda 197 nəfər (111 kişi, 86 qadın), 1886-cı ildə 39 təsərrüfatda 230 nəfər (132 kişi, 98 qadın), 1897-ci ildə 405 nəfər, 1905-ci ildə 226 nəfər, 1914-cü ildə 431 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ildə bölgədə erməni daşnaklarının törətdikləri vəhşiliklər nəticəsində Rəncbər kəndi də yerlə-yeksan edilmiş, əhalisinin bir hissəsi ermənilər tərəfindən qətlə yetirilmiş, sağ qalanlar Araz çayını keçərək əvvəl Türkiyəyə, sonra İrana sığınmışlar.

Sovet hakimiyyətinin ilk illərində kəndin qaçqın əhalisi doğma kəndə dönmüş, özlərinə təzədən ev-eşik düzəltməyə başlamışlar. 1922-ci ildə geri dönənlərin sayı cəmi 133 nəfər, 1926-cı ildə 204 nəfər olmuşdur. 1931-ci ildə kənddə 389 nəfər azərbaycanlı siyahıya alınmışdır.

1952-ci il aprelin 4-də kəndin təxminən yarısı Azərbaycana deportasiya olunmuş, Sabirabad rayonunun Həşimxanlı kəndində məskunlaşmışlar. Lakin bir müddət sonra köçürülən ailələrin əksəriyyəti geri qayıtmış, Sabirabad rayonunda təqribən 20 ailə qalmışdır.

1988-ci il hadisələri zamanı kəndin əhalisi növbəti dəfə soyqırımına məruz qalmış və həmin il noyabrın 28-də erməni millətçiləri tərəfindən işgəncələrlə kənddən qovulub çıxarılmışlar. Bu vaxt kənddə 500 təsərrüfatda 3.000 nəfərə qədər azərbaycanlı yaşayırdı. Həmin hadisələr zamanı kənddən dörd nəfər – **Bağır Nağıyev, Əli Rüstəmov, Yasin Cəfərov** və **Qurban Əzizov** erməni vəhşiliyinin qurbanı olmuşlar.

### Rəncbər kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı

| | |
|---|---|
| İdarə binası – | 1 əd. |
| Kino binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |

| | |
|---|---|
| Xəstəxana – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Əczaxana – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| X/b mal-qara – | 190 baş |
| İ/b mal-qara – | 120 baş |
| K/t maşınları – | 20 əd. |
| Avtobus – | 1 əd. |
| Avtomaşınlar (yük, minik) – | 10 əd. |
| Məscid – | 1 əd. |
| Anbar binaları – | 2 əd. |
| Ding və dəyirman – | 1 əd. |
| Transformator – | 1 əd. |
| Quşçuluq ferması – | 1 əd. |
| X/b mal-qara tövləsi – | 3 əd. |
| İ/b mal-qara tövləsi – | 2 əd. |

## ZƏNGİLƏR (DONUZYEYƏN, MƏSCİDLİ)

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 4 km şimal-qərbdə, Zəngi çayının sol tərəfində, bu çaydan ayrılan su arxının kənarında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1832-ci ildə kənddə 42 təsərrüfatda 355 nəfər (188 kişi, 167 qadın), 1873-cü ildə 110 təsərrüfatda 905 nəfər (497 kişi, 408 qadın), 1886-cı ildə 136 təsərrüfatda 1.012 nəfər (569 kişi, 443 qadın), 1897-ci ildə 1.077 nəfər, 1909-ci ildə 1.131 nəfər, 1914-cü ildə 1.464 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ildə Zəngibasar mahalının digər türk-müsəlman kəndləri kimi, Donuzyeyən kəndinin əhalisi də erməni daşnak qaniçənlərinin vəhşi hücumlarına məruz qalmış, kənd dağıdılmış, talan edilmiş, yandırılmış, əhalisinin bir hissəsi qəddarcasına qətlə yetirilmiş, sağ qalanlar doğma yurdu tərk etməyə məcbur olmuşlar.

Sovet hakimiyyətinin ilk illərində kəndin qaçqın əhalisinin bir qismi Vətənə qayıtmaq imkanı qazanmış, 1922-ci ildə onların sayı 399 nəfər olmuş, 1926-cı ildə 493 nəfərə, 1931-ci ildə 518 nəfərə çatmışdır.

1935-ci il yanvarın 3-də kəndin Donuzyeyən adı dəyişdirilərək **Zəngilər,** 1991-ci il aprelin 19-da isə **Zorak** qoyulmuşdur.

1949-cu ildə kəndin, demək olar ki, yarısı Azərbaycanın Sabirabad, Bərdə və Salyan rayonlarına deportasiya olunmuşdur. Sonralar onlardan 25 ailə təzədən geri – öz doğma kəndlərinə qayıda bilmişlər.

1988-ci il hadisələri zamanı kənd sakinlərindən **Məhərrəm Adoş oğlu Quliyev** ermənilər tərəfindən qəddarcasına qətlə yetirilmişdir. 1927-ci il təvəllüdlü **Xavər Həsən qızı Hacıyeva** hadisələr zamanı dəhşətli sarsıntı keçirmiş, Azərbaycana gəldikdən bir müddət sonra intihar etmişdir.

Kəndin 4 qəbiristanlığı olmuşdur. Onlardan biri məscidin dalında, digəri kəndin qırağında idi. Köhnə qəbiristanlıqda isə at, dəvə, qoç heykəlləri son vaxtlara qədər dururdu. Qəbirlərdən birinin üstündə qılınc şəkli aydınca görünürdü. Qəbiristanlıqdakı at heykəlli qəbir, deyilənə görə, kəndin pəhləvanı **Məhəmməd pəhləvanın,** qoç heykəlli qəbir isə **Palazqulaq pəhləvanın** qəbirləri idi. Mahalda onların arxasını yerə vuran olmamışdı.

Kəndin həm də 4 məscidi vardı Onlardan biri Necili tərəfdə kəndin qırağında idi, daşdan tikilmişdi və 1988-ci ilə qədər fəaliyyət göstərirdi. İkincisi Zəngi çayının qırağında yerləşirdi və 1960-cı illərdə uçmuşdu. Üçüncüsü kəndin içində idi, xarabalıqları dururdu.

**Zəngilər kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| İdarə binası – | 1 əd. |
| Kino binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Əczaxana – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Kitabxana – | 2 əd. |
| Məktəb – | 1 əd. |
| X/b mal-qara – | 110 baş |
| İ/b mal-qara – | 130 baş |
| K/t maşınları – | 23 əd. |
| Avtobus – | 1 əd. |
| Avtomaşınlar (yük, minik) – | 10 əd. |
| Məscid – | 1 əd. |
| Anbar binaları – | 3 əd. |
| Ding və dəyirman – | 1 əd. |
| Transformator – | 1 əd. |
| Quşçuluq ferması – | 1 əd. |
| X/b mal-qara tövləsi – | 2 əd. |
| İ/b mal-qara tövləsi – | 2 əd. |

## HƏBİLKƏND (BULAQLI, KALİNİN QƏSƏBƏSİ)

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 8 km cənubda, Zəngi çayı ilə Böyük Qarasu çayı arasında, hər iki çayın Araza töküldüyü yerin yaxınlığında, Zəngi çayının sağ sahilində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1832-ci ildə kənddə 17 təsərrüfatda 85 nəfər (50 kişi, 35 qadın), 1873-cü ildə 25 təsərrüfatda 183 nəfər (109 kişi, 74 qadın), 1886-cı ildə 35 təsərrüfatda 222 nəfər (129 kişi, 93 qadın), 1897-ci ildə kənddə 234 nəfər, 1905-ci ildə 256 nəfər, 1914-cü ildə 376 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ilin əvvəllərində kənd erməni daşnaklarının hərbi hücumuna məruz qalmış, dağıdılmış, talanmış, əhalisinin bir hissəsi vəhşicəsinə qətlə yetirilmişdir. Sağ qalanlar baş götürüb Cənubi Azərbaycana və Türkiyəyə pənah aparmışlar.

1926-cı ilə qədər kənd xaraba qalmışdır. Yalnız həmin il kəndin keçmiş sakinlərindən 36 nəfər öz doğma kəndlərinə qayıda bilmiş, təzədən ev-eşik tikib yaşamağa başlamışlar.

1931-ci ildə kənddə 75 nəfər qeydə alınmışdır. Sonralar kənd sürətlə inkişaf etmiş, kənddə müxtəlif sosial və inzibati binalar tikilib istifadəyə verilmiş, əhalisi xeyli artmışdır. 1948-ci il üçün artıq burada 34 təsərrüfatda 256 nəfər azərbaycanlı yaşayırdı.

Lakin 1948-1949-cu illərdə Zəngibasarın digər kəndləri ilə birgə həbilkəndlilər də Azərbaycana deportasiya olunmuşlar. Az sonra kənd camaatının bir hissəsi geri qayıtmış, 1950-ci illərdə Həbilkəndin bazasında və artıq rəsmi olaraq ləğv edilmiş qonşu Qulucan, Reyhanlı, Sarıcalar və Seyidkənd kəndlərinin ərazisində Kalinin adına sovxoz-qəsəbə yaradılmış, kəndin Həbilkənd adı **Kalinin** adı ilə əvəz edilmişdir.

1988-ci ildə kəndin azərbaycanlı əhalisi növbəti dəfə soyqırımına məruz qalmış, bütün var-dövlətləri əvəzi ödənilmədən əllərindən alınaraq Azərbaycana qovulmuşlar. 1991-ci il aprelin 19-da kəndin Kalinin adı da dəyişdirilərək Noramarq qoyulmuşdur.

Həbilkənd Zəngibasar mahalının qədim kəndlərindən idi. Uluxanlıdan cənubda yerləşir, ərazisi qərbdən şərqə Ağrıdağın şimal ətəyindən Araz çayının sol sahilində Qarasu çayına qədər uzanırdı. Zəngi və Qarasu çayının Araza töküldüyü sahələr bu kəndin torpaqları hesab olunurdu. Zəngi çayının sağ sahilində **Ağadədə** adlanan qədim ziyarətgah yerləşirdi. Ziyarətgahın ərazisində qədim Türk-Oğuz mədəniyyətinin izlərini yaşadan tarixi abidələr vardı.

**Həbilkənd kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| İdarə binası – | 1 əd. |
| Kino binası – | 1 əd. |
| Mədəniyyət evi – | 2 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Əczaxana – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Məktəb – | 2 əd. |
| X/b mal-qara – | 180 baş |
| İ/b mal-qara – | 130 baş |
| K/t maşınları – | 20 əd. |
| Avtobus – | 1 əd. |
| Avtomaşınlar (yük, minik) – | 12 əd. |
| Məscid – | 2 əd. |
| Anbar binaları – | 2 əd. |
| Ding və dəyirman – | 1 əd. |
| Transformator – | 3 əd. |
| Quşçuluq ferması – | 1 əd. |
| X/b mal-qara tövləsi – | 2 əd. |
| İ/b mal-qara tövləsi – | 2 əd. |

## REYHANLI

Zəngibasar mahalında, Araz çayı ilə Zəngi çayının kəsişdiyi yerdə, Həbilkənd kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1832-ci ildə kənddə 12 təsərrüfatda 80 nəfər (49 kişi, 31 qadın), 1873-cü ildə 31 təsərrüfatda 277 nəfər (147 kişi, 130 qadın),1886-cı ildə 56 təsərrüfatda 308 nəfər (165 kişi, 143 qadın), 1905-ci ildə 405 nəfər, 1914-cü ildə 599 nəfər Azərbaycan türkü yaşamışdır.

1918-ci ildə Zəngibasar mahalının başqa kəndləri kimi, Reyhanlı kəndi də erməni-daşnak təcavüzünə məruz qalmış, kənd dağıdılmış, talan edilmiş, yandırılmış, əhalisinin bir hissəsi erməni qaniçənləri tərəfindən qətlə yetirilmiş, sağ qalanlar elindən-obasından didərgin salınmışlar.

Sovet hakimiyyətinin ilk illərində Vətənə qayıtmaq imkanı qazanmış reyhanlılar kəndi yenidən bərpa etmişlər. 1931-ci ildə onların sayı cəmi 133 nəfər olmuşdur. Tezliklə kənd sürətlə inkişaf etmiş, böyümüş, əhalisinin sayı artıb, 57 təsərrüfatda 442 nəfərə çatmışdır. Lakin onlar da 1948-1953-cü illər deportasiyasının qurbanı olaraq Azərbaycana qovulmuşlar.

İ.Stalinin ölümündən sonra reyhanlıların əksəriyyəti geri qayıtmışlar. Lakin bu vaxt Reyhanlı bir kənd kimi ləğv edilmiş, adamlar öz kəndlərində yaşasalar da, əslində Həbilkənd (Kalinin) qəsəbəsinin sakinləri sayılmışlar.

Kənd əhalisinin sonrakı taleyi isə 1988-ci il soyqırımı ilə nəticələnmiş, onlar öz ata-baba yurdlarından növbəti dəfə qəddarlıqla qovulmuşlar.

## SEYİDKƏND (ŞURAKƏND)

Zəngibasar mahalında, rayon mərkəzi olan Uluxanlı qəsəbəsindən 8-10 km cənub-qərbdə, Araz çayı kənarında, Həbilkənd kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1832-ci ildə kənddə 20 təsərrüfatda 113 nəfər (59 kişi, 54 qadın) müsəlman əhali siyahıya alınmışdır.

1873-cü ilin statistik məlumatlarında Araz çayı yaxınlığında yerləşdirilən bu kənddə 50 təsərrüfatda 345 nəfər (188 kişi, 157 qadın) Azər türkünün yaşadığı göstərilmiş, 1886-cı ildə kənd əhalisinin sayı 60 təsərrüfatda 346 nəfərə (182 kişi, 164 qadın) çatmışdır.

1897-ci ildə kənddə 489 nəfər, 1905-ci ildə 410 nəfər, 1914-cü ildə 705 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ildə kənd erməni-daşnak quldur dəstələri tərəfindən dağıdılmış, talan edilmiş, əhalisinin bir hissəsi qətlə yetirilmiş, sağ qalanlar İrana, Türkiyəyə mühacirət etmişlər.

Bölgədə Sovet hakimiyyətinin qurulmasından sonra kəndin qaçqın əhalisi Vətənə qayıtmaq imkanı əldə etmiş və 1922-ci ildə onlardan 199 nəfəri geri dönə bilmişdir. 1926-cı ildə kənddə 131 nəfər, 1931-ci ildə 118 nəfər azərbaycanlı yaşamışdır.

1948-1953-cü illər deportasiyası zamanı kəndin bütün əhalisi zorla Azərbaycana köçürülmüş, kənd ləğv edilmişdir. Sonralar geri qayıdan seyidkəndlilər doğma kəndlərində məskunlaşsalar da, Seyidkənd də daxil olmaqla ləğv edilmiş bir neçə kəndin ərazisində yaradılmış Həbilkənd (Kalinin) qəsəbəsiin tərkibində sayılmışlar.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kənd əhalisi növbəti dəfə doğma yurdlarından vəhşicəsinə qovulmuşlar.

## SARICALAR (CAHANŞADİLLİ)

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 8 km cənub-qərbdə, Araz çayı ilə Zəngi çayı arasında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

1832-ci ildə kənddə 18 təsərrüfatda 107 nəfər (59 kişi, 48 qadın) müsəlman əhali siyahıya alınmışdır.

1873-cü ilin statistik məlumatlarında kənddə 56 təsərrüfatda 359 nəfər (201 kişi, 158 qadın) Azərbaycan türkünün yaşadığı göstərilmişdir.

1886-cı ildə kənd əhalisinin sayı 70 təsərrüfatda 440 nəfərə (260 kişi, 180 qadın), 1905-ci ildə 638 nəfərə, 1914-cü ildə 811 nəfərə çatmışdır.

1918-ci ildə kənd Andranikin başçılıq etdiyi erməni-daşnak quldur dəstələri tərəfindən dağıdılmış, var-dövləti talan olunub, əhalisinin bir qismi ermənilərə xas qəddarlıqla qətlə yetirilmiş, sağ qalanlar kənddən vəhşicəsinə qovulmuşlar. Kənd bir neçə il xaraba qalmışdır.

Sovet hakimiyyətinin ilk illərində kəndin mühacir əhalisinin az bir hissəsi Vətənə qayıda bilmişdir. Geri qayıdanların sayı 1922-ci ildə 207 nəfər olmuş, 1926-cı ildə 224 nəfərə, 1931-ci ildə 168 nəfərə çatmışdır.

1950-ci ildə kənd əhalisi zorla Azərbaycana deportasiya olunmuş, kənd isə ləğv edilərək qonşu Həbilkəndlə birləşdirilmişdir. Az sonra geri qayıdan sarıcalarlılar doğma kəndlərində yaşasalar da, əslində Həbilkənd, Sarıcalar, Seyidkənd, Reyhanlı və Qulucan kəndlərinin ərazisində yaradılan Kalinin qəsəbə-sovxozunun tərkibində hesab olunmuşlar.

1988-ci ildə kənd əhalisi növbəti dəfə soyqırımına məruz qalaraq doğma yurdlarından qəddarcasına qovulmuşlar.

Qədim Sarıcalar kəndinin və oradakı kənd qəbiristanlığının xarabalıqları 1960-cı illərə qədər qalmaqda idi. 1960-cı illərdə ermənilər onları düzləyib, bu qədim türk yurdunun izini itirdilər.

## YUXARI NECİLİ (HƏSƏNƏVAR, PALASLI, BALAŞLI NECİLİ, NİZAMİ)

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı kəndindən 1,5 km şimalda, Zəngi çayının sol kənarında kənd.

Kənddə 1950-ci ilə qədər ancaq Azərbaycan türkləri (1828-ci ildən sonrakı qısa müddət istisna olmaqla), 1951-1988-ci illərdə isə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar. 1988-ci ildə kənd bütünlüklə erməniləşdirilmişdir.

1832-ci ildə kənddə 20 təsərrüfatda 155 nəfər (86 kişi, 69 qadın) Azərbaycan türkü, 14 təsərrüfatda 76 nəfər (38 kişi, 38 qadın) İrandan mühacirət etmiş gəlmə erməni qeydə alınmışdır.

1873-cü ilin statistik məlumatlarında kənddə 75 təsərrüfatda 540 nəfər (317 kişi, 223 qadın) Azərbaycan türkünün yaşadığı göstərilmişdir. 1873-cü ildə kənddə bir nəfər də erməninin qeydə alınmaması təsdiq edir ki, 1828-1829-cu illərdə kəndə köçürülən 76 nəfər İran ermənisi az sonra kəndi tərk edib, digər yaşayış məntəqələrinə getmişlər.

1886-cı ildə kənddə 101 təsərrüfatda 654 nəfər (376 kişi, 278 qadın), 1897-ci ildə 791 nəfər, 1905-ci ildə 933 nəfər, 1914-cü ildə 995 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-ci ildə kəndə hücum edən erməni daşnak silahlı dəstələri kəndi talamış, əhalisinin bir hissəsini qətlə yetirmiş, sağ qalanlar Arazı keçib, Türkiyəyə, İrana mühacirət etmişlər. Kənd bir neçə il xaraba qalmış, yalnız Sovet hakimiyyətinin ilk illərində kəndin qaçqın əhalisinin bir hissəsi doğma yurda qayıtmaq imkanı əldə etmişdir. Əhali dağıdılmış, yandırılmış evlərini təzədən bərpa etmiş, kəndi abadlaşdırmışdır. 1922-ci ildə onların sayı 319 nəfər, 1926-cı ildə 361 nəfər, 1931-ci ildə 379 nəfər olmuşdur.

1948-1953-cü illərdə Yuxarı Necili kənd əhalisinin bir hissəsi zorla Azərbaycana deportasiya olunmuş, Ucar rayonuna köçürülmüşlər. Lakin Zəngibasardan kəskin şəkildə fərqli iqlim şəraitinə uyğunlaşa bilməyən camaat bir müddət sonra geri qayıtmışdır.

Zəngibasarın bərəkətlə və abad kəndlərini erməniləşdirmək ermənilərin çoxdankı arzusu idi. Ona görə də kəndi tədricən erməniləşdirmək məqsədilə bura 1951-ci ildə Ellər (Kotayk) rayonunun Artız kəndindən 50 erməni ailəsi köçürülüb gətirilmişdi.

1978-ci il yanvarın 25-də kəndin Yuxarı Necili adı dəyişdirilərək **Nizami** qoyulmuşdur.

1988-ci il soyqırımı həmin ilin noyabrının sonunda Yuxarı Necili

kəndini də haqlamış, rayonun bütün dövlət və inzibati orqanlarının iştirakı ilə kəndin azərbaycanlı əhalisi ermənilərə xas vəhşiliklə öz dədə-baba ocaqlarından qovulub çıxarılmışlar. Həmin hadisələr zamanı kəndin 1932-ci il təvəllüdlü sakini – **Mehdiyev Sabir Qurbanəli oğlu** ermənilər tərəfindən qətlə yetirilmişdir.

Yuxarı Necili kəndində keçmişdə bir qəbiristanlıq, bir məscid olmuşdur. Qəbiristanlıq zəvvar yolunun kənarında olduğu üçün ətraf kəndlərdən ən hörmətli adamların cənazələrini gətirib, burada dəfn edərdilər ki, zəvvarlar rəhmət oxusunlar. Deyilənə görə, həmin qəbiristanlığın yeri təxminən 300 il əvvəl necililər tərəfindən xanlıqdan qızıl pulla alınmışdı.

### Yuxarı Necili kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı

| | |
|---|---|
| İdarə binası – | 1 əd. |
| Kino binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Əczaxana – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| X/b mal-qara – | 130 baş |
| İ/b mal-qara – | 120 baş |
| K/t maşınları – | 21 əd. |
| Avtobus – | 1 əd. |
| Avtomaşınlar (yük, minik) – | 12 əd. |
| Məscid – | 1 əd. |
| Anbar binaları – | 3 əd. |
| Ding və dəyirman – | 1 əd. |
| Transformator – | 2 əd. |
| Quşçuluq ferması – | 1 əd. |
| X/b mal-qara tövləsi – | 3 əd. |
| İ/b mal-qara tövləsi – | 3 əd. |

## AŞAĞI NECİLİ

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 2 km qərbdə, Uluxanlı dəmiryol stansiyasının yaxınlığında, Zəngi çayının sol sahilində kənd.

Kənddə 1950-ci ilə qədər (1828-ci ildən sonrakı qısa bir müddət istisna olmaqla) ancaq Azərbaycan türkləri, 1950-1988-ci illərdə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

1832-ci ilin statistikasında kənddə 45 təsərrüfatda 411 nəfər (203 kişi, 208 qadın) azərbaycanlı, 24 təsərrüfatda 114 nəfər (68 kişi, 46 qadın) İrandan köçürülüb gətirilmiş erməni siyahıya alınsa da, gəlmə ermənilər burada uzun müddət yaşamamış və 1873-cü ildə kənddə artıq ancaq azərbaycanlı əhali qeydə alınmışdır: 125 təsərrüfatda 1.183 nəfər (613 kişi, 570 qadın).

1886-cı ildə kənddə 168 təsərrüfatda 1.147 nəfər (649 kişi, 498 qadın), 1897-ci ildə 1.178 nəfər, 1905-ci ildə 1.430 nəfər, 1914-cü ildə 1.573 nəfər azərbaycanlı yaşamışdır.

1918-1919-cu illərdə kəndin əhalisi erməni daşnakları tərəfindən doğma yurdundan qovulmuş və Türkiyə ərazisinə sığınmışdır. Kənd isə ermənilər tərəfindən darmadağın edilmiş, əhalinin bir hissəsi qətlə yetirilmişdir.

Sovet hakimiyyətinin ilk illərində kəndin qaçqın əhalisinin bir qismi doğma yurda qayıtmış, kəndi təzədən bərpa edib, yaşamağa başlamışlar. 1922-ci ildə kənddə 555 nəfər, 1926-cı ildə 726 nəfər, 1931-ci ildə 627 nəfər azərbaycanlı qeydə alınmışdır.

1950-ci ildə kəndin azərbaycanlı əhalisinin bir hissəsi deportasiya olunmuş və kənddə xaricdən gətirilmiş erməni ailələrinin yerləşdirilmişdir.

1978-ci il yanvarın 25-də kəndin Aşağı Necili adı dəyişdirilərək **Sayat Nova** qoyuldu.

1988-ci ildə kənddə 490 təsərrüfat vardı. Onun 90-ı erməni, 10-12-i müsəlman kürdü, qalanları (təqribən 390-ı) azərbaycanlılar idilər.

1988-ci il soyqırımı Aşağı Necili kəndində də azərbaycanlı əhalinin doğma yurdundan vəhşicəsinə qovulması ilə nəticələndi. Ermənilərin Aşağı Necili kəndinə ən dağıdıcı hücumu 1988-ci il iyunun 18-də oldu. Həmin gün ermənilər Aşağı Necili kəndinə bir neçə istiqamətdən hücuma keçdilər. Evlər dağıdıldı, yandırıldı. Bu vəhşi aksiyaya rayonun erməni rəhbərləri özləri başçılıq edirdilər.

Kəndin iki məscidi vardı, biri kəndin cənub hissəsində, digəri Zəngi çayına yaxın yerdə idi. **Köhnə məscidin** xarabalıqları dururdu və onun nə vaxtdan tikildiyi məlum deyildi. **Təzə məscid** XX yüzilin əvvəllərində tikilmişdi. Aşağı Necili camaatı dini adət, mərasim və ayinləri həmişə

ciddi şəkildə gözləyər və bunlara əməl edərdilər.

Kəndin iki də müsəlman qəbiristanlığı vardı. **Köhnə qəbiristanlıq** Zəngi çayının o tayında yerləşirdi. **Təzə qəbiristanlıq** kəndin içində, məscid binasının arxa tərəfində, Zəngiyə doğru idi. 1950-ci ildən etibarən kənddə məskunlaşmağa başlayan gəlmə ermənilər isə özlərinə yeni erməni qəbiristanlığı salmışdılar.

Kəndin təzə müsəlman qəbiristanlığında **Mir Abbas ağanın** qəbri yerləşirdi ki, bu qəbir ocağa çevrilmişdi. Kənddə and içəndə Mir Abbas ağanın qəbrinə and içir, onun ocağına qurban deyir, niyyət edirdilər.

**Hacı Mir Cəlil ağanın** ocağı da adamların iman yeri idi.

### Aşağı Necili kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı

| | |
|---|---|
| İdarə binası – | 1 əd. |
| Kino binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Əczaxəna – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| X/b mal-qara – | 115 baş |
| İ/b mal-qara – | 110 baş |
| K/t maşınları – | 23 əd. |
| Avtobus – | 1 əd. |
| Avtomaşınlar (yük, minik) – | 10 əd. |
| Məscid – | 1 əd. |
| Anbar binaları – | 2 əd. |
| Ding və dəyirman – | 1 əd. |
| Transformator – | 2 əd. |
| Quşçuluq ferması – | 1 əd. |
| X/b mal-qara tövləsi – | 2 əd. |
| İ/b mal-qara tövləsi – | 2 əd. |

## RƏHİMABAD

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 9 km şimal-qərbdə, Zəngi çayının sağ kənarında, Mehmandar kəndindən 2 km-lik məsafədə, İrəvan-Üçkilsə yolunun kənarında kənd.

1948-1949-cu illər deportasiyasına qədər kənddə ancaq Azərbaycan türkləri, həmin tarixdən etibarən azərbaycanlılarla yanaşı, həm də ermənilər yaşamışlar.

1832-ci ilin statistikasında kənd Sərdarabad mahalının xaraba kəndləri siyahısına daxil edilmişdir.

1886-cı ilin statistik məlumatlarında isə kənddə 15 təsərrüfatda 113 nəfər (65 kişi, 48 qadın) Azərbaycan türkünün yaşdığı göstərilmişdir.

Kənd əhalisinin sayı 1897-ci ildə 183 nəfər, 1905-ci ildə 131 nəfər, 1914-cü ildə 223 nəfər təşkil etmişdir.

1918-ci ildə kənd erməni təcavüzünün qurbanı olmuş, dağıdılmış, əhalisinin bir hissəsi qətlə yetirilmiş, sağ qalanlar Araz çayını keçib, Türkiyəyə pənah aparmışlar.

Sovet hakimiyyətinin ilk illərində Vətənə qayıtmaq imkanı əldə etmiş rəhimabadlılardan 1922-ci ildə 152 nəfər geri dönmüşdür. 1926-cı ildə onların sayı 242 nəfər, 1931-ci ildə isə 188 nəfər olmuşdur.

1949-cu ildə kəndin bütün əhalisi zorla Azərbaycana deportasiya olunmuş, lakin bir neçə il sonra onların bir hissəsi – təxminən 20-30 ailə Vətənə qayıtmışlar.

Lakin sonrakı illərdə də azərbaycanlıların sıxışdırılması ara verməmişdir. Məsələn, 1964-cü ildə yenidən baş qaldırmağa başlayan erməni millətçiləri Rəhimabadda ağır seyid Mir Qafar ağanın evini talayıb dağıtmış, özünü də öldürmüşdülər.

1988-ci ildə kənd növbəti dəfə ermənilər tərəfindən soyqırımına məruz qalmış, orada yaşayan 100-dən çox azərbaycanlı ailəsi vəhşicəsinə qovularaq doğma yurdlarından çıxarılmışlar.

## MEHMANDAR (ŞORLU MEHMANDAR)

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 11 km şimal-qərbdə, Zəngi çayının sağ kənarında kənd.

1948-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri, 1948-ci ildən 1988-ci ilə qədər azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

1832-ci ildə kənddə 69 təsərrüfatda 406 nəfər (228 kişi, 178 qadın), 1873-cü ildə 160 təsərrüfatda 1.573 nəfər (884 kişi, 689 qadın), 1886-cı ildə 173 təsərrüfatda 1.432 nəfər (835 kişi, 597 qadın), 1897-ci ildə 1.824 nəfər, 1905-ci ildə 1.455 nəfər, 1914-cü ildə 1.632 nəfər Azərbaycan türkü yaşamışdır.

1918-ci ildə İrəvan qəzasının digər müsəlman kəndləri kimi, Mehmandar kəndi də erməni daşnaklarının vəhşi hücumlarına məruz qalmış, kənd ermənilər tərəfindən yerlə-yeksan edilmişdir. Sağ qalan əhali Arazın o tayına – Türkiyə ərazisinə pənah aparmışdır.

Bir neçə il kənd xaraba qalmış, yalnız bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kənd əhalisinin sağ qalan qismi yavaş-yavaş doğma torpaqlara qayıtmağa başlamışlar. 1922-ci ildə kəndə qayıdanların sayı 788 nəfər, 1926-cı ildə 1.010 nəfər, 1931-ci ildə 778 nəfər olmuşdur. Əhali kəndi yenidən bərpa etmiş, təsərrüfatı dirçəltmiş, güzəranlarını yaxşılaşdırmağa başlamışlar.

1940-cı illərdə Çobankərə kəndinin ləğvi ilə əlaqədar bu kəndin camaatı Mehmandar kəndinə köçməyə məcbur edilmişdir.

Mehmandar kənd azərbaycanlılarının növbəti soyqırımı 1948-1949-cu illərdə baş vermiş, kəndin əhalisi deportasiya olunaraq Azərbaycanın Ağcabədi rayonuna köçürülmüşlər. Lakin düşən ilk fürsətdə onlardan 100-dən çox ailə tədricən geri qayıtmış, doğma kəndlərində məskunlaşmağa çalışmışlar. Amma bu vaxt artıq kənddə "Ermənistanın" Ağin və Artik rayonlarından xeyli erməni gətirilib yerləşdirilmişdi. Ona görə də geri dönənlərin çoxu qonşu Rəhimabad kəndində ev tikib yaşamağa məcbur olurlar.

1935-ci il yanvarın 3-də kəndin Şorlu Mehmandar adı dəyişdirilərək **Mehmandar,** 1978-ci il yanvarın 25-də isə yenidən dəyişdirilərək **Hovtaşat** qoyulmuşdur.

1988-ci ildə kənd əhalisi yenidən soyqırımına məruz qalaraq ermənilərə xas vəhşiliklə sonuncu nəfərinə qədər dədə-baba yurdlarından qovulmuşlar. Bu hadisələr zamanı Mehmandar kəndindən bütöv bir ailə – dörd nəfər Cəfərovlar ailəsi ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir.

Mehmandar kəndindəki **Hacı Abbas məscidi** təxminən 1840-cı illərdə Qırmızı kərpicdən tikilmişdi və onu tikdirən şəxsin – Hacı Abbasın adını daşıyırdı. Deyilənə görə, bu məscidi Türkiyədən və İrandan gətirilmiş ustalar tikmişdilər. Həmin məscid Zəngibasar və Üçkilsə mahallarının bütün müsəlman əhalisinin ibadətgahına çevrilmişdi.

1915-1918-ci illər erməni-müsəlman qırğınları zamanı kəndin müsəlman əhalisi ən təhlükəli vaxtlarda arvad-uşağı Hacı Abbas məscidinə yığar, əlitüfəngli kişilər isə səhərə qədər məscidin ətrafında keşik çəkərdilər.

**Mehmandar kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| İdarə binası – | 2 əd. |
| Kino binası – | 1 əd. |
| Mədəniyyət evi – | 2 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| Xəstəxana – | 2 əd. |
| Uşaq bağçası – | 2 əd. |
| Poçt – | 1 əd. |
| Əczaxana – | 2 əd. |
| Yeməkxana – | 1 əd. |
| Kitabxana – | 2 əd. |
| Məktəb – | 2 əd. |
| X/b mal-qara – | 210 baş |
| İ/b mal-qara – | 200 baş |
| K/t maşınları – | 33 əd. |
| Avtobus – | 1 əd. |
| Avtomaşınlar (yük, minik) – | 14 əd. |
| Məscid – | 4 əd. |
| Anbar binaları – | 2 əd. |
| Ding və dəyirman – | 2 əd. |
| Transformator – | 2 əd. |
| Quşçuluq ferması – | 2 əd. |
| X/b mal-qara tövləsi – | 2 əd. |
| İ/b mal-qara tövləsi – | 2 əd. |

## ŞORLU (ŞORLU DƏMİRÇİ, BÖYÜK ŞORLU DƏMİRÇİ, ŞÖLLÜ)

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 3 km şimal-qərbdə, Zəngi çayının sol kənarında kənd.

1920-ci illərə qədər kənddə ancaq Azərbaycan türkləri, həmin vaxtdan 1988-ci ilə qədər azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

1832-ci ildə kənddə 46 təsərrüfatda 338 nəfər (196 kişi, 142 qadın), 1873-cü ildə 125 təsərrüfatda 1.400 nəfər (751 kişi, 649 qadın), 1886-cı 150 təsərrüfatda 1.318 nəfər (741 kişi, 577 qadın), 1897-cı ildə 1.360 nəfər, 1905-ci ildə 1.432 nəfər, 1914-cü ildə 2.216 nəfər Azərbaycan türkü yaşamışdır.

1918-ci ilin əvvəllərində Qərbi Azərbaycanda Andranikin erməni quldur dəstələrinin vəhşi hücumlarına ilkin məruz qalan ən böyük azərbaycanlı yaşayış məntəqələrindən biri də Şorlu kəndi olmuşdur. Bu vaxt kənddə 2.500 nəfərə qədər dinc sakin yaşayırdı. Erməni cəlladları kəndi darmadağın etmiş, talamış, sonra od vurub yandırmış, əhalisinin bir hissəsini qətlə yetirmiş, sağ qalanları doğma yurddan didərgin salmışlar.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisinin çox az bir hissəsi doğma kəndinə qayıda bilmişdir. 1922-ci ildə onların sayı 492 nəfər, 1926-cı ildə 687 nəfər, 1931-ci ildə 601 nəfər olmuşdur.

Geri qayıtmayanların bir hissəsi Türkiyə ərazisində həmişəlik məskunlaşmış, bir hissəsi isə Naxçıvana köçüb, burada yaşamışlar.

Böyük Şorlu Dəmirçi kəndində ilk ermənilər (cəmi 14 nəfər) 1926-cı ilin siyahıyaalmasında qeydə alınmışdır. Kəndə ermənilərin əsas köçü 1949-1950-ci illərdə azərbaycanlılar deportasiya olunduqdan sonra başlamışdır. Həmin erməniləri, demək olar ki, əksəriyyəti 1946-1947-ci illərdə müxtəlif xarici ölkələrdən köçürülüb gətirilən ermənilər idi.

Deportasiya olunan şorlular isə o vaxt əsasən Azərbaycanın İmişli və Bərdə rayonlarında məskunlaşdırılmışdılar. Sonralar İmişlidəki şorlulardan 30-40 ailə geri qayıdıb doğma yurdda yaşamaqda davam etmişlər.

1978-ci il yanvarın 25-də kəndin Şorlu adı dəyişdirilərək **Daştavan** qoyulmuş, bu qədim türk toponimi beləcə erməniləşdirilmişdir.

Şorlular növbəti dəfə erməni vəhşiliyi ilə 1988-ci ildə qarşılaşdılar. Daşnakların ilk hücumları bu dəfə də bu kəndə oldu. Təqib və təzyiqlər altında kəndin azərbaycanlı əhalisi yurdundan qovuldu.

**Şorlu kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| İdarə binası – | 1 əd. |
| Kino binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Əczaxana – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| X/b mal-qara – | 160 baş |
| İ/b mal-qara – | 140 baş |
| K/t maşınları – | 27 əd. |
| Avtobus – | 1 əd. |
| Avtomaşınlar (yük, minik) – | 6 əd. |
| Məscid – | 1 əd. |
| Anbar binaları – | 2 əd. |
| Ding və dəyirman – | 1 əd. |
| Transformator – | 1 əd. |
| Quşçuluq ferması – | 1 əd. |
| X/b mal-qara tövləsi – | 2 əd. |
| İ/b mal-qara tövləsi – | 3 əd. |

## ARBAT

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 16 km şimal-qərbdə, Zəngi çayının sağ tərəfində kənd.

1918-ci ilə qədər (1828-ci ildən sonrakı qısa bir dövr istisna olmaqla) kənddə ancaq Azərbaycan türkləri, 1922-1988-ci illərdə isə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

1832-ci ildə kənddə 50 təsərrüfatda 264 nəfər (139 kişi, 125 qadın) azərbaycanlı, 31 təsərrüfatda 127 nəfər (61 kişi, 66 qadın) İrandan gəlmə erməni qeydə alınmışdır. 1873-cü ilin statistikasında kənddə ancaq azərbaycanlıların qeydə alınması – 74 təsərrüfatda 527 nəfər (280 kişi, 247 qadın) – söyləməyə əsas verir ki, gəlmə ermənilər sonrakı illərdə kəndi tərk edib, erməni qaçqınlarının çoxluq təşkil etdiyi kəndlərə köçüb getmişlər.

1886-cı il siyahıyaalması zamanı da kənddə ancaq Azərbaycan türkləri qeydə alınmışlar: 88 təsərrüfatda 538 nəfər (314 kişi, 224 qadın).

Kənddə 1897-ci ildə 671 nəfər, 1905-ci ildə 754 nəfər, 1914-cü ildə 780 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-1919-cu illərdə Arbat kəndi erməni vəhşilərinin hücumuna məruz qalmış, talan edilmiş, dağıdılmış, yandırılmış, əhalisinin bir hisəsi qətlə yetirilmiş, sağ qalanlar isə Arazın o tayına – Türkiyəyə pənah aparmışlar.

1922-ci ildə kəndin qaçqın əhalisinin az bir hissəsi doğma yurduna qayıda bilmiş, lakin qayıdıb kənddə erməni daşnakları tərəfindən yerləşdirilmiş Türkiyədən gəlmə ermənilərlə qarşılaşmışlar. O vaxtdan da kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kəndə çevrilmişdir. Lakin üstünlük yenə də yerli əhalidə – azərbaycanlılarda olmuşdur. Belə ki, 1922-ci ildə kənddə 263 nəfər azərbaycanlı, 138 nəfər erməni, 1926-cı ildə 341 nəfər azərbaycanlı, 214 nəfər erməni, 1931-ci ildə 356 nəfər azərbaycanlı, 263 nəfər erməni siyahıya alınmışdır.

1948-1949-cu illərin məlum deportasiyası zamanı isə kəndin bütün azərbaycanlı əhalisi zorla Azərbaycana köçürülmüşdür. Sonralar tək-tək ailələr geri qayıdıb kənddə yaşasalar da, 1988-ci il soyqırımı zamanı onlar da kənddən qovulmuş və bu qədim Azərbaycan kəndi tamamilə erməniləşdirilmişdir.

**Arbat kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| İdarə binası – | 1 əd. |
| Kino binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Əczaxana – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| X/b mal-qara – | 190 baş |
| İ/b mal-qara – | 100 baş |
| K/t maşınları – | 21 əd. |
| Avtobus – | 1 əd. |
| Avtomaşınlar (yük, minik) – | 12 əd. |
| Məscid – | 1 əd. |
| Anbar binaları – | 3 əd. |
| Ding və dəyirman – | 1 əd. |
| Transformator – | 1 əd. |
| Quşçuluq ferması – | 1 əd. |
| X/b mal-qara tövləsi – | 3 əd. |
| İ/b mal-qara tövləsi – | 2 əd. |

## ULUXANLI

Zəngibasar mahalının, sonralar Zəngibasar rayonunun inzibati mərkəzi, İrəvan şəhərindən 20 km-lik məsafədə, İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin üstündə, Zəngi çayının sol tərəfində kənd, 1971-ci ildən şəhərtipli qəsəbə.

1918-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri, 1921-ci ildən 1988-ci ilə qədər azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

1832-ci ildə kənddə 311 təsərrüfatda 1.737 nəfər (970 kişi, 767 qadın), 1873-cü ildə 454 təsərrüfatda 2.968 nəfər (1.549 kişi, 1419 qadın), 1886-cı ildə 493 təsərrüfatda 3.062 nəfərə (1.672 kişi, 1.390 qadın), 1897-ci ildə kənddə 3.062 nəfər, 1905-ci ildə 3.171 nəfər, 1914-cü ildə 3.200 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ildə Andranikin başçılığı ilə kənddə azərbaycanlıların dəhşətli soyqırımı törədilmiş, 500 təsərrüfatdda 3.173 nəfər əhalisi olan Uluxanlı kəndi 1918-ci ilin əvvəllərində darmadağın edilmiş, talanmış, yandırılmış, əhalisinin bir hissəsi qəddarcasına qətlə yetirilmiş, sağ qalanlar doğma yurdu tərk etməyə məcbur olmuşlar.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin sağ qalan qaçqın əhalisi geri qayıtmışdır. 1922-ci ildə kənddə 1.882 nəfər azərbaycanlı, 9 nəfər erməni siyahıya alınmışdır. Bu 9 nəfər gəlmə erməni Uluxanlıda məskunlaşan ilk ermənilər idi. 1926-cı ildə kənddə azərbaycanlıların sayı 1.948 nəfər, ermənilərin sayı isə cəmi 5 nəfər olmuşdur.

1948-1949-cu illərdə kəndin əhalisi zorla Azərbaycanın Əli Bayramlı rayonuna deportasiya olunmuş, boşalmış azərbaycanlı evlərində müxtəlif xarici ölkələrdən köçürülüb gətirilmiş ermənilər yerləşdirilmişlər.

Sonralar Uluxanlıdan deportasiya olunmuş əhalinin bir qismi geri qayıtsa da, 1950-ci illərdən etibarən artıq kənddə ermənilər üstünlük təşkil etməyə başlamışlar.

Uluxanlı oykonimini itirmək üçün ermənilər onun adını düz dörd dəfə dəyişmişlər. 1920-ci illərdə kəndin qədim Uluxanlı adı dəyişdirilərək **Nərimanlı,** 1937-ci il dekabrın 31-də yenidən dəyişdirilərək **Zəngibasar,** ondan sonra qısa bir müddətdə **Razdan,** 1950-ci il iyulun 31-dən isə **Masis** qoyulmuşdur.

1988-ci ildə Uluxanlı qəsəbəsinin azərbaycanlı əhalisi növbəti soyqırımı ilə üz-üzə dayanmış, həmin hadisələr zamanı erməni qaniçənləri səkkiz nəfər soydaşımızı vəhşicəsinə qətlə yetirmişlər.

Uluxanlıda keçmişdə az qala hər məhəllənin öz məscidi olmuşdur.

Onların sayı yeddi idi: **Azamanlılar məscidi, Elatlar məscidi, Torlu məscid, Baltaməmmədlilər məscidi, Qarağaclar məscidi, Qədimalılar məscidi, Nüxülülər məscidi.** Bu məscidlərdə dini ayinlərin icrası ilə yanaşı, dini söhbətlərlə bərabər, dünya hadisələrindən, ümumi problemlərdən, xeyriyyəçilikdən və s. söhbət gedirdi. Məscidlərdən biri ikimərtəbəli olmuş, yuxarıda qadınlar, aşağıda kişilər namaz qılarmışlar.

Məscidlərin, demək olar ki, hamısının xarabalıqları dururdu. Salamat qalanların isə 1-i sovxozun anbarı kimi, 1-i məktəb, 1-i mədəniyyət şöbəsinin kitabxanası kimi istifadə olunurdu. 1970-ci illərdə Uluxanlıda məscid rəsmi olaraq yenidən fəaliyyətə başladı. Elatlar məhləsi ilə Qırmızı məhlənin arasında yerləşən bu məscid **Küllükbaşı məscid** də adlanırdı. 1988-ci ildə ermənilər onu yandırmışdılar. Son məlumatlara görə ermənilər həmin məscidi yerlə yeksan etmişlər.

Uluxanlıda keçmişdə **üç müsəlman qəbiristanlığı** olub. Onlardan ikisi xarabalığa çevrilmiş, yalnız biri qalmışdı. Uluxanlının ilk qəbiristanlığı Ağhəmzəlidə, **Mərmər** adlanan, mərmər yatağı yerləşən ərazidə idi. 1938-1939-cu illərdə burada mərmər istehsalı ilə bağlı camaata ayrı qəbiristanlıq yeri təklif etmişlər. Bir köhnə qəbiristanlıq da Uluxanlının içində idi.

Professor Sadıq Şükürovun məlumatına görə, “kəndin qəbiristanlığının sahəsi dörd hektar idi. Qəbirlərin üstündə at heykəlləri vardı, bəzi baş daşlarının üstünə isə günəş və at rəmzi həkk edilmişdi“.

1947-ci ilə qədər qəsəbədə cəmi 3 erməni ailəsi vardı, onlar da xırda sənətkarlıqla məşğul olurdular. 1947-ci ildə xaricdən, əsasən Suriya, İran və Türkiyədən köçürülüb gətirilmiş 70 erməni ailəsi Uluxanlıda yerləşdirildi. Lakin az sonra onlar da köçüb İrəvan şəhərinə getdilər.

1949-cu ilin payızında Uluxanlı qəsəbəsindən təxminən 150 təsərrüfat Azərbaycanın Əli-Bayramlı rayonunun Qaracalar sovxozuna, 155 təsərrüfat isə Bakı Xalacına deportasiya olunmuşlar. Bir o qədər də azərbaycanlı Uluxanlıda qalmışdır. 1950-ci illərdə deportasiya olunanların əksəriyyəti geri qayıtmışlar. 1949-cu ildə azərbaycanlıların deportasiya olunması ilə əlaqədar “Ermənistan“ın Yelenovka və Şəmsəddin rayonlarından xeyli erməni gətirilib Uluxanlıda yerləşdirildi.

Uluxanlıların növbəti soyqırımı 1988-ci ildə baş verdi. Ermənilər görünməmiş vəhşiliklərlə, nəhayət ki, Uluxanlı camaatının da öz tarizxi torpaqlarından qovub çıxardı. Bu hadisələr zamanı Uluxanlıdan üç nəfər ermənilər tərəfindən qətlə yetirildi: 1. **Cəfərova Səfa Novruzəli qızı,** 1982-ci il təvəllüd; 2. **Qurbanov Qurbanəli Əbdülhüseyn oğlu,** 1934-cü il təvəllüd; 3. **Qurbanov Abbas Əbdülhüseyn oğlu,** 1946-cü il təvəllüd.

**Uluxanlı kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| İdarə binası – | 2 əd. |
| Kino binası – | 2 əd. |
| Mədəniyyət evi – | 3 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| Xəstəxana – | 2 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Əczaxana – | 2 əd. |
| Yeməkxana – | 2 əd. |
| Kitabxana – | 2 əd. |
| Məktəb – | 2 əd. |
| X/b mal-qara – | 200 baş |
| İ/b mal-qara – | 150 baş |
| K/t maşınları – | 39 əd. |
| Avtobus – | 2 əd. |
| Avtomaşınlar (yük, minik) – | 17 əd. |
| Məscid – | 2 əd. |
| Anbar binaları – | 3 əd. |
| Ding və dəyirman – | 2 əd. |
| Transformator – | 3 əd. |
| Quşçuluq ferması – | 2 əd. |
| X/b mal-qara tövləsi – | 3 əd. |
| İ/b mal-qara tövləsi – | 4 əd. |

## QULUCAN

Zəngibasar mahalında, Zəngibasar rayonu ərazisində, Araz və Zəngi çaylarının kəsişdiyi yerdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1894-cü ildə kənddə 75 nəfər, 1905-ci ildə 63 nəfər, 1914-cü ildə 81 nəfər azərbaycanlı yaşamışdır.

1917-1918-ci illərdə erməni təcavüzünə məruz qalan kəndin əhalisi qonşu azərbaycanlı kəndlərinin əhalisi ilə birgə Arazın o tayına – Türkiyəyə mühacirət etmiş, bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra doğma kəndlərinə dönmüşlər.

1922-ci ildə geri dönənlərin sayı 67 nəfər olmuş, kənd əhalisinin sayı 1931-ci ildə 59 nəfərə qədər azalmışdır. Kənd Seyidkənd sovetliyinə tabe olmuşdur.

1950-ci ildə kəndin əhalisi növbəti dəfə soyqırımına məruz qalmış və bütünlüklə Azərbaycana deportasiya olunmuşlar. Kənd isə ləğv edilərək ərazisi Həbilkənd kəndi bazasında yeni yaradılmış Kalinin sovxoz-qəsəbəsinə verilmişdir. Bir neçə il sonra doğma kəndə geri dönmüş qulucanlılar doğma kəndlərində yaşasalar da, artıq rəsmi sənədlərdə Kalinin qəsəbəsinin sakini hesab olunmuşlar.

**Ağadədə piri** Qulucan kəndinin yanında yerləşirdi.

# QƏMƏRLİ (ARTAŞAT) RAYONU

Ağrıdağ vadisində, Gərnibasar mahalı ərazisində rayon.

1930-cu il sentyabrın 9-da yaradılmış, 1945-ci il sentyabrın 4-ə qədər Qəmərli rayonu, həmin tarixdən etibarən isə Artaşat rayonu adlandırılmışdır.

Ərazisi 507 kv. km-dir.

Rayon mərkəzi respublika tabeli Qəmərli (04.09.1945-ci ildən – Artaşat) şəhəridir.

Rayon mərkəzindən İrəvan-Naxçıvan-Bakı dəmiryol xətti və İrəvan-Naxçıvan-Culfa avtomobil yolu keçir.

Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 29 km-dir.

Gərnibasar mahalının istər dağlıq, istərsə də düzənlik hissəsi az qala bütün Gərnibasar ərazisini kəsib keçən və mahalın öz adını aldığı **Gərni** çayı tərəfindən iki yerə bölünürdü.

1987-ci ilin məlumatına görə rayonda 1 respublika tabeli şəhər (Qəmərli), 13 kənd sovetliyi, ümumiyyətlə 40 yaşayış məntəqəsi mövcud olmuşdur. Halbuki Qəmərli rayonu təşkil edildə (1930) rayon ərazisində 102 kənd vardı ki, onların da 75-də azərbaycanlılar yaşayırdılar. Ona görə də 1948-1953-cü illər deportasiyası zamanı rayonun, demək olar ki, bütün kəndləri köçürməyə məruz qalmış və onların hamısına xaricdən gəlmə ermənilər yerləşdirməklə rayon erməniləşdirilmişdir. Bəzi dağlıq kəndlər, o cümlədən Çiləxanlı, Novruzlu, Qaraqoyunlu və s. isə həmişəlik xarabalığa çevrilmişdir.

Rayon ərazisində 1988-ci ilə qədər yaşamaqda davam edən az sayda azərbaycanlı əhali isə qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı sonuncu nəfərinə qədər qovulub rayondan çıxarılmışlar.

## 1988-ci ilə qədər Qəmərli rayonunda mövcud olan azərbaycanlı yaşayış məntəqələrinin siyahısı

**Qarışıq yaşayış məntəqələri**

Qəmərli (04.09.1945-ci ildən – Artaşat)

Yamancalı (25.05.1967-ci ildən – Dexsut)

Darğalı (01.12.1949-cu ildən – Anastasavan, 30.12.1957-ci ildən – Haygezard)

## QƏMƏRLİ

Gərnibasar mahalının düzənlik hissəsində, İrəvan şəhərindən 28 km cənubda, Gərni çayının solunda, Gərni çayından ayrılan su arxının kənarında, İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin və İrəvan-Naxçıvan-Culfa avtomobil yolunun üstündə qəsəbə. 1961-ci ildən respublika tabeli şəhər.

1828-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. 1828-1829-cu illərdə bura İranın Xoy və Salmas vilayətlərindən köçürülüb gətirilmiş ermənilər yerləşdirilmiş və o vaxtdan 1988-ci ilədək kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq yaşayış məntəqəsi olmuşdur.

1832-ci ildə kənddə 31 təsərrüfatda 167 nəfər (88 kişi, 79 qadın) Azər türkünün və az qala iki o qədər – 54 təsərrüfatda 241 nəfər (139 kişi, 102 qadın) İrandan köçürülüb gətirilmiş ermənin yaşadığı göstərilmişdir.

1873-cü ildə kənddə 90 təsərrüfatda 563 nəfər (303 kişi, 260 qadın) Azərbaycan türkü, 178 təsərrüfatda 1.264 nəfər (662 kişi, 602 qadın) erməni, 1886-cı ildə 99 təsərrüfatda 668 nəfər (388 kişi, 280 qadın) Azər türkü, 228 təsərrüfatda 1.416 nəfər (788 kişi, 628 qadın) erməni yaşamışdır. Kənddə yaşayan Azərbaycan türklərinin sayı 1997-ci ildə 757 nəfərə, 1905-ci ildə 870 nəfərə, 1914-cü ildə 835 nəfərə çatmışdır.

1918-ci il erməni-müsəlman müharibəsi zamanı Qəmərli kəndinin türk-müsəlman əhalisinə də divan tutulmuş, onların bir hissəsi qəddarcasına qətlə yetirilmiş, sağ qalanlar yurd-yuvasından qovulmuşlar.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisi geri qayıtmaq imkanı qazanmış, 1922-ci ildə onların sayı 122 nəfər, 1926-cı ildə 248 nəfər, 1931-ci ildə 267 nəfər olmuşdur.

Yeri gəlmişkən, 1828-1830-cu illərdə İranın Xoy və Salmas vilayətlərindən köçürülüb gətirilmiş ermənilərin yerləşdirilməsi üçün Qəmərli kəndinin aşağısında yeni kənd salınmış, bu kənd Aşağı Qəmərli adlanmış, Qəmərli kəndi isə mənbələrdə bəzən Yuxarı Qəmərli kimi də qeydə alınmışdır. Tədricən bu kəndlər birləşmiş, 1930-cu ildə isə Aşağı Qəmərli kəndi rəsmi olaraq ləğv olunmuş və Qəmərli qəsəbəsinə qatılmışdır.

1948-1953-cü illər deportasiyası zamanı ermənilər kəndin bütün türk-müsəlman əhalisini zorla Azərbaycana köçürmüş, bölgə üçün çox mühüm strateji əhəmiyyəti olan bu qədim türk yaşayış məntəqəsinin erməniləşdirilməsinə çalışmışlar. Lakin az sonra geri qayıdan bəzi azərbaycanlı ailələri Qəmərlidə yaşamaqda davam etmiş, onlar da 1988-ci il hadisələri zamanı doğma yurdu təzədən tərk etməyə məcbur edilmişlər.

1945-ci il sentyabrın 4-də Qəmərli qəsəbəsinin adı dəyişdirilərək **Artaşad qəsəbəsi** adlandırılmışdır.

## YAMANCALI

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 11 km şimalda, Gərni çayının sol tərəfində, Gərni çayından ayrılan su arxının kənarında, İpəkli kəndi yaxınlığında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. 1828-1829-cu illərdə kəndə İrandan köçürülüb gətirilmiş ermənilər yerləşdirilsə də, az sonra onlar kəndi tərk etmiş və 1918-ci ilə qədər kənd yenə də sırf azərbaycanlı kəndi olmuşdur. Sonuncu tarixdə kəndə Türkiyədən gəlmə erməni qaçqınları köçürülmüş və 1988-ci ilə qədər azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur.

1831-ci ildə kənddə 10 təsərrüfatda 44 nəfər (26 kişi, 18 qadın) Azər türkü, 23 təsərrüfatda 93 nəfər (53 kişi, 40 qadın) İrandan köçürülüb gətirilmiş erməni qeydə alınmışdır. 1873-cü ilin statistikasında isə **Yamancalı** mülkədar kəndində 36 təsərrüfatda 214 nəfər (114 kişi, 100 qadın) Azər türkünün yaşadığı göstərilmişdir.

1886-cı ildə də kənddə ancaq Azər türkləri yaşamışlar: 40 təsərrüfatda 199 nəfər (117 kişi, 82 qadın).

Kənd əhalisinin sayı 1897-ci ildə 257 nəfərə, 1905-ci ildə 272 nəfərə, 1914-cü ildə 300 nəfərə çatmışdır.

Lakin 1918-ci il soyqırımı zamanı 107 təsərrüfatda 763 nəfər əhalinin sığındığı kənd erməni daşnakları tərəfindən dağıdılmış, əhalisinin bir hissəsi qılıncdan keçirilmiş, sağ qalanlar vəhşicəsinə qovulmuşlar.

Bölgədə Sovet hakimiyyətinin qurulması ilə əlaqədar kəndin qaçqın əhalisi doğma yurda qayıtmaq imkanı əldə etmiş və 1922-ci ildə onların az bir hissəsi, cəmi 53 nəfəri geri dönə bilmişdir. Lakin bu vaxt artıq kənddə 175 nəfər Türkiyənin Qars və Sürməli vilayətlərindən gəlmiş erməni qaçqını yerləşdirilmişdi.

1931-ci ildə kənddə yaşayan azərbaycanlıların sayı cəmi 66 nəfər, ermənilərin sayı isə 299 nəfər təşkil etmişdir.

1948-1953-cü illər deportasiyası zamanı kəndin bütün türk əhalisi zorla Azərbaycana köçürülmüş, lakin az sonra bəzi ailələr geri dönərək 1988-ci ilə qədər doğma kəndlərində yaşamışlar. 1988-ci il soyqırımı zamanı onlar da erməni millətçiliyinin qurbanı olmuş, doğma yurddan vəhşicəsinə qovulmuşlar.

Kəndin Yamancalı adı 1967-ci il mayın 25-də dəyişdirilərək **Dexsut** qoyulmuşdur.

## DARĞALI (AŞAĞI DARĞALI, YUXARI DARĞALI)

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 8 km şərqdə, Gərni çayının sol tərəfində, Gərni çayından ayrılan su arxının kənarında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri yaşamış, həmin vaxtdan 1948-ci ilə qədər azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1949-cu ildə kəndin bütün azərbaycanlı əhalisi deportasiya olunmuş və 1988-ci ilə qədər kənddə ermənilərlə müsəlman kürdləri yaşamışlar ki, sonuncu tarixdə onlar da qovulub kənddən çıxarılmış, kənd tamamilə erməniləşdirilmişdir.

1831-ci ildə kənddə 22 təsərrüfatda 125 nəfər (69 kişi, 56 qadın) Azər türkü, 43 təsərrüfatda 228 nəfər (123 kişi, 105 qadın) İranın Xoy və Salmas vilayətlərindən yenicə köçürülüb gətirilmiş erməni qeydə alınmışdır.

Ermənilər, əsasən, kəndin aşağısında yerləşdirilmiş və tədricən kənd iki yerə bölünmüş, azərbaycanlılar yaşayan yuxarı hissəsi **Yuxarı Darğalı,** ermənilər məskunlaşan aşağı hissəsi **Aşağı Darğalı** adlanmışdır. Lakin kəndlər bitişik olduğundan onlar iki müstəqil kəndlər kimi tarixə daxil olmamış və bütün mənbələrdə vahid Darğalı kəndi kimi qeyd olunmuşlar.

1873-cü ilin statikasında **Darğalının** mülkədar kəndi olduğu, Gərni çayının sol tərəfində, Araz yaxınlığında yerləşdiyi göstərilmiş, kənddə cəmi 4 təsərrüfatda 22 nəfər (12 kişi, 10 qadın) Azər türkünün və 116 təsərrüfatda 767 nəfər (414 kişi, 353 qadın) ermənininin yaşadığı qeyd olunmuşdur. 1886-cı ildə kənddə azərbaycanlıların sayı 6 təsərrüfatda 36 nəfərə (19 kişi, 17 qadın), ermənilərin sayı 153 təsərrüfatda 909 nəfərə (494 kişi, 415 qadın) çatmışdır. 1905-ci ildə kənddə 29 nəfər, 1914-cü ildə yenə də 29 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ildə erməni daşnaklarının bölgədə törətdiyi türk-müsəlman soyqırımı zamanı Darğalı kəndinin azərbaycanlı əhalisi də doğma yurdunu tərk etməyə məcbur olmuşlar. Sovet hakimiyyəti dövründə bir neçə azərbaycanlı ailəsi doğma yurda dönmək imkanı qazanmış, 1931-ci ildə kənddəki azərbaycanlıların sayı cəmi 5 nəfər olmuşdur.

1949-cu ildə kəndin bütün azərbaycanlı əhalisi Azərbaycana deportasiya olunmuş, Sovet dövründə kənddə məskunlaşan müsəlman kürdləri isə 1988-ci ildə qovulub kənddən çıxarılmışlar.

Kəndin Darğalı adı 1949-cu il dekabrın 1-də dəyişdirilərək **Anastasavan,** 1957-ci il dekabrın 30-da isə ikinci dəfə dəyişdirilərək **Haygezard** qoyulmuşdur.

## ELLƏR (ABOVYAN) RAYONU

Qırxbulaq mahalı ərazisində rayon.

1930-cu il sentyabrın 9-da yaradılıb; 1961-ci il oktyabrın 12-ə qədər Kotayk rayonu, həmin tarixdən etibarən isə Abovyan rayonu adlandırılıb.

Ərazisi 844 kv. km-dir.

Rayon mərkəzi respublika tabeli Ellər (Abovyan) şəhəridir.

Rayon mərkəzindən İrəvan-Yelenovka (Sevan) dəmiryol xətti keçir.

Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 16 km-dir.

Qırxbulaq mahalı (Ellər rayonu) şimaldan Axta rayonu, şərqdən Göyçənin Kəvər rayonu, cənubdan Vedi və Qəmərli rayonları, qərbdən Əştərək rayonu, cənub-qərbdən İrəvan şəhəri ilə həmsərhəd idi.

Qırxbulaq mahalı, öz adını **Qırxbulaq** hidronimindən, Qırxbulaq çayı isə başlanğıcını **Hadis** və **Əjdaha** dağlarının ətəyindəki çoxlu bulaqlardan götürüb, şərqdən qərbə doğru axaraq Zəngi çayına üz tuturdu.

1948-1953-cü illər deportasiyasına ən çox məruz qalan rayonlardan biri də Ellər rayonu olmuşdur. Bu illərdə rayonun Ellər, Başkənd, Göykilsə, Cadqıran, Dəlləkli, Muradtəpə, Alakilsə, Ağadərəsi, Yelqovan, Zar, Şahab, Təzəkənd, Tutiyə, Qaraqala, Kərpicli, Ərtiz və başqa yaşayış məntəqələrinin azərbaycanlı əhalisi zorla Azərbaycana köçürülmüş, həmin kəndlərdən bəziləri isə həmişəlik xarabazara çevrilmiş, adları yer üzündən silinmişdir.

Ellər rayonu ərazisində 1988-ci ilə qədər yaşamaqda davam edən bu rayonun köklü sakinləri olan sonuncu azərbaycanlılar da qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı öz tarixi torpaqlarından həmişəlik qovulmuşlar.

### 1988-ci ilə qədər Ellər rayonunda mövcud olan azərbaycanlı yaşayış məntəqələrinin siyahısı

**Qarışıq yaşayış məntəqələri**

Ellər (12.10.1961-ci ildən – Abovyan)
Göykilsə (03.01.1935-ci ildən – Kaputan)
Nurnus

## ELLƏR

Qırxbulaq mahalında, İrəvan şəhərindən 16 km şimalda, Qırxbulaq çayı yaxınlığında, İrəvan-Tiflis avtomobil yolu və İrəvan-Yelenovka (Sevan) dəmiryol xətti üstündə yaşayış məntəqəsi. Ellər rayonunun mərkəzi. 1930-cu ildən şəhər tipli qəsəbə, 1963-cü ildən respublika tabeli şəhər.

XVIII yüzilin sonlarına qədər kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. Həmin tarixdən etibarən bura İran və Türkiyədən köçürülüb gətirilmiş ermənilər yerləşdirilmiş, xüsusilə 1828-ci il Türkmənçay müqaviləsindən sonra bu proses kütləvi hal almış və Ellər kəndi erməniləşdirilmişdir. Buna baxmayaraq, erməni statistikası gizlətsə də, Ellər kəndində – bu qədim türk yurdunda azərbaycanlılar həmişə yaşamışlar. Xüsusilə Sovet dövründə Ellər kəndi böyüyüb, qəsəbə, şəhər statusları aldıqca, zavod-fabrik inkişaf etdikcə, burada azərbaycanlıların sayı artmağa başlamışdır.

1832-ci ildə kənddə cəmi 18 təsərrüfatda 88 nəfər (44 kişi, 44 qadın) "yerli", yəni 1828-ci il Türkmənçay müqaviləsinə qədər burada yaşayan erməni, 3 təsərrüfatda 15 nəfər (9 kişi, 6 qadın) İrandan, 12 təsərrüfatda 55 nəfər (26 kişi, 29 qadın) Türkiyədən yenicə köçürülüb gətirilmiş erməni qeydə alınmışdır. Həmin siyahıyaalma zamanı Ellər türk kəndində bir nəfər belə türk-müsəlman əhalinin qeydə alınmaması bölgənin ruslar tərəfindən işğalı nəticəsində yaşayış məntəqələrindən yerli türk-müsəlman əhalinin necə qovulub çıxarılmasına, onların boşalmış evlərinə gəlmə ermənilərin yerləşdirilərək kəndlərin necə canfəşanlıqla erməniləşdirilməsinə əyani sübutdur.

1873-cü ilin statistikasında kənddə 50 təsərrüfatda 359 nəfər (181 kişi, 178 qadın), 1886-cı ildə 69 təsərrüfatda 428 nəfərə (226 kişi, 202 qadın) əhali yaşamışdır.

1961-ci il oktyabrın 12-də rayonun adı dəyişdirilərək erməni millətçi yazıçısı Xaçatur Abovyanın adı ilə **Abovyan rayonu**, Ellər qəsəbəsinin isə adı isə dəyişdirilərək **Abovyan** qoyulmuşdur.

1963-cü ildə Ellər qəsəbəsinə respublika tabeli şəhər statusu verilmiş, 1975-ci ildə şəhərdə 35.1 min nəfər əhali qeydə alınmışdır.

1988-ci ildə Qərbi Azərbaycandakı bütün türk əhali kimi, Ellər şəhərinin azərbaycanlıları da növbəti dəfə soyqırımına məruz qalaraq doğma torpaqlarından qovulub çıxarılmışlar.

## GÖYKİLSƏ

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 13 km şimal-şərqdə, Hadis dağı ətəyində, Çobangərəkməz kəndi yaxınlığında, dəniz səviyyəsindən 1.750 m yüksəklikdə kənd.

1828-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri yaşamış, 1830-cu illərdə kəndə İrandan, Türkiyədən xeyli erməni köçürülmüş və kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kəndə çevrilmişdir.

1832-ci ildə kəndin adının Qırxbulaq mahalının xaraba kəndləri siyahısında verilməsi bölgədəki bir çox türk kəndləri kimi, Göykilsənin də İrəvan xanlığı ərazisinin ruslar tərəfindən işğalı zamanı böyük dağıntılara məruz qalmasından irəli gəlirdi.

Sonralar kəndin didərgin əhalisi geri qayıdanda kənddə Türkiyədən və İrandan köçürülüb gətirilmiş xeyli erməni görmüşlər. Bunun nəticəsində 1873-cü ilin statistikasında kənddə 37 təsərrüfatda 293 nəfər (148 kişi, 145 qadın) azərbaycanlı ilə yanaşı, 44 təsərrüfatda 367 nəfər (201 kişi, 166 qadın) erməni də qeydə alınmışdır. 1886-cı ildə kənddə azərbaycanlıların sayı 45 təsərrüfatda 333 nəfərə (188 kişi, 145 qadın), ermənilərin sayı isə 51 təsərrüfatda 396 nəfərə (246 kişi, 150 qadın) çatmışdır.

Kənd əhalisinin sayı və nisbəti sonralar belə dəyişmişdir: 1897-ci ildə 424 nəfər azərbaycanlı, 579 nəfər erməni; 1905-ci ildə 365 nəfər azərbaycanlı, 436 nəfər erməni; 1914-cü ildə 495 nəfər azərbaycanlı, 895 nəfər erməni.

1918-ci ildə erməni daşnakları kənddə yaşayan bütün azərbaycanlıları vəhşicəsinə qovub kənddən çıxarmış, dinc əhalinin bir hissəsi qəddarcasına qətlə yetirilmiş, sağ qalanlar el-obasından didərgin düşmüşlər.

Yalnız Sovet hakimiyyətinin ilk illərində kənd əhalisinin bir qismi geri qayıda bilmiş və 1922-ci ildə onların sayı cəmi 94 nəfər olmuşdur. Lakin geri qayıdanlar evlərində Türkiyənin əsasən Bayazid və Alaşgerd vilayətlərindən gəlmə ermənilərin yerləşdirildiyinin şahidi olmuş, özlərinə təzədən ev-eşik düzəltməyə başlamışlar.

1931-ci ildə kənddə 170 nəfər azərbaycanlıya qarşı 1.268 nəfər erməni yaşamışdır.

1935-ci il yanvarın 3-də kəndin Göykilsə adı dəyişdirilərək, daha doğrusu, sətri tərcümə olunaraq **Kaputan** (**kaput** – ermənicə "**göy**" deməkdir) qoyulmuşdur.

1948-1953-cü illər deportasiyası zamanı kəndin türk-müsəlman əhalisinin əksəriyyəti Azərbaycana deportasiya olunmuş, kənddə 1988-ci ilə qədər hələ də yaşamaqda davam edən azərbaycanlılar isə qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı vəhşicəsinə kənddən qovulub çıxarılmışlar.

## NURNUS

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 16 km şimal-qərbdə, Zəngi çayının sol sahilində kənd.

1918-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. 1918-ci ildə kənddə Türkiyədən gəlmə xeyli erməni də yerləşdirilmiş və həmin vaxtdan 1948-ci ilə qədər kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1948-1949-cu illərdə kəndin bütün türk-müsəlman əhalisi zorla Azərbaycana deportasiya olunmuş və kənd tamamilə erməniləşdirilmişdir.

Kəndin adına İ.Şopendə (1832) Qırxbulaq mahalının xaraba kəndləri siyahısında rast gəlirik. Bu, kəndin 1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalmasına dəlalət edir. Lakin az sonra kəndin bölgənin ruslar tərəfindən işğalı ilə bağlı doğma yurddan didərgin düşmüş əhalisi geri qayıtmış və 1973-cü ilin statistikasında **Nurnus kəndində** 38 təsərrüfatda 372 nəfər (200 kişi, 172 qadın) Azər türkü qeydə alınmışdır.

1886-cı ildə **Nurnus kəndində** 51 təsərrüfatda 416 nəfər (241 kişi, 175 qadın), 1897-ci ildə 550 nəfər, 1905-ci ildə 457 nəfər, 1914-cü ildə 512 nəfər Azər türkü yaşamışdır.

1918-ci ildə kənd erməni daşnakları tərəfindən dəhşətli soyqırımına məruz qalmış, əhalisinin bir hissəsi vəhşicəsinə qətlə yetirilmiş, kənd talan edilmiş, sağ qalan azərbaycanlılar qəddarlıqla doğma yurddan qovulub çıxarılmışlar. Elə həmin vaxtlar kəndə Türkiyədən gəlmə ermənilər yerləşdirilmişlər.

Sovet hakimiyyətinin ilk illərində kəndin sağ qalmış azərbaycanlı əhalisindən az bir qismi geri qayıda bilmiş, 1922-ci ildə onların sayı 52 nəfər olmuşdur. Lakin bu vaxt kənddə artıq 141 nəfər gəlmə erməni vardı.

1926-cı ildə kənd əhalisinin nisbəti 61 nəfər azərbaycanlı, 172 nəfər erməni, 1931-ci ildə 96 nəfər azərbaycanlı, 219 nəfər erməni şəklində dəyişmişdir.

1948-1949-cu illərdə **Nurnus kəndinin** bütün türk-müsəlman əhalisi Azərbaycana deportasiya olunmuş, kənddə ancaq ermənilər qalmışlar.

1953-cü ildə Ərzni kəndinə şəhər tipli qəsəbə statusu verildikdən sonra ondan 10 km-lik məsafədə yerləşən Nurnus kəndi də Ərzni qəsəbə sovetliyinin tərkibinə qatılmışdır.

1988-ci ilə qədər kənddə yeddi azərbaycanlı ailəsi yaşayırdı.

## BARANA (NOYEMBERYAN) RAYONU

Dağ Borçalısının Loru mahalı ərazisində rayon. 1937-ci il dekabrın 31-də yaradılmışdır.

Rayon mərəkəzi şəhər tipli Barana (04.01.1938-ci ildən – Noyemberyan) qəsəbəsidir.

Rayon mərkəzinə ən yaxın dəmiryol stansiyası 22 km kənarda yerləşən Ayrım stansiyasıdır (Barana rayonu ərazisində).

Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 191 km-dir.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımını Barana rayonunun azərbaycanlıları da çox faciəli və ağrılı yaşamışlar. Xüsusilə noyabrın 28-də erməni saqqallıları daha da quduzlaşmış, ev-eşiyini tərk etmək məcburiyyətində qalan dinc əhaliyə qarşı silah işlətməkdən belə çəkinməmişlər. Ermənilər evlərə, ot tayalarına od vurur, mal-qaranı zorla azərbaycanlıların əllərindən alır, özlərini də döyüb ölümcül hala salırdılar.

Borçalıların köməyə gəlməyi ermənilərin əl-qolunun bir qədər bağlanmasına səbəb oldu. Körpülülər Qızıl qayadan aşıb Borçalıya, bir hissəsi Qazağın kəndlərinə, ayrımlılar Muşul meşəsinə səpələnib, Sadaxlı kəndinə pənah apardılar. Eyni gərginlik noyabrın 29-da da davam etdi.

Adamlar ev əşyalarını buraxıb qaçır, ermənilər isə dəstə ilə sahibsiz evlərə girib talayırdılar.

1988-ci il noyabrın 30-u Barana kəndlərinin azərbaycanlıları üçün son gün oldu. Böyük bir el də belə diyarbadiyar oldu.

### 1988-ci ilə qədər Barana rayonunda mövcud olan azərbaycanlı yaşayış məntəqələrinin siyahısı

**Xalis azərbaycanlı yaşayış məntəqəsi**

1. Yuxarı Körpülü (Sovet dövründə – Verin Körpülü)

**Qarışıq yaşayış məntəqələri:**

2. Baraxlı (sonralar – Debedavan)
3. Ləmbəli (18.06.1960-cı ildən – Debedaşen, 23.02.1972-ci ildən – Baqrataşen)
4. Ayrım sovxoz qəsəbəsi (sonralar – Btğavan)
5. Aşağı Körpülü (1978-ci ildən – Haxtanaq)
6. Ayrım (dəmiryol stansiyası qəsəbəsi)

**Barana rayonu azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mal-qara üçün bina – | 22 əd. |
| İribuynuzlu mal-qara – | 1660 baş |
| Xırdabuynuzlu mal-qara – | 750 baş |
| Toyuq – | 59000 baş |
| Üzüm bağı – | 420 ha |
| Meyvə bağı – | 3550 ha |
| K/t maşınları – | 230 əd. |
| Avtomaşınlar – | 230 əd. |
| Qaraj – | 11 əd. |
| Taxıl anbarı – | 6 əd. |
| Yanacaq anbarı – | 6 əd. |
| Kübrə anbarı – | 5 əd. |
| Dəmirçi sexi – | 6 əd. |
| Dülgərxana – | 6 əd. |
| Artezian quyusu – | 9 əd. |
| Su nasos stansiyası – | 14 əd. |
| Enerji şəbəkəsi – | 22 əd. |
| Dəyirman – | 6 əd. |
| İdarə binası – | 6 əd. |
| Məktəb – | 9 əd. |
| Mədəniyyət evi – | 6 əd. |
| Poçt şöbəsi – | 6 əd. |
| Pavilyon – | 11 əd. |
| Xəstəxana – | 6 əd. |
| Uşaq bağçası – | 8 əd. |
| Mağaza – | 32 əd. |
| Yeməkxana – | 10 əd. |
| Hamam – | 8 əd. |
| Şərab zavodu – | 1 əd. |
| Yem zavodu – | 1 əd. |

## YUXARI KÖRPÜLÜ

Loru mahalının Barana rayonununda, rayon mərkəzindən 15 km şimal-qərbdə, dəniz səviyyəsindən 661 m hündürlükdə, kənd.

Kənddə əvvəl ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

1832-ci ildə kənddə 43 nəfər, 1886-cı ildə 58 təsərrüfatda 361 nəfər (216 kişi, 145 qadın), 1897-ci ildə 402 nəfər, 1908-ci ildə 440 nəfər, 1916-cı ildə 792 nəfər, 1918-1920-ci illərin qaçqınlığında 530 nəfər, 1922-ci ildə 520 nəfər, 1926-cı ildə 530 nəfər, 1931-ci ildə 620 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci il martın 20-də erməni daşnakları - Andronikin quldur dəstəsi kəndi yandırmış, üç qocanı isə doğramışlar.

1988-ci ildə kənddə 340 təsərrüfatda 1600 nəfər azərbaycanlı yaşayırdı.

1988-ci ildə kəndin 2.000 nəfərə qədər əhalisi bütün mülkiyyəti və var-dövləti əlindən alınmaqla işgəncələrlə doğma yurdlarından qovulmuşdur. Əhalinin əksəriyyəti piyada, dağ yolları ilə Azərbaycanın müxtəlif kəndlərinə pənah gətirmişdir.

**Yuxarı Körpülü kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı:**

| | |
|---|---|
| Mal-qara üçün bina – | 7 əd. |
| İribuynuzlu mal-qara – | 550 baş |
| Xırdabuynuzlu mal-qara – | 750 baş |
| Toyuq – | 25000 baş |
| Meyvə bağı – | 850 ha |
| K/t maşınları – | 45 əd. |
| Avtomaşınlar – | 40 əd. |
| Qaraj – | 2 əd. |
| Taxıl anbarı – | 1 əd. |
| Yanacaq anbarı – | 1 əd. |
| Kübrə anbarı – | 1 əd. |
| Dəmirçi sexi – | 1 əd. |
| Dülgərxana – | 1 əd. |

| | |
|---|---|
| Artezian quyusu – | 3 əd. |
| Su nasos stansiyası – | 3 əd. |
| Enerji şəbəkəsi – | 5 əd. |
| Dəyirman – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Poçt şöbəsi – | 1 əd. |
| Pavilyon – | 2 əd. |
| Xəstəxana – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Mağaza – | 5 əd. |
| Yeməkxana – | 2 əd. |
| Hamam – | 1 əd. |

# BARAXLI (DEBEDAVAN)

Loru mahalının Barana rayonununda, rayon mərkəzindən 30 km şimalda, Təvəteyin çayının sağ sahilində kənd.

Kənddə əvvəllər ruslar və Azərbaycan türkləri, sonralar isə azərbaycanlılar, ruslar və ermənilər yanaşı yaşamışlar.

1930-cu illərin sonlarında gəlmə ruslar tərəfindən burada yaşayış üçün ilk baraklar (taxta daxmalar) tikilmiş, kəndin adı da elə buradan götürülmüşdür.

Ləmbəlidən və Qarabulaqdan köçən azərbaycanlılar da burada yaşayıblar. 1930-cu illərdə bu kəndə ruslarla yanaşı, ermənilər və kürdlər, 60-cı illərdə isə mesxeti türkləri də köçmüşdülər. Onların əksəriyyəti son 15-20 ildə qayıdıb müxtəlif yerlərə getdilər. Kənd əhalisinin əsas sakinləri yenə də azərbaycanlılar olaraq qaldı. Onlar da 1988-ci ildə öz ata-baba yurdlarından son nəfərinə kimi qovuldular. İndi əhalisinin əksəriyyəti Oğuzda, Bakıda, Böyük Kəsikdə və s. məskunlaşmışlar.

Sonralar kəndin adını dəyişib **Debedavan** qoymuşdular. Kənd Ləmbəli sovetliyinin tərkibində idi.

1988-ci ildə kənddə 169 təsərrüfatda 751 nəfər azərbaycanlı yaşayırdı. Onların şəxsi təsərrüfatlarında 540 baş iribuynuzlu, 1.200 baş xırdabuynuzlu mal-qara var idi.

## LƏMBƏLİ

Loru mahalının Barana rayonununda kənd.

Kənddə əvvəl ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

1886-cı ilin statistikasında kənddə 57 təsərrüfatda 299 nəfər (186 kişi, 113 qadın) əhali qeydə alınmışdır ki, onların da 54 təsərrüfatda 292 nəfərini (180 kişi, 112 qadın) azərbaycanlılar, 3 təsərrüfatda 7 nəfərini (6 kişi, 1 qadın) gürcü mənşəli imeretinlər təşkil etmişlər.

1949-cu ilin iyununda deportasiya olunacaqlarını bilən ləmbəlilər bununla razılaşmayıb, Borçalının qonşu kəndlərinə dağılışır, oradakı soydaşlarının həyətlərində daldalanırlar. Bundan narahat olan İrəvan Moskva və Tiflisin əli ilə noyabrın 28-də 5-10 saatın içərisində 300-ə yaxın Ləmbəli ailəsinin Sadaxlı stansiyasındakı yük vaqonlarına doldurulmasına nail oldu. Eşelon İrəvana doğru yola düşdü. Uluxanlı dəmiryol stansiyasından onları Basarkeçər rayonunun Zod və Ağkilsə kəndlərinə sürgün etdilər. Lakin yaz açılan kimi ləmbəlilər payi-piyada, atla-ulaqla Çəmbərək və Gədəbəy dağlarından aşıb Qazaxa, oradan da doğma Ləmbəliyə qayıtdılar. Yolda qalıb ölənlər də oldu.

Geri qayıdan ləmbəlililər evlərində ermənilərin yaşadıqlarını gördülər. Onlar doğma kəndin kənarında yer ayırıb yeni kənd salmaq məcburiyyətində qaldılar. Buna da o zaman Təzə kənd adı verdilər.

Ləmbəliləri növbəti fəlakət 1988-ci il noyabrın 28-də yaxaladı. Ləmbəlilər ata-baba yurdlarını tərk edib, Borçalının qonşu kəndlərinə köçməyə məcbur oldular. Ermənilər tüfənglə, avtomatla dinc əhalinin üstünə hücum etdilər. Borçalılar ləmbəlilərə köməyə gəldilər. Ermənilər evlərə, ot tayalarına od vurur, mal-qaranı zorla ləmbəlilərin əllərindən alır, onları döyüb ölümcül hala saldılar.

29 noyabr 1988-ci il... Maşın tapmayanlar ev əşyalarını buraxıb qaçır, dəstə ilə sahibsiz evlərə girib talayırdılar...

30 noyabr 1988-ci il... Həmin gün kənddə altı-yeddi ailə ancaq qalmış olardı. Onlar da kəndi tərk edirdilər...

Təxmini hesablamalara görə, bu gün 5.000 nəfər təşkil edən 1.000-dən çox Ləmbəli ailəsi dünyanın 11 ölkəsinin 60-dan çox yaşayış məntəqəsində yaşayır. Onlar Bakıda, Ağstafa şəhərində və Böyük Kəsik kəndində, Gəncədə, Mingəçevirdə, Sumqayıtda, Xanlar və Çaykənddə, Oğuz şəhərində və ətraf kəndlərində, Gürcüstan Respublikasında və Rusiya Federasiyasında nisbətən çoxluq təşkil edirlər.

**Ləmbəli kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| 25 çarpayılıq xəstəxana – | 1 əd. |
| tibb məntəqəsi – | 2 əd. |
| aptek – | 1 əd. |
| kitabxanalar – | 7 əd. |
| klub – | 3 əd. |
| hər biri 300 yerlik mədəniyyət evi – | 2 əd. |
| orta məktəb binası – | 2 əd. |
| ibtidai məktəb binası – | 1 əd. |
| texniki peşə məktəb binası – | 1 əd. |
| qarışıq mallar mağazası – | 5 əd. |
| ikimərtəbəli ticarət mərkəzi – | 1 əd. |
| maşın-traktor qarajı – | 4 əd. |
| nasos stansiyası – | 5 əd. |
| hamam – | 4 əd. |
| çörək sexi – | 1 əd. |
| məişət xidməti evi – | 1 əd. |
| poçt – | 1 əd. |
| suvarma kanalı – | 4 əd. |
| 600 saylı ATS – | 1 əd. |
| qədim körpü tağı – | 3 əd. |
| iri və xırda körpü – | 7 əd. |
| 2,5 ha sahəsi olan istirahət parkı – | 1 əd. |
| aerodrom – | 1 əd. |
| üzgüçülük hovuzu – | 1 əd. |
| futbol stadionu – | 3 əd. |
| Ermənistan EA-nın təcrübə-sınaq bazasının filialı – | 1 əd. |
| sökülmüş məscid – | 1 əd. |
| ocaq (Çadırğan, Hacıpiri) – | 2 əd. |
| şərab zavodu – | 1 əd. |
| 200 tonluq anbar-soyuducu – | 2 əd. |
| restoran – | 2 əd. |
| yeməkxana – | 4 əd. |
| uşaq bağçası – | 4 əd. |
| mal-qara ferması – | 3 əd. |
| quşçuluq ferması – | 2 əd. |

## AYRIM SOVXOZ QƏSƏBƏSİ (BDĞAVAN)

Loru mahalının Barana rayonununda, Tona çayı sahilində, rayon mərkəzindən 22 km məsafədə kənd.

Kənddə əvvəl ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

### Ayrım sovxoz qəsəbə (Bdğavan) azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 3 əd. |
| İribuynuzlu mal-qara – | 180 baş |
| Toyuq – | 4000 baş |
| Üzüm bağı – | 170 ha |
| Meyvə bağı – | 250 ha |
| K/t maşınları – | 35 əd. |
| Avtomaşınlar – | 30 əd. |
| Qaraj – | 2 əd. |
| Taxıl anbarı – | 1 əd. |
| Yanacaq anbarı – | 1 əd. |
| Kübrə anbarı – | 1 əd. |
| Dəmirçi sexi – | 1 əd. |
| Dülgərxana – | 1 əd. |
| Artezian quyusu – | 1 əd. |
| Su nasos stansiyası – | 2 əd. |
| Enerji şəbəkəsi – | 2 əd. |
| Dəyirman – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 2 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Poçt şöbəsi – | 1 əd. |
| Pavilyon – | 2 əd. |
| Xəstəxana – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Mağaza – | 4 əd. |
| Yeməkxana – | 1 əd. |
| Hamam – | 1 əd. |

## AŞAĞI KÖRPÜLÜ

Loru mahalının Barana rayonununda, rayon mərkəzindən 13-15 km şimal-şərqdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri, sonralar isə sonralar isə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

1832-ci ildə kənddə 43 nəfər, 1886-cı ildə 361 nəfər, 1908-ci ildə 440 nəfər, 1914-cü ildə 427 nəfər, 1916-cı ildə 792 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci il erməni-müsəlman davası dövründə kənd dağıdılmış, qarət edilmiş, əhalisi işgəncələrlə qırılmış və qovulmuşdur.

1920-ci ildən sonra qaçqınların təqribən üçdə ikisi yenidən öz torpağına qayıtmışdır. 1922-ci ildə qayıdanların sayı 523 nəfərə, 1931-ci ildə 630 nəfərə çatmışdır.

1950-ci illərdə buraya Gürcüstandan ermənilər köçürülmüş, qarışıq kənd olmuşdur. 1988-ci ildə rayonun bütün kəndlərində olduğu kimi, Aşağı Körpülü kəndindən də 800 nəfərə yaxın azərbaycanlı silah gücünə öz doğma yurdlarından çıxarılıb qovulmuşdur. Onların bütün mülkiyyəti, var-dövlətləri, ev əşyaları ermənilərə qalmışdır.

1978-ci ildə Aşağı Körpülü kəndinin adı dəyişdirilərək **Haxtanaq** qoyulmuşdur.

### Aşağı Körpülü kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı:

| | |
|---|---|
| Mal-qara üçün bina – | 3 əd. |
| İribuynuzlu mal-qara – | 330 baş |
| Toyuq – | 16000 baş |
| Meyvə bağı – | 1000 ha |
| K/t maşınları – | 50 əd. |
| Avtomaşınlar – | 45 əd. |
| Qaraj – | 2 əd. |
| Taxıl anbarı – | 1 əd. |
| Yanacaq anbarı – | 1 əd. |
| Kübrə anbarı – | 1 əd. |
| Dəmirçi sexi – | 1 əd. |

| | |
|---|---|
| Dülgərxana – | 1 əd. |
| Artezian quyusu – | 2 əd. |
| Su nasos stansiyası – | 3 əd. |
| Enerji şəbəkəsi – | 3 əd. |
| Dəyirman – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Poçt şöbəsi – | 1 əd. |
| Pavilyon – | 2 əd. |
| Xəstəxana – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Mağaza – | 3 əd. |
| Yeməkxana – | 1 əd. |
| Hamam – | 1 əd. |
| Yem zavodu – | 1 əd. |

## AYRIM STANSİYA QƏSƏBƏSİ

Loru mahalının Barana rayonununda, rayon mərkəzindən 20 km şimal-şərqdə, İrəvan-Tiflis dəmir yolunun yanında, Təvətey çayının sağ sahilində qəsəbə.

Kənddə əvvəl Azərbaycan türkləri, sonralar isə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

Mənbələrdə Ayrım kəndinin azərbaycanlı əhalisi indi Allahverdi (Tumanyan) rayonunun ərazisində olan Böyük Ayrım kəndi ilə birlikdə 1897-ci ildə 223 nəfər, 1926-cı ilə 282 nəfər təşkil etmişdir. Yalnız 1931-ci ildə kənddə 56 nəfər ermənінin yaşadığı qeyd edilmişdir. 1939-cu ildən sonra gəlmələr hesabına erməniləşmə güclənmişdir. Ermənilər buraya İrəvan ətrafından, xaricdən və Rusiyadan gəlmişlər.

1979-cu ildə qəsəbənin 2.252 nəfər əhalisi olmuşdur.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin bütün azərbaycanlı əhalisi zorla kənddən qovulmuşlar. Həmin tarixdən kəndin erməniləşdirilməsi başa çatmışdır.

# ALLAHVERDİ (TUMANYAN) RAYONU

Dağ Borçalısının Loru mahalı ərazisində rayon.

1930-cu il sentyabrın 9-da yaradılıb, 1969-cu il sentyabrın 19-na qədər Allahverdi rayonu, həmin tarixdən etibarən isə Tumanyan rayonu adlandırılıb.

Ərazisi 1111 kv.km.-dir.

Rayon mərkəzi respublika tabeli Manas (sonralar – Allahverdi) şəhəridir.

Rayon mərkəzindən İrəvan – Tiflis dəmiryol xətti keçir.

Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 191 km-dir.

Rayonun əsas azərbaycanlı kəndləri 1948-1953-cü illər deportasiyası zamanı Azərbaycana köçürülmüşlər.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı isə rayonun bütün azərbaycanlı əhalisi sonuncu nəfərinə qədər ermənilərə xas vəhşiliklə ev-eşiklərindən qovulmuş, evləri, mülkləri əllərindən alınmışdır.

## 1988-ci ilə qədər Allahverdi rayonunda mövcud olan azərbaycanlı yaşayış məntəqələrinin siyahısı

**Xalis azərbaycanlı yaşayış məntəqələri**

1. Böyük Ayrım
2. Bala Ayrım
3. Yuxarı Axtala

**Qarışıq yaşayış məntəqələri:**

4. Allahverdi (Mədən qəsəbəsi)
5. Şamlıq qəsəbəsi
6. Aşağı Axtala qəsəbəsi (Gümüşxana)
7. Cılız

## BÖYÜK AYRIM

Loru mahalının Allahverdi rayonu ərazisində, rayon mərkəzindən 24 km məsafədə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kənd 1827-1828-ci illərdə rusların hücumu zamanı tamamilə dağıdılmış, XIX yüzilin ortalarına yaxın təzədən məskunlaşdırılmışdır.

1918-ci ildə türk ordusu ətraf kəndlər kimi, Böyük Ayrım kəndini də ermənilərdən xilas edib, tamamilə məhv olmaqdan qurtarıb.

1988-ci il bütün Loru mahalına böyük fəlakətlər gətirdi. Həmin ilin martında, Novruz bayramı günü ermənilər Böyük Ayrım kəndinə hücum planlaşdırsalar da, kənd camaatı bundan vaxtında xəbərdar oldu və ermənilərin bu planı baş tutmadı.

1988-ci ildə kənddə 200 təsərrüfatda 1200 nəfər azərbaycanlı yaşayırdı.

1988-ci il noyabırın 19-da rayonun erməni əhalisi nümayişə çıxaraq raykomun birinci katibi Şahverdiyanın istefasını tələb etdilər. Onların fikrincə, Şahverdiyan azərbaycanlıları müdafiə edir. Rayonda konfrans çağırıldı və "Krunk" təşkilatının tələbi ilə Şahverdiyan vəzifədən götürüldü, yerinə həmin təşkilatən üzvü olan Köçinyan katib seçildi.

Həmin hadisədən 8 gün sonra, 1988-ci il noyabırın 27-si gecəsi saat 12-də xəbər çıxdı ki, ermənilər Axtala sanatoriyasına toplaşıblar, kəndə hücum etmək istəyirlər. Raykomun birinci katibi, prokuror, milis rəisi və başqaları Böyük Ayrım kəndinə gəldilər. Gecə erməni kəndi olan Cöçkən tərəfdən kəndə güllə yağdırıldı. Raykomun birinci katibi bildirdi ki, bir sutka ərzində kənd boşaltmasalar, azərbaycanlı əhalinin təhlükəsizliyinə heç kəs təminat verməyəcək. Köməksiz əhali əlacsız qalıb, kəndi tərk etməyə məcbur oldu. Yolda ermənilər bir çox ailələrin pulunu, paltarını, var-yoxlarını əllərindən aldılar. Ev əşyalarını maşından töküb yandırdılar.

Kəndin camaatı qonşu Sadaxlı kəndinə toplaşdı. Oradan onları avtobuslarla Qazağa, oradan da Xanlara, Xanlardan isə Çobanavdal kəndinə gətirdilər. On-on beş gün oralarda qaldıqdan sonra hərə bir yana dağıldı.

Noyabrın 28-də üç nəfər: **Haqverdiyev Haqverdi, Əliyev Abbas** və **Mahmudov Səməd** vəhşicəsinə öldürüldülər. Aşıq Mutunun ev əşyaları yolun ortasına tökülüb yandırıldı, özü döyüldü. Kəndin ağsaqqalı, doxsan yaşlı Xasıoğlu Abbas dayı qız nəvələrini meşə ilə Sadaxlı kəndinə aparanda yolunu kəsdilər. Uzunqulağın üstündən düşə bilməyən qoca nəvələrini gizlədib, yol kəsənlərlə dil tapıb canını qurtardı. Qız nəvələrini sağ-salamat Sadaxlı kəndinə gətirib və kəndə çatanda ürəyi partlayıb ölüb.

Kəndin qəbiristanlığı yerlə-yeksan olundu.

## BALA AYRIM

Loru mahalının Allahverdi rayonununda, rayon mərkəzindən 18 km məsafədə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1926-cı ildə kənddə 88 nəfər, 1931-ci ildə 154 nəfər, 1939-cu ildə 207 nəfər, 1959-cu ildə 233 nəfər, 1970-ci ildə 420 nəfər, 1979-cu ildə 388 nəfər azərbaycanlı yaşamışdır.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı erməni millətçiləri kəndin 100 təsərrüfatda 500 nəfərə yaxın azərbaycanlı əhalisinin var-yoxunu əllərindən alaraq onları doğma yurdlarından vəhşicəsinə qovmuşlar. Bu vaxt azərbaycanlılardan ölən və yaralananlar olmuşdur.

Kənd camaatının mülk və əmlakları əvəziödənilmədən ermənilərə qalmışdır.

## YUXARI AXTALA (KÖHNƏ AXTALA)

Loru mahalının Allahverdi rayonununda, rayon mərkəzindən 10 km şimal-şərqdə kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonra azərbaycanlılar, yunanlar, qısa müddət isə həm də ermənilər yaşamışlar. 1930-cu illərdən sonra kənddə erməni olmamışdır.

1886-cı ilin statistikasında kənddə 17 təsərrüfatda 76 nəfər (38 kişi, 38 qadın) yunan əhalinin yaşadığı göstərilmişdir. Onlar əsasən Şamlıq və Axtala mədənlərində işləyənlər olmuşlar. 1897-ci ildə kənddə 76 nəfər, 1916-cı ildə 161 nəfər ancaq azərbaycanlı yaşamışdır.

1922-ci ildə kənddə 77 nəfər azərbaycanlı, 27 nəfər yunan, 1926-cı ildə 82 nəfər azərbaycanlı, 59 nəfər erməni, 29 nəfər yunan, 1931-ci ildə 119 nəfər azərbaycanlı, 30 nəfər yunan yaşamışdır.

1988-ci ildə kənddə 60 təsərrüfatda 300 nəfərə yaxın azərbaycanlı yaşamışdır ki, onlar da erməni millətçiləri tərəfindən bütün mal-mülkləri əllərindən alınaraq sonuncu adamına qədər vəhşicəsinə qovulmuşlar.

## ALLAHVERDİ (MİS MƏDƏNLƏRİ, MANAS)

Loru mahalının Allahverdi rayonununda, Tiflis-İrəvan dəmir yolunun və Tona (Debet) çayının kənarlarında, İrəvandan 191 km, Tiflisdən 63 km məsafədə kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

1886-cı ilin statistikasında kənddə cəmi 425 təsərrüfatda 1.167 nəfər (645 kişi, 522 qadın) əhali yaşamışdır ki, onların da 58 təsərrüfatda 132 nəfərini (112 kişi, 20 qadın) azərbaycanlılar, 2 təsərrüfatda 4 nəfərini (2 kişi, 2 qadın) ruslar, 172 təsərrüfatda 969 nəfərini (504 kişi, 465 qadın) yunanlar, 8 təsərrüfatda 46 nəfərini (20 kişi, 26 qadın) ermənilər, 5 təsərrüfatda 16 nəfərini (7 kişi, 9 qadın) gürcülər təşkil etmişdir.

Rayonun ərazisində çoxlu sayda alban adibələrinin izləri bu günədək qalmaqdadır. Nəhədək kilsəsinin və Şapur xan məscidinin uçuq divarları da tarixin yadigarıdırlar.

1750-ci illərdə Allahverdi, Axtala və Gümüşxanadan qızıl, mis və gümüş istehsalına başlandığından bu yerlərdə metallurgiyanı inkişaf etdirmək üçün Anadaolu turkləri öz ərazilərindən, yəni Anadolu ətrafında yaşayan və metallurgiyanın sirlərinə bələd olan yunanları bura köçürməyə başlamışdır. Türkiyədən köçürülən yunanlar yerli türklər yaşayan Allahverdi, Axtala, Gümüşxana, Mədən, Şamlıq və s. yerlərdə məskunlarşdırılmışdır. Yunanlar, xristian olsalar da, ermənilərdən, gürcülərdən çox yerli türklərə yaxınlıq edir, türk dilində danışırlar.

1918-ci il oktyabrın 18-də erməni qoşunları Borçalı qəzasının içərilərinə soxulurdular. Onlar İrəvan, Tiflis dəmir yolu boyunca Sənain stansiyasına gəlib çatırlar.

1918-1919-cu illərdə daşnak hökumətinin fitvası ilə erməni millətçiləri azəri türklərinə qarşı böyük soyqırımı apardılar. Bu qırğınlarda Allahverdi rayon ərazisində olan 30-dan çox türk kəndi qılıncdan keçirildi. Qədim türk torpaqlarını ermənilər rusların köməyi ilə öz əllərinə keçirdilər. Bu qırğından canını qurtarmaq üçün Borçalıya qaçan kənd sakinlərinin bəzisi 1922-ci ildən sonra Allahverdi, Ağtala, Böyük Ayrım kəndlərinə və s. yerlərə qayıda bildilər.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı erməni millətçiləri kəndin bütün azərbaycanlı əhalisinin var-yoxunu əllərindən alaraq onları son adamına qədər doğma yurdlarından vəhşicəsinə qovdular. Bu vaxt azərbaycanlılardan ölən və yaralananlar da oldu.

## ŞAMLIQ

Loru mahalının Allahverdi rayonununda, rayon mərkəzindən 13 km şimal-şərqdə kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonralar isə sonralar isə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

1886-cı ilin statistikasında kənddə 24 təsərrüfatda 136 nəfər (76 kişi, 60 qadın) əhali yaşadığı, onların isə 21 təsərrüfatda 129 nəfərinin (71 kişi, 58 qadın) yunanlar, 3 təsərrüfatda 7 nəfərinin (5 kişi, 2 qadın) isə azərbaycanlılar olduğu göstərilmişdir.

Görünür, həmin yunanlar əsasən Şamlıq və Axtala mədənlərində işləyənlər olmuşlar.

1897-ci ildə kənddə 149 nəfər azərbaycanlı, 197 nəfər yunan yaşamışdır ki, bu yunanların da əsas danışıq dili Azərbaycan-türk dili olmuşdur.

Şamlıq kəndi qədimdən öz misgər və zərgərləri ilə məşhur olub.

Bundan əlavə, kənd mis filizi yataqları ilə tanınıb Şamlıq mis mədənləri qədimdən dillər əzbəri olub.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı erməni millətçiləri kəndin bütün azərbaycanlı əhalisinin var-yoxunu əllərindən alaraq onları son adamına qədər doğma yurdlarından vəhşicəsinə qovmuşlar.

## AŞAĞI AXTALA (GÜMÜŞXANA)

Loru mahalının Allahverdi rayonununda, Ləlvər dağının ətəyində, Borçalı çayının sol sahilində kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri yaşamışdır. 1770-ci ildən sonra mədənlərin işə düşməyi ilə əlaqədar bura xeyli yunan işçisi daha sonralar isə ermənilər də köçüb gəlmişlər.

1832-ci ildə kənddə 20 nəfər, 1886-cı ildə təsərrüfatda 41 nəfər (21 kişi, 20 qadın), 1897-ci ildə 69 nəfər, 1922-ci ildə 103 nəfər, 1926-cı ildə 140 nəfər, 1931-ci ildə 248 nəfər, 1939-cu ildə 398 nəfər azərbaycanlı, yunan, gürcü və erməni yaşamışdır.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı erməni millətçiləri Axtala qəsəbəsinin bütün azərbaycanlı əhalisinin var-yoxunu əllərindən alaraq onları öz doğma yurdlarından vəhşicəsinə qovmuşlar.

## CILIZ (CİLİZƏ)

Loru mahalının Allahverdi rayonununda, rayon mərkəzindən 88 km məsafədə kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılarla yunanlar və ermənilər yanaşı yaşamışlar.

1897-ci ildə kənddə 31 nəfər azərbaycanlı, 31 nəfər yunan yaşamışdır.

1920-ci illərdə kəndə çoxlu sayda erməni millətindən olan əhali köçürülmüş və kənd azərbaycanlı, yunan və ermənilərin yanaşı yaşadığı qarışıq kəndə çevrilmişdir.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı erməni millətçiləri kəndin bütün azərbaycanlı əhalisinin var-yoxunu əllərindən alaraq onları son adamına qədər doğma yurdlarından vəhşicəsinə qovmuşlar. Bununla da kəndin erməniləşdirilməsi tamamilə başa çatmışdır.

## VORONTSOVKA (KALİNİNO) RAYONU

Dağ Borçalısının Loru mahalı ərazisində rayon.

1937-ci il dekabrın 31-də təşkil edilmiş, 1991-ci il aprelin 19-da adı dəyişdirilib Taşir rayonu qoyulmuşdur. Ərazisi 690 kv km.-dir.

Rayon mərəkəzi şəhər tipli Vorontsovka (03.03.1935-ci ildən – Kalinino, 19.04.1991-ci ildən – Taşir) qəsəbəsidir.

Rayon mərkəzinə ən yaxındəmiryol dayanacağı 47 km kənarda yerləşən Kolagirən (Tumanyan) stansiyasıdır (Böyük Qarakilsə rayonu ərazisində).

Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 174 km-dir.

1801-ci ildə Rusiyanın tərkibinə qatıldıqdan sonra 1918-ci iləDək Tiflis quberniyasının Qazax-Şəmşəddil distansiyasının, 1919-1920-ci illərdə Lorinin, 1921-1931-ci illərdə isə Lori-Pəmbək qəzasının tərkibinə daxil olmuşdur.

Bir tərəfdən Cəlaloğlu Stepanavan, Allahverdi rayonları Tumanyan digər tərəfdən isə Gürcüstanın Başkeçid rayonları ilə sərhəddə yerləşirdi.

Rayonda azərbaycanlı əhalinin sayı 14 min nəfər idi. 2 kolxoz və 4 böyük sovxozdan ibarət olan rayon təsərrüfatlarında 15.500 baş qaramal, 13.000 baş qoyun olmuşdur.

Fərdi təsərrüfatlarda isə mal-qaranın sayı 9 min başa, qoyunların sayı 25 min başa çatırdı. İstər kolxoz-sovxozlarda, istərsədə şəxsi təsərrüfatlarda olan heyvanlar ermənilər tərəfindən mənissənilmişdir.

Qaçqınlıq vaxtı Vorontsovka rayonundan 11 nəfər azərbaycanlı öldürülmüşdür.

### 1988-ci ilə qədər Barana rayonunda mövcud olan azərbaycanlı yaşayış məntəqələrinin siyahısı

**Xalis azərbaycanlı yaşayış məntəqələri**

1. Qızılkilsə (03.01.1935-ci ildən – Qızıldaş, 19.04.1991-ci ildən – Aruni)
2. Sarıyal//Sarıyar (19.04.1991-ci ildən – Apavan)
3. Molla Eyyublu (sonralar – Evli, 19.04.1991-ci ildən – Dzaramut)
4. Cücəkənd (03.01.1935-ci ildən – Qızılşəfəq)
5. Soyuqbulaq (19.04.1991-ci ildən – Paqaxpyur)
6. İlməzli
7. Qaraqala (19.04.1991-ci ildən – Noramut)
8. Dəmirçilər (19.04.1991-ci ildən – Qoçavan)
9. Qaraisə (19.04.1991-ci ildən – Meğvahovit)

**Qarışıq yaşayış məntəqələri**

10. Vorontsovka (03.03.1935-ci ildən – Kalinino, 19.04.1991-ci ildən – Taşir)
11. Novoseltsovo
12. Saratovka
13. Privolnoye
14. Kruqloşışka
15. Medovka
16. Mixailovka
17. Qurdqala (sonralar – Petrovka)
18. Blaqodarnoye
19. Lorsovxoz (25.01.1978-ci ildən – Katnarat)

**Vorontsovka rayonu azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mədəniyyət evi – | 10 əd. |
| Klub – | 10 əd. |
| İdarə binası – | 12 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Həkim məntəqəsi – | 11 əd. |
| İribuynuzlu mal-qara – | 13000 baş |
| Xırdabuynuzlu mal-qara – | 15500 baş |
| Mal-qara üçün bina – | 66 əd. |
| Enerji şəbəkəsi – | 81 əd. |
| Dəyirman – | 1 əd. |
| Anbar binası – | 11 əd. |
| Məscid binası – | 1 əd. |
| Avtomaşınlar – | 100 əd. |
| K/t maşınları – | 101 əd. |
| K/t texnikası – | 90 əd. |
| Məktəb, kitabxana – | 11 əd. |
| Sair tikili – | 7 əd. |
| Su nasosu stansiyası – | 1 əd. |
| Arı ailəsi – | 640 əd. |

## QIZILKİLSƏ (QIZILDAŞ)

Loru mahalının Vorontsovka (03.03.1935-ci ildən – Kalinino, 19.04.1991-ci ildən – Taşir) rayonunund a, rayon mərkəzindən 15 km şimal-şərqdə, dəniz səviyyəsindən 1590 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə **Qızılkilsədağ kəndi** kimi qeydə alınmış, kənddə 11 təsərrüfatda 106 nəfər (59 kişi, 47 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir. Kənddə 1897-ci ildə 202 nəfər, 1908-ci ildə 215 nəfər, 1916-cı ildə 490 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ildə kənd erməni daşnakları tərəfindən talan edilmiş, əhalisi qanlı qırğınlara məruz qalaraq doğma yurdlarından qovulmuşlar. Borçalı mahalının azərbaycanlı kəndlərinə pənah aparan kəndin qaçqın əhalisi sovet hakimiyyətinin ilk illərində geri qayıtmışlar. 1922-ci ildə kənddə 373 nəfər, 1926-cı ildə 408 nəfər, 1931-ci ildə 437 nəfər azərbaycanlı yaşamışdır.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin 1500 nəfərdən artıq azərbaycanlı əhalisi ermənilər tərəfindən öz doğma kəndlərindən vəhşicəsinə qovulmuşlar. Kəndin Qızılkilsə adı 1935-ci il yanvarın 3-də dəyişdirilərək Qızıldaş, 19.04.1991-ci il aprelin 19-da isə Aruni adlanmışdır.

### Qızılkilsə-Sarıyal kəndləri azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 2 əd. |
| Klub – | 2 əd. |
| İdarə binası – | 2 əd. |
| Həkim məntəqəsi – | 2 əd. |
| İribuynuzlu mal-qara – | 2500 baş |
| Xırdabuynuzlu mal-qara – | 2000 baş |
| Mal-qara üçün bina – | 6 əd. |
| Enerji şəbəkəsi – | 12 əd. |
| Anbar binası – | 2 əd. |
| Avtomaşınlar – | 18 əd. |
| K/t maşınları – | 20 əd. |
| K/t texnikası – | 17 əd. |
| Məktəb, kitabxana – | 2 əd. |
| Arı ailəsi – | 100 əd. |

## SARIYAL (SARİAR)

Loru mahalının Vorontsovka (03.03.1935-ci ildən – Kalinino, 19.04.1991-ci ildən – Taşir) rayonununda, rayon mərkəzindən 12 km şimal-şərqdə, dəniz səviyyəsindən 1579 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ilin statistikasında **Sarıyar kəndi** kimi qeydə alınmış, kənddə 15 təsərrüfatda 78 nəfər (49 kişi, 29 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir. Kənddə 1897-ci ildə 92 nəfər, 1904-cü ildə 105 nəfər, 1922-cı ildə 149 nəfər, 1926-cı ildə 162 nəfər, 1931-ci ildə 181 nəfər azərbaycanlı yaşamışdır.

Kənddə qədim alban kilsəsi və Oğuz qəbiristanlığının qalıqları son zamanlara qədər qalmaqda idi.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin bütün azərbaycanlı əhalisi ermənilər tərəfindən öz doğma kəndlərindən vəhşicəsinə qovulmuşlar.

Kəndin **Sarıyal//Sarıyar** adı 1991-ci il aprelin 19-da dəyişdirilərək Apavan qoyulmuşdur.

## EVLİ (XARRAT, MOLLA EYYUB)

Loru mahalının Vorontsovka (03.03.1935-ci ildən – Kalinino, 19.04.1991-ci ildən – Taşir) rayonununda, rayon mərkəzindən 8 km məsafədə, Loru dağının ətəklərində, dəniz səviyyəsindən 1566 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə kənddə 8 təsərrüfatda 58 nəfər (40 kişi, 18 qadın), 1897-ci ildə 241 nəfər, 1914-cü ildə 127 nəfər, 1916-cı ildə 169 nəfər, 1922-ci ildə 271 nəfər, 1926-cı ildə 338 nəfər, 1931-ci ildə 382 nəfər azərbaycanlı əhali yaşamışdır.

1988-ci ilin noyabrında Arutyunyan hökumətinin rayondakı nümayəndəsi, əvvəllər Vorontsovka (Kalinino) rayonunda birinci katib işləmiş Nikolay Stepanoviç Karpenko kəndə gəlib, direktorun kabinetində iclas keçirir. Camaatı inandırır ki, onların təhlükəsizliyinin təmin olunmasını daha heç kim öz öhdəsinə götürə bilmir... Çox keçmir ki, kəndin bütün azərbaycanlı əhalisi erməni daşnakları tərəfindən qanlı qırğınlarla qovulub çıxarılır.

Kənd əvvəllər Xarrat, sonralar Molla Eyyublu, daha sonralar Evli adlanmış, kəndin Evli adı isə 1991-ci il aprelin 19-da dəyişdirilərək **Dzaramut** qoyulmuşdur.

### Evli-Dəmirçi kəndləri azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Həkim məntəqəsi – | 2 əd. |
| İribuynuzlu mal-qara – | 1000 baş |
| Xırdabuynuzlu mal-qara – | 5000 baş |
| Mal-qara üçün bina – | 6 əd. |
| Enerji şəbəkəsi – | 3 əd. |
| Anbar binası – | 1 əd. |
| Avtomaşınlar – | 5 əd. |
| K/t maşınları – | 6 əd. |
| K/t texnikası – | 4 əd. |
| Məktəb, kitabxana – | 2 əd. |
| Arı ailəsi – | 120 əd. |

## CÜCƏKƏND (QIZIL ŞƏFƏQ)

Loru mahalının Vorontsovka (03.03.1935-ci ildən – Kalinino, 19.04.1991-ci ildən – Taşir) rayonununda, rayon mərkəzindən 14 km şimal-qərbdə, dəniz səviyyəsindən 1622 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə kənddə 21 təsərrüfatda 205 nəfər (118 kişi, 87 qadın), 1897-ci ildə 498 nəfər, 1914-cü ildə 468 nəfər, 1922-ci ildə 474 nəfər, 1931-ci ildə 623 nəfər, 1988-ci ildə 1500 nəfər azərbaycanlı əhali yaşamışdır.

03.01.1935-ci il yanvarın 3-də kəndin Cücəkənd adı dəyişdirilərək **Qızıl Şəfəq** qoyulmuşdur.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı erməni quldur dəstələri bir neçə günün içində kəndin 1500 nəfərdən çox azərbaycanlı əhalisini tamamilə qovub kənddən çıxarmış, onların evlərinə, mal və mülklərinə yiyələnmişlər.

### Cücəkənd-Soyuqbulaq kəndləri azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 2 əd. |
| Klub – | 2 əd. |
| İdarə binası – | 3 əd. |
| Həkim məntəqəsi – | 2 əd. |
| İribuynuzlu mal-qara – | 3000 baş |
| Xırdabuynuzlu mal-qara – | 2500 baş |
| Mal-qara üçün bina – | 14 əd. |
| Enerji şəbəkəsi – | 18 əd. |
| Anbar binası – | 2 əd. |
| Məscid binası – | 1 əd. |
| Avtomaşınlar – | 23 əd. |
| K/t maşınları – | 25 əd. |
| K/t texnikası – | 18 əd. |
| Məktəb, kitabxana – | 2 əd. |
| Sair tikili – | 2 əd. |
| Su nasosu stansiyası – | 1 əd. |
| Arı ailəsi – | 120 əd. |
| Yağ-pendir – | 1 əd. |

## SOYUQBULAQ

Loru mahalının Vorontsovka (03.03.1935-ci ildən – Kalinino, 19.04.1991-ci ildən – Taşir) rayonununda, rayon mərkəzindən 20 km məsafədə, dəniz səviyyəsindən 1750 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kənddə 1886-cı ildə 22 təsərrüfatda 159 nəfər (82 kişi, 77 qadın), 1897-ci ildə 154 nəfər, 1916-cı ildə 375 nəfər, 1922-ci ildə 402 nəfər, 1926-cı ildə 405 nəfər, 1931-ci ildə 420 nəfər azərbaycanlı əhali yaşamışdır.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin bütün azərbaycanlı əhalisi qanlı qırğınlarla qovulub knddən çıxarılmış, onların evləri, mal və mülkləri əvəzi ödənilmədən əllərindən alınmışdır. Qışın soyuğunda kənddən qovulmuş insanlar qarda, çovğunda dağlarla, meşələrlə Azərbaycanın, Gürcüstanın müxtəlif rayonlarına sığınmışlar.

# İLMƏZLİ

Loru mahalının Vorontsovka (03.03.1935-ci ildən – Kalinino, 19.04.1991-ci ildən – Taşir) rayonununda, rayon mərkəzindən 10 km şimal-qərbdə, dəniz səviyyəsindən 1664 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ilin statistikasında kənddə azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

Kənddə 1832-ci ildə 75 nəfər, 1886-cı ildə 36 təsərrüfatda 212 nəfər (128 kişi, 84 qadın), 1897-ci ildə 301 nəfər, 1916-cı ildə 479 nəfər, 1922-ci ildə 431 nəfər, 1931-ci ildə 565 nəfər, 1988-ci ildə 3.000 nəfər azərbaycanlı yaşamışdır.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin azərbaycanlı əhalisi tamamilə qovulub kənddən çıxarılmış, onların bütün ictimai və fərdi əmlakları, ev və mülkləri əvəziödənilmədən mənimsənilmişdir.

**İlməzli-Qaraqala-Qaraisa kəndləri azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mədəniyyət evi – | 3 əd. |
| Klub – | 3 əd. |
| İdarə binası – | 3 əd. |
| Həkim məntəqəsi – | 3 əd. |
| İribuynuzlu mal-qara – | 3500 baş |
| Xırdabuynuzlu mal-qara – | 3000 baş |
| Mal-qara üçün bina – | 13 əd. |
| Enerji şəbəkəsi – | 16 əd. |
| Anbar binası – | 3 əd. |
| Avtomaşınlar – | 19 əd. |
| K/t maşınları – | 23 əd. |
| K/t texnikası – | 21 əd. |
| Məktəb, kitabxana – | 3 əd. |
| Sair tikili – | 2 əd. |
| Arı ailəsi – | 200 əd. |
| Yağ-pendir – | 1 əd. |

## QARAQALA

Loru mahalının Vorontsovka (03.03.1935-ci ildən – Kalinino, 19.04.1991-ci ildən – Taşir) rayonununda, rayon mərkəzindən 12 km cənub-qərbdə, dəniz səviyyəsindən 1701 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə kənddə 26 təsərrüfatda 183 nəfər (108 kişi, 75 qadın), 1897-ci ildə 273 nəfər, 1916-cı ildə 244 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-ci ildə kənd erməni daşnakları tərəfindən dağıdılmış, əhalisi qətl və qarətlərə məruz qalmış, doma yurdlarından qovulmuşlar. Yalnız bölgədə sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisi doğma yurdlarına qayıtmaq imkanı əldə etmişdir.

1922-ci ildə kənddə 208 nəfər, 1926-cı ildə 298 nəfər, 1931-ci ildə 196 nəfər əhali yaşamışdır.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin azərbaycanlı əhalisi sonuncu adamına qədər qovulub kənddən çıxarılmış, onların bütün ictimai və fərdi əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

## DƏMİRÇİLƏR

Loru mahalının Vorontsovka (03.03.1935-ci ildən – Kalinino, 19.04.1991-ci ildən – Taşir) rayonununda, rayon mərkəzindən 9 km şimal-qərbdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1897-ci ildə kənddə 89 nəfər, 1908-cı ildə 420 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-ci ildə kənd erməni daşnakları tərəfindən dağıdılmış, əhalisi qətl və qarətlərə məruz qalmış, doma yurdlarından qovulmuşlar. Yalnız bölgədə sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisinin az bir qismi doğma yurdlarına geri qayıda bilmişlər.

1922-ci ildə kənddə 43 nəfər, 1926-cı ildə 128 nəfər, 1931-ci ildə 44 nəfər azərbaycanlı əhali siyahıya alınmışdır.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin azərbaycanlı əhalisi bir həftə ərzində sonuncu adamına qədər qovulub kənddən çıxarılmış, onların bütün ictimai və fərdi əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır. Kəndin əhalisi Azərbaycanın və Gürcüstanın müxtəlif rayonlarına səpələnmişlər.

## QARAİSA

Loru mahalının Vorontsovka (03.03.1935-ci ildən – Kalinino, 19.04.1991-ci ildən – Taşir) rayonununda, rayon mərkəzindən 10 km cənub-qərbdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"Tiflis əyalətinin müfəssəl dəftəri"ndə (1728) Taşır nahiyəsinin **Qarakilsə kəndi** kimi qeydə alınmış, kənddə əhali yaşamadığı, dövlətin isə kənd ərazisində əkilən dənli bitkilərdən vergi şəklində əldə etdiyi gəlirin məbləğinin ildə 2.000 ağça olduğu göstərilmişdir.

Kənddə 1922-ci ildə 128 nəfər, 1926-cı ildə 163 nəfər, 1931-ci ildə 196 nəfər azərbaycanlı yaşamışdır.

Kənddə Alban kilsəsinin və Oğuz qəbiristanlığının qalıqları vardı.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin azərbaycanlı əhalisi qonşu İlməzli və Qaraqala kəndlərinin əhalisi kimi, bir həftə ərzində sonuncu adamına qədər qovulub kənddən çıxarılmış, onların bütün ictimai və fərdi əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır. Kəndin əhalisi Azərbaycanın və Gürcüstanın müxtəlif rayonlarına səpələnmişlər.

## VORONTSOVKA

Loru mahalının Vorontsovka (03.03.1935-ci ildən – Kalinino, 19.04.1991-ci ildən – Taşir) rayonununda kənd, Vorontsovka rayonunun mərkəzi.

Kənddə əvvəllər Azərbaycan türkləri, sonralar isə azərbaycanlılar, ruslar və ermənilər yanaşı yaşamışlar.

1886-cı ilin statistikasında Tiflis quberniyasının Borçalı qəzasının Lori nahiyəsinin **Vorontsovka kəndi** kimi siyahıya alınmış, kənddə 255 təsərrüfatda 2.284 nəfər (1.189 kişi, 1.095 qadın) rus əhalinin yaşadığı göstərilmişdir.

Vorontsovka 1961-ci ildən şəhər tipli qəsəbə statusunu almışdır.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı qəsəbənin azərbaycanlı əhalisi sonuncu nəfərinə qədər qovulub çıxarılmış, onların bütün ictimai və fərdi əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır. Kəndin əhalisi Azərbaycanın və Gürcüstanın müxtəlif rayonlarına səpələnmişlər.

Qəsəbənin adı 1935-ci il martın 3-də dəyişdirilərək **Kalinino**, 19.04.1991-ci il aprelin 19-da isə yenidən dəyişdirilərək **Taşir** qoyulmuşdur.

## NOVOSELTSOVA

Loru mahalının Vorontsovka rayonununda, rayon mərkəzindən 9 km məsafədə kənd.

Kənddə əvvəllər Azərbaycan türkləri, sonralar isə azərbaycanlılar və ruslar yanaşı yaşamışlar.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin azərbaycanlı əhalisi sonuncu nəfərinə qədər qovulub kənddən çıxarılmış, onların bütün ictimai və fərdi əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

Kənddən qovulan azərbaycanlı əhali Azərbaycanın və Gürcüstanın müxtəlif rayonlarına səpələnmişlər.

## SARATOVKA

Loru mahalının Vorontsovka rayonununda, rayon mərkəzindən 5 km məsafədə kənd.

Kənddə əvvəllər Azərbaycan türkləri, sonralar isə azərbaycanlılar və ruslar yanaşı yaşamışlar.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin azərbaycanlı əhalisi sonuncu nəfərinə qədər qovulub kənddən çıxarılmış, onların bütün ictimai və fərdi əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

Kənddən qovulan azərbaycanlı əhali Azərbaycanın və Gürcüstanın müxtəlif rayonlarına səpələnmişlər.

## PRİVOLNOYE

Loru mahalının Vorontsovka rayonununda, rayon mərkəzindən 5 km məsafədə kənd.

Kənddə əvvəllər Azərbaycan türkləri, sonralar isə azərbaycanlılar, ruslar və ermənilər yanaşı yaşamışlar.

1886-cı ilin statistikasında Tiflis quberniyasının Borçalı qəzasının Lori nahiyəsinin **Privolnoye kəndi** kimi qeydə alınmış, kənddə cəmi 165 təsərrüfatda 1.172 nəfər (583 kişi, 589 qadın) əhali yaşadığı, onların 164 təsərrüfatda 1.169 nəfərinin (582 kişi, 587 qadın) ruslar, 1 təsərrüfatda 3 nəfərinin isə (1 kişi, 2 qadın) almanlar olduğu göstərilmişdir.

1922-ci ildə kənddə 1930 nəfər rus, 78 nəfər erməni, 18 nəfər azərbaycanlı qeydə alınmışdır.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin azərbaycanlı əhalisi sonuncu nəfərinə qədər qovulub kənddən çıxarılmış, onların bütün ictimai və fərdi əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

Kənddən qovulan azərbaycanlı əhali Azərbaycanın və Gürcüstanın müxtəlif rayonlarına səpələnmişlər.

## KRUQLAYA ŞİŞKA

Loru mahalının Vorontsovka rayonununda, rayon mərkəzindən 7 km məsafədə kənd.

Kənddə əvvəllər Azərbaycan türkləri, sonralar isə azərbaycanlılar və ruslar yanaşı yaşamışlar.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin azərbaycanlı əhalisi sonuncu nəfərinə qədər qovulub kənddən çıxarılmış, onların bütün ictimai və fərdi əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

Kənddən qovulan azərbaycanlı əhali Azərbaycanın və Gürcüstanın müxtəlif rayonlarına səpələnmişlər.

## MEDOVKA (MEDOVİNA)

Loru mahalının Vorontsovka rayonununda, rayon mərkəzindən 7 km cənub-şərqdə kənd.

Kənddə əvvəllər Azərbaycan türkləri, sonralar isə azərbaycanlılar və ruslar yanaşı yaşamışlar.

1897-ci ildə kənddə 18 nəfər azərbaycanlı yaşamışdır.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin azərbaycanlı əhalisi sonuncu nəfərinə qədər qovulub kənddən çıxarılmış, onların bütün ictimai və fərdi əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

Kənddən qovulan azərbaycanlı əhali Azərbaycanın və Gürcüstanın müxtəlif rayonlarına səpələnmişlər.

## MİXAYLOVKA

Loru mahalının Vorontsovka rayonununda, rayon mərkəzindən 7 km cənub-şərqdə, Taşir çayının sahilində kənd.

Kənddə əvvəllər Azərbaycan türkləri, sonralar isə azərbaycanlılar və ruslar yanaşı yaşamışlar.

1886-cı ilin statistikasında isə Tiflis quberniyasının Borçalı qəzasının Lori nahiyəsinin **Yeni Mixaylovka kəndi** kimi qeydə alınmış, kənddə 37 təsərrüfatda 268 nəfər (114 kişi, 124 qadın) rus əhalinin yaşadığı göstərilmişdir.

1922-ci ildə kənddə 871 nəfər rus, 37 nəfər erməni, 17 nəfər azərbaycanlı qeydə alınmışdır.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin azərbaycanlı əhalisi sonuncu nəfərinə qədər qovulub kənddən çıxarılmış, onların bütün ictimai və fərdi əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

### Mixaylovka-Petrovka kəndləri azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 2 əd. |
| Klub – | 2 əd. |
| İdarə binası – | 3 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Həkim məntəqəsi – | 2 əd. |
| İribuynuzlu mal-qara – | 3000 baş |
| Xırdabuynuzlu mal-qara – | 3000 baş |
| Mal-qara üçün bina – | 27 əd. |
| Enerji şəbəkəsi – | 32 əd. |
| Dəyirman – | 1 əd. |
| Anbar binası – | 3 əd. |
| Avtomaşınlar – | 25 əd. |
| K/t maşınları – | 27 əd. |
| K/t texnikası – | 30 əd. |
| Məktəb, kitabxana – | 2 əd. |
| Sair tikili – | 3 əd. |
| Arı ailəsi – | 100 əd. |

## QURDQALA (PETROVKA)

Loru mahalının Vorontsovka rayonununda, rayon mərkəzindən 10 km məsafədə kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılarla ruslar yanaşı yaşamışlar.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin azərbaycanlı əhalisi sonuncu nəfərinə qədər qovulub kənddən çıxarılmış, onların bütün ictimai və fərdi əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

Kənddən qovulan azərbaycanlı əhali Azərbaycanın və Gürcüstanın müxtəlif rayonlarına səpələnmişlər.

## BLAQODARNOYE

Loru mahalının Vorontsovka rayonununda, rayon mərkəzindən 13 km məsafədə kənd.

Kənddə Azərbaycan türkləri və ruslar yanaşı yaşamışlar.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin azərbaycanlı əhalisi sonuncu nəfərinə qədər qovulub kənddən çıxarılmış, onların bütün ictimai və fərdi əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

Kənddən qovulan azərbaycanlı əhali Azərbaycanın və Gürcüstanın müxtəlif rayonlarına səpələnmişlər.

# LORSOVXOZ (KATNARAT)

Loru mahalının Vorontsovka rayonununda, rayon mərkəzindən 16 km məsafədə kənd.

Kənddə əvvəllər Azərbaycan türkləri, sonralar isə azərbaycanlılar və ruslar yanaşı yaşamışlar.

Kəndin Lorsovxoz adı 1978-ci il yanvarın 25-də dəyişdirilərək **Katnarat** qoyulmuşdur.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin azərbaycanlı əhalisi sonuncu nəfərinə qədər qovulub kənddən çıxarılmış, onların bütün ictimai və fərdi əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

Kənddən qovulan azərbaycanlı əhali Azərbaycanın və Gürcüstanın müxtəlif rayonlarına səpələnmişlər.

# BÖYÜK QARAKİLSƏ (QUQARK) RAYONU

Pəmbək mahalı ərazisində rayon. 1930-cu il sentyabrın 9-da təşkil edilmiş, 1935-ci il yanvarın 3-nə qədər Böyük Qarakilsə rayonu, həmin tarixdən etibarən Kirovakan rayonu, sonra isə Quqark rayonu adlandırılmışdır. Ərazisi 776 kv km-dir.

Rayon mərkəzi Yaqublu (01.04.1946-cı ildən – Meğrut) kəndidir (indi şəhər tipli qəsəbədir).

Rayon mərkəzinə ən yaxın dəmiryol dayanacağı 4 km kənarda yerləşən Böyük Qarakilsə (03.01.1935-ci ildən – Kirovakan) stansiyasıdır.

Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 149 km-dir.

1918-ci ilə qədər rayonunun ərazisində azərbaycanlılar çoxluq təşkil etmişlər. 1950-ci illərdən etibarən azərbaycanlı əhalinin əvvəllər deportasiya olunub, sonra sıxışdırılıb çıxarılması və xaricdən ermənilərin gətirilib bu yerlərdə yerləşdirilməsi nəticəsində rayonda ermənilərin sayı artıb 62,4 faizə çatmışdır.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı isə rayonun azərbaycanlı əhalisi sonuncu nəfərinə qədər qovulub çıxarılmış, onların bütün ictimai və fərdi əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

1988-ci il dekabrın 7-də Qərbi Azərbaycanın Loru-Pəmbək zonasında baş verən dəhşətli zəlzələdən təkcə Böyük Qarakilsə rayonunda 33 nəfər azərbaycanlı həlak olmuşdur.

## 1988-ci ilə qədər Böyük Qarakilsə rayonunda mövcud olan azərbaycanlı yaşayış məntəqələrinin siyahısı

**Xalis azərbaycanlı yaşayış məntəqələri**

1. Hallavar
2. Yuxarı Kilsə
3. Mollaqışlaq (25.01.1978-ci ildən – Güllüdərə)
4. Xancığaz (01.06.1940-cı ildən – Gözəldərə, 19.04.1991-ci ildən – Aznavadzor)
5. Arçut
6. Heydərli
7. Aşağı Kilsə

**Qarışıq yaşayış məntəqələri**
8. Vartanlı (1953-cü ildən – Xndzorut; 1955-ci ildən – Şaumyan)
9. Nikitino (03.01.1935-ci ildən – Fioletovo)
10. Voskresenovka (05.07.1941-ci ildən – Lermontovo)
11. Böyük Qarakilsə (03.01.1935-ci ildən – Kirovakan)

**Böyük Qarakilsə rayonu azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mədəniyyət evi – | 6 əd. |
| Klub – | 6 əd. |
| İdarə binası – | 11 əd. |
| Uşaq bağçası – | 6 əd. |
| Xəstəxana – | 6 əd. |
| Həkim məntəqəsi – | 6 əd. |
| Tövlə və ferma binaları – | 42 əd. |
| Enerji şəbəkəsi – | 10 əd. |
| Dəyirman – | 6 əd. |
| Anbar binaları – | 10 əd. |
| Məscid binası – | 6 əd. |
| Avtomaşınlar – | 58 əd. |
| K/t maşınları – | 121 əd. |
| İribuynuzlu mal-qara – | 4000 baş |
| Xırdabuynuzlu mal-qara – | 18500 baş |
| Məktəb – | 11 əd. |
| Kitabxana – | 6 əd. |
| Baytar həkim məntəqəsi – | 6 əd. |
| Yeməkxana – | 6 əd. |
| Əczaxana – | 6 əd. |
| Poçt idarəsi – | 6 əd. |

## HALLAVAR

Pəmbək mahalının Böyük Qarakilsə rayonunda, rayon mərkəzindən 18 km məsafədə, Pəmbək çayının sağ qolu olan Hallavar çayı kənarında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1873-cü ildə kənddə 72 təsərrüfatda 625 nəfər (321 kişi, 304 qadın), 1886-cı ildə 85 təsərrüfatda 664 nəfər (335 kişi, 329 qadın) azərbaycanlı əhali qeydə alınmışdır.

Müqəddəs Maymaq adlı möhtəşəm bir dağın ətəklərində yerləşən dörd para kəndi - Mollaqışlaq, Yuxarı Kilsə, Aşağı Kilsə, Heydərli kəndlərini öz ətrafında birləşdirən Hallavar bir növ mərkəz rolunu oynayırdı.

1988-ci ildə kənddə 750 təsərrüfatda 700 nəfər azərbaycanlı əhali yaşamışdır. Həmin il kəndin bütün azərbaycanlı əhalisi erməni vəhşiləri tərəfindən qovularaq kənddən çıxarılmışdır.

### Hallavar kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı:

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 2 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| Tövlə və ferma binaları – | 9 əd. |
| Enerji şəbəkəsi – | 2 əd. |
| Dəyirman – | 1 əd. |
| Anbar binaları – | 2 əd. |
| Məscid binası – | 1 əd. |
| Avtomaşınlar – | 10 əd. |
| K/t maşınları – | 22 əd. |
| İribuynuzlu mal-qara – | 700 baş |
| Xırdabuynuzlu mal-qara – | 6000 baş |
| Məktəb – | 2 əd. |
| Kitabxana – | 1 əd. |
| Baytar həkim məntəqəsi – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Əczaxana – | 1 əd. |
| Poçt idarəsi – | 1 əd. |

# YUXARI KİLSƏ

Pəmbək mahalının Böyük Qarakilsə rayonunda, rayon mərkəzindən 14 km cənub-şərqdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1922-ci ildə kənddə 96 nəfər, 1926-cı ildə 130 nəfər, 1931-ci ildə 254 nəfər azərbaycanlı yaşamışdır.

1905-ci il erməni-müsəlman davası zamanı kənd ermənilər tərəfindən dağıdılmış və əhalisi Türkiyəyə qaçmağa məcbur olmuşdur.

1918-ci ildə kənd ikinci dəfə erməni daşnaklarının vəhşi hücumlarına məruz qalmış, bu dəfə kənd camaatı Axalkələyə və Qars vilayətinə pənah aparmaq məcburiyyətində qalmışlar.

1948-1953-cü illər deportasiyası zamanı – 1949-cu ildə isə kəndin camaatı Azərbaycanın Saatlı rayonuna köçürülmüş, bir müddət sonra isə iqlimə uyğunlaşa bilməyən adamlar geriyə – doğma kəndlərinə geri qayıtmaq məcburiyyətində qalmışlar.

Hallavar sovetliyinə daxil olan kəndlərdən biri də Yuxarı Kilsə kəndi idi. Yuxarı Kilsə kəndi Hallavardan təxminən 4 km yuxarıda, dağlar qoynunda - Bayat dağının lap sinəsində çox geniş olmayan bir yastanada yerləşirdi. Kəndə dolama maşın yolu da çəkilmişdi.

Kənd camaatı əsasən heyvandarlıqla məşğul idi, mal-qoyunlarının sayı-hesabı yoxdu. Kəndin ikinci adı "Dızman" idi.

Kənddə çox qədimdən qalmış (mənbələrə görə bu, XV yüzildə tikilmiş alban kilsəsi idi) bir kilsə də vardı. Lakin sonradan söküb kolxoz anbarı düzəltmişdilər. Bu kilsə ermənilərə aid olsaydı, heç şübhəsiz, ermənilər ona belə ögey münasibət bəsləməz, onun sökülməsinə yol verməz, əksinə, bərpa edib bütün dünyaya car çəkərdilər.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kənd əhalisi yenidən erməni təcavüzü ilə üz-üzə qalmış, kəndin 70-dən artıq təsərrüfatda birləşmiş 575 nəfər azərbaycanlı əhalisi sonuncu nəfərinə qədər qovulub kənddən çıxarılmış, onların bütün ictimai və fərdi əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

## MOLLAQIŞLAQ

Pəmbək mahalının Böyük Qarakilsə rayonunda, Pəmbək çayının kənarında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1873-cü ildə kənddə 85 təsərrüfatda 772 nəfər (458 kişi, 314 qadın), 1886-cı ildə 120 təsərrüfatda 1.149 nəfər (622 kişi, 527 qadın) əhalinin yaşadığı göstərilmişdir.

Mollaqışlaq kəndi çox da elə böyük kənd deyildi. Amma ilin bütün fəsillərində haylı-haraylı, çal-çağırlı olardı. Bura Maymaq dağına gedən yolun sanki darvazası idi. Kəndin üst tərəfində iki dağ çayının qovuşduğu yerdə yüzillərin sınağından çıxmış müqəddəs Miskin Abdal ocağı ziyarətgahı var idi. Adamlar bura dəstə-dəstə ziyarətə gələr, qurban kəsər, bişirər, yeyər, dupduru, dişgöynədən bulaq suyundan içər və ötüb keçənlərə də pay verib gedərdilər. Yay mövsümündə yaylaqlara gedən yol buradan keçdiyi üçün ziyarətçilərin sayı daha çox olardı. Bu ziyarətin əsası Maymağın lap zirvəsində idi. Amma ora gedib-gəlmək çətin olduğu üçün az-az gedərdilər.

1978-ci il yanvarın 25-də Mollaqışlaq kəndinin adını dəyişib **Güllüdərə** qoymuşdular.

1988-ci ildə kənddə 65 təsərrüfatda 450 nəfər azərbaycanlı əhali yaşamışdır.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kənd əhalisi erməni təcavüzü ilə üz-üzə qalmış, kəndin 65 təsərrüfatda 450 nəfər azərbaycanlı əhalisi sonuncu nəfərinə qədər qovulub kənddən çıxarılmış, onların bütün ictimai və fərdi əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

### Mollaqışlaq kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |

| | |
|---|---|
| Həkim məntəqəsi – | 1 əd. |
| Tövlə və ferma binaları – | 5 əd. |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Dəyirman – | 1 əd. |
| Anbar binaları – | 1 əd. |
| Məscid binası – | 1 əd. |
| Avtomaşınlar – | 6 əd. |
| K/t maşınları – | 13 əd. |
| İribuynuzlu mal-qara – | 400 baş |
| Xırdabuynuzlu mal-qara – | 2000 baş |
| Məktəb – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Baytar həkim məntəqəsi – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Əczaxana – | 1 əd. |
| Poçt idarəsi – | 1 əd. |

## XANCIĞAZ (GÖZƏLDƏRƏ, İBRAHİMLİ)

Pəmbək mahalının Böyük Qarakilsə rayonunda, Bozabdal dağının ətəyində, Pəmbək çayının kiçik sol qolu üstündə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1873-cü ildə kənddə 33 təsərrüfatda 295 nəfər (164 kişi, 131 qadın), 1886-cı ildə 52 təsərrüfatda 345 nəfər (207 kişi, 138 qadın) azərbaycanlı yaşamışdır.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kənd əhalisi erməni təcavüzü ilə üz-üzə qalmış, kəndin 250 təsərrüfatda 1.700 nəfər azərbaycanlı əhalisi sonuncu nəfərinə qədər qovulub kənddən çıxarılmış, onların bütün ictimai və fərdi əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

### Yuxarı Kilsə kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 2 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| Tövlə və ferma binaları – | 7 əd. |
| Enerji şəbəkəsi – | 2 əd. |
| Dəyirman – | 1 əd. |
| Anbar binaları – | 2 əd. |
| Məscid binası – | 1 əd. |
| Avtomaşınlar – | 10 əd. |
| K/t maşınları – | 15 əd. |
| İribuynuzlu mal-qara – | 600 baş |
| Xırdabuynuzlu mal-qara – | 2000 baş |
| Məktəb – | 2 əd. |
| Kitabxana – | 1 əd. |
| Baytar həkim məntəqəsi – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Əczaxana – | 1 əd. |
| Poçt idarəsi – | 1 əd. |

## ARÇUT

Pəmbək mahalının Böyük Qarakilsə rayonunda, rayon mərkəzindən 10 km məsafədə, Bozabdal dağının cənub-şərq ətəyində, Pəmbək çayının yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Sahəsi 28,5 kv.km-dir. Mənbəyini Bozabdal sıra dağlarından alan Arçut çayı kəndin ortasından axır.

1873-cü ildə kənddə 40 təsərrüfatda 357 nəfər (191 kişi, 166 qadın), 1886-cı ildə 51 təsərrüfatda 477 nəfər (264 kişi, 213 qadın) azərbaycanlı əhali yaşamışdır.

Kənddə VII, XII, XIV, yüzilliklərə aid türk mədəniyyət qalıqları, türk kənd xarabalıqları və Oğuz qəbiristanlıqları vardı. Son illərdə aparılmış qazıntılar zamanı qəbiristan xarabalıqlarından tapılmış daş kitabələr burada qədimdən Azərbaycan türk tayfaları yaşadığını sübut edir.

Kəndin ərazisi, demək olar ki, başdan-başa tarixi əbidələrlə zəngin idi. Seysmik zonada yerləşdiyindən və həm də zaman-zaman dağıdıcı müharibələrə məruz qaldığından kəndin yeri bir neçə dəfə dəyişmişdir. Kəndin şimal-qərbində "Aydaşı" deyilən ərazidəki qədim qəbiristanlıqdan tapılmış qəbirlərdən götürülmüş muncuqlar, qolbaqlar, daş baltalar, nizə ucluqları və s. əşyalar deməyə əsas verir ki, ibtidai-icma dövründən kəndin yerləşdiyi ərazi "Oyuğun dalı" adlanan yerdə olmuşdur.

Kənd məscidinin 1041-ci ildə tikilməsi tarixi isə bəllidir.

Qaradolaqlı ocağının yerləşdiyi ərazidən tapılmış küp qəbirlər, saxsı qablar, gildən hazırlanmış müxtəlif məişət əşyaları göstərir ki, kəndin ərazisi xristianlığa qədərki dövrlərdə cənub-qərbdə "Qoltuq" deyilən yerdən tutmuş indiki İrəvan-Tiflis magistralına qədər geniş bir ərazini əhatə etmişdir.

Kənd məktəbinin qərb tərəfindən tikinti zamanı aşkara çıxarılmış xristian qəbiristanlığı və kilsə qalıqları, o cümlədən, qəbirlərdən tapılmış müxtəlif zinət əşyaları burada xristian dininə qulluq edən tayfaların yaşadıqlarını göstərir. Onu da qeyd etmək yerinə düşərdi ki, qazıntı işi aparan vaxt erməni millətindən olan alimlər də böyük maraqla bura gəlmişdilər. Buradakı kilsə, onun üzərindəki xaç və daş kitabə ilə tanışlıqdan sonra həmin daş kitabənin sındırılmasını təkid etmiş və bu kilsənin erməni kilsəsi ilə heç bir əlaqəsi olmadığını söyləmiş, bu böyk qəbiristanlığın Oğuzlara aid olduğunu etiraf etməyə məcbur olmuş, lakin guya Oğuzların türklərlə heç bir əlaqəsi olmadığını və bununla da bu abidələrin kəndin

azəri sakinlərinə dəxli olmadığını bildirmişdilər.

1988-ci il zəlzələsindən sonra isə kəndin şimal-şərqində "Əlləşən" deyilən ərazidən yaşayış yeri kimi ev damları aşkara çıxmışdır. Aydın olmuşdur ki, dağ aşınması zamanı həmin evlər torpağın altında qalıbmış. Eyni zamanda oradan türk mədəniyyətinə aid çoxlu nümunələr tapılmışdır.

Kənd bilicilərinin qeydlərinə əsasən, hələ XV-XVI yüzillərdə Arçutda indi də soy-kökləri bəlli olan adamlar yaşamışlar. Əhalinin ilkin sayı təxminən 35 nəfərə yaxın olmuş, bunlar da kəndin 1988-ci ilə qədər yerləşdiyi yerdə yox, kəndin şimalında - "Əlləşən" və "Sırxana" deyilən ərazilərdə yaşamışlar. XVII yüzilin axırlarında kəndin əhalisi 95 nəfərə çatmışdır. Kənddə 1897-ci ildə 574 nəfər, 1914-cü ildə 759 nəfər, 1922-ci ildə 697 nəfər, 1926-cı ildə 820 nəfər, 1931-ci ildə 886 nəfər, 1939-cu ildə 1.052 nəfər, 1959-cu ildə 1.295 nəfər, 1970-ci ildə 2.100 nəfər, 1979-cu ildə 2.172 nəfər, nəhayət, 1988-ci ilin dekabrında 3.349 nəfər olmuşdur.

1988-ci ilin əvvəllərində başlayan aşkar təcavüz rayonda da geniş vüsət almışdı. Vartanlı camaatına qarşı erməni quldurlarının törətdikləri cinayətlərdən təngə gələn xalq baş götürüb dağlarla, dərələrlə itki verə-verə Azərbaycana üz tutmuşlar.

Arçut kəndi isə 1988-ci ilin dekabırına qədər bir nəfər də itki vermədi. Bununla belə, vəziyyət son dərəcə gərgin idi.

1988-ci il noyabrın 19-da yuxarıdan xüsusi tapşırıqla RPK-nin katibı Movsesyan kəndə gəlir, adamlara kəndi tərk etməyi təklif edir. Lakin kəndin ağsaqqallırı camaatın və katibin qarşısında həqiqətin nə olduğunu xalqa başa salırlar və Movsesyanın təklifini tamamilə rədd edirlər.

Təhlükə gündən-günə artırdı. Erməni quldurları hər vəchlə kəndə hücum edib camaata divan tutmaq istəyirdilər. Lakin dekabırın 7-də ermənilər yaşayan ərazilər zəlzələ ilə yerlə-yeksan oldu. Həmin zəlzələdən bölgənin azərbaycanlı əhalisi də az zərər çəkmədi, Yaqubludan 33 azərbaycanlı, Arçut kəndindən isə bir körpə uşaq zəlzələnin qurbanına çevrildi.

Şiddətli zəlzələdən zərər çəkmələrinə baxmayaraq, erməni quldurları Gümrü, Hamamlı istiqamətində irəliləməyə başladılar. Bu zaman artıq rus ordusu azərbaycanlı kəndlərini müdafiə üçün əmr almışdı. Ermənilər kəndə buraxılmırdı.

1988-ci ilin dekabr ayının sonuna qədər bütün kənd kütləvi şəkildə xüsusi hərbi vertalyotlarla köçürüldü.

1988-ci il soyqırımı zamanı Arçut kəndindən aşağıdakılar həlak olmuşlar: 1. Qasımov Hüseyn İsa oğlu, 2. Xəlilova Gülsüm İsa qızı, 3. Qasımov Məhəmmədəli Hacı oğlu, 4. Məsimov Əhməd Hacı oğlu.

### Arçut kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 2 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| Tövlə və ferma binaları – | 9 əd. |
| Enerji şəbəkəsi – | 2 əd. |
| Dəyirman – | 1 əd. |
| Anbar binaları – | 2 əd. |
| Məscid binası – | 1 əd. |
| Avtomaşınlar – | 10 əd. |
| K/t maşınları – | 23 əd. |
| İribuynuzlu mal-qara – | 800 baş |
| Xırdabuynuzlu mal-qara – | 4000 baş |
| Məktəb – | 3 əd. |
| Kitabxana – | 1 əd. |
| Baytar həkim məntəqəsi – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Əczaxana – | 1 əd. |
| Poçt idarəsi – | 1 əd. |

## HEYDƏRLİ

Pəmbək mahalının Böyük Qarakilsə rayonunda, rayon mərkəzindən 14 km cənub-qərbdə, Hallavar çayının kənarında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1873-cü ildə kənddə 20 təsərrüfatda 158 nəfər (89 kişi, 69 qadın), 1886-cı ildə kənddə 28 təsərrüfatda 175 nəfər (84 kişi, 91 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

Heydərli kəndini qocaların söylədikləri rəvayətə görə, məşhur Miskin Abdalın oğlu Rza binələşdirmiş və Şah İsmayıl Xətainin atası Şeyx Heydərin şərəfinə Heydərli adlandırmışdır.

### Heydərli kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 2 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| Tövlə və ferma binaları – | 5 əd. |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Dəyirman – | 1 əd. |
| Anbar binaları – | 1 əd. |
| Məscid binası – | 1 əd. |
| Avtomaşınlar – | 8 əd. |
| K/t maşınları – | 13 əd. |
| İribuynuzlu mal-qara – | 500 baş |
| Xırdabuynuzlu mal-qara – | 1500 baş |
| Məktəb – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Baytar həkim məntəqəsi – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Əczaxana – | 1 əd. |
| Poçt idarəsi – | 1 əd. |

## AŞAĞI KİLSƏ

Pəmbək mahalının Böyük Qarakilsə rayonunda, Böyük çayın yaxasında, Qarakilsə şəhərindən 22,5 km aralıda, Hallavar, Yuxarı Kilsə və Mollaqışlaq kəndlərinin əhatəsində, dəniz səviyyəsindən 1.826 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Bu kənd Hallavar sovetliyinə daxil olan kəndlərdəndir. Hallavar XIX yüzilin əvvəllərində daha da böyüdüyündən Hallavarda yaşayan yerli adamlar bir qədər yuxarılara qalxmalı oldular. Beləliklə də, Aşağı Kilsə kəndinin bünövrəsi qoyuldu.

Kənd qarşı tərəfdən Xullu koması, Talalar, Mosuyun novu, Qaranqı, arxadan isə Seyid daşı, Qarabulağın quzeyi, Ayrıcanın başı, Təvər qayası, Ballıcanın tilləri aralığındakı dərədə, Böyük çayın yaxasında yerləşirdi. Kənd özü iki hissədən: Aşağı və Qaş məhəlləsidən ibarət idi.

Kəndin ümumi torpaq sahəsi 105 kv. km-dən bir qədər artıq idi. Bu torpaqların 90 kv.km-i otlaq və yaylaqların, 15 kv. km-i isə əkin yerlərinin payına düşürdü.

1828-1830-cu illərdə rus imperiyası tərəfindən İran və Türkiyə vilayətlərindən mindən çox erməni ailəsi Qarakilsəyə köçürülmüşdür. Qarakilsə mahalında cəmi iki kənddən başqa heç bir yerdə ermənilər yaşamamışdır.

1896-cı ildə ermənilər rus jandarmının köməyi ilə Qarakilsə mahalında ilk dəfə olaraq türk əhalisinin kütləvi qırğınını törətməyə nail olurlar.

1905-1907-ci illərdə azğınlaşmış ermənilər Yağublu, Vartanlı, Gözəldərə, Hamamlı kəndlərinə tez-tez hücumlar etmişlər.

1918-ci ildə də ermənilər Qarakilsə mahalında qanlı qırğınlar törədirdər. Həmin ilin fevralında ermənilər Hamamlı kəndini də yandırırlar. Burada da onlar 100-120-ə qədər adam qırırlar. Qandan doymayan erməni millətçiləri başqa kəndlərə, o cümlədən Kilsə, Hallavar, Saral, Qursalı, Arçut, Gözəldərəyə də hücum etmək istəyirlər.

Kəndin Kilsə adlandırılmasına səbəb yaxınlıqda yerləşən Yuxarı Kilsə (Dızman) adlanan kənddə qədim alban kilsəsinin olmasıdır. Bu qədim kilsəni 1936-cı ildə ermənilər Aşağı Kilsədə məktəb binası tikərkən dağıdıb, onun böyük ölçülü daşlarından istifadə etmişdilər.

1988-ci ildə kənddə 30-35 ailə yaşayırdı. Əhalinin ümumi sayı 300 nəfərdən çox idi.

## VARTANLI (ŞAUMYAN QƏSƏBƏSİ)

Pəmbək mahalının Böyük Qarakilsə rayonunda, rayon mərkəzindən 4 km iəsafədə Pəmbək çayının sol qolu olan Qarpiçay çayı kənarında kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

1873-cü ilin statistik məlumatlarında kənddə cəmi 88 təsərrüfatda 600 nəfər (330 kişi, 270 qadın) əhali yaşadığı, onların isə 58 təsərrüfatda 343 nəfərinin (187 kişi, 156 qadın) azərbaycanlılar, 30 təsərrüfatda 257 nəfərinin (143 kişi, 114 qadın) ermənilər olduğu göstərilmişdir.

1886-cı ildə isə kənddə cəmi 108 təsərrüfatda 849 nəfər (443 kişi, 406 qadın) əhali yaşamışdır ki, onların da 72 təsərrüfatda 550 nəfərini (293 kişi, 257 qadın) azərbaycanlılar, 36 təsərrüfatda 299 nəfərini (150 kişi, 149 qadın) ermənilər təşkil etmişlər.

Andronikin göstərişi ilə Pəmbək mahalının Vartanlı kənd sakinləri günün-günorta çağı böyük qoyun komuna doldurulub, od vurularaq yandırılmışdılar.

Vartanlı kəndinin adı 1953-cü ildə dəyişdirilərək **Xndzorut**, 1955-ci ildə isə təzədən dəyişdirilərək **Şaumyan** qoyulmuşdur.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı Vartanlı kəndi dəhşətli bir tale yaşamış, kəndin 180 təsərrüfatda 600 nəfər azərbaycanlı əhalisi dəhşətli qırğına məruz qalmış, ermənilər tərəfindən vəhşicəsinə qətlə yutirilmiş, sağ qalanlar baş götürüb, şaxtada dağ-daşla Qazax mahalına qaçmışlar.

Vartanlı kənd azərbaycanlılarının 1988-ci il soyqırımı haqqında danışmaq əvəzinə bir şahidin xatirələri ilə kifayətlənirik. "Hamamlı rayonunun Qursalı kənd sakini Salatın Mustafayevanın dediklərindən:

- Mən kəndin arxa tərəfindən yavaş-yavaş meşəliyə daxil oldum və ağacların arası ilə asta-asta gəlib, kəndin yuxarı tərəfində dayandım. İndi bütün kənd ovuc içi kimi görünürdü. Kəndin içi əsgərlərlə dolu idi. Əsgərlər kənddə gözə görünən azərbaycanlıları kəndin ortasındakı balaca meydançaya toplayır, dörd tərəfini kəsib bir yana getməyə qoymurdular.

Kəndin erməni sakinləri də onları üzük qaşı kimi bürüyüb sanki tamaşaya baxmağa gəlmişdilər. Bir dəstə qarasaqqallılar peyda oldu. Tez qabaq cərgədə duran iki gövdəli kişini yerə yıxdılar. Bıçağı kişinin boğazına çəkəndə kişi mal kimi böyürdü, qan göyə fantan vurdu. Kişi əlini, ayağını açıb bükdükcə ermənilər Afrika vəhşiləri kimi gülüşürdülər. İki dığa öldürdükləri kişinin qoltuğunun altından nazik zəncir salıb bağladıqdan sonra sürüyüb dərəyə saldılar, üstünə benzin töküb od vurdular. Meyit od tutub yandıqca erməni arvadları şənlənir, çoxu qəhqəhə çəkib

gülüşürdülər. Sonra ələ keçənin başından dəmir parçası ilə vurub yıxır, dərəyə sürüyüb salır və benzin töküb od vururdular. Qızımın qonşusu Əhmədi tanıdım. O, nə qədər cəhd etdi ki, qaçsın, qoymadılar. Ona 3-4 erməninin gücü çatmazdı, pəhləvan cüssəli, qollu-qıçlı bir kişi idi. Ermənilər onu da yıxıb boğazlamaq istəyirdi. Ancaq heç kəs yaxın düşə bilmirdi. Yaxınlaşanın döşündən itələyən kimi yerə sərilirdi. O çox çalışdı birtəhər aradan çıxsın, mümkün olmadı. Onda gördüm Əhməd pencəyinin altından tapançasını çıxartdı və onu tutmaq istəyən erməniləri bir-bir yerə sərdi. Bu zaman arxadan dəmir parçası ilə başından vurub yerə sərdilər, üstünə neft töküb od vurdular. Sonra ayağından tutub dərəyə yuvarlayıb saldılar. Əhməd beş ermənini yerə sərmişdi. Təəsüf ki, bu vəhşilərin əlindən xilas ola bilmədi...” ***(Süleyman Nəsibov.)***

**Vartanlı kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 2 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| Tövlə və ferma binaları – | 7 əd. |
| Enerji şəbəkəsi – | 2 əd. |
| Dəyirman – | 1 əd. |
| Anbar binaları – | 2 əd. |
| Məscid binası – | 1 əd. |
| Avtomaşınlar – | 14 əd. |
| K/t maşınları – | 25 əd. |
| İribuynuzlu mal-qara – | 1000 baş |
| Xırdabuynuzlu mal-qara – | 3000 baş |
| Məktəb – | 2 əd. |
| Kitabxana – | 1 əd. |
| Baytar həkim məntəqəsi – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Əczaxana – | 1 əd. |
| Poçt idarəsi – | 1 əd. |

## NİKİTİNO (FİOLETOVO)

Pəmbək mahalının Böyük Qarakilsə rayonunda, rayon mərkəzindən 22 km məsafədə, Həmzəçimən çayı kənarında, Gümrüdən İrəvana və Tiflisə gedən magistral yolun üstündə kənd.

Kənddə Azərbaycan türkləri və ruslar yanaşı yaşamışlar.

1873-cü ilin statistik məlumatlarında kənddə 99 təsərrüfatda 709 nəfər (358 kişi, 351 qadın) rus əhalinin yaşadığı göstərilmişdir.

1886-cı ilin statistikasında isə kənd İrəvan quberniyasının Aleksandropol qəzasının Böyük Qarakilsə nahiyəsinin **Nikitino kəndi** kimi siyahıya alınmış, kənddə 66 təsərrüfatda 504 nəfər (257 kişi, 247 qadın) əhalinin yaşadığı göstərilmişdir.

Kəndin Nikitino adı 1935-ci il yanvarın 3-də dəyişdirilərək Fioleğovo qoyulmuşdur.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kənd əhalisi erməni təcavüzü ilə üz-üzə qalmış, kəndin bütün azərbaycanlı əhalisi sonuncu nəfərinə qədər qovulub kənddən çıxarılmış, onların bütün ictimai və fərdi əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

## VOSKRESENOVKA (LERMONTOVO)

Pəmbək mahalının Böyük Qarakilsə rayonunda kənd.

Kənddə ruslar, erəmnilər və azərbaycanlılar yanaşı yaşamışlar.

1873-cü ilin statistik məlumatlarında İrəvan quberniyasının Aleksandropol qəzasının Ağstafa çayı boyunda **Voskresenka kəndi** kimi qeydə alınmış, kəndin Həmzəçimən çayı mənbəyində yerləşdiyi, kənddə 107 təsərrüfatda 724 nəfər (356 kişi, 368 qadın) rus əhalinin yaşadığı göstərilmişdir.

1886-cı ilin statistikasında isə kənd İrəvan quberniyasının Aleksandropol qəzasının Böyük Qarakilsə nahiyəsinin **Voskresenka kəndi** kimi siyahıya alınmış, kənddə 78 təsərrüfatda 453 nəfər (226 kişi, 227 qadın) rus əhalinin yaşadığı göstərilmişdir.

Kəndin Voskresenovka adı 1941-ci il iyulun 5-də dəyişdirilərək **Lermontovo** qoyulmuşdur.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kənd əhalisi erməni təcavüzü ilə üz-üzə qalmış, kəndin bütün azərbaycanlı əhalisi sonuncu nəfərinə qədər qovulub kənddən çıxarılmış, onların bütün ictimai və fərdi əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

## BÖYÜK QARAKİLSƏ

Pəmbək mahalının Böyük Qarakilsə (03.01.1935-ci ildən – Kirovakan, 1964-cü ildən – Quqark) rayonunda, Bozabdal və Pəmbək dağ silsilələri arasındakı çökəklikdə, İrəvan şəhərindən 145 km məsafədə şəhər.

Şəhərdə ruslar, ermənilər və azərbaycanlılar yanaşı yaşamışlar.

Böyük Qarakilsə Qərbi Azərbaycan ərazisində erkən – XIX yüzilin əvvəllərindən erməniləşən yaşayış məntəqələrindəndir. 1897-ci ildə burada 3545 nəfər erməni, 157 nəfər azərbaycanlı qeydə alınmışdır.

1924-cü ildə respublika tabeli şəhər statusu almışdır.

Şəhrin mərkəzindən İrəvan-Tiflis dəmiryol xətti keçir. Dəmiryol xətti ilə İrəvandan bura 244 km-dir.

1935-ci il yanvarın 3-də şəhərin Böyük Qarakilsə adı dəyişdirilərək **Kirovakan** qoyulmuşdur.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı şəhərin bütün azərbaycanlı əhalisi erməni təcavüzü ilə üz-üzə qalmış, sonuncu nəfərinə qədər qovulub şəhərdən çıxarılmış, onların bütün əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

Pəməbək mahalı ərazisində rayon.

1973-ci il dekabrın 31- də təşkil edilmişdir; 1949-cu il sentyabrın 26-a qədər Hamamlı, həmin tarixdən etibarən isə Spitak rayonu adlandırılıb.

Ərazisi 596 kv-km-dir.

Rayon mərkəzi rayon tabeli Hamamlı (Spitak) şəhəridir.

Rayon mərkəzindən İrəvan-Tiflis dəmiryol xətti keçir.

Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 101 km-dir.

Hamamlı rayonu Bozabdal, Şirək və Pəmbək dağ silsilələri arasındakı Pəmbək dərəsində yerləşir.Pəmbək çayı bu dərədən keçərək rayon boyu axıb gedir.

Keçmişdə bu ərazidə hamısında azərbaycanlılar yaşayan 24 kənd olub. Həmin kəndlərin bir çoxu 1918-1920-ci illərdə erməni quldur dəstələrinin qanlı hücumları nəticəsində dağıdılmış, məhv olmuş, sovet hökuməti dövründə isə azərbaycanlı kəndləri zaman-zaman sıxışdırılıb çıxarılmışdır. Nəticədə 1988-ci ildə rayon ərazisində cəmi yç kənddə – Qursalı, Saral və Qızılörən kəndlərində azərbaycanlılar yaşayırdılar. Onlardan birinci ikisi xalis, Qızılörən isə qarışıq azərbaycanlı kəndləri idilər.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı rayonun bütün azərbaycanlı əhalisi erməni təcavüzü ilə üz-üzə qalmış, sonuncu nəfərinə qədər qovulub doğma kəndlərindən çıxarılmış, onların bütün əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

## 1988-ci ilə qədər Böyük Qarakilsə rayonunda mövcud olan azərbaycanlı yaşayış məntəqələrinin siyahısı

**Xalis azərbaycanlı yaşayış məntəqələri**

1. Qursalı
2. Saral

**Qarışıq yaşayış məntəqəsi:**

3. Qızılörən (26.04.1946-cı il – Şenavan)

**Hamamlı rayonu azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mədəniyyət evi – | 3 əd. |
| Klub – | 3 əd. |
| İdarə binası – | 6 əd. |
| Uşaq bağçası – | 3 əd. |
| Xəstəxana – | 3 əd. |
| Həkim məntəqəsi – | 3 əd. |
| Tövə və ferma binaları – | 26 əd. |
| Enerji şəbəkəsi – | 6 əd. |
| Dəyirman – | 3 əd. |
| Anbar binaları – | 6 əd. |
| Məscid binası – | 3 əd. |
| Avtomaşınlar – | 27 əd. |
| K/t maşınları – | 55 əd. |
| İribuynuzlu mal-qara – | 1900 baş |
| Xırdabuynuzlu mal-qara – | 10200 baş |
| Məktəb – | 5 əd. |
| Kitabxana – | 3 əd. |
| Baytar həkim məntəqəsi – | 3 əd. |
| Yeməkxana – | 3 əd. |
| Əczaxana – | 3 əd. |
| Poçt idarəsi – | 3 əd. |

## QURSALI

Pəmbək mahalının Hamamlı rayonunda, rayon mərkəzindən 6 km məsafədə, Pəmbək çayının yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kənddə 1832-ci ildə 81 nəfər, 1873-cü ildə kənddə 62 təsərrüfatda 445 nəfər (254 kişi, 191 qadın), 1886-cı ildə 75 təsərrüfatda 545 nəfər (302 kişi, 243 qadın), 1897-ci ildə 713 nəfər, 1914-cü ildə 999 nəfər, 1922-ci ildə 839 nəfər, 1926-cı ildə 954 nəfər, 1931-ci ildə 1083 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-c ildə erməni daşnakları kənddə qırğın törətməyə cəhd etsələr də qursalılar mərdliklə bunun qarşısını almışdılar.

Qursalılılar növbəti belə bir təhlükə ilə 1988-ci ildə üz-üzə qalmışlar. Həmin il noyabrın 26-sı idi. Hər tərəfdən əlaqə kəsilmişdi. Kənddən kənara çıxanı öldürürdülər. Bakı ilə telefon əlaqəsi saxlamaq mümkün deyildi. Bütün telefon xətləri kəsilmişdi. Axşam tərəfi RPK-nin 1-ci katibi Muradyan, RİK sədri Hacıyan, milis rəisi, aqropromun rəisi, prokuror "QAZ-24" maşını ilə kəndə gəldilər. Kənd soveti sədri İsmayılov Zülfiyə əmr etdilər ki, tez camaata xəbər ver, gəlsinlər. Camaat toplaşandan sonra 1-ci katib Muradyan erməni dilində sözə başladı: Camaat, sizə iki saat vaxt veririk, iki saata kimi kəndi tərk edin.

Katibin gedəndən bir müddət sonra kəndin aşağı tərəfindən minlərlə silahlı erməni dəstə-dəstə kəndə doğru axışmağa başladılar. Bunların içində rayon milis rəisinin müavini Xaçik Qriqoryan da vardı. Onlar kəndə yaxınlaşdıqca, atəş açıb camaatı qorxuzub qaçırtmaq istəyirdilər, lakin gözlədiklərinin əksini gördülər. Kəndin girəcəyində ferma və məktəbdə pusquda durmuş cavanlar cavab atəşi açdılar. Hər iki tərəfdən güləllər yağış kimi yağırdı. Ermənilər kəndə girə bilməsələr də, çoxdan maraqlandıqları evləri nə olur-olsun qarət etmək fikrindən əl çəkmirdilər. Ermənilər dəstə-dəstə kəndi gülləbaran edirdilərsə, kəndə gələn yollar, düzlər, bir sözlə hər tərəf yük, avtobus, maşınları ilə dolu idi. Onlar belə qərarlaşdırmışdılar ki, qabaqdakı dəstə silah gücünə camaatı kənddən qovacaq, qız-gəlinləri ələ salıb nəşələnəcklər, sonra da hərəsi bir evə sahib olub, evin hər şeyini maşınlara doldurub aparacaqlar.

Gecə səhərə qədər atışma davam etdi. Kəndin bütün əhalisi müdafiəyə qalxmışdı. Kimi əldəqayırma silahla, kimi isə bugünkü dar günləri üçün haradansa tapıb saxladığı odlu silahlarla erməniləri bir addım da olsun irəliləməyə qoymadılar. Silahsız olan cavanlar, qadınlar əllərində

yaba, xəncər, dəmir şişlər atışanlara ürək-dirək verirdilər. Bir azdan Kirovakandan gələn hərbi qüvvə erməniləri uzaqlaşdırıb kəndi mühasirəyə aldılar.

Kəndin cavanlarından bir neçəsi gecə ikən şəxsi maşını ilə Qazax şəhərinə gəlib, Musaköy kəndində yaradılmış qərargah rəisinə bütün əhvalatı olduğu kimi nəql etmişdilər. Hazırda isə hər dəqiqə xalqın qırılması təhlükəsi olduğunu ona məlumat verirdəlir. Qərargah rəisi Bakı hərbi komendantı Tyaqunovla telefon əlaqəsinə girir. Səhərisi gün xalqı xilas etmək üçün təcili vertalyotlar ayrıldı. Vertalyotlar kənd camaatını Qazax şəhərinə daşımağa başladılar. Qazax hərbi qərargahı xalqı daşımağa gedən vertolyotlarla camaata çörək də göndərirdi, bu çörək ancaq uşaqlara, qadınlara paylanılırdı.

1988-ci il dekabrın 7-i... Səhər təxminən saat 10 olardı. Kəndin bütün camaatı bayıra çıxıb, göyə boylanırdılar ki, görsünlər vertolyot gəlirmi? Birdən torpaq adamların ayaqları altından qaçdı. Əvvəl sağa, sonra da sola tərəf elə zərbnən hərəkət etdi ki, bütün aləm toz-dumana qərq oldu. Toz buludundan ətraf qaranlığa qərq olmuş, günəş görünmürdü. Sanki adamları qüvvətli bir əl götürüb yerə çırpmışdı. Adamlar ayağa qalxanda yer bir də zərbnən sola-sağa hərəkət etdi. Bu dəfə adamlar sərxoş kimi kəlləmayallaq yerə çırpıldılar. Bir azdan hava tozdan, dumandan təmizləndi. Camaat gözünü açanda dəli olmaq dərəcəsinə gəldi. Bu nə möcüzədir? Kəndin bütün evləri bir yığın daş qalağına dönmüşdü. Elə bil burada nə ev varmış nə də kənd. Sanki kimsə evlərin yerinə bir neçə maşın daş tökmüşdü. 19 adam klubun içində qalıb ölmüş, 2 adamın isə cəsədi torpağın altında qalıb, tapılmadı.

Sovet dövründəki "mədəni köçürmə" 1988-ci ilə qədər davam etmişdi. Bu arada Qursalıda olan 700 ailədən 250-dən çoxu Rusiyanın və Azərbaycanın müxtəlif bölgədərinə köçməyə məcbur olmuşdur. Zəlzələyədək kənddə 2.026 nəfər qalmışdı.

Kənd sakinləri qarlı dağlar aşaraq, ac-susuz Qazax şəhərinə pənah gətirdilər. Azərbaycan Respublikasının ayrı-ayrı rayonlarında və bəzisi də Bakı şəhərində çox çətinliklə məskunlaşdılar. Onlardan aşağıdakılar vəhşicəsinə döyülməkdən və soyuqdan xəstələnib, dünyalarını dəyişdilər.

1. Vəliyev Namaz Ələsgər oğlu
2. Nəcəfov Əhməd Ələsgər oğlu
3. Mustafayev Yusif İsmayıl oğlu
4. Mustafayeva Yetər Əmiraslan qızı
5. Mustafayev Məmməd Alı oğlu

6. Mustafayev İsmayıl Xıdır oğlu
7. Dəmirçiyev Namaz Yusif oğlu
8. Süleymanov İstil Selixman oğlu
9. Mustafayev Mehdi İsmayıl oğlu
10. Mustafayeva Gülü Nəcəf qızı
11. Yaqubova Şarabanı Mehralı qızı
12. Qənbərova Təzəgül Səməd qızı
13. Qənbərov Əsgər Qənbər oğlu
14. Daşdəmirov Rəhim Cabbar oğlu
15. Məmmədov Novruz Abbas oğlu
16. Məmmədova Tehran Hümbət qızı
17. Əsgərov Yasın Əli oğlu
18. Hapışov İsgəndər Əli oğlu
19. Hapışov Hüseyn Əli oğlu
20. Həsənov Əhməd Sadıq oğlu
21. Ramazanov Qurban Xəlil oğlu
22. Ramazanova Gülbəyi Kərim qızı
23. Ramazanov Əhməd Əkbər oğlu
24. Ramazanov Həmid Əkbər oğlu
25. Ramazanov Lətif Ramazan oğlu
26. Nəsirov Əsəd Abdulla oğlu
27. Nəsirov Qərib Kərim oğlu
28. Yaqubov Abdulla Rəfi oğlu
29. Babayev İbrahim Kərim oğlu
30. Yusifov Sədi Binnət oğlu

**1988-ci il dekabrın 7-də həlak olanlar**

1. Məmmədov Məmməd Kərim oğlu - 1954-cü il təvəllüd
2. Mustafayev Şərif Məhərrəm oğlu - 1930-cü il təvəllüd
3. Mustafayeva Sevgili İbrahim qızı - 1926-cı il təvəllüd
4. Məmmədov Əli Ələkbər oğlu - 1924-cü il təvəllüd
5. Kosayev Əsgər Kazım oğlu - 1941-ci il təvəllüd
6. Kosayev Əfqan Seyfəddin oğlu - 1975-ci il təvəllüd
7. Dəmirçiyev Abduləzim Mehdi oğlu - 1918-ci il təvəllüd
8. Daşdəmirova Sevinc Vahid qızı - 1987-ci il təvəllüd
9. Əsgərov Amil Nizami oğlu - 1986-cı il təvəllüd
10. Əhmədov Natiq Şahbaz oğlu - 1985-ci il təvəllüd
11. Ələkbərova Rəhilə Allahverdi qızı - 1985-ci il təvəllüd

12. Əliyeva Güley Elləz qızı - 1915-ci il təvəllüd
13. Vəliyeva Aynaz Mustafa qızı - 1964-cü il təvəllüd
14. Vəliyeva Sinəzər Xəlil qızı - 1958-ci il təvəllüd
15. İsmayılova Zəminə Şəmistan qızı - 1983-cü il təvəllüd
16. Hacıyev Nazim Əsgər oğlu - 1966-cı il təvəllüd

**Qursalı kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 2 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| Tövə və ferma binaları – | 10 əd. |
| Enerji şəbəkəsi – | 2 əd. |
| Dəyirman – | 1 əd. |
| Anbar binaları – | 2 əd. |
| Məscid binası – | 1 əd. |
| Avtomaşınlar – | 9 əd. |
| K/t maşınları – | 20 əd. |
| İribuynuzlu mal-qara – | 650 baş |
| Xırdabuynuzlu mal-qara – | 4200 baş |
| Məktəb – | 2 əd. |
| Kitabxana – | 1 əd. |
| Baytar həkim məntəqəsi – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Əczaxana – | 1 əd. |
| Poçt idarəsi – | 1 əd. |

# SARAL

Pəmbək mahalının Hamamlı rayonunda, rayon mərkəzindən 7 km məsafədə, Pəmbək çayının kənarında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1873-cü ildə kənddə 63 təsərrüfatda 539 nəfər (301 kişi, 238 qadın), 1886-cı ildə 76 təsərrüfatda 654 nəfər (370 kişi, 284 qadın), 1897-ci ildə 754 nəfər, 1914-cü ildə 1.111 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-ci il qırğınından sonra kəndin əhalisi qismən azalmış, 1922-ci ildə kənddə 840 nəfər, 1926-cı ildə 851 nəfər, 1931-ci ildə 986 nəfər azərbaycanlı qeydə alınmışdır.

1988-ci ildə kənddə 371 ailədə 1.856 nəfər azərbaycanlı yaşayırdı ki, onlar da hamısı erməni təcavüzünün qurbanı olaraq həmin ilin noyabr-dekabr aylarında doğma yurdlarından qovulub çıxarıldılar.

Hamamlı rayon RİK-nin sədri Hacyan, milis rəisi A.Sarkisyan sarallılar qarşısında kəndi iki saat ərzində kəndi tərk etmək tələbini irəli sürür. Beləliklə, noyabrın 1-də saat 12 radələrində camaatı avtobuslara doldururlar. Avtobuslar Həmzəçimən kəndinə çathaçatda əlisilahlı 60 nəfər erməni quldurу onlara hücum edirlər. Bu hücum zamanı 11 yaşlı Şahin Sayad oğlu və Teymur Balacayev qətlə yetirilirlər.Ağır güllə yarası alan 38 nəfər Qazax xəstəxanasına çatdırılır. 30 yaşlı Balacayeva Sürəyya Hüseyn qızı yaralı halda Böyük Qarakilsə (Kirovakan) şəhər xəstəxanasına çatdırılır, lakin burada erməni həkimləri onu boğub öldürürlər.

**Saral kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 2 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| Tövə və ferma binaları – | 9 əd. |
| Enerji şəbəkəsi – | 2 əd. |
| Dəyirman – | 1 əd. |

| | |
|---|---|
| Anbar binaları – | 2 əd. |
| Məscid binası – | 1 əd. |
| Avtomaşınlar – | 10 əd. |
| K/t maşınları – | 21 əd. |
| İribuynuzlu mal-qara – | 750 baş |
| Xırdabuynuzlu mal-qara – | 3500 baş |
| Məktəb – | 2 əd. |
| Kitabxana – | 1 əd. |
| Baytar həkim məntəqəsi – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Əczaxana – | 1 əd. |
| Poçt idarəsi – | 1 əd. |

## QIZILÖRƏN

Pəmbək mahalının Hamamlı rayonunda, Çubuxlu dağlarının ətəyində, çay kənarında kənd.

Kənddə əvvəllər Azərbaycan türkləri, sonralar azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

Kənddə 1831-ci ildə 41 nəfər, 1873-cü ildə kənddə 30 təsərrüfatda 168 nəfər (94 kişi, 74 qadın), 1886-cı ildə 29 təsərrüfatda 212 nəfər (123 kişi, 89 qadın), 1914-cü ildə 273 nəfər, 1916-cı ildə 276 nəfər azərbaycanlı əhali yaşamışdır.

Kəndin Qızılörən adı 1946-cı il aprelin 26-da dəyişdirilərək **Şenavan** qoyulmuşdur.

1918-ci ildə erməni millətçiləri kəndi dağıtmış, yandırmış, əhalisinin bir hissəsini qətlə yetirmiş, qalan hissəsini isə vəhşicəsinə qovmuşlar.

Bölgədə sovet hakimiyyəti qurulduqdan sonra kəndin sağ qalan qaçqın əhalisi (cəmi 92 nəfər) geri qayıtmış, kəndi təzədən məskunlaşdırmışlar. Bu vaxt kənddə türkiyədən gəlmə 54 nəfər erməni də yerləşdirilmişdi. 1931-ci ildə isə kənddə artıq 140 nəfər azərbaycanlı, 226 nəfər erməni yaşayırdı.

1988-ci ildə kənddə cəmi 37 azərbaycanlı ailəsi yaşayırdı ki, onlar da dəhşətli qırğına məruz qalaraq doğma kəndlərindən sonuncu nəfərinə qədər qovulmuşlar.

### Qızılörən kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 2 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| Tövə və ferma binaları – | 7 əd. |
| Enerji şəbəkəsi – | 2 əd. |
| Dəyirman – | 1 əd. |
| Anbar binaları – | 2 əd. |

| | |
|---|---|
| Məscid binası – | 1 əd. |
| Avtomaşınlar – | 8 əd. |
| K/t maşınları – | 20 əd. |
| İribuynuzlu mal-qara – | 500 baş |
| Xırdabuynuzlu mal-qara – | 2500 baş |
| Məktəb – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Baytar həkim məntəqəsi – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Əczaxana – | 1 əd. |
| Poçt idarəsi – | 1 əd. |

# CƏLALOĞLU (STEPANAVAN) RAYONU

Dağ Borçalısının Loru mahalı ərazisində rayon. 1930-cu il sentyabrın 9-da təşkil edilmişdir. Ərazisi 630 kv.km-dir.

Rayon mərkəzi respublika tabeli Calaloğlu (1923-cü ildən – Stepanavan) şəhəridir.

Rayon mərəkəzinə ən yaxın dəmiryol dayanacağı 30 km kənarda yerləşən Kolagirən stansiyasıdır (Böyük Qarkilsə rayonu ərazisində).

Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 157 km-dir.

Rayonun əsas su mənbəyi Taşir çayıdır.

1801-ci ildə Şərqi Gürcüstanın Rusiya tərəfindən işğalı ilə əlaqədar Loru-Pəmbək mahalının ərazisi də Rusiyanın tərkibinə qatılmış, sonra Tiflis quberniyasının tərkibinə daxil edilmişdir. 1920-ci ildə Ermənistan respublikasının yaradılmasından sonra isə Loru-Pəmbək adı ilə bu respublikanın 9-cu qəzası olmuşdur.

1982-ci ildə rayonda 1 şəhərtipli qəsəbə, 18 kənd mövcud olmuşdur.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı rayonun bütün azərbaycanlı əhalisi erməni təcavüzü ilə üz-üzə qalmış, sonuncu nəfərinə qədər qovulub doğma kəndlərindən çıxarılmış, onların bütün əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

## 1988-ci ilə qədər Cəlaloğlu rayonunda mövcud olan azərbaycanlı yaşayış məntəqələrinin siyahısı

**Qarışıq yaşayış məntəqələri**

1. Rus Gər-gəri (14.02.1937-ci ildən – Puşkino)
2. Gərgər
3. Kələkürək
4. Nikolayevka (27.02.1938-ci ildən – Kirov)
5. Çubuqlu (sonralar – Pokrovka, 04.05.1939-cu ildən – Kuybışev)
6. Qaraməmməd (sonralar – Aleksandrovka, 22.02.1939-cu ildən – Maksim Qorki)

## RUS GƏR-GƏRİ

Loru mahalının Calaloğlu rayonununda, rayon mərkəzindən 16 km şimal-şərqdə, Gər-gər çayının sağ tərəfində kənd.

Kənddə əvvəl Azərbaycan türkləri, sonralar isə azərbaycanlılar, ruslar, polyaklar və ermənilər yanaşı yaşamışlar.

1886-cı ilin statistikasında kənddə cəmi 95 təsərrüfatda 510 nəfər (257 kişi, 253 qadın) əhali yaşadığı, onların isə 84 təsərrüfatda 465 nəfərinin (228 kişi, 237 qadın) ruslar, 4 təsərrüfatda 15 nəfərinin (11 kişi, 4 qadın) azərbaycanlılar, 7 təsərrüfatda 30 nəfərinin (18 kişi, 12 qadın) polyaklar olduğu göstərilmişdir.

Kənddə 1897-ci ildə 10 nəfər, 1922-ci ildə 8 nəfər azərbaycanlı qeydə alınmışdır.

1937-ci il fevralın 14-də kəndin Rus Gərgəri adı dəyişdirilərək Puşkino qoyulmuşdur.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kənddə yaşayan azərbaycanlılar ermənilər tərəfindən sonuncu nəfərinə qədər qovulub doğma kəndlərindən çıxarılmış, onların bütün əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

# GƏR-GƏR

Loru mahalının Calaloğlu rayonununda, rayon mərkəzindən 9 km məsafədə kənd.

Kənddə əvvəl Azərbaycan türkləri, sonralar isə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

"Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"ndə (1727) Lori qəzasının Quzey nahiyəsinin **Kərkər kəndi** kimi qeydə alınmış, kəndin Göləyrək kəndinin yaxınlığında yerləşdiyi, kənddə yaşayan 7 qeyri-müsəlmandan 760 ağça ispəncə vergisi tutulduğu, ümumiyyətlə isə dövlətin kənddən müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü göstərilmişdir. Yeri gəlmişkən, "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"ni nəşrə hazırlayan Hüsaməddin Məmmədovun belə bir qeydi maraq doğurur ki, bu 7 qeyri-müsəlmanın hamısının adı mənbədə müsəlman adı olmuşdur.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin bütün azərbaycanlı əhalisi erməni təcavüzü ilə üz-üzə qalmış, sonuncu nəfərinə qədər qovulub doğma kəndlərindən çıxarılmış, onların bütün əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

## GÜLƏKƏRƏK

Loru mahalının Calaloğlu rayonununda, rayon mərkəzindən 11 km məsafədə kənd.

Kənddə əvvəl Azərbaycan türkləri, sonralar isə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

"Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"ndə (1727) Lori qəzasının Quzey nahiyəsinin **Göləyrək kəndi** kimi qeydə alınmış, kəndin Kərkər kəndi yaxınlığında yerləşdiyi, dövlətin kənddən müxtəlif vergilər şəklində ildə 10.000 ağça gəlir götürdüyü göstərilmişdir. Bundan əlavə, mənbədə kənddən bennak və subay vergisinə cəlb olunan aşağıdakı 18 nəfər müsəlmanın adları çəkilmişdir: **Məhəmməd Qulu oğlu, Əli Uğurlu oğlu, Əlinin oğlu İmamqulu, Mövlaqulu Becan oğlu, Mövlaqulunun oğlu Səfiqulu, Mukim Cəbi oğlu, Mukimin oğlu Mirzə, Məhəmmədvəli Mirzə oğlu, Zaman Mirzə oğlu, Hacı Qulu Haqverdi oğlu, Hacı Qulunun oğlu Məhəmməd, Kərim Qulu oğlu, Molla Əli Qulu oğlu, Musa Bayram oğlu, İmamqulu Bayram oğlu, İmamqulunun oğlu Mustafa, Seyfi Xudaverdi oğlu, Aleksan Sarkis oğlu.**

Buradan görünür ki, kəndin əsas əhalisi Azərbaycan türkləri olmuşlar.

1886-cı ilin statistikasında isə Tiflis quberniyasının Borçalı qəzasının Lori nahiyəsinin **Güləkərək kəndi** kimi qeydə alınmış, kənddə 92 təsərrüfatda 947 nəfər (507 kişi, 440 qadın) əhalinin yaşadığı göstərilmişdir.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin bütün azərbaycanlı əhalisi erməni təcavüzü nəticəsində sonuncu nəfərinə qədər qovulub doğma kəndlərindən çıxarılmış, onların bütün əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

## POKROVKA (ÇUBUQLU, KUYBIŞEV)

Loru mahalının Calaloğlu rayonunda, rayon mərkəzindən 11 km məsafədə kənd.

Kənddə əvvəl ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılar və ruslar yaşamışlar.

Kəndə 1830-1840-cı illərdə ruslar köçüb gəlmiş və burada məskunlaşmışlar.

1886-cı ilin statistikasında isə Tiflis quberniyasının Borçalı qəzasının Loru nahiyəsinin **Yeni Pokrovka kəndi** kimi qeydə alınmış, kənddə 71 təsərrüfatda 351 nəfər (178 kişi, 173 qadın) rus əhalinin yaşadığı göstərilmişdir.

1926-cı ildə kənddə 575 nəfər rus, 41 nəfər azərbaycanlı, 6 nəfər erməni qeydə alınmışdır.

Kəndin Çubuqlu adı sonralar dəyişdirilərək **Pokrovka**, 1939-cu il mayın 4-dən isə **Kuybışev** qoyulmuşdur.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin bütün azərbaycanlı əhalisi erməni təcavüzü nəticəsində sonuncu nəfərinə qədər qovulub doğma kəndlərindən çıxarılmış, onların bütün əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

Ağbaba mahalı arizsində rayon. 1930-cu il sentyabrın 9-da təşkil edilmişdir. Ərazisi 608 kv. km-dir.

Rayon mərkəzi rayonun şərqində, şose yolu üstündə yerləşən Amasiya kəndidir (indi şəhər tipli qəsəbə); 1970-ci ildə 2.786 nəfər əhalisi olub.

Rayon mərkəzinə ən yaxın dəmiryol dayanacağı 28 km kənarda yerləşən Gümrü (Leninakan) stansiyasıdır (Axuryan rayonu ərazisində).

Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 148 km-dir.

Amasiya rayonu Ermənistandakı azərbaycanlıların yaşadığı ən böyük bölgələrdən biri olmuşdur. Burada 21 sırf azərbaycanlı kəndi, 1 qarışıq yaşayış məntəqəsi var idi.

Azərbaycanlıların sayı 3.478 təsərrüfatda 17.846 nəfər olmuşdur.

1988-ci ildə bir neçə ay ərzində Amasiyanın 26 yaşayış məntəqəsinin azərbaycanlılar yaşayan 22 kəndində əhali zorla qovuldu.

Son qaçqınlıq dövründə ermənilər tərəfindən 13 nəfər azərbaycanlı adam öldürülmüşdür.

**1988-ci ilə qədər Barana rayonunda mövcud olan azərbaycanlı yaşayış məntəqələrinin siyahısı**

**Xalis azərbaycanlı yaşayış məntəqələri**

1. Oxçoğlu (19.04.1991-ci ildən – Vaxçi)
2. Güllübulaq (19.04.1991-ci ildən – Ardahan)
3. Çaxmaq (19.04.1991-ci ildən – Kamxut)
4. Mağaracıq
5. Qaraçanta (04.05.1939-cu ildən – Əzizbəyov-1939, 19.04.1991-ci ildən – Areqnadem)
6. Daşkörpü
7. İbiş (19.04.1991-ci ildən – Dayrik)
8. Qoncalı (19.04.1991-ci ildən – Zarişat)
9. İlanlı (26.04.1946-cı ildən – Çaybasar, 19.04.1991-ci ildən – Aravet)
10. Düzkənd (19.04.1991-ci ildən – Halvar)
11. Qaranamaz (03.01.1935-ci ildən – Yeniyol, 19.04.1991-ci ildən – Ağvarik)
12. Göllü (19.04.1991-ci ildən – Ardenis)
13. Təpəkənd (19.04.1991-ci ildən – Daşdavayr)
14. Sultanabad (sonralar – Şurabad)

15. Balıqlı (19.04.1991-ci ildən – Zorakert)
16. Öksüz (19.04.1991-ci ildən – Daioririk)
17. Güllücə
18. Ellər Oyuğu (sonralar – Ellərkənd)
19. Çivinli (19.04.1991-ci ildən – Yeğnacur)
20. Hozukənd (sonralar – Quzukənd)
21. Qarabulaq (19.04.1991-ci ildən – Şagik)

**Qarışıq yaşayış məntəqəsi**
22. Amasiya

**Amasiya rayonu azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Məscid – | 4 əd. |
| Məktəb – | 22 əd. (14-ü 10 illik, 7-i 8 illik, 1-i ibtidai) |
| Mədəniyyət evi – | 4 əd. |
| Klub – | 18 əd. |
| Xəstəxana (çarpayı) - | 2 əd. |
| Poçt – | 8 əd. |
| Həkim məntəqəsi – | 5 əd. |
| İdarə binası – | 16 əd. |
| Çoxmənzilli yaşayış binası – | 4 əd. |
| Baytarlıq məntəəsi – | 3 əd. |
| Mal tövləsi – | 179 əd. |
| Qoyun komu – | 115 əd. |
| Sair tikililər – | 91 əd. |
| Pendir zavodu – | 1 əd. |
| İribuynuzlu mal-qara – | 16000 baş |
| Xırdabuynuzlu mal-qara – | 52000 baş |
| K/t maşınları və texnikası – | 926 əd. |
| Avtomaşınlar – | 257 əd. |
| Yaylada tikililər – | 170 əd. |

## OXÇOĞLU

Ağbaba mahalının Amasiya rayonununda, rayon mərkəzindən 18 km məsafədə, dəniz səviyyəsindən 1567 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə kənddə 551 nəfər, 1897-ci ildə 747 nəfər, 1908-ci ildə 935 nəfər, 1914-cü ildə 980 nəfər azərbaycanlı yaşamışdır.

1915-1920-ci illərdə kəndin əhalisi dəfələrlə erməni təcavüzü ilə üz-üzə qalmış, Türkiyə, İran ərazilərinə sığınmağa məcbur olmuşdur.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisinin az bir hissəsi geri qayıda bilmiş, kəndi yenidən bərpa etmişlər.

1988-ci ildə kənddə 357 təsərrüfatda 1.552 nəfər azərbaycanlı yaşamışdır ki, onlar da qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı təcavüzə məruz qalmış, erməni quldurları tərəfindən doğma kəndlərindən qovulub çıxarılmış, bütün əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

### Oxçoğlu azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Məscid – | 1 əd. |
| Məktəb – | 1 əd. (10 illik) |
| Mədəniyyət evi - | 1 əd. |
| Poçt - | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Baytarlıq məntəqəsi - | 1 əd. |
| Mal tövləsi – | 12 əd. |
| Qoyun komu – | 5 əd. |
| Sair tikililər – | 5 əd. |
| İribuynuzlu mal-qara – | 950 baş |
| Xırdabuynuzlu mal-qara – | 2700 baş |
| K/t maşınları – | 72 əd. |
| Avtomaşınlar – | 19 əd. |
| Yaylada tikililər – | 60 əd. |

## GÜLLÜBULAQ

Şörəyel mahalında, Amasiya rayonu ərazisində, Amasiya rayon mərkəzindən 12 km cənub-qərbdə, Gümrüdən 10 km şimal-qərbdə, dəniz səviyyəsindən 2.031 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə kənddə 673 nəfər, 1897-ci ildə 955 nəfər, 1908-ci ildə 1.020 nəfər, 1914-cü ildə 1.137 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illərdə erməni vəhşiləri tərəfində kənd dağıdılmış, əhalisinin bir hissəsi qətlə yetirilmiş, sağ qalanlar Türkiyə ərazisində sığınacaq tapmışlar.

Bölgədə Sovet hökuməti qurulduqdan sonra kəndin qaçqın əhalisinin sağ qalan qismi geri qayıtmış və kəndi təzədən bərpa etmişlər.

1922-ci ildə kənddə 791 nəfər, 1926-cı ildə 1.134 nəfər, 1931-ci ildə1.268 nəfər azərbaycanlı yaşamışdır.

1930-cu illərdə Sovet-Türkiyə sərhədinin çəkilməsi Güllübulağa yeni ağır zərbələr vurdu. Qars, Çıldır, Ərzurum və ətraf kəndlərin əhalisi ilə qohumluq əlaqəsi olan güllübulaqlılar bu mənəvi bağlardan birdəfəlik məhrum oldular: ailə ya tamamilə sərhədin o tayında qaldı, ya da ailənin bir neçə üzvü Güllübulaqda, bir neçə üzvü isə Türkiyədə qalmalı oldu.

1988-ci ildə kəndin 405 təsərrüfatda 2580 nəfər əhalisi soyqırımına məruz qalaraq doğma kəndlərindən həmişəlik qovulmuşlar. Onlara məxsus evlər mal və mülk əvəziödənilmədən ermənilər tərəfindən qəsb edilmişdir.

Güllübulaqda iki qəbiristanlıq olmuşdur – biri kəndin qırağındakı köhnə qəbiristanlıq, ikincisi bir az ondan yuxarıda yerləşən təzə qəbiristanlıq. Təzə qəbiristanlığın ərazisini Məşədi Rza alıb qəbiristanlıq edib və ilk dəfə orada dəfn olunan da onun özü olub.

Kəndin köhnə qəbiristanlığında Qarapapaq tayfalarına məxsus məzarlar qıpçaq türklərinin zaman-zaman Güllübulaqda məskən saldığından xəbər verir. Kəndin yaşlılalırı deyirlər ki, Qımılıdan (Türkiyə sərhədində kənddir) bir arvad gəlib həmişə oradakı qəbirlərin birini ağlayarmış. Deyərmiş ki, bu qəbrin sahibi igid bir ərən olub, torpaq uğrunda şəhidliyə qovuşub. Yalnız güllübulaqda yox, Amasiyanın bir çox kəndlərində də qarapapaqlara məxsus qəbirlər uzaq tarixlərin sirlərindən xəbər verir.

1988-ci il hadisələri zamanı erməni vəhşiləri tərəfindən qətl olunan azərbaycanlılar arasında beş nəfər də güllübulaqlı var idi: Məryəm Mürsəl qızı Abbasova, Leyla Məmməd qızı Abbasova, Xatın Mürsəl qızı Abbasova, Xədicə Mürsəl qızı Əliyeva, Tükəz Abbas qızı Abdullayeva.

**Güllübulaq azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Məscid – | 1 əd. |
| Məktəb – | 1 əd. (10 illik) |
| Mədəniyyət evi - | 1 əd. |
| Xəstəxana (çarpayı) - | 1 (10) |
| Poçt - | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Mal tövləsi – | 16 əd. |
| Qoyun komu – | 8 əd. |
| Sair tikililər – | 7 əd. |
| İribuynuzlu mal-qara – | 1400 baş |
| Xırdabuynuzlu mal-qara – | 4000 baş |
| K/t maşınları – | 84 əd. |
| Avtomaşınlar – | 22 əd. |
| Yaylada tikililər – | 80 əd. |

## ÇAXMAQ

Ağbaba mahalının Amasiya rayonununda, rayon mərkəzindən 7 km cənub-qərbdə, dəniz səviyyəsindən 1814 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Mağaracıq sovxozuna Çaxmaq kəndi də daxil idi. Ona görə də Mağaracıq kəndində verilmiş ictimai əmlakın siyahısı Çaxmaq kəndinə də aiddir. Bu siyahıdan əlavə, Çaxmaq kəndində aşağıdakı ictimai əmlak da var idi.

1886-cı ildə kənddə 222 nəfər, 1897-ci ildə 282 nəfər, 1908-ci ildə 360 nəfər, 1913-cü ildə 406 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illərdə erməni vəhşiləri tərəfində kənd dağıdılmış, əhalisinin bir hissəsi qətlə yetirilmiş, sağ qalanlar Türkiyə ərazisində sığınacaq tapmışlar. Yalnız bölgədə Sovet hökuməti qurulduqdan sonra kəndin qaçqın əhalisinin sağ qalan qismi geri qayıtmış və kəndi təzədən bərpa etmişlər.

1922-ci ildə kənddə 92 nəfər, 1931-ci ildə 89 nəfər azərbaycanlı yaşamışdır.

Kənddə 42 təsərrüfatda 200 nəfər azərbaycanlı yaşamışdır ki, onlar da Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin bütün azərbaycanlı əhalisi erməni təcavüzü nəticəsində sonuncu nəfərinə qədər qovulub doğma kəndlərindən çıxarılmış, onların bütün əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

1991-ci il aprelin 19-da kəndin Çaxmaq adı dəyişdirilərək **Kamxut** qoyulmuşdur.

Çaxmaq kəndi Mağaracıq kəndi ilə eyni təsərrüfatda birləşdiyi üçün Mağaracıq kəndində verilmiş digər əmlak həm də Çaxmaq kəndinə aiddir.

### Çaxmaq azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Məktəb – | 1 əd. (8 illik) |
| Klub – | 1 əd. |
| Mal tövləsi – | 4 əd. |
| Qoyun komu – | 2 əd. |
| Sair tikililər – | 2 əd. |

# MAĞARACIQ

Ağbaba mahalının Amasiya rayonununda, rayon mərkəzindən 9 km məsafədə, dəniz səviyyəsindən 1814 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə kənddə 308 nəfər, 1897-ci ildə 375 nəfər, 1908-ci ildə 480 nəfər, 1914-cü ildə 539 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illərdə kənd erməni təcavüzünə məruz qalmış, kəndin azərbaycanlı əhalisi qanlı qırğınlarla doğma kəndindən qovulmuşdur.

Bölgədə Sovet hökuməti qurulduqdan sonra kəndin qaçqın əhalisi geri qayıtmış, kəndi bərpa etməyə başlamışlar.

1922-ci ildə kənddə 304 nəfər, 1926-cı ildə 430 nəfər, 1931-ci ildə 490 nəfər azərbaycanlı əhali qeydə alınmışdır.

1988-ci ildə kənddə 207 təsərrüfatda 1.010 nəfər azərbaycanlı yaşamışdır ki, onlar da Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin bütün azərbaycanlı əhalisi erməni təcavüzü nəticəsində sonuncu nəfərinə qədər qovulub doğma kəndlərindən çıxarılmış, onların bütün əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

Mağaracıq sovxozuna Çaxmaq kəndi də daxil idi. Ona görə də Mağaracıq kəndində verilmiş ictimai əmlakın siyahısı Çaxmaq kəndinə də aiddir.

**Mağaracıq azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Məktəb – | 1 əd. (10 illik) |
| Klub – | 1 əd. |
| Poçt - | 1 əd. |
| Tibb məntəqəsi - | 1 əd. |
| İdarə binası - | 1 əd. |
| Mal tövləsi – | 14 əd. |
| Qoyun komu – | 7 əd. |
| Sair tikililər – | 4 əd. |
| İribuynuzlu mal-qara – | 1700 baş |
| Xırdabuynuzlu mal-qara – | 3500 baş |
| K/t maşınları – | 70 əd. |
| Avtomaşınlar – | 17 əd. |

## QARAÇANTA (ƏZİZBƏYOV)

Ağbaba mahalının Amasiya rayonununda, rayon mərkəzindən 4 km cənub-qərbdə dəniz səviyyəsindən 1856 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə kənddə 348 nəfər, 1897-ci ildə 440 nəfər, 1908-ci ildə 665 nəfər, 1914-cü ildə 729 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illərdə kənd erməni təcavüzünə məruz qalmış, kəndin azərbaycanlı əhalisi qanlı qırğınlarla doğma kəndindən qovulmuş, yalnız bölgədə Sovet hökuməti qurulduqdan sonra kəndin qaçqın əhalisi geri qayıtmış, kəndi bərpa etməyə başlamışlar. 1922-ci ildə kənddə 547 nəfər, 1926-cı ildə 670 nəfər, 1931-ci ildə 688 nəfər azərbaycanlı əhali qeydə alınmışdır.

Kalbayı Qəhrəmanın evinin qabağındakı daşlı yer qədim qəbiristanlıq idi. Oraya Duz dağı da deyilirdi.

Kənd məscidi 1909-cu ildə Haqverdi və Elləzin pulu ilə tikilmişdi.

Kəndin ilk adı **Qaraçalma** olub, sonra **Qaraçəntey**, sonra **Qaraçanta**, 1939-cu il mayın 4-də isə kəndin adı dəyişdirilərək **Əzizbəyov,** 1991-ci il aprelin 19-da isə Areqnadem qoyulmuşdur.

1988-ci ildə Qaraçanta kəndi 311 ailə-təsərrüfatda 1.700 nəfərdən ibarət idi.

### Qaraçanta azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Məscid – | 1 əd. |
| Məktəb – | 1 əd. (10 illik) |
| Mədəniyyət evi - | 1 əd. |
| Poçt - | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Mal tövləsi – | 13 əd. |
| Qoyun komu – | 4 əd. |
| Sair tikililər – | 5 əd. |
| İribuynuzlu mal-qara – | 1000 baş |
| Xırdabuynuzlu mal-qara – | 2500 baş |
| K/t maşınları – | 65 əd. |
| Avtomaşınlar – | 16 əd. |
| Yaylada tikililər – | 30 əd. |

## DAŞKÖRPÜ

Ağbaba mahalının Amasiya rayonununda, rayon mərkəzindən 1,5 km məsafədə, dəniz səviyyəsindən 2.100 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə kənddə 246 nəfər, 1908-ci ildə 396 nəfər, 1914-cü ildə 431 nəfər, 1922-ci ildə 220 nəfər, 1931-ci ildə 303 nəfər, 1970-ci ildə 1.000 nəfər azərbaycanlı yaşamışdır.

1950-ci ildə ermənilər planlaşdırmışdılar ki, rayonun Daşkörpü və Qarabulaq kəndlərini birinci növbədə Azərbaycana köçürsünlər. Həmin ilin sentyabrında Qarabulaq kəndi Azərbaycanın Göyçay rayonunun Alpoud kəndinə köçürüldü. Oktyabrın 26-da isə Daşkörpü kəndinin əhalisini Gümrü şəhərində yük vaqonlarına doldurub Azərbaycana yola saldılar. Camaat Zərdab rayonunun Boyat kəndinə köçməkdən imtina etdi və onları Göyçay rayonunun Çərəkə kəndinə köçürdülər. Sonra adamların bir hissəsi Gəncə və Daşkəsən şəhərində qohumlarının yanına gedib birtəhər yerləşdilər, qalanlar məcbur olub Ermənistana üz tutdular.

Amasiya sovxozuna Daşkörpü kəndi də daxil idi. Ona görə də Amasiya kəndində verilmiş ictimai əmlakın siyahısı Daşkörpü kəndinə də aiddir. Bu siyahıdan əlavə, Daşkörpü kəndində aşağıdakı ictimai əmlak da var idi.

1988-ci ildə kənddə 125 təsərrüfatda 680 nəfər azərbaycanlı vardı ki, onlar da qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı doğma yurdlarından qovulub çıxarıldılar.

### Daşkörpü azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Məktəb – | 1 əd. (8 illik) |
| Klub – | 1 əd. |
| Yaşayış binası – | 2 əd. |
| Mal tövləsi – | 12 əd. |
| Qoyun komu – | 5 əd. |
| Sair tikililər – | 3 əd. |

## İBİŞ (AYIÇINQILI)

Ağbaba mahalının Amasiya rayonununda, Amasiya rayon mərkəzindən 15 km şimal-qərbdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1897-ci ildə kənddə 118 nəfər, 1906-cı ildə 460, 1914-cü ildə 568 nəfər, 1922-ci ildə 221 nəfər, 1926-cı ildə 299 nəfər, 1931-ci ildə 280, 1970-ci ildə 382 nəfər azərbaycanlı əhali yaşamışdır.

Kənddə 1988-ci ildə 92 ailədə 530 nəfər azərbaycanlı əhali vardı. Onlar da qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı təcavüzə məruz qaldı, erməni quldurları tərəfindən doğma kəndlərindən qovulub çıxarıldı, bütün əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alındı.

İbiş (əvvəllər – **Ayıçınqılı**, 19.04.1991-ci ildən – **Dayrik**) Qonçalı heyvandarlıq sovxozu ilə birləşdirilmişdi.

Kəndin bir yanı təpəliklər (Şiştəpə, Məzartəpə), ön tərəfi düzənlik, aşağısı dərə idi. Bu dərə geniş olub Tilburun təpəsinə qədər uzanırdı. Dağların qövsvari çəpər çəkdiyi ərazinin o üzü Sərhəd dərəsi adlanırdı. Keçmiş SSRİ ilə Türkiyənin (indii "Ermənistan"la Türkiyənin) dövlət sərhədi buradan keçirdi. Kəndin üst tərəfində Çamurlu yeri və Çamurlu bulağı, alt tərəfində isə Məsimin bulağı yerləşirdi. Sərhəd Məzartəpənin (kənd qəbristanlığı yerləşən təpə) dibindən keçirdi. Qars tərəfdən axıb gələn Qaraxan çayı kəndin altındakı dərədən keçib, Arpa gölünə tökülürdü.

Qoncalı sovxozuna İbiş kəndi də daxil idi. Ona görə də Qoncalı kəndində verilmiş ictimai əmlakın siyahısı İbiş kəndinə də aiddir. Bu siyahıdan əlavə, İbiş kəndində aşağıdakı ictimai əmlak da var idi.

### İbiş azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Məktəb – | 1 əd. (10 illik) |
| Klub – | 1 əd. |
| Mal tövləsi – | 4 əd. |
| Qoyun komu – | 7 əd. |
| Sair tikililər – | 3 əd. |

## QONCALI

Ağbaba mahalının Amasiya rayonununda, rayon mərkəzindən 16 km məsafədə, dəniz səviyyəsindən 2112 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1918-1920-ci illərdə Ağbaba mahalının başqa kəndləri kimi, Qoncalı kəndi də erməni təcavüzünün qurbanı olmuş və kənd camaatı baş götürüb Türkiyə ərazisinə getmişdir.

1918-1926-cı illərdə kənd xarabalığa çevrilmiş, sonra yenidən məskunlaşmışdır.

1988-ci ildə kənddə 43 təsərrüfatda 236 nəfər azərbaycanlı əhali yaşamışdır ki, onlar da qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı doğma yurdlarından qovulub çıxarılmışlar.

Qoncalı sovxozuna İbiş kəndi də daxil idi. Ona görə də Qoncalı kəndində verilmiş ictimai əmlakın siyahısı Daşkörpü kəndinə də aiddir.

### Qoncalı azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Məktəb – | 1 əd. (8 illik) |
| Klub – | 1 əd. |
| Poçt - | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Baytarlıq məntəqəsi - | 1 əd. |
| Mal tövləsi – | 10 əd. |
| Qoyun komu – | 2 əd. |
| Sair tikililər – | 7 əd. |
| İribuynuzlu mal-qara – | 1200 baş |
| Xırdabuynuzlu mal-qara – | 3600 baş |
| K/t maşınları – | 97 əd. |
| Avtomaşınlar – | 20 əd. |

## ÇAYBASAR (İLANLI)

Ağbaba mahalının Amasiya rayonununda, rayon mərkəzində 17 km şimal-şərqdə, Arpa çayının yuxarı sağ sahilində, kiçik bir dağın ətəyində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə kənddə 137 nəfər, 1897-ci ildə 206 nəfər, 1908-cı ildə 240, 1914-cü ildə 276 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-1920-ci illərdə kənd erməni təcavüzünün qurbanı olmuş, kənd camaatı Türkiyə ərazisinə sığınmağa məcbur olmuşdur.

Bölgədə Sovet hökuməti qurulduqdan sonra kəndin qaçqın əhalisi geri qayıtmışdır. Kənddə azərbaycanlıların sayı 1922-ci ildə 146 nəfər, 1926-cı ildə 159 nəfər, 1931-ci ildə 201 nəfər olmuşdur.

Kəndin mərkəzində yerləşən təpədə qədim (eramızın V-VI yüzillərinə aid) alban-xristian kilsəsinin və alban qəbiristanlığının mövcudluğu bu ərazilərin ta qədimdən alban-türk tayfalarına mənsub olduğunu sübut edirdi. Öz abidələrini qoruyan, hətta özgələrinin mədəniyyətini daim oğurlayan ermənilər buradakı kilsənin uçub dağılmasına nədənsə göz yummuşlar. Səbəbi də bu idi ki, həmin kilsə erməni kilsəsi olmamışdır.

1988-ci ilə qədər kənd xeyli böyümüş, ailələrin sayı 120-yə çatmışdı. O dövrdə əhalinin sayı təxminən 450-500 nəfər olmuşdur. 1988-ci il soyqırımı zamanı kənd camaatı Azərbaycana köçərək müxtəlif yerlərdə, xüsusən Bakı, Sumqayıt, Gəncə və Mingəçevir səhərlərində məskunlaşmışlar.

1946-cı il aprelin 26-da kəndin İlanlı adı dəyişdirilərək **Çaybasar**, 1991-ci il aprelin 19-da təzədən dəyişdirilərək **Aravet** qoyulmuşdur.

Çaybasar kəndi Düzkənd kəndi ilə eyni təsərrüfatda birləşdiyi üçün Düzkənd kəndində verilmiş digər əmlak həm də Çaybasar kəndinə aiddir.

### Çaybasar azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Məktəb – | 1 əd. (10 illik) |
| Klub – | 1 əd. |
| Tibb məntəqəsi - | 1 əd. |
| Mal tövləsi – | 4 əd. |
| Qoyun komu – | 3 əd. |
| Sair tikililər – | 2 əd. |

## DÜZKƏND
## (AŞAĞI VƏ YUXARI DÜZKƏND)

Ağbaba mahalının Amasiya rayonununda, Arpaçayın sahilində düzənlik ərazidə, Axuryan (Qərbi Arpaçay) çayının sağ sahilində, rayon mərkəzindən 13 km şimalda kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə kənddə 348 nəfər, 1897-ci ildə 520 nəfər, 1908-ci ildə 636 nəfər, 1914-cü ildə 722 nəfər, 1922-ci ildə 359 nəfər, 1926-cı ildə 402 nəfər, 1931-ci ildə 468 nəfər, 1970-ci ildə 516 nəfər azərbaycanlı yaşamışdır.

Düzkəndin iki qəbiristanlığı (köhnə və təzə) vardı. Köhnə qəbiristanlıq kəndin şimalında, təzə qəbiristanlıq Rustam ağanın sərnəsində idi.

Düzkəndin yaxınlığında iki kənd xarabalığı (Kürdün xarabası, Qasımın xarabası) yerəlşirdi. Qasımın xarabası deyilən xarabalıqda saxsı qablar, çanaqlar, onların qırıqları çox idi. Görünür, vaxtilə bu ərazidə dulusçuluq inkişaf etmiş, dulusçu kürələri olmuşdur.

1988-ci ildə kənddə 112 təsərrüfatda 580 nəfər azərbaycanlı yaşamışdır.

1991-ci il aprelin 19-da kəndin Düzkənd adı dəyişdirilərək **Halvar** qoyulmuşdur.

### Düzkənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Məktəb – | 1 əd. (10 illik) |
| Klub – | 1 əd. |
| İdarə binası - | 1 əd. |
| Yaşayış binası – | 2 əd. |
| Mal tövləsi – | 9 əd. |
| Qoyun komu – | 5 əd. |
| Sair tikililər – | 4 əd. |
| İribuynuzlu mal-qara – | 1100 baş |
| Xırdabuynuzlu mal-qara – | 3500 baş |
| K/t maşınları – | 82 əd. |
| Avtomaşınlar – | 22 əd. |

## QARANAMAZ (YENİYOL)

Ağbaba mahalının Amasiya rayonununda, rayon mərkəzindən 27 km şimal-şərqdə, dəniz səviyyəsindən 2027 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə kənddə 285 nəfər, 1897-ci ildə 406 nəfər, 1908-ci ildə 559 nəfər, 1914-cü ildə 541 nəfər, 1922-ci ildə 476 nəfər, 1926-cı ildə 451 nəfər, 1931-ci ildə 471 nəfər azərbaycanlı əhali yaşamışdır.

1988-ci ildə kənddə 174 təsərrüfatda 1272 nəfər azərbaycanlı yaşamışdır ki, onlar da qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı təcavüzə məruz qalmış, erməni quldurları tərəfindən doğma kəndlərindən qovulub çıxarılmış, bütün əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

1935-ci il yanvarın 3-də kəndin Qaranamaz adı dəyişdirilərək **Yeniyol**, 1991-ci il aprelin 19-da isə **Ağvarik** qoyulmuşdur.

### Qaranamaz azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Məktəb – | 1 əd. (10 illik) |
| Mədəniyyət evi - | 1 əd. |
| Poçt - | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Mal tövləsi – | 12 əd. |
| Qoyun komu – | 13 əd. |
| Sair tikililər – | 5 əd. |
| İribuynuzlu mal-qara – | 1000 baş |
| Xırdabuynuzlu mal-qara – | 3800 baş |
| K/t maşınları – | 63 əd. |
| Avtomaşınlar – | 22 əd. |

## GÖLLÜ (GÜLLÜ)

Ağbaba mahalının Amasiya rayonununda, dəniz səviyyəsindən 2.000 m yüksəklikdə, Göy dağın ətəyində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə kənddə 204 nəfər, 1897-ci ildə 284 nəfər, 1908-ci ildə 313 nəfər, 1914-cü ildə 403 nəfər, 1922-ci ildə 242 nəfər, 1926-cı ildə 306 nəfər, 1931-ci ildə 334 nəfər azərbaycanlı əhali yaşamışdır.

Göllü kəndinin üst tərəfində sıldırım qayalıqlar, sol tərəfində düzənliklər yerləşirdi. Düzənlikdə "Xıdır Nəbi babamın ocağı" deyilən böyük bir daş vardı. Əhali bu daşı müqəddəs yer təki qoruyub saxlayırdı.

Kənddə iki qəbirstanlıq vardı. Bu qəbirstanlıqlardan biri azərbaycanlıların idi, digəri isə köhnə qəbiristanlıqdı. Köhnə qəbiristanlığa həm ermənilər, həm də azərbaycanlılar "Alban" qəbiristanlığı deyirdilər. Alban qəbiristanlığında dəfn ounan adamın öz heykəlini ayaq üstə yaxud üzü üstə torpağa qoyurlar. Bu qəbiristanlıqda alban dilində yazılar olurdu.

Göllü kəndinin ortasında bir mağara yerləşirdi. Bu mağaranın eni 50 m, uzunluğu 8 km olardı. Mağaranın girişi kəndin ortasından, çıxışı isə Xonçalı kəndindəndi. Deyilənə görə, 1918-ci ildə erməni-türk müharibəsi zamanı bütün azərbaycanlı kəndlərinin əhalisi burada gizlənmişdir.

Kənddə 140 təsərrüfatda 760 nəfər azərbaycanlı yaşamışdır.

1991-ci il aprelin 19-da kəndin Göllü adı dəyişdirilərək **Ardenis** qoyulmuşdur.

### Göllü azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Məktəb – | 1 əd. (10 illik) |
| Klub - | 1 əd. |
| Tibb məntəqəsi - | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Mal tövləsi – | 11 əd. |
| Qoyun komu – | 9 əd. |
| Sair tikililər – | 4 əd. |
| İribuynuzlu mal-qara – | 950 baş |
| Xırdabuynuzlu mal-qara – | 4500 baş |
| K/t maşınları – | 53 əd. |
| Avtomaşınlar – | 19 əd. |

## TƏPƏKÖY (TƏPƏKƏND)

Ağbaba mahalının Amasiya rayonununda, rayon mərkəzindən 15 km şimal-qərbdə, dəniz səviyyəsindən 2027 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə kənddə 199 nəfər, 1897-ci ildə 303 nəfər, 1908-ci ildə 296 nəfər, 1914-cü ildə 431 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-1920-ci illərdə kənd erməni daşnakları tərəfindən dağıdılmış, talanmış, əhalisinin bir hissəsini qətlə yetirmiş, sağ qalanlar Türkiyə ərazisinə mühacirət etmişlər.

Bölgədə Sovet hökuməti qurulduqdan sonra kəndin sağ qalan qaçqın əhalisi geri qayıtmış, kənddə 1922-ci ildə 71 nəfər, 1931-ci ildə 174 nəfər azərbaycanlı qeydə alınmışdır.

1988-ci ildə kənddə 142 təsərrüfatda 757 nəfər azərbaycanlı yaşamışdır ki, onlar da qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı təcavüzə məruz qalmış, erməni quldurları tərəfindən doğma kəndlərindən qovulub çıxarılmış, bütün əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

1991-ci il aprelin 19-da kəndin Təpəkənd adı dəyişdirilərək **Daştavayr** qoyulmuşdur.

### Təpəköy azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Məktəb – | 1 əd. (10 illik) |
| Klub - | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Kənd soveti binası - | 1 əd. |
| Mal tövləsi – | 11 əd. |
| Qoyun komu – | 9 əd. |
| Sair tikililər – | 5 əd. |
| İribuynuzlu mal-qara – | 1300 baş |
| Xırdabuynuzlu mal-qara – | 3700 baş |
| K/t maşınları – | 50 əd. |
| Avtomaşınlar – | 17 əd. |

## SULTANABAD (ŞURABAD)

Ağbaba mahalının Amasiya rayonununda, Arpagölü su anbarının şərq sahilində, rayon mərkəzindən 20 km məsafədə, dəniz səviyyəsindən 2006 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə kənddə 171 nəfər, 1897-ci ildə 249 nəfər, 1908-ci ildə 286 nəfər, 1914-cü ildə 384 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-1920-ci illərdə kənd erməni daşnakları tərəfindən vəhşicəsinə dağıdılmış, talanmış, əhalisinin bir hissəsini qətlə yetirmiş, sağ qalanlar Türkiyə ərazisinə mühacirət etmişlər.

Bölgədə Sovet hökuməti qurulduqdan sonra kəndin sağ qalan qaçqın əhalisi geri qayıtmış, kənddə 1922-ci ildə 144 nəfər, 1926-cı ildə 198 nəfər, 1931-ci ildə 224 nəfər azərbaycanlı qeydə alınmışdır.

1948-1953-cü illərdə kəndin əhalisi Göyçayın Alpout kəndinə deportasiya olunsa da, 1950-ci illərin axırlarında kənd camaatnın çox az hissəsi öz yerlərinə qayıtdılar.

1988-ci ildə kənddə 60 təsərrüfatda 319 nəfər azərbaycanlı yaşamışdır ki, onlar da qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı təcavüzə məruz qalmış, erməni quldurları tərəfindən doğma kəndlərindən qovulub çıxarılmış, bütün əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

Kəndin Sultanabad adı Sovet dövründə dəyişdirilərək **Şurabad** qoyulmuşdur

### Sultanabad azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Məktəb – | 1 əd. (ibtidai) |
| Klub - | 1 əd. |
| Xəstəxana - | 1 (10) |
| Poçt - | 1 əd. |
| Baytarlıq məntəqəsi – | 1 əd. |
| Pendir zavodu – | 1 əd. |

## BALIQLI

Ağbaba mahalının Amasiya rayonunda, rayon mərkəzindən 21 km şimal-qərbdə Arpa gölünün şimal-şərq sahilində, dəniz səviyyəsindən 2016 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə kənddə 205 nəfər, 1897-ci ildə 326 nəfər, 1908-ci ildə 372 nəfər, 1914-cü ildə 474 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-1920-ci illərdə kənd erməni daşnakları tərəfindən vəhşicəsinə dağıdılmış, talanmış, əhalisinin bir hissəsini qətlə yetirmiş, sağ qalanlar Türkiyə ərazisinə mühacirət etmişlər.

Bölgədə Sovet hökuməti qurulduqdan sonra kəndin sağ qalan qaçqın əhalisinin çox az bir hissəsi geri qayıtmış, kənddə 1922-ci ildə 119 nəfər, 1931-ci ildə 205 nəfər azərbaycanlı qeydə alınmışdır.

1988-ci ildə kənddə 90 təsərrüfatda 432 nəfər azərbaycanlı yaşamışdır, ki, həmin il ermənilər tərəfindən soyqırımına məruz qalaraq qanlı qırğınlarla qovulub kənddən çıxarılmışlar.

1991-ci il aprelin 19-da kəndin Balıqlı adı dəyişdirilərək **Zorakert** qoyulmuşdur.

Balıqlı sovxozuna Öksüz kəndi də daxil idi.

### Balıqlı azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Məscid – | 1 əd. |
| Məktəb – | 1 əd. (8 illik) |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Mal tövləsi – | 11 əd. |
| Qoyun komu – | 7 əd. |
| Sair tikililər – | 2 əd. |
| İribuynuzlu mal-qara – | 1100 baş |
| Xırdabuynuzlu mal-qara – | 2800 baş |
| K/t maşınları – | 46 əd. |
| Avtomaşınlar – | 17 əd. |
| Yaylada tikililər – | 1 əd. |

# ÖKSÜZ

Ağbaba mahalının Amasiya rayonununda, rayon mərkəzindən 23 km məsafədə, dəniz səviyyəsindən 2176 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə kənddə 62 nəfər, 1897-ci ildə 96 nəfər, 1908-ci ildə 153 nəfər, 1914-cü ildə 176 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-1920-ci illərdə kənd erməni daşnakları tərəfindən vəhşicəsinə dağıdılmış, talanmış, əhalisinin bir hissəsini qətlə yetirmiş, sağ qalanlar Türkiyə ərazisinə mühacirət etmişlər.

Bölgədə Sovet hökuməti qurulduqdan sonra kəndin qaçqın əhalisi geri qayıtmış, kənddə 1922-ci ildə 202 nəfər, 1926-cı ildə 242 nəfər, 1931-ci ildə 270 nəfər azərbaycanlı qeydə alınmışdır.

1988-ci ildə kənddə 54 təsərrüfatda 291 nəfər azərbaycanlı yaşamışdır ki, onlar da qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı təcavüzə məruz qalmış, erməni quldurları tərəfindən doğma kəndlərindən qovulub çıxarılmış, bütün əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

Balıqlı sovxozuna Öksüz kəndi də daxil idi. Ona görə də Balıqlı kəndində verilmiş ictimai əmlakın siyahısı Öksüz kəndinə də aiddir. Bu siyahıdan əlavə, Öksüz kəndində aşağıdakı ictimai əmlak da var idi.

**Öksüz azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Məktəb – | 1 əd. (8 illik) |
| Klub – | 1 əd. |
| Mal tövləsi – | 3 əd. |
| Qoyun komu – | 2 əd. |
| Sair tikililər – | 2 əd. |

# GÜLLÜCƏ

Ağbaba mahalının Amasiya rayonununda, rayon mərkəzindən 24 km məsafədə, dəniz səviyyəsindən 2048 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə kənddə 193 nəfər, 1897-ci ildə 288 nəfər, 1908-ci ildə 324 nəfər, 1914-cü ildə 378 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-1920-ci illərdə kənd erməni daşnakları tərəfindən vəhşicəsinə dağıdılmış, talanmış, əhalisinin bir hissəsini qətlə yetirmiş, sağ qalanlar Türkiyə ərazisinə mühacirət etmişlər.

Bölgədə Sovet hökuməti qurulduqdan sonra kəndin qaçqın əhalisi geri qayıtmış, öz kəndlərini təzədən bərpa etməyə başlamışlar. Kənddə 1922-ci ildə 517 nəfər, 1926-cı ildə 559 nəfər, 1931-ci ildə 576 nəfər, 1939-cu ildə 624 nəfər, 1959-cu ildə 594 nəfər, 1979-cu ildə 985 nəfər azərbaycanlı qeydə alınmışdır.

Kənddə 182 təsərrüfatda 920 nəfər azərbaycanlı yaşamışdır.

Güllücə sovxozuna Ellər kəndi də daxil idi. Ona görə də Güllücə kəndində verilmiş ictimai əmlakın siyahısı Ellər kəndinə də aiddir.

**Güllücə azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Məktəb – | 1 əd. (10 illik) |
| Klub – | 1 əd. |
| Tibb məntəqəsi - | 1 əd. |
| İdarə binası - | 1 əd. |
| Mal tövləsi – | 12 əd. |
| Qoyun komu – | 5 əd. |
| Sair tikililər – | 6 əd. |
| İribuynuzlu mal-qara – | 1200 baş |
| Xırdabuynuzlu mal-qara – | 3800 baş |
| K/t maşınları – | 79 əd. |
| Avtomaşınlar – | 25 əd. |

# ELLƏR OYUĞU (ELLƏR)

Ağbaba mahalının Amasiya rayonununda, rayon mərkəzindən 26 km məsafədə dəniz səviyyəsindən 2134 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə kənddə 232 nəfər, 1897-ci ildə 361 nəfər, 1908-ci ildə 363 nəfər, 1914-cü ildə 437 nəfər, 1922-ci ildə 222 nəfər, 1931-ci ildə 317 nəfər, azərbaycanlı əhali yaşamışdır.

1988-ci ildə kənddə 70 təsərrüfatda 328 nəfər azərbaycanlı yaşamışdır ki, onlar da qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı təcavüzə məruz qalmış, erməni quldurları tərəfindən doğma kəndlərindən qovulub çıxarılmış, bütün əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

Kəndin Ellər Oyuğu adı sonralar dəyişdirilərək **Ellərkənd** qoyulmuşdur.

Güllücə sovxozuna Ellər kəndi də daxil idi. Ona görə də Güllücə kəndində verilmiş ictimai əmlakın siyahısı Ellər kəndinə də aiddir. Bu siyahıdan əlavə, Ellər kəndində aşağıdakı ictimai əmlak da var idi.

**Ellər Oyuğu kəndi azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Məktəb – | 1 əd. (8 illik) |
| Klub – | 1 əd. |
| Mal tövləsi – | 3 əd. |
| Qoyun komu – | 4 əd. |
| Sair tikililər – | 3 əd. |

## ÇİVİNLİ

Ağbaba mahalının Amasiya rayonununda, rayon mərkəzindən 27 km şimal-qərbdə, dəniz səviyyəsindən 2134 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kənddə 1922-ci ildə 234 nəfər, 1926-cı ildə 293 nəfər, 1931-ci ildə 326 nəfər azərbaycanlı əhali yaşamışdır.

1988-ci ildə kənddə 96 təsərrüfatda 591 nəfər azərbaycanlı yaşamışdır ki, onlar da qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı təcavüzə məruz qalmış, erməni quldurları tərəfindən doğma kəndlərindən qovulub çıxarılmış, bütün əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

1991-ci il aprelin 19-da kəndin Çivinli adı dəyişdirilərək **Yeğnacur** qoyulmuşdur.

Hozukənd sovxozuna Çivinli kəndi də daxil idi. Ona görə də Hozukənd kəndində verilmiş ictimai əmlakın siyahısı Çivinli kəndinə də aiddir. Bu siyahıdan əlavə, Çivinli kəndində aşağıdakı ictimai əmlak da var idi.

### Çivinli azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Məktəb – | 1 əd. (10 illik) |
| Klub – | 1 əd. |
| Mal tövləsi – | 4 əd. |
| Qoyun komu – | 5 əd. |
| Sair tikililər – | 4 əd. |

## HOZUKƏND (QUZUKƏND)

Ağbaba mahalının Amasiya rayonununda, rayon mərkəzindən 25 km şimal-qərbdə, dəniz səviyyəsindən 2112 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə kənddə 222 nəfər, 1897-ci ildə 382 nəfər, 1908-ci ildə 379 nəfər, 1914-cü ildə 455 nəfər azərbaycanlı əhali yaşamışdır. 1918-1920-ci illərdə kənd erməni daşnakları tərəfindən vəhşicəsinə dağıdılmış, talanmış, əhalisinin bir hissəsini qətlə yetirmiş, sağ qalanlar Türkiyə ərazisinə mühacirət etmişlər. Bölgədə Sovet hökuməti qurulduqdan sonra kəndin qaçqın əhalisi geri qayıtmışlar. Kənddə 1922-ci ildə 443 nəfər, 1931-ci ildə 497 nəfər azərbaycanlı qeydə alınmışdır.

1988-ci ildə kənddə 179 təsərrüfatda 984 nəfər azərbaycanlı yaşamışdır ki, onlar da qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı təcavüzə məruz qalmış, erməni quldurları tərəfindən doğma kəndlərindən qovulub çıxarılmış, bütün əmlakları, ev və mülkləri əllərindən alınmışdır.

Kəndin Hozukənd adı 1945-ci ildən **Quzukənd** kimi işlənmişdir.

Hozukənd sovxozuna Çivinli kəndi də daxil idi. Ona görə də Hozukənd kəndində verilmiş ictimai əmlakın siyahısı Çivinli kəndinə də aiddir. Bu siyahıdan əlavə, Çivinli kəndində aşağıdakı ictimai əmlak da var idi.

### Quzukənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Məktəb – | 1 əd. (10 illik) |
| Klub – | 1 əd. |
| Poçt - | 1 əd. |
| Tibb məntəqəsi - | 1 əd. |
| İdarə binası - | 1 əd. |
| Kənd soveti binası - | 1 əd. |
| Mal tövləsi – | 7 əd. |
| Qoyun komu – | 10 əd. |
| Sair tikililər – | 6 əd. |
| İribuynuzlu mal-qara – | 1400 baş |
| Xırdabuynuzlu mal-qara – | 7200 baş |
| K/t maşınları – | 91 əd. |
| Avtomaşınlar – | 24 əd. |

## QARABULAQ

Ağbaba mahalının Amasiya rayonununda, rayon mərkəzindən 33 km şimal-qərbdə, Arpa gölünün qərb sahilində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə kənddə 185 nəfər, 1908-ci ildə 352 nəfər, 1914-cü ildə 382 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-1920-ci illərdə kənd erməni daşnakları tərəfindən vəhşicəsinə dağıdılmış, talanmış, əhalisinin bir hissəsini qətlə yetirmiş, sağ qalanlar Türkiyə ərazisinə mühacirət etmişlər. Yalnız 10 ildən sonra kəndin qaçqın əhalisinin az bir qismi geri qayıtmış, öz kəndlərini təzədən bərpa etməyə başlamışlar. Kənddə 1931-ci ildə 179 nəfər azərbaycanlı qeydə alınmışdır.

1988-ci ildə kənddə 57 təsərrüfatda 293 nəfər azərbaycanlı yaşamışdır ki, onlar da qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı təcavüzə məruz qalmış, erməni quldurları tərəfindən doğma kəndlərindən qovulub çıxarılmış, bütün əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

**Qarabulaq azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Məktəb – | 1 əd. (8 illik) |
| Klub - | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Yaşayış binası - | 2 əd. |
| Mal tövləsi – | 3 əd. |
| Sair tikililər – | 2 əd. |
| İribuynuzlu mal-qara – | 600 baş |
| K/t maşınları – | 21 əd. |
| Avtomaşınlar – | 6 əd. |

## AMASİYA

Ağbaba mahalının Amasiya rayonununda kənd, sonralar şəhərtipli qəsəbə, Amasiya rayonunun mərkəzi.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

1886-cı ildə kənddə 274 nəfər, 1914-ci ildə 564 nəfər, 1922-cü ildə 167 nəfər azərbaycanlı əhali yaşamışdır.

1988-ci ildə kənddə 302 təsərrüfatda 1.600 nəfər azərbaycanlı yaşamışdır ki, onlar da qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı təcavüzə məruz qalmış, erməni quldurları tərəfindən doğma kəndlərindən qovulub çıxarılmış, bütün əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

Amasiya sovxozuna Daşkörpü kəndi də daxil idi. Ona görə də burada verilmiş ictimai əmlakın siyahısı Daşkörpü kəndinə də aiddir.

### Amasiya azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Məscid – | 1 əd. |
| Məktəb – | 1 əd. (10 illik) |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Mal tövləsi – | 4 əd. |
| Qoyun komu – | 3 əd. |
| Sair tikililər – | 8 əd. |
| İribuynuzlu mal-qara – | 1400 baş |
| Xırdabuynuzlu mal-qara – | 3700 baş |
| K/t maşınları – | 82 əd. |
| Avtomaşınlar – | 23 əd. |
| Yaylada tikililər – | 1 əd. |

## SƏRDARABAD, (QURDUQULU, HOKTEMBERYAN) RAYONU

### 1988-ci ilə qədər Sərdarabad rayonunda mövcud olan azərbaycanlı yaşayış məntəqələrinin siyahısı

**Qarışıq yaşayış məntəqəsi**

1. Hacı Bayramlı (03.01.1935-ci ildən – Bağçalar, 03.07.1968-ci ildən – Baqaran).

## HACI BAYRAMLI (BAXÇALAR, BAQARAN)

Sərdarabad mahalı ərazisində, Sərdarabad rayonunda, rayon mərkəzindən 32 km qərbdəAraz çayı ilə Arpaçay çayının birləşdiyi yerdə kənd.

1918-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri yaşamışlar, 1920-ci illərdən etibarən azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur.

1831-ci ildə kənddə 332 nəfər, 1873-cü ildə 447 nəfər, 1886-cı ildə 434 nəfər, 1897-ci ildə 476 nəfər, 1914-cü ildə 461 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-1920-ci illərdə kənd erməni daşnakları tərəfindən vəhşicəsinə dağıdılmış, talanmış, əhalisinin bir hissəsini qətlə yetirmiş, sağ qalanlar Türkiyə ərazisinə mühacirət etmişlər.

Bölgədə Sovet hökuməti qurulduqdan sonra kəndin qaçqın əhalisi geri qayıtmış, artıq kənddə gəlmə ermənilərin məskunlaşdırıldığını görmüşlər. O vaxtdan kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. Kənddə 1922-ci ildə 325 nəfər azərbaycanlı, 1926-cı ildə 334 nəfər azərbaycanlı, 13 nəfər erməni, 1931-ci ildə 403 nəfər azərbaycanlı, 8 nəfər erməni qeydə alınmışdır.

1948-1953-cü illər deportasiyası zamanı kəndin azərbaycanlı əhalisi Azərbaycana köçürülsə də, kənddə yaşamaqda davam edən azərbaycanlılar qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı erməni quldurları tərəfindən doğma kəndlərindən qovulub çıxarılmış, bütün əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

1935-ci il yanvarın 3-də kəndin **Hacı Bayramlı** adı dəyişdirilərək **Bağçalar**, 1968-ci il iyulun 3-də isə yenidən dəyişdirilərək **Baqaran** qoyulmuşdur.

# KARVANSARA (İCEVAN) RAYONU

Qazax-Şəmşəddil sultanlığı ərazisində rayon. 1930-cu il sentyabrın 9-da yaradılmışdır. Ərazisi 1336 kv.km-dir.

Rayon mərkəzi respublika tabeli Karvansara (İcevan) şəhəridir.

Rayon mərkəzinə ən yaxın dəmiryol dayanacağı 41 km kənarda yerləşən Ağstafa stansiyasıdır (Azərbaycan Respublikasının Ağstafa rayonu ərazisində).

Rayon mərkəzinədən İrəvan şəhərinə olan məsafə 142 km-dir.

## 1988-ci ilə qədər Karvansara rayonunda mövcud olan azərbaycanlı yaşayış məntəqələrinin siyahısı

**Xalis azərbaycanlı yaşayış məntəqələri**

1. Göyərçin
2. Mürteyil (Çiçəkbulaq-1978, Qeğatan-1991)
3. Haqqıxlı (25.01.1978-ci ildən – Səməd Vurğun, 19.04.1991-ci ildən – Hovk)
4. Alaçıxqaya (sonralar – Alaçux)
5. Ağkilsə (19.04.1991-ci ildən – Cermakavan)
6. Polad (19.04.1991-ci ildən – Xaçardzon)
7. Salah (19.04.1991-ci ildən – Akavanavank)

## Karvansara rayonu azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 6 əd. |
| Klub – | 5 əd. |
| İdarə binası – | 5 əd. |
| Uşaq bağçası – | 2 əd. |
| Xəstəxana – | 3 əd. |
| Həkim məntəqəsi – | 5 əd. |
| İribuynuzlu mal-qara – | 5800 baş |
| Xırdabuynuzlu mal-qara – | 8600 baş |
| Tövlələr – | 50 əd. |
| Transformator – | 24 əd. |

| | |
|---|---|
| Dəyirman – | 3 əd. |
| Anbar binası – | 40 əd. |
| Avtomaşınlar – | 92 əd. |
| Traktor – | 111 əd. |
| K/t texnikası – | 166 əd. |
| Məktəb, kitabxana – | 12 əd. |
| Sair tikililər – | 220 əd. |
| Su nasosu stansiyası – | 11 əd. |
| Arı ailəsi – | 380 əd. |
| Bağlar – | 57 ha |
| Donuz – | 1990 baş |

## GÖYƏRÇİN

Qaraqoyunlu mahalı ərazisində, Karvansara rayonununda kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1897-ci ildə kənddə 257 nəfər, 1904-cü ildə 89 nəfər, 1914-cü ildə 93 nəfər, 1916-cı ildə 132 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-1920-ci illərdə kənd erməni daşnakları tərəfindən vəhşicəsinə dağıdılmış, talanmış, əhalisinin bir hissəsini qətlə yetirmiş, sağ qalanlar Türkiyə ərazisinə mühacirət etmişlər.

Bölgədə Sovet hökuməti qurulduqdan sonra kəndin qaçqın əhalisini geri qayıtmış və kəndi təzədən bərpa etməyə başlamışlar. 1922-ci ildə kənddə 143 nəfər, 1926-cı ildə 221 nəfər, 1931-ci ildə 205 nəfər, 1939-cu ildə 237 nəfər, 1950-ci ildə 107 nəfər azərbaycanlı qeydə alınmışdır.

XIX əsrdə Qafqazda Göyərçin adlı altı kənd olmuşdur. Göyərçin sözü iki məna verir. Onlardan biri göyərçin quşunun, ikinci isə qədim Türk tayfasının adıdır.

Kənd 1956-cı ildə ləğv edilmiş və Salah kəndinə köçürülmüş, qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı Göyərçin kəndinin azərbaycanlı əhalisi Salah kəndinin əhalisi ilə birlikdə erməni quldurları tərəfindən doğma kəndlərindən qovulub çıxarılmış, bütün əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

Kəndin 1956-cı ildə ermənilər tərəfindən köçürülməsinin əsas səbəbi ondan ibarət idi ki, bu kəndin ərazisindəki Alban çarlığı dövrünə aid maddi və mədəni tarixi abidələr çoxluq təşkil edirdi. Burada olan qəbiristanlıq, ölçüsü 2x3, 3x3 m olan iri və nəhəng baş daşları adamı valeh edirdi. Ermənilər yaxşı başa düşürdülər ki, əgər türklər Göyərçinlidə yaşasalar, bu abidələri onlar erməniləşdirə bilməyəcəklər. Ona görə də Göyərçinli kəndini ləğv etdilər və onu Salah kəndinə birləşdirdilər.

## MURTEYİL

Qaraqoyunlu mahalı ərazisində, Karvansara rayonununda, rayon mərkəzindən 35 km cənub-qərbdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1897-ci ildə kənddə 43 nəfər, 1904-cü ildə 86 nəfər, 1919-cu ildə 187 nəfər azərbaycanlı əhali yaşamışdır.

1919-cu ilin əvvəllərində Andranikin quldur dəstələri kəndə hücum etmiş, onu dağıtmış, talamış, əhalisinin bir hissəsini qətlə yetirmiş, sağ qalanlar qovub kənddən çıxarmışlar.

Bölgədə Sovet hökuməti qurulduqdan sonra kəndin qaçqın əhalisini geri qayıtmış və kəndi təzədən bərpa etməyə başlamışlar. 1922-ci ildə kənddə 86 nəfər, 1926-cı ildə 103 nəfər, 1931-ci ildə 161 nəfər azərbaycanlı qeydə alınmışdır.

1987-ci ildə kənddə cəmi 15 azərbaycanlı ailəsi olmuşdur ki, onlar da qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı erməni quldurları tərəfindən doğma kəndlərindən qovulub çıxarılmış, bütün əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

Murteyil sözü, yəni Murtu eli, Murtu tayfası mənasını verir. Murteyillilər Türk mənşəli Təklə tayfasının Murtulu qolundan formalaşmışlar.

1978-ci il yanvarın 25-də kəndin Murteyil adı dəyişdirilərək **Çiçəkbulaq**, 1991-ci il aprelin 19-da yenidən dəyişdirilərək **Qeğatan** qoyulmuşdur.

## HAQQIXLI (VURĞUN)

Karvansara rayonununda, rayon mərkəzindən 18 km məsafədə Qaraqoyunlu mahalanın cənub-qərbində, Qazax-Dilcan şose yolunun qərbində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə kənddə 32 təsərrüfatda 265 nəfər (146 kişi, 119 qadın) azərbaycanlı əhali yaşamışdır.

Azərbaycanın Rusiya tərəfindən işğalından sonra Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasının Dilican nahiyəsinin, sovetləşmə zamanı Dilican rayonunun, 1938-ci ilin yanvarından sonra isə Karvansara (İcevan) rayonunun tərkibində olmuşdur.

Kənddə 1897-ci ildə 372 nəfər, 1904-cü ildə 342 nəfər, 1916-cı ildə 450 nəfər, 1919-cu ildə 121 nəfər azərbaycanlı yaşamışdır. Kənd əhalisi 1897, 1905, 1919-1920, 1988-ci illərdə erməni millətçiləri tərəfindən vəhşicəsinə qırılmış, deportasiya edilmişdir.

Ermənistanda Sovet hökuməti qurulduqdan sonra sağ qalan əhali yenidən doğma kəndlərinə qayıtmışlar.

Sovet hakimiyyəti illərində burada 1922-ci ildə 306 nəfər, 1926-cı ildə 331 nəfər, 1931-ci ildə 412 nəfər azərbaycanlı yaşamışdır.

Haqqıxlı kəndinin əhalisi 1919-cu il soyqırımı zamanı yenə də talana və qırğına məruz qalmışlar. 1919-cu ilin mart ayında bu kəndin adamlarını kəndin yaxınlığındakı Danaqıran adlı qışlaqdakı mal komuna yığıb komun bacalarından neft töküb odlamışlar. Buradan yalnız bir nəfər kolluqlar arasından qaçıb qurtara bilmişdir. Erməni qaniçənləri kənddə salamat qalmış adamlara da divan tutmuşlar, hətta kəndin ən nüfuzlu adamı, məşhur olan Molla Nəbini qətlə yetirmişlər.

1988-ci ilin dekabr ayında axşam üstü Ermənistan hökumətinin göstərişi ilə kəndə göndərilmiş yük maşınları ilə çoxlu milis işçilərinin təzyiqi altında yalnız yüngül barxana ilə kənd əhalisini silah zoruna Qazax-İcevan sərhədinə qovmuşlar. Qaraqoyunlu mahalında ilk ağır zərbə Haqqıxlı kənd əhalisinə endirildi. Kənd və kəndə gələn yollar tutulduğundan kənd əhalisi heç bir kənddən və Qazax rayonundan kömək ala bilməmişlər. Kənd əhalisinin bütün əmlakları, mal-qaraları erməni silahlı qüvvələri tərəfindən qarət və talan edilmişdir.

1978-ci il yanvarın 25-də kəndin Haqqıxlı adı dəyişdirilərək **Səməd Vurğun**, 1991-ci il aprelin 19-da yenidən dəyişdirilərək **Hovk** qoyulmuşdur.

**Haqqıxlı kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| İribuynuzlu mal-qara – | 1200 baş |
| Xırdabuynuzlu mal-qara – | 3100 baş |
| Tövlələr – | 16 əd. |
| Transformator – | 7 əd. |
| Dəyirman – | 1 əd. |
| Anbar binası – | 12 əd. |
| Avtomaşınlar – | 27 əd. |
| Traktor – | 34 əd. |
| K/t texnikası – | 82 əd. |
| Məktəb, kitabxana – | 2 əd. |
| Sair tikililər – | 66 əd. |
| Su nasosu stansiyası – | 3 əd. |
| Arı ailəsi – | 210 əd. |
| Bağlar – | 34 ha |

## ALAÇIXQAYA (ALAÇIX)

Qaraqoyunlu mahalı ərazisində, Karvansara rayonununda, rayon mərkəzindən 28 km cənubda, Tərsəçayın (bu çay tərsinə, yəni şimala axırdı) 2 km-də, çayın hər iki sahilində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1897-ci ildə kənddə 85 nəfər, 1919-cu ildə 166 nəfər azərbaycanlı yaşamışdır. 1919-cu ilin yazında kənd erməni daşnakları tərəfindən vəhşicəsinə dağıdılmış, talanmış, əhalisinin bir hissəsini qətlə yetirmiş, sağ qalanları qovub kənddən çıxarmışlar. Bölgədə Sovet hökuməti qurulduqdan sonra kəndin qaçqın əhalisi geri qayıtmışlar. 1922-ci ildə kənddə 97 nəfər, 1931-ci ildə 119 nəfər azərbaycanlı qeydə alınmışdır.

Kəndin ortasında, Tərsəçayın sağ sahilindəki vadidəki yüksəklikdə qayalıqdan qopmuş iki nəhəng daş var idi. Ta qədim zamanlardan insanlar ondan alaçıq kimi istifadə etmişlər. Kənd öz adını da burdan almışdır.

1988-ci ildə kənd 50 evdən, 154 nəfərdən ibarət idi. Həmin il Qaraqoyunlu dərəsinin Alaçıqqaya kəndində XX əsrin ən dəhşətli faciələrindən biri baş verdi. Azğınlaşmış erməni daşnakları bu bölgədə yerləşdirilmiş rus əsgərlərinə məhəl qoymadan axşam saat 21 radələrində yoldan ötərkən sürücü Eldarın gəlini Zoya Hətəmqızını güllə ilə vurub aradan çıxmışdılar.

### Alaçıxqaya kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| İribuynuzlu mal-qara – | 700 baş |
| Tövlələr – | 4 əd. |
| Transformator – | 2 əd. |
| Anbar binası – | 3 əd. |
| Avtomaşınlar – | 7 əd. |
| Traktor – | 7 əd. |
| K/t texnikası – | 17 əd. |
| Məktəb, kitabxana – | 2 əd. |
| Sair tikililər – | 4 əd. |
| Donuz – | 1200 baş |

## AĞKİLSƏ

Qaraqoyunlu mahalı ərazisində, Karvansara rayonununda, rayon mərkəzindən 27 km cənub-qərbdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"ndə (1727) Gəncə livasının Qaraqaya nahiyəsinin **Ağkilsə məzrəsi** kimi qeydə alınmış, kəndin ərazisində dənli bitkilər əkilməsindən dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir əldə etdiyi göstərilmişdir. Həmin mənbədə kəndin indiki Çəmbərək rayonu ərazisindəki Darılıq kəndi ilə yanaşı verilməsi ("**Darılıq kəndi və Ağkilsə məzrəsi"** şəklində) onların yanaşı yerləşməsi fikrini söyləməyə əsas verir.

Kənddə 1897-ci ildə 115 nəfər, 1904-cü ildə 130 nəfər, 1919-cu ildə 151 nəfər azərbaycanlı yaşamışdır.

1919-cu ilin əvvəllərində erməni daşnak quldur dəstələri Dilican tərəfdən kəndə hücum edib, əhalinin bir hissəsini qətlə yetirmiş, sağ qalanlar doğma yurddan didərgin düşmüşlər.

Ermənistanda Sovet hökuməti qurulduqdan sonra kəndin qaçqın əhalisinin bir qismi geri qayıtmış, dağılmış kəndi bərpa etmişlər. 1922-ci ildə kənddə 132 nəfər, 1926-cı ildə 114 nəfər, 1931-ci ildə 166 nəfər, 1959-cu ildə 187 nəfər azərbaycanlı yaşamışdır.

Adları keçən üç Qaraqoyunlu kəndinin əhalisi 1948-1953-cü illərin deportasiyasına məruz qalaraq bir hissəsi Qazax rayonuna köçürülmüşdülər.

1987-ci ildə kənddə 70 təsərrüfatda 154 nəfər azərbaycanlı yaşayırdı.

**Ağkilsə** və ondan çox yüksəklərdə, Göyçə gölünün şərqindəki yaylanın arxasında yerləşən **Murteyil** kəndi **Polad kənd** sovetliyinə və eyni adlı kolxoz, sonralar isə sovxoz təsərrüfatının tərkibində idilər.

1991-ci il aprelin 19-da kəndin Ağkilsə adı dəyişdirilərək **Cermakavan** qoyulmuşdur.

## POLAD

Qaraqoyunlu mahalı ərazisində, Karvansara rayonununda, rayon mərkəzindən 18 km məsafədə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1873-cü ildə kənddə 290 nəfər, 1886-cı ildə 48 təsərrüfatda 390 nəfər (199 kişi, 191 qadın), 1897-ci ildə 228 nəfər, 1904-cü ildə 263 nəfər, 1914-cü ildə 347 nəfər, 1916-cı ildə 685 nəfər azərbaycanlı əhali yaşamışdır.

1919-cu ilin əvvəllərində erməni quldur dəstələri kəndə hücum edib, əhalinin bir hissəsini qətlə yetirmiş, sağ qalanlar doğma yurddan didərgin düşmüşlər. 1920-ci illərin əvvəllərində kəndin qaçqın əhalisinin bir qismi geri qayıtmış, dağılmış kəndi bərpa etmişlər. 1922-ci ildə kənddə 302 nəfər, 1926-cı ildə 319 nəfər, 1931-ci ildə 452 nəfər azərbaycanlı yaşamışdır.

1988-ci ildə gecə ikən Polad camaatı yuxudan hövlənək qaldırılaraq erməni və rus silahlı birləşmələri tərəfindən güclə və zorakılıqla avtobuslara mindirilərək Qazax rayonu ərazisinə yola salınmışdır.

1991-ci il aprelin 19-da kəndin Polad adı **Xaçardzon** qoyulmuşdur.

### Polad-Murteyil-Ağkilsə kəndləri azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 3 əd. |
| Klub – | 2 əd. |
| İdarə binası – | 3 əd. |
| Xəstəxana – | 1 əd. |
| Həkim məntəqəsi – | 2 əd. |
| İribuynuzlu mal-qara – | 1800 baş |
| Xırdabuynuzlu mal-qara – | 2700 baş |
| Tövlələr – | 16 əd. |
| Transformator – | 9 əd. |
| Dəyirman – | 1 əd. |
| Anbar binası – | 14 əd. |
| Avtomaşınlar – | 29 əd. |
| Traktor – | 39 əd. |
| K/t texnikası – | 77 əd. |
| Məktəb, kitabxana – | 2 əd. |
| Sair tikililər – | 76 əd. |
| Su nasosu stansiyası – | 2 əd. |
| Bağlar – | 6 ha |

## SALAH

Karvansara rayonunda, Tərsəçayın sahillərində, rayon mərkəzindən 15 km məsafədə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1897-ci ildə kənddə 184 nəfər, 1904-cü ildə 56 nəfər, 1914-cü ildə 64 nəfər, 1916-cı ildə 72 nəfər azərbaycanlı əhali yaşamışdır.

Salahlılar 1988-ci ilin şaxtalı-qarlı dekab gecəsində qəddarlıqla erməni daşnaqları və onlara havadarlıq edən rus silahlı birləşmələri tərəfindən qovuldular.

1931-ci ildə Salah kəndində yaşayanların sayı 112 nəfər olmuşdur.

1991-ci il aprelin 19-da kəndin Salah adı dəyişdirilərək **Akavanavank** qoyulmuşdur.

**Salah kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| İribuynuzlu mal-qara – | 2100 baş |
| Xırdabuynuzlu mal-qara – | 2800 baş |
| Tövlələr – | 14 əd. |
| Transformator – | 6 əd. |
| Dəyirman – | 1 əd. |
| Anbar binası – | 11 əd. |
| Avtomaşınlar – | 29 əd. |
| Traktor – | 31 əd. |
| K/t texnikası – | 90 əd. |
| Məktəb – | 2 əd. |
| Sair tikililər – | 74 əd. |
| Su nasosu stansiyası – | 6 əd. |
| Arı ailəsi – | 170 əd. |
| Bağlar – | 17 ha |
| Donuz – | 790 baş |

## BASARKEÇƏR (VARDENİS) RAYONU

Göyçə mahalı ərazisində rayon. 1930-cu il sentyabrın 9-da yaradılıb. 1969-cu il iyunun 11-nə qədər Basarkeçər rayonu, həmin tarixdən etibarən isə Vardenis rayonu adlandırılıb. Ərazisi 1151 kv.km-dir.

Rayon mərkəzi şəhər tipli Basarkeçər (Vardenis) qəsəbəsidir.

Rayon mərkəzinə ən yaxın dəmiryol dayanacağı 104 km kənarda yerləşən Yelenovka (Sevan) stansiyasıdır (Yelenovka rayonu ərazisində).

Rayon mərkəzində İrəvan şəhərinə olan məsafə 168 km-dir.

### 1988-ci ilə qədər Basarkeçər rayonunda mövcud olan azərbaycanlı yaşayış məntəqələrinin siyahısı

**Xalis azərbaycanlı yaşayış məntəqələri**

1. Hüseynquluağalı (15.12.1948-ci ildən – Nərimanlı, 19.04.1991-ci ildən – Şatvan-1991)
2. Böyük Qaraqoyunlu (03.01.1935-ci ildən – Əzizli, 19.04.1991-ci ildən – Norabak)
3. Aşağı Şorca
4. Yuxarı Şorca
5. Daşkənd (19.04.1991-ci ildən – Hayrk)
6. Sarıyaqub (19.04.1991-ci ildən – Çaxkadzor)
7. Qayabaşı (19.04.1991-ci ildən – Qeğamabak)
8. Qoşabulaq (19.04.1991-ci ildən – Şadcrek)
9. Zərzibil (03.01.1935-ci ildən – Zərkənd, 19.04.1991-ci ildən – Kut)
10. Ağkilsə (03.01.1935-ci ildən – Azad)
11. Zod (19.04.1991-ci ildən – Sotk)
12. Babacan (25.01.1978-ci ildən – Qızılkənd)
13. Pəmbək
14. Dərə (19.04.1991-ci ildən – Daranak)
15. Şişqaya (19.04.1991-ci ildən – Qukariç)
16. Bala Məzrə (19.04.1991-ci ildən – Pokr Masrik)
17. Oğruca (sonralar – Qaraiman, 25.01.1978-ci ildən – Sovetkənd, 19.04.1991-ci ildən – Kaxaki)
18. Kəsəmən (25.01.1978-ci ildən – Bahar, 19.04.1991-ci ildən – Artunk)
19. İnəkdağı (25.01.1978-ci ildən – Yenikənd, 19.04.1991-ci ildən – Tretuk)

20. Qanlı (12.08.1946-cı ildən – Qamışlı)

21. Kərkibaş (25.05.1967-ci ildən – Şəfəq, 19.04.1991-ci ildən – Vanevan)

23. Subatan (19.04.1991-ci ildən – Geğakar)

24. Sultanəliqışlaq (sonralar – Canəhməd, 03.07.1969-cu ildən – Günəşli, 19.04.1991-ci ildən – Kutakan)

25. Ağyoxuş

26. Sətənəxaç (03.01.1935-ci ildən – Güney, 19.04.1991-ci ildən – Arevuni)

**Qarışıq yaşayış məntəqələri**

27. Yuxarı Zağalı (25.01.1978-ci ildən – Axbradzor)

28. Çaxırlı (25.01.1978-ci ildən – Sovetakert, 19.04.1991-ci ildən – Paqaxbyur)

29. Tüskülü (25.01.1978-ci ildən – Lusakunk)

30. Böyük Məzrə (19.04.1991-ci ildən – Medz Masrik)

31. Qızılvəng (24.07.1940-cı ildən – Çiçəkli, 25.01.1978-ci ildən – Makenis)

32. Torfavan qəsəbəsi

## HÜSEYNQULUAĞALI (NƏRİMANLI)

Göyçə mahalının Basarkeçər rayonununda, rayon mərkəzindən 4 km məsafədə, Məzrə çayı kənarında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1873-cü ildə statistik məlumatlarında **Hüseynquluağalı kəndi** kimi qeydə alınmış, kəndini ikinci adının Ağkilsə olduğu, və burada 65 təsərrüfatda 636 nəfər (365 kişi, 271 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

1886-cı ilin statistikasında da kəndin ikinci adının Ağkilsə olduğu kənddə 101 təsərrüfatda 760 nəfər (418 kişi, 342 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

### Hüseynquluağalı azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 18 əd. |
| İribuynuzlu mal-qara – | 750 baş |
| Xırdabuynuzlu mal-qara – | 3000 baş |
| Əkin sahəsi – | 800 ha |
| Otaraq sahə – | 1500 ha |
| K/t maşınları – | 21 əd. |
| Avtomaşınlar – | 14 əd. |
| K/t texnikası – | 30 əd. |
| Məktəb – | 1 əd. |
| Dəyirman – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Kənd soveti binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd |
| Kitabxana – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Enerji şəbəkəsi – | 6 əd. |
| Anbar binası – | 6 əd. |
| Məscid binası – | 1 əd. |
| Və s. tikililər (poçt, k/s binası, yeməkxana...) | 4 əd. |

## BÖYÜK QARAQOYUNLU (ƏZİZLİ, YELLİCƏ - BÖYÜK YELLİCƏ, YENGİCƏ)

Göyçə mahalının Basarkeçər rayonununda, rayon mərkəzindən 12 km məsafədə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1832-ci ilin məlumatlarında İrəvan əyalətinin Göyçə mahalının **Ellicə kəndi** kimi qeydə alınmış, kənddə 71 təsərrüfatda 379 nəfər (215 kişi, 164 qadın) azərbaycanlının yaşadığı göstərilmişdir.

1873-cü ilin statistikasında İrəvan quberniyasının Yeni Bayazid qəzasının Göyçə gölü hövzəsi boyunda **Yellicə Qaraqoyunlu kəndi** kimi qeydə alınmış, kəndin ikinci və əvvəlinci adının Yellicə olduğu verilmiş, kəndin çay kənarında yerləşjiyi və burada 45 təsərrüfatda 408 nəfər (223 kişi, 185 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

1988-ci ildə kənddə 1800 nəfər azərbaycanlı əhali yaşamışdır ki, onlar da qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı erməni quldurları tərəfindən doğma kəndlərindən qovulub çıxarılmış, bütün əmlakları, ev və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

**Böyük Qaraqoyunlu azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mal-qara üçün bina – | 14 əd. |
| İribuynuzlu mal-qara – | 860 baş |
| Xırdabuynuzlu mal-qara – | 3500 baş |
| Əkin sahəsi – | 700 ha |
| Otaraq sahə – | 2000 ha |
| K/t maşınları – | 14 əd. |
| Avtomaşınlar – | 15 əd. |
| K/t texnikası – | 10 əd. |
| Məktəb – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| Enerji şəbəkəsi – | 4 əd. |
| Anbar binası – | 5 əd. |

## AŞAĞI ŞORCA (SALMAN KƏNDİ)

Göyçə mahalının Basarkeçər rayonununda, rayon mərkəzindən 13 km cənub-şərqdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri.

1831-ci ildə kənddə 164 nəfər, 1873-cü ildə 13 təsərrüfatda 123 nəfər (61 kişi, 62 qadın), 1886-cı ildə 24 təsərrüfatda 158 nəfər (83 kişi, 75 qadın) azərbaycanlı əhali yaşamışdır.

Kənd camaatı həm 1918-ci ildə, həm də 1988-ci ildə erməni təcavüzü ilə üz-üzə dayanmış, ağır itkilər verərək doğma yurdu tərk etməyə məcbur olmuşdur.

1988-ci ildə kənd azərbaycanlılarının sayı 1500 nəfərə çatırdı ki, onların da hamısının evləri, mal və mülkləri ermənilər tərəfindən əvəziödənilmədən mənimsənilmişdir.

### Aşağı Şorca azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 15 əd. |
| İribuynuzlu mal-qara – | 360 baş |
| Xırdabuynuzlu mal-qara – | 4800 baş |
| Əkin sahəsi – | 720 ha |
| Otaraq sahə – | 2000 ha |
| K/t maşınları – | 14 əd. |
| Avtomaşınlar – | 16 əd. |
| K/t texnikası – | 15 əd. |
| Məktəb – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Məscid binası – | 1 əd |
| Mədəniyyət evi – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Klub – | 1 əd. |
| Enerji şəbəkəsi – | 4 əd. |
| Anbar binası – | 4 əd. |

## YUXARI ŞORCA (TATAR ŞORCASI, BAŞ KEYTİ, ŞORCALI KEYTİ)

Göyçə mahalının Basarkeçər rayonununda, rayon mərkəzindən 15 km məsafədə, Məzrə çayı kənarında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1832-ci ilin statikasında Göyçə mahalının **Baş Keyti kəndi** kimi qeydə alınmış, kənddə 15 təsərrüfatda 75 nəfər (46 kişi, 29 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

1873-cü ilin statistik məlumatlarında **Yeni Keyti kəndi** kimi qeydə alınmış, burada 53 təsərrüfatda 411 nəfər (210 kişi, 201 qadın) azərbaycanlı əhali qeydə alınmışdır.

1886-cı ilin statistikasında da **Yeni Keyti kəndi** kimi siyahıya alınmış, kəndin ikinci adının **Şorcalı** olduğu, kənddə 82 təsərrüfatda 524 nəfər (283 kişi, 241 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

1988-ci ildə kənddə 1.440 nəfər azərbaycanlı əhali yaşayırdı ki, onlar da erməni millətçiləri tərəfindən sonuncu adamına qədər zorakılıqla doğma yurdlarından qovulmuş, evləri, mal və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

### Yuxarı Şorca azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 8 əd. |
| İribuynuzlu mal-qara – | 280 baş |
| Xırdabuynuzlu mal-qara – | 2900 baş |
| Əkin sahəsi – | 280 ha |
| Otaraq sahə – | 600 ha |
| K/t maşınları – | 9 əd. |
| Avtomaşınlar – | 6 əd. |
| K/t texnikası – | 10 əd. |
| Məktəb – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Klub – | 1 əd. |
| Enerji şəbəkəsi – | 3 əd. |
| Anbar binası – | 3 əd. |

## DAŞKƏND

Göyçə mahalının Basarkeçər rayonununda, rayon mərkəzindən 8 km məsafədə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1832-ci ildə kənddə 69 təsərrüfatda 357 nəfər (188 kişi, 169 qadın), 1873-cü ildə 70 təsərrüfatda 560 nəfər (332 kişi, 228 qadın), 1886-cı ildə isə 129 təsərrüfatda 816 nəfər (446 kişi, 370 qadın) azərbaycanlı əhali yaşamışdır.

1988-ci ildə kənddə 2.000 nəfər azərbaycanlı əhali yaşayırdı ki, onlar da erməni millətçiləri tərəfindən sonuncu adamına qədər zorakılıqla doğma yurdlarından qovulmuş, evləri, mal və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

### Daşkənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 18 əd. |
| İribuynuzlu mal-qara – | 470 baş |
| Xırdabuynuzlu mal-qara – | 7000 baş |
| Əkin sahəsi – | 1000 ha |
| Otaraq sahə – | 12000 ha |
| K/t maşınları – | 28 əd. |
| Avtomaşınlar – | 30 əd. |
| K/t texnikası – | 22 əd. |
| Məktəb – | 1 əd. |
| Dəyirman – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Kənd soveti binası – | 1 əd. |
| Məscid binası – | 1 əd |
| Mədəniyyət evi – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Klub – | 1 əd. |
| Enerji şəbəkəsi – | 5 əd. |
| Anbar binası – | 6 əd. |

## SARIYAQUB (SARIYAQUT)

Göyçə mahalının Basarkeçər rayonununda, rayon mərkəzindən10 km cənub-şərqdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1873-cü ilin statistik məlumatlarında **Sarı Yaqub kəndi** kimi qeydə alınmış və burada 32 təsərrüfatda 299 nəfər (172 kişi, 122 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

1886-cı ilin statistikasında isə kənddə 69 təsərrüfatda 416 nəfər (234 kişi, 182 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

1988-ci ildə kənddə 1.700 nəfər azərbaycanlı əhali yaşayırdı ki, onlar da erməni millətçiləri tərəfindən bir həftə ərzində sonuncu adamına qədər zorakılıqla doğma yurdlarından qovulmuş, evləri, mal və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

### Sarıyaqub azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 9 əd. |
| İribuynuzlu mal-qara – | 460 baş |
| Xırdabuynuzlu mal-qara – | 1600 baş |
| Əkin sahəsi – | 400 ha |
| Otaraq sahə – | 1200 ha |
| K/t maşınları – | 13 əd. |
| Avtomaşınlar – | 8 əd. |
| K/t texnikası – | 19 əd. |
| Məktəb – | 1 əd. |
| Dəyirman – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Məscid binası – | 1 əd |
| Mədəniyyət evi – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Klub – | 1 əd. |
| Enerji şəbəkəsi – | 4 əd. |
| Anbar binası – | 5 əd. |

## QAYABAŞI

Göyçə mahalının Basarkeçər rayonununda, rayon mərkəzindən 8 km cənub-qərbdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1873-cü ildə kənddə 16 təsərrüfatda 131 nəfər (82 kişi, 49 qadın), 1886-cı ildə 30 təsərrüfatda 181 nəfər (95 kişi, 86 qadın) azərbaycanlı əhali yaşamışdır.

Qayabaşı kəndi həm 1918-1920-ci illərdə, həm də 1988-ci ildə erməni millətçilərinin hücumlarına məruz qalmışdır.

1918-ci il aprelin 13-20-də kənd əhalisinin bir hissəsi ermənilər tərəfindən qətlə yetirilmiş, onların bütün əmlakı quldurcasına talanmış, özləri isə zorakılıqla qovulub kənddən çıxarılmışdır.

1988-ci ildə də kəndin 600 nəfərdən çox əhalisi eyni təcaıüzün qurbanı olmuş, erməni millətçiləri tərəfindən kənd əhalisi sonuncu adamına qədər zorakılıqla doğma yurdlarından qovulmuş, evləri, mal və mülkləri əvəziödənilmədən əllərindən alınmışdır.

**Qayabaşı azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mal-qara üçün bina – | 8 əd. |
| İribuynuzlu mal-qara – | 300 baş |
| Xırdabuynuzlu mal-qara – | 1800 baş |
| Əkin sahəsi – | 300 ha |
| Otaraq sahə – | 1000 ha |
| K/t maşınları – | 7 əd. |
| Avtomaşınlar – | 6 əd. |
| K/t texnikası – | 10 əd. |
| Məktəb – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Kənd soveti binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Enerji şəbəkəsi – | 3 əd. |
| Anbar binası – | 5 əd. |

## QOŞABULAQ (KEFLİ, ÇAXIRLI)

Göyçə mahalının Basarkeçər rayonununda, rayon mərkəzindən 6 km cənub-şərqdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1832-ci ildə kənddə 16 təsərrüfatda 117 nəfər (60 kişi, 57 qadın), 1873-cü ildə 32 təsərrüfatda 316 nəfər (166 kişi, 150 qadın), 1886-cı ildə 62 təsərrüfatda 419 nəfər (218 kişi, 201 qadın) azərbaycanlı əhali yaşamışdır.

1918-1920-ci illərdə kənd erməni daşnakları tərəfindən dağıdılmış, talan edilmişdir.

Eyni taleyi qoşabulaqlılar bir də 1988-ci ildə yaşamışlar. Bu vaxt kənddə 1800 nəfər azərbaycanlı yaşayırdı ki, onlar da sonuncu adamına qədər erməni vəhşiləri tərəfindən qəddarcasına qovulub çıxarılmışlar.

### Qoşabulaq azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 9 əd. |
| İribuynuzlu mal-qara – | 450 baş |
| Xırdabuynuzlu mal-qara – | 1200 baş |
| Əkin sahəsi – | 600 ha |
| Otaraq sahə – | 1400 ha |
| K/t maşınları – | 13 əd. |
| Avtomaşınlar – | 6 əd. |
| K/t texnikası – | 18 əd. |
| Məktəb – | 1 əd. |
| Dəyirman – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Enerji şəbəkəsi – | 4əd. |
| Anbar binası – | 5 əd. |

## ZƏRKƏND (QIZILXARABA, ZƏRZİBİL)

Göyçə mahalının Basarkeçər rayonununda, rayon mərkəzindən 15 km məsafədə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1832-ci ildə kənddə 43 təsərrüfatda 211 nəfər (124 kişi, 87 qadın), 1873-cü ildə 40 təsərrüfatda 462 nəfər (244 kişi, 218 qadın), 1886-cı ildə 94 təsərrüfatda 653 nəfər (349 kişi, 304 qadın) azərbaycanlı əhali yaşamışdır.

1918-1920-ci illərdə kənd erməni daşnakları tərəfindən tamamilə dağıdılmış, talan edilmiş, əhalisinin bir hissəsi vəhşicəsinə qətlə yetirilmiş, sağ qalanlar isə qovulub kənddən çıxarılmışlar.

Zərkəndlilər eyni taleyi 1988-ci ildə də yaşamışlar. Kəndin 2.000 nəfərdən artıq əhalisi erməni millətçiləri tərəfindən vəhşicəsinə və qəddarlıqla qovulub kənddən çıxarılmış, onlara məxsus bütün mal və əmlak əvəziödənilmədən mənimsənilmişdir.

### Zərkənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 15 əd. |
| İribuynuzlu mal-qara – | 590 baş |
| Xırdabuynuzlu mal-qara – | 8950 baş |
| Əkin sahəsi – | 590 ha |
| Otaraq sahə – | 3000 ha |
| K/t maşınları – | 18 əd. |
| Avtomaşınlar – | 18 əd. |
| K/t texnikası – | 22 əd. |
| Məktəb – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Məscid binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Enerji şəbəkəsi – | 5 əd. |
| Anbar binası – | 6 əd. |

## AĞKİLSƏ (AZAD)

Göyçə mahalının Basarkeçər rayonununda, rayon mərkəzindən 11-12 km şərqdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1832-ci ildə Göyçə mahalının **Ağkilsə kəndi** adı ilə mahalın xaraba kəndləri sırasında qeydə alınmışdır.

1873-cü ilin statistik məlumatlarında kənddə 30 təsərrüfatda 263 nəfər (139 kişi, 124 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir. Kənd ərazisində kilsə xarabalıqlarının mövcudluğu da həmin mənbədə öz əksini tapmışdır. Heç şübhəsiz kəndin adının Ağkilsə olması da, görünür, kənd ərazisindəki həmin kilsə ilə bağlıdır.

1886-cı ilin statistikasında isə kənddə 54 təsərrüfatda 321 nəfər (180 kişi, 141 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

1918-1919-cu illərdə kənd erməni təcavüzünün qurbanı olmuş, dağıdılmış, talanmış, əhalisi qanlı qırğınlarla qovulmuşdur.

1988-ci ildə kənddə 800 nəfərdən çox azərbaycanlı əhali yaşayırdı ki, onlar da erməni millətçiləri tərəfindən sonuncu adamına qədər qovulub kənddən çıxarıldı, mal-mülkləri isə ermənilər tərəfindən mənimsənildi.

### Ağkilsə azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 6 əd. |
| İribuynuzlu mal-qara – | 120 baş |
| Xırdabuynuzlu mal-qara – | 1200 baş |
| Əkin sahəsi – | 240 ha |
| Otaraq sahə – | 350 ha |
| K/t maşınları – | 7 əd. |
| Avtomaşınlar – | 6 əd. |
| K/t texnikası – | 8 əd. |
| Məktəb – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Enerji şəbəkəsi – | 2 əd. |
| Anbar binası – | 3 əd. |

## ZOD

Göyçə mahalının Basarkeçər rayonununda, rayon mərkəzindən 14 km məsafədə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1832-ci ildə kənddə 44 təsərrüfatda 245 nəfər (145 kişi, 100 qadın), 1873-cü ildə 119 təsərrüfatda 905 nəfər (489 kişi, 416 qadın), 1886-cı ildə 162 təsərrüfatda 1.088 nəfər (610 kişi, 478 qadın) azərbaycanlı əhali yaşamışdır.

1918-1920-ci illərdə kənd erməni cəlladı Silikovun dəstəsi tərəfində vəhşicəsinə dağıdılmış, mənbələrin şahidliyinə görə kənddən 200 nəfər əhali qəddarlıqla qətlə yetirilmişdir.

1988-ci ildə kənd yenidən erməni cəlladlarının təcavüzünə məruz qalmış, kəndin 5.000-dən artıq əhalisi qovulub kənddən çıxarılmışdır.

### Zod azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 18 əd. |
| İribuynuzlu mal-qara – | 1000 baş |
| Xırdabuynuzlu mal-qara – | 6000 baş |
| Əkin sahəsi – | 2000 ha |
| Otaraq sahə – | 12000 ha |
| K/t maşınları – | 23 əd. |
| Avtomaşınlar – | 15 əd. |
| K/t texnikası – | 30 əd. |
| Məktəb – | 2 əd. |
| Dəyirman – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Kənd soveti binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Enerji şəbəkəsi – | 7 əd. |
| Anbar binası – | 10 əd. |
| Və s. tikililər (poçt, k/soveti...) – | 5 əd. |

## BABACAN (QIZILKƏND)

Göyçə mahalının Basarkeçər rayonununda, Göyçə gölünün yaxınlığında, rayon mərkəzindən 24 km şimal-qərbdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1873-cü ildə kənddə 13 təsərrüfatda 107 nəfər (67 kişi, 40 qadın), 1886-cı ildə 23 təsərrüfatda 173 nəfər (92 kişi, 81 qadın) azərbaycanlı əhali yaşamışdır.

1950-1951-ci illər idi... Kəndin torpaqları məhsuldar olmadığından kəndin əhalisi kasıb yaşayırdı. Qaraiman kəndinin isə torpaqları məhsuldar olsa da, əhalisinin yarısı köçürülmüşdü. Kəndlərin əhalisinin tamam köçürülməsinin qarşısını almaq üçün Babacan kəndinin əhalisi Qaraiman kəndinə köçürülür və Yunis Rzayev bu təsərrüfata rəhbər göndərilir. O, kəndin köçürülməməsi üçün böyük işlər görür.

1988-ci ildə kəndin 800 nəfərdən artıq əhalisi vardı ki, onların da bütün mülk və əmlakı əllərindən alınaraq sonuncu adamına kimi qovulub kənddən çıxarıldılar.

### Babacan azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 7 əd. |
| İribuynuzlu mal-qara – | 400 baş |
| Xırdabuynuzlu mal-qara – | 1200 baş |
| Əkin sahəsi – | 250 ha |
| Otaraq sahə – | 500 ha |
| K/t maşınları – | 10 əd. |
| Avtomaşınlar – | 8 əd. |
| K/t texnikası – | 12 əd. |
| Məktəb – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Enerji şəbəkəsi – | 2 əd. |
| Anbar binası – | 3 əd. |

## PƏMBƏK (QUŞÇU DƏRƏSİ)

Göyçə mahalının Basarkeçər rayonununda, rayon mərkəzindən 35 km məsafədə, Göyçə gölü yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1873-cü ilin statistik məlumatlarında Göyçə gölü hövzəsi boyunda **Quşçu dərəsi kəndi** kimi qeydə alınmış, kənddə 18 təsərrüfatda 166 nəfər (96 kişi, 70 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

1886-cı ilin statistikasında da kənd **Quşçu dərəsi kəndi** kimi siyahıya alınmış, həmçinin kəndin ikinci adının **Pəmbəkli** olduğu və burada 47 təsərrüfatda 237 nəfər (120 kişi, 117 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

1922-ci ildə kənddə 390 nəfər, 1926-cı ildə 377 nəfər,1931-ci ildə 512 nəfər azərbaycanlı əhali yaşamışdır.

1988-ci ildə kənddə 2.000 nəfərdən çox azərbaycanlı əhali yaşayırdı ki, onlar da erməni millətçiləri tərəfindən sonuncu adamına qədər qovulub kənddən çıxarıldı, mal-mülkləri isə ermənilər tərəfindən mənimsənildi.

**Pəmbək azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mal-qara üçün bina – | 7 əd. |
| İribuynuzlu mal-qara – | 450 baş |
| Xırdabuynuzlu mal-qara – | 1400 baş |
| Əkin sahəsi – | 300 ha |
| Otaraq sahə – | 800 ha |
| K/t maşınları – | 15 əd. |
| Avtomaşınlar – | 10 əd. |
| K/t texnikası – | 15 əd. |
| Məktəb – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Kənd soveti binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Enerji şəbəkəsi – | 3 əd. |
| Anbar binası – | 5 əd. |

## DƏRƏ (BABACAN DƏRƏSİ)

Göyçə mahalının Basarkeçər rayonununda, rayon mərkəzindən 22 km şimal-şərqdə, Basarkeçər-Şorca avtomobil yolunun üstündə, dəniz səviyyəsindən 1942 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kənd Sovet dövründə xeyli inkişaf etmiş, burada səkkizillik məktəb və s. çoxlu mədəniyyət, məişət və ictimai obyektlər fəaliyyət göstərmişdir.

1988-ci ilin noyabr ayında erməni quldurları tərəfindən 1.000 nəfərə yaxın əhalisi olan kənd təcavüzə məruz qalmış, adamlar qovulub kənddən çıxarılmış, onların mülkləri, əmlakları, mal-heyvanları əvəziödənilmədən mənimsənilmişdir.

### Dərə azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 4 əd. |
| İribuynuzlu mal-qara – | 190 baş |
| Xırdabuynuzlu mal-qara – | 800 baş |
| Əkin sahəsi – | 150 ha |
| Otaraq sahə – | 400 ha |
| K/t maşınları – | 6 əd. |
| Avtomaşınlar – | 4 əd. |
| K/t texnikası – | 8 əd. |
| Məktəb – | 1 əd. |
| Dəyirman – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Anbar binası – | 4 əd. |

## ŞİŞQAYA

Göyçə mahalının Basarkeçər rayonununda, dağ dibində, Məzrə yastanasında, Göyçə gölünün 6 kilometrliyində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1832-ci ildə kənddə 51 təsərrüfatda 251 nəfər (141 kişi, 110 qadın), 1873-cü ildə 75 təsərrüfatda 592 nəfər (332 kişi, 260 qadın), 1886-cı ildə 136 təsərrüfatda 905 nəfər (482 kişi, 423 qadın) azərbaycanlı əhali yaşamışdır.

1918-ci il Novruz bayramı ərəfəsində ermənilər kəndə gəlib, camaatı aldadaraq iclas bəhanəsi ilə ev damlarına yığmış, od vurub yandırmışlar. Bir gün ərzində 640 nəfər şişqayalı qətlə yetirilmişdir.

1988-ci ildə kənd yenidən erməni vəhşiliyinin qurbanı olmuş, kəndin 4.000 nəfərdən çox əhalisi kənddən qovularaq bütün mal və mülkləri mənimsənilmişdir.

**Şişqaya azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mal-qara üçün bina – | 12 əd. |
| İribuynuzlu mal-qara – | 1200 baş |
| Xırdabuynuzlu mal-qara – | 4500 baş |
| Əkin sahəsi – | 1000 ha |
| Otaraq sahə – | 1800 ha |
| K/t maşınları – | 16 əd. |
| Avtomaşınlar – | 15 əd. |
| K/t texnikası – | 20 əd. |
| Məktəb – | 1 əd. |
| Dəyirman – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Kənd soveti binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Enerji şəbəkəsi – | 2 əd. |
| Anbar binası – | 4 əd. |

## KİÇİK MƏZRƏ (BALA MƏZRƏ)

Göyçə mahalının Basarkeçər rayonununda, oayon mərkəzindən 11 km məsafədə, Məzrə yastanasında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1832-ci ildə kənddə 39 təsərrüfatda 227 nəfər (130 kişi, 97 qadın), 1873-cü ildə 83 təsərrüfatda 675 nəfər (350 kişi, 325 qadın), 1886-cı ildə 134 təsərrüfatda 978 nəfər (508 kişi, 470 qadın), 1897-ci ildə 1.200 nəfər, 1908-ci ildə 1.658 nəfər, 1914-cü ildə 1.731 nəfər azərbaycanlı əhali yaşamışdır.

1919-cu il aprel ayının 13-20-də Andranikin quldur dəstələri kəndi talan etmiş, yandırmış və kəndin 2.000 nəfərdən çox əhalisini qovub kənddən çıxarmışdır.

Eyni taleyi kənd camaatı 1988-ci ildə də yaşamış, erməni daşnakları bu dəfə də kəndi işğal edərək onun 2.000 nəfər əhalisini elindən-obasından didərgin salmışlar.

### Kiçik Məzrə azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 13 əd. |
| İribuynuzlu mal-qara – | 750 baş |
| Xırdabuynuzlu mal-qara – | 3000 baş |
| Toyuq – | 20000 baş |
| Əkin sahəsi – | 1300 ha |
| Otaraq sahə – | 3000 ha |
| K/t maşınları – | 13 əd. |
| Avtomaşınlar – | 15 əd. |
| K/t texnikası – | 25 əd. |
| Məktəb – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Kənd soveti binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Enerji şəbəkəsi – | 5 əd. |
| Anbar binası – | 6 əd. |

## OĞRUCA (QARAİMAN, SOVETKƏND)

Göyçə mahalının Basarkeçər rayonununda, rayon mərkəzindən 13 km şimal-şərqdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1832-ci ildə kənddə 30 təsərrüfatda 207 nəfər (124 kişi, 83 qadın), 1873-cü ildə 41 təsərrüfatda 418 nəfər (219 kişi, 119 qadın), 1886-cı ildə isə 91 təsərrüfatda 569 nəfər (312 kişi, 257 qadın), 1908-ci ildə 1.033 nəfər, 1914-cü ildə 1.079 nəfər azərbaycanlı əhali yaşamışdır. Sonuncu mənbədə kəndin ikinci adının Qaraiman olduğu da göstərilmişdir.

1918-1920-ci illərdə erməni quldur dəstələri kəndi talan etmiş, yandırmış və kəndin bütün azərbaycanlı əhalisini qovub kənddən çıxarmışdır.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kənd camaatı yenidən soyqırımına məruz qalmış, erməni daşnakları bu dəfə də 2.000 nəfərlik kəndi işğal edərək onun əhalisini elindən-obasından didərgin salmışlar.

### Oğruca azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 15 əd. |
| İribuynuzlu mal-qara – | 800 baş |
| Xırdabuynuzlu mal-qara – | 2200 baş |
| Əkin sahəsi – | 800 ha |
| Otaraq sahə – | 1000 ha |
| K/t maşınları – | 14 əd. |
| Avtomaşınlar – | 12 əd. |
| K/t texnikası – | 20 əd. |
| Məktəb – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Anbar binası – | 2 əd. |

## KƏSƏMƏN (BAHAR)

Göyçə mahalının Basarkeçər rayonununda, rayon mərkəzindən 10 km şimalda, dağ dibində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1832-ci ildə kənddə 31 təsərrüfatda 166 nəfər (94 kişi, 72 qadın), 1873-cü ildə 39 təsərrüfatda 379 nəfər (184 kişi, 195 qadın), 1886-cı ildə 81 təsərrüfatda 492 nəfər (247 kişi, 245 qadın), 1897-ci ildə 671 nəfər, 1908-ci ildə 713 nəfər, 1914-cü ildə 744 nəfər, 1916-cı ildə 894 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-1920-ci illərdə erməni quldur dəstələri kəndi talan etmiş, əhalisini vəhşicəsinə qovmuşlar.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisinin çox az bir hissəsi geri qayıda bilmiş, 1922-ci ildə kənddə 249 nəfər, 1926-cı ildə 414 nəfər, 1939-cu ildə 758 nəfər əhali yaşamışdır.

1988-ci ildə kəndin 1.200 nəfər azərbaycanlı əhalisi erməni millətçiləri tərəfindən sonuncu adamına qədər qovulmuşdur.

### Kəsəmən azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 14 əd. |
| İribuynuzlu mal-qara – | 380 baş |
| Xırdabuynuzlu mal-qara – | 3200 baş |
| Əkin sahəsi – | 946 ha |
| Otaraq sahə – | 794 ha |
| K/t maşınları – | 11 əd. |
| Avtomaşınlar – | 8 əd. |
| K/t texnikası – | 15 əd. |
| Məktəb – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Arı ailəsi – | 40 yeşik |
| Enerji şəbəkəsi – | 4 əd. |
| Anbar binası – | 5 əd. |

## İNƏKDAĞI (YENİKƏND)

Göyçə mahalının Basarkeçər rayonununda, rayon mərkəzindən 16-18 km şimal-şərqdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1873-cü ildə kənddə 29 təsərrüfatda 317 nəfər (169 kişi, 148 qadın), 1886-cı ildə 62 təsərrüfatda 469 nəfər (248 kişi, 221 qadın), 1897-ci ildə 517 nəfər, 1908-ci ildə 507 nəfər, 1914-cü ildə 674 nəfər, 1916-cı ildə 423 nəfər azərbaycanlı əhali yaşamışdır.

1919-cu ildə erməni quldur dəstələri kəndi dağıtmış, talan etmiş, əhalisinin bir hissəsini amansızlıqla qətlə yetirmiş, sağ qalanları isə vəhşicəsinə qovmuşlar. Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisinin çox az bir hissəsi geri qayıtmış, 1922-ci ildə kənddə 297 nəfər, 1926-cı ildə 281 nəfər, 1931-ci ildə 383 nəfər əhali yaşamışdır.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin 1.800 nəfər azərbaycanlı əhalisi erməni millətçiləri tərəfindən sonuncu adamına qədər qovulmuş, mal və mülkləri ermənilər tərəfindən mənimsənilmişdir.

### İnəkdağ azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 12 əd. |
| İribuynuzlu mal-qara – | 700 baş |
| Xırdabuynuzlu mal-qara – | 25000 baş |
| Əkin sahəsi – | 500 ha |
| Otaraq sahə – | 800 ha |
| K/t maşınları – | 15 əd. |
| Avtomaşınlar – | 12 əd. |
| K/t texnikası – | 20 əd. |
| Məktəb – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Məscid binası – | 1 əd |
| Mədəniyyət evi – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Enerji şəbəkəsi – | 3 əd. |
| Anbar binası – | 5 əd. |

## QANLI (QAMIŞLI, QANLI ALLAHVERDİ)

Göyçə mahalının Basarkeçər rayonununda, rayon mərkəzindən 2,5 km cənub-şərqdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1832-ci ildə İrəvan əyalətinin Göyçə mahalının **Qanlı Allahverdi kəndi** kimi qeydə alınmış, kənddə 16 təsərrüfatda 99 nəfər (49 kişi, 50 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir. Kəndin tarixi və kənd adının etimologiyası ilə bağlı İ.Şopen yazmışdır: özlüyündə aydındır ki, kəndin əsası Allahverdi adlı, qan töküb qanlı olan, bu qana görə qisasdan qorxub bu yerə qaçıb gələn şəxs tərəfindən qoyulmuşdur.

1873-cü ilin statistik məlumatlarında **Qanlı Allahverdi kəndində** 24 təsərrüfatda 244 nəfər (115 kişi, 129 qadın), 1886-cı ilin statistikasında isə kənddə 46 təsərrüfatda 317 nəfər (170 kişi, 147 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

Kənddə və onun ətrafında qalıqları qalan qalalar e.ə. 1-ci minilliyə, alban kilsəsinin qalığı və Oğuz qəbiristanlığındakı xaçlar XI-XII yüzillərə aiddir.

1918-1920-ci illərdə erməni quldur dəstələri kəndi dağıtmış, talan etmiş, əhalisinin bir hissəsini amansızlıqla qətlə yetirmiş, sağ qalanları isə vəhşicəsinə qovmuşlar. Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisinin çox az bir hissəsi geri qayıtmış, 1922-ci ildə kənddə 165 nəfər, 1926-cı ildə 218 nəfər, 1931-ci ildə 287 nəfər əhali yaşamışdır.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin 800 nəfər azərbaycanlı əhalisi erməni millətçiləri tərəfindən sonuncu adamına qədər qovulmuş, mal və mülkləri ermənilər tərəfindən mənimsənilmişdir.

### Qanlı azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Məktəb – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| İdarə binası – | 1 əd |
| Enerji şəbəkəsi – | 3 əd. |

## KƏRKİBAŞ (ŞƏFƏQ, VANEVAN)

Göyçə mahalının Basarkeçər rayonununda, rayon mərkəzindən 5 km cənubda kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1873-cü ildə kənddə 19 təsərrüfatda 183 nəfər (92 kişi, 91 qadın), 1886-cı ildə 33 təsərrüfatda 255 nəfər (139 kişi, 116 qadın), 1897-ci ildə 301 nəfər, 1908-ci ildə 306 nəfər, 1914-cü ildə 377 nəfər, 1916-cı ildə 369 nəfər azərbaycanlı əhali yaşamışdır.

1919-cu ilin aprel ayında erməni quldur dəstələri kəndi dağıtmış, talan etmiş, əhalisinin bir hissəsini amansızlıqla qətlə yetirmiş, sağ qalanları isə vəhşicəsinə qovmuşlar. Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisinin çox az bir hissəsi geri qayıtmış, 1922-ci ildə kənddə 166 nəfər, 1926-cı ildə 174 nəfər, 1931-ci ildə 224 nəfər azərbaycanlı əhali yaşamışdır.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin 1.000 nəfər azərbaycanlı əhalisi erməni millətçiləri tərəfindən sonuncu adamına qədər qovulmuş, mal və mülkləri ermənilər tərəfindən mənimsənilmişdir.

### Kərkibaş azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 8 əd. |
| İribuynuzlu mal-qara – | 400 baş |
| Xırdabuynuzlu mal-qara – | 2000 baş |
| Əkin sahəsi – | 750 ha |
| Otaraq sahə – | 800 ha |
| K/t maşınları – | 11 əd. |
| Avtomaşınlar – | 8 əd. |
| K/t texnikası – | 15 əd. |
| Məktəb – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Enerji şəbəkəsi – | 4 əd. |
| Anbar binası – | 3 əd. |

## SUBATAN

Göyçə mahalının Basarkeçər rayonununda, rayon mərkəzindən 7 km cənubda Qızılbulaq çayı kənarında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1873-cü ilin statistik məlumatlarında kəndin Qızılbulaq kəndindən törəmə kənd olduğu və burada 21 təsərrüfatda 180 nəfər (101 kişi, 79 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

1886-cı ildə kənddə 43 təsərrüfatda 263 nəfər (135 kişi, 128 qadın), 1897-ci ildə 306 nəfər, 1908-ci ildə 368 nəfər, 1914-cü ildə 429 nəfər azərbaycanlı əhali yaşamışdır.

1919-cu ildə erməni quldur dəstələri kəndi dağıtmış, talan etmiş, əhalisi vəhşicəsinə qovmuşlar. Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisinin az bir hissəsi geri qayıtmış, 1922-ci ildə kənddə 208 nəfər, 1926-cı ildə 349 nəfər, 1931-ci ildə 259 nəfər əhali yaşamışdır.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin bütün azərbaycanlı əhalisi erməni millətçiləri tərəfindən sonuncu adamına qədər qovulmuş, mal və mülkləri ermənilər tərəfindən mənimsənilmişdir.

Subatan kəndində hündürlüyü 3-4 m olan qədim alban qəbir daşları bu yerlərin qədim sakinlərinin ermənilər olmadığını bir daha sübut edir.

### Subatan azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 6 əd. |
| İribuynuzlu mal-qara – | 800 baş |
| Əkin sahəsi – | 400 ha |
| Otaraq sahə – | 800 ha |
| K/t maşınları – | 10 əd. |
| Avtomaşınlar – | 12 əd. |
| K/t texnikası – | 15 əd. |
| Məktəb – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Enerji şəbəkəsi – | 4 əd. |
| Anbar binası – | 4 əd. |

## SULTANƏLİQIŞLAQ (CANƏHMƏD, GÜNƏŞLİ)

Göyçə mahalının Basarkeçər rayonununda, rayon mərkəzindən 14 km şimal-şərqdə, Ağyoxuş aşırımının ətəyində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1832-ci ildə **Sultan Əli kəndi** kimi mahalın xaraba kəndləri sırasında qeydə alınmışdır. 1873-cü ildə kənddə 38 təsərrüfatda 245 nəfər (138 kişi, 107 qadın), 1886-cı ildə isə 67 təsərrüfatda 348 nəfər (192 kişi, 156 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

1918-1920-ci illərdə erməni quldur dəstələri kəndi dağıtmış, talan etmiş, əhalisinin bir hissəsini amansızlıqla qətlə yetirmiş, sağ qalanları isə vəhşicəsinə qovmuşlar. Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisinin çox az bir hissəsi geri qayıtmış, 1922-ci ildə kənddə 194 nəfər, 1926-cı ildə 335 nəfər, 1931-ci ildə 383 nəfər əhali yaşamışdır.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin 1.500 nəfər azərbaycanlı əhalisi erməni millətçiləri tərəfindən sonuncu adamına qədər qovulmuş, mal və mülkləri ermənilər tərəfindən mənimsənilmişdir.

### Sultanəliqışlaq azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 20 əd. |
| İribuynuzlu mal-qara – | 750 baş |
| Xırdabuynuzlu mal-qara – | 3500 baş |
| Əkin sahəsi – | 1800 ha |
| Otaraq sahə – | 2000 ha |
| K/t maşınları – | 17 əd. |
| Avtomaşınlar – | 13 əd. |
| K/t texnikası – | 25 əd. |
| Məktəb – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Kənd soveti binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Arı ailəsi – | 50 yeşik |
| Enerji şəbəkəsi – | 4 əd. |
| Anbar binası – | 5 əd. |

## AĞYOXUŞ (ZOD SOVXOZU)

Göyçə mahalının Basarkeçər rayonununda, rayon mərkəzindən 13-14 km şimal-şərqdə, kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1832-ci ilin statistikasında Göyçə mahalının **Ağyoxuş** kəndi kimi qeydə alınmış, kənddə 36 təsərrüfatda 192 nəfər (114 kişi, 78 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

1970-ci ildə kənddə 341 nəfər azərbaycanlı yaşamışdır.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin 400 nəfər azərbaycanlı əhalisi erməni millətçiləri tərəfindən sonuncu adamına qədər qovulmuş, mal və mülkləri ermənilər tərəfindən mənimsənilmişdir.

### Ağyoxuş azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Məktəb – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Anbar binası – | 2 əd. |

## SƏTƏNƏXAÇ (GÜNEY, HACI QƏRİB)

Göyçə mahalının Basarkeçər rayonununda, rayon mərkəzindən 16-17 km şimal-qərbdə, Göyçə gölü kənarında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1832-ci ildə kənd Göyçə mahalının xaraba kəndləri sırasında qeydə alınmışdır.

1873-cü ilin statistik məlumatlarında kənddə 15 təsərrüfatda 132 nəfər (72 kişi, 60 qadın), 1886-cı ilin statistikasında isə 35 təsərrüfatda 214 nəfər (117 kişi, 97 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

1897-ci ildə 299 nəfər, 1908-ci ildə 343 nəfər, 1914-cü ildə 659 nəfər, 1916-cı ildə 430 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-1920-ci illərdə erməni quldur dəstələri kəndi dağıtmağa gəhd etmiş, lakin kənd əhalisi ermənilərə mətanətlə müqavimət göstərmişdir.

1922-ci ildə kənddə 300 nəfər, 1931-ci ildə 411 nəfər azərbaycanlı əhali yaşamışdır.

### Sətənəxaç azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 13 əd. |
| İribuynuzlu mal-qara – | 1000 baş |
| Xırdabuynuzlu mal-qara – | 3000 baş |
| Əkin sahəsi – | 700 ha |
| Otaraq sahə – | 1000 ha |
| K/t maşınları – | 12 əd. |
| Avtomaşınlar – | 10 əd. |
| K/t texnikası – | 12 əd. |
| Məktəb – | 1 əd. |
| Dəyirman – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Arı ailəsi – | 100 yeşik |
| Enerji şəbəkəsi – | 2 əd. |
| Anbar binası – | 5 əd. |

## YUXARI ZAĞALI (TATAR ZAĞALISI, QIZIL XARABA)

Göyçə mahalının Basarkeçər rayonununda, rayon mərkəzindən 16-17 km şimal-qərbdə, Alagöl çayı kənarında kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılar və ermənilər yanaşı yaşamışlar.

1832-ci il kənddə 17 təsərrüfatda 98 nəfər (56 kişi, 42 qadın), 1873-cü ildə 61 təsərrüfatda 515 nəfər (272 kişi, 243 qadın), 1886-cı ildə 112 təsərrüfatda 717 nəfər (371 kişi, 346 qadın), 1897-ci ildə 774 nəfər, 1908-ci ildə 917 nəfər, 1914-cü ildə 1.018 nəfər, 1916-cı ildə 922 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-1920-ci illərdə erməni quldur dəstələri kəndi dağıtmış, talan etmiş, əhalisinin bir hissəsini amansızlıqla qətlə yetirmiş, sağ qalanları isə vəhşicəsinə qovmuşlar. Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisinin çox az bir hissəsi geri qayıtmış, 1922-ci ildə kənddə 206 nəfər, 1926-cı ildə 397 nəfər azərbaycanlı əhali yaşamışdır.

1988-ci ildə kəndin 500 nəfərə yaxın azərbaycanlı əhalisi erməni millətçiləri tərəfindən öz doğma yurdlarından qovulmuşdur.

### Yuxarı Zağalı azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 5 əd. |
| İribuynuzlu mal-qara – | 350 baş |
| Xırdabuynuzlu mal-qara – | 2000 baş |
| Əkin sahəsi – | 300 ha |
| Otaraq sahə – | 1400 ha |
| K/t maşınları – | 7 əd. |
| Avtomaşınlar – | 8 əd. |
| K/t texnikası – | 15 əd. |
| Məktəb – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Xəstəxana – | 1 əd |
| Enerji şəbəkəsi – | 3 əd. |
| Anbar binası – | 4 əd. |

## ÇAXIRLI (QIZILBULAQ)

Göyçə mahalının Basarkeçər rayonununda, rayon mərkəzindən 4 km cənub-qərbdə, Qızılbulaqçay çayının kənarında kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılar və ermənilər yanaşı yaşamışlar.

1832-ci ildə kənddə 36 təsərrüfatda 212 nəfər (117 kişi, 95 qadın), 1873-cü ildə 83 təsərrüfatda 770 nəfər (445 kişi, 325 qadın), 1886-cı ildə 160 təsərrüfatda 1.020 nəfər (540 kişi, 480 qadın), 1897-ci ildə 1.204 nəfər, 1908-ci ildə 1.349 nəfər, 1914-cü ildə 1.653 nəfər azərbaycanlı əhali yaşamışdır.

1919-cu ildə erməni quldur dəstələri kəndi dağıtmış, talan etmiş, əhalisinin bir hissəsini amansızlıqla qətlə yetirmiş, sağ qalanları isə vəhşicəsinə qovmuşlar. Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisinin çox az bir hissəsi geri qayıtmış, 1922-ci ildə kənddə 679 nəfər, 1926-cı ildə 763 nəfər, 1931-ci ildə 975 nəfər azərbaycanlı yaşamışdır.

1988-ci ildə kəndin 1.500 nəfərə yaxın azərbaycanlı əhalisi erməni millətçiləri tərəfindən öz doğma yurdlarından qovulmuşdur.

### Çaxırlı azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 13 əd. |
| İribuynuzlu mal-qara – | 550 baş |
| Xırdabuynuzlu mal-qara – | 5000 baş |
| Əkin sahəsi – | 1000 ha |
| Otaraq sahə – | 2000 ha |
| K/t maşınları – | 13 əd. |
| Avtomaşınlar – | 11 əd. |
| K/t texnikası – | 18 əd. |
| Məktəb – | 2 əd. |
| Uşaq bağçası – | 2 əd. |
| İdarə binası – | 1 əd. |
| Kənd soveti binası – | 1 əd. |
| Mədəniyyət evi – | 2 əd. |
| Kitabxana – | 2 əd. |
| Enerji şəbəkəsi – | 4 əd. |
| Anbar binası – | 4 əd. |

## TÜSKÜLÜ

Göyçə mahalının Basarkeçər rayonununda, rayon əmərkəzindən 3 km məsafədə, çay kənarında kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

1873-cü ildə kənddə 25 təsərrüfatda 224 nəfər (115 kişi, 109 qadın), 1886-cı ildə 39 təsərrüfatda 326 nəfər (179 kişi, 147 qadın) əhalinin yaşadığı göstərilmişdir.

1918-1920-ci illərdə erməni quldur dəstələri kəndi dağıtmış, talan etmiş, əhalisinin bir hissəsini amansızlıqla qətlə yetirmiş, sağ qalanları isə vəhşicəsinə qovmuşlar.

1988-ci ildə kəndin burada hələ də yaşamaqda davam edən bütün azərbaycanlı əhalisi erməni millətçiləri tərəfindən öz doğma yurdlarından zorakılıqla qovulmuşdur.

### Tüskülü azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 12 əd. |
| İribuynuzlu mal-qara – | 800 baş |
| Xırdabuynuzlu mal-qara – | 3000 baş |
| Toyuq – | 20000 baş |
| Əkin sahəsi – | 500 ha |
| Otaraq sahə – | 1200 ha |
| K/t maşınları – | 12 əd. |
| Avtomaşınlar – | 11 əd. |
| K/t texnikası – | 14 əd. |
| Məktəb – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Enerji şəbəkəsi – | 3 əd. |
| Anbar binası – | 3 əd. |

## BÖYÜK MƏZRƏ (QULU AĞALI)

Göyçə mahalının Basarkeçər rayonununda, rayon əmərkəzindən 5 km məsafədə, Məzrə çayı kənarında kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılar və ermənilər yanaşı yaşamışlar.

1832-ci ildə kənddə 49 təsərrüfatda 293 nəfər (150 kişi, 143 qadın), 1873-cü ildə 122 təsərrüfatda 956 nəfər (499 kişi, 457 qadın), 1886-cı ildə 207 təsərrüfatda 1.379 nəfər (726 kişi, 653 qadın), 1914-cü ildə 1.970 nəfər, 1916-cı ildə 1.792 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-1920-ci illərdə erməni quldur dəstələri kəndi dağıtmış, talan etmiş, əhalisinin bir hissəsini amansızlıqla qətlə yetirmiş, sağ qalanları isə vəhşicəsinə qovmuşlar.

1988-ci ildə kəndin 2500 nəfər azərbaycanlı əhalisi erməni millətçiləri tərəfindən öz doğma yurdlarından zorakılıqla qovulmuşdur.

### Böyük Məzrə azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 15 əd. |
| İribuynuzlu mal-qara – | 2000 baş |
| Xırdabuynuzlu mal-qara – | 5000 baş |
| Əkin sahəsi – | 2500 ha |
| Otaraq sahə – | 2000 ha |
| K/t maşınları – | 28 əd. |
| Avtomaşınlar – | 22 əd. |
| K/t texnikası – | 25 əd. |
| Məktəb – | 2 əd. |
| Dəyirman – | 1 əd |
| Uşaq bağçası – | 2 əd. |
| İdarə binası – | 1 əd. |
| Kənd soveti binası – | 1 əd |
| Mədəniyyət evi – | 2 əd. |
| Kitabxana – | 2 əd. |
| Xəstəxana – | 1 əd. |
| Enerji şəbəkəsi – | 8 əd. |
| Anbar binası – | 8 əd. |

## QIZILVƏNG

Göyçə mahalının Basarkeçər rayonununda, rayon mərkəzindən 15 km cənub-şərqdə kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılar və ermənilər yanaşı yaşamışlar.

1832-ci iliq statistikasında Göyçə mahalının **Qızılkilsə kəndi** kimi mahalın xaraba kəndləri siyahısında qeydə alınmışdır.

1873-cü ilin statistik məlumatlarında **Qızılvəng kəndi** kimi qeydə alınmış, kənddə 42 təsərrüfatda 429 nəfər (234 kişi, 195 qadın) azərbaycanlı əhalinin yaşadığı, kəndin Alagölçay çayı kənarında yerləşdiyi göstərilmişdir.

1886-cı ilin statistikasında isə kənddə 74 təsərrüfatda 469 nəfər (259 kişi, 210 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

1897-ci ildə kənd əhalisinin sayı 563 nəfər, 1908-ci ildə 733 nəfər, 1916-cı ildə 807 nəfər olmuşdur.

1918-ci ilə qədər kənddə yalnız azərbaycanlılar yaşamışlar. Həmin tarixdən etibarən azərbaycanlılar zorla qovulub kənddən çıxarılmış, kəndə Türkiyədən gəlmiş ermənilər yerləşdirilmişlər.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisinin çox az bir hissəsi geri qayıtmış, 1922-ci ildə kənddə 168 nəfər, 1931-ci ildə 282 nəfər azərbaycanlı yaşamışdır.

1988-ci ildə kənddə hələ də yaşamaqda davam edən bütün azərbaycanlı əhalisi erməni millətçiləri tərəfindən öz doğma yurdlarından zorakılıqla qovulmuşdur.

## TORFAVAN QƏSƏBƏSİ

Göyçə mahalının Basarkeçər rayonununda qəsəbə.

Qəsəbədə Azərbaycan türkləri və ermənilər yanaşı yaşamışlar.

Qəsəbə, əsasən, fəhlə qəsəbəsi kimi formalaşmışdır.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı qəsəbənin bütün azərbaycanlı əhalisi erməni millətçiləri tərəfindən sonuncu adamına qədər qovulmuş, mal və mülkləri ermənilər tərəfindən əvəziödənilmədən mənimsənilmişdir.

# QARAKİLSƏ (SİSİYAN) RAYONU

Zəngəzur mahalı ərazisində rayon.

1930-cu il sentyabrın 9-da yaradılıb; 1940-cı il martın 2-nə qədər Qarakilsə rayonu, həmin tarixdən etibarən isə Sisiyanrayonu adlandırılıb.

Ərazisi 1719 kv.km-dir.

Rayon mərkəzi şəhər tipli Qarakilsə (Sisiyan) qəsəbəsidir.

Rayon mərkəzinə ən yaxın dəmiryol dayanacağı 98 km kənarda yerləşən Naxçıvan stansiyasıdır (Naxçıvan MR ərazisində).

Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 271 km-dir.

Vaxtı ilə bütünlükdə əhalisi azərbaycanlılardan ibarət olan Sisiyan rayonunda son vaxtlar cəmi 6 min nəfər azırbaycanlı qalmışdı. Rayonun 9 kəndi - Ərəfsə, Comardlı, Dəstəgird, Şıxlar (Qızıl Şəfəq), Murxus, Sofulu, Urud, Ağudi, Qızılcıq yalnız azərbaycanlılara məxsus idi. Şəki ilə Vağudi isə ermənilərlə qarışıq idi.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımız zamanı Sisiyanda ermənilər tərəfindən 5 azərbaycanlı qətlə yetirmlişidir.

### 1988-ci ilə qədər Qarakilsə rayonunda mövcud olan azərbaycanlı yaşayış məntəqələrinin siyahısı

**Xalis azərbaycanlı yaşayış məntəqələri**

1. Qızılcıq
2. Sofulu
3. Murxuz
4. Şıxlar (02.03.1940-cı ildən – Qızılşəfəq)
5. Ağüdü (19.04.1991-ci ildən – Aquti)
6. Urud (03.07.1968-ci ildən – Vorotan)
7. Ərəfsə (03.07.1968-ci ildən – Arevis)
8. Comərdli (19.04.1991-ci ildən – Tanahat)

**Qarışıq yaşayış məntəqələri**

9. Dəstəgird
10. Vağudi
11. Şəki

**Qarakilsə rayonu azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mal-qara üçün bina – | 86 əd. |
| İribuynuzlu mal-qara – | 6700 baş |
| Xırdabuynuzlu mal-qara – | 43200 baş |
| Toyuq – | 41910 baş |
| Donuz – | 1200 baş |
| Meyvə bağı – | 276 ha |
| K/t maşınları – | 151 əd. |
| Avtomaşınlar – | 199 əd. |
| Qaraj – | 11 əd. |
| Taxıl anbarı – | 14 əd. |
| Yanacaq anbarı – | 11 əd. |
| Kübrə anbarı – | 11 əd. |
| Dəmirçi sexi – | 9 əd. |
| Dülgərxana – | 12 əd. |
| Su nasos stansiyası – | 13 əd. |
| Enerji şəbəkəsi – | 20 əd. |
| Dəyirman – | 12 əd. |
| İdarə binası – | 18 əd. |
| Məktəb – | 11 əd. |
| Klub – | 11 əd. |
| Poçt – | 11 əd. |
| Pavilyon – | 8 əd. |
| Xəstəxana – | 6 əd. |
| Uşaq bağçası – | 9 əd. |
| Mağaza – | 19 əd. |
| Yeməkxana – | 7 əd. |
| Hamam – | 6 əd. |
| Yem kombinatı – | 1 əd. |

## QIZILCIQ

Zəngəzur mahalının Qarakilsə rayonununda, rayon mərkəzindən 7 km şimal-şərqdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1873-cü ildə kənddə 165 nəfər, 1886-cı ildə 41 təsərrüfatda 287 nəfər (162 kişi, 125 qadın), 1897-ci ildə 407 nəfər, 1914-cü ildə 441 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-1920-ci illərdə kənd Andranikin erməni quldur dəstələri tərəfindən dağıtmış, əhalisinin bir hissəsi amansızlıqla qətlə yetirilmiş, sağ qalanlar isə vəhşicəsinə qovulmuşlar.

1988-ci ildə kəndin 466 nəfər azərbaycanlı əhalisi erməni millətçiləri tərəfindən öz doğma yurdlarından zorakılıqla qovulmuşdur.

**Qızılcıq azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mal-qara üçün bina – | 8 əd. |
| İribuynuzlu mal-qara – | 700 baş |
| Xırdabuynuzlu mal-qara – | 5400 baş |
| Toyuq – | 2500 baş |
| Meyvə bağı – | 13 ha |
| K/t maşınları – | 10 əd. |
| Avtomaşınlar – | 14 əd. |
| Qaraj – | 1 əd. |
| Taxıl anbarı – | 1 əd. |
| Yanacaq anbarı – | 1 əd. |
| Kübrə anbarı – | 1 əd. |
| Dəmirçi sexi – | 1 əd. |
| Dülgərxana – | 1 əd. |
| Su nasos stansiyası – | 1 əd. |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Dəyirman – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Klub – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd |
| Mağaza – | 1 əd. |

## SOFULU

Zəngəzur mahalının Qarakilsə rayonunda, rayon mərkəzindən 18 km cənub-qərbdə, Dəstəgird kəndi ilə Murxuz kəndi arasında, Əyri çayın sol sahilində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Sofulu kəndinin yaşı VII-VIII yüzillərə gedib çıxır. Kəndin şimal-qərbində olan üstə-üstə üç qat qəbirlərin qalıqları buna sübutdur.

1920-ci il martın ortalarında, axırıncı çərşənbəyə bir həftə qalmış, sübh tezdən ermənilər Sofulu kəndinə basqın etmişlər. Əhali gecə ikən kəndi tərk etmiş, kənddə qalanları isə ermənilər öldürmüşlər. Qətlə yetirilmiş onlarla kənd sakininin ikisini doğrayıb quyuya tökmüşlər. Kəndi tərk edənlərin əksəriyyəti özlərini qarlı Qırxlar dağına vurub, Naxçıvana qaçmağa çalışmışdır. Qarlı, çovğunlu qış ayında yüzlərlə uşaq və qoca yollarda şaxtadan donaraq məhv olmuşdur.

Kəndin qaçqın əhalisinin bir qismi bölgədə Sovet hakimiyyəti qurulandan sonra geri qayıtmışdır. 1930-cu ildə yenidən qurulmuş Sofulu kəndi bir çox dağıdılmış kəndlərin əhalisi hesabına bərpa olunmuşdur.

Həmin vaxtlarda Sofulu kəndinin yaxınlığında olan Qıvraq, Əlişar, Püsək kəndləri də tamamilə dağıdılmışdı. Sonralar bu kəndlərin qaçqın əhalisinin bir qismi geri dönərək Sofulu kəndinə yaxın ərazilərdə məskunlaşmış və Sofulu kəndi adı altında birləşmişlər. O dövrdən 1988-ci ilə qədər bu ad altında mövcud olmuşlar. Kəndin yuxarısı Püsək, ortası Əlişar, aşağısı Qıvraq adlanırdı.

1918-ci ilə qədər Sofulu və Dəstəgird kəndləri arasında böyük Armudlu kəndi mövcud olmuş, 1918-ci ildə ermənilər tərəfindən dağıdılmışdır. Kənddən uçuq ev yerləri və qəbiristanlıqlar qalırdı. Sofulu kəndi ilə Murxuz kəndi arasında yerləşən Almalı kəndi də 1918-ci ildə ermənilər tərəfindən dağıdılmış və bir daha bərpa olunmamışdır. Sofulu kəndinin şimalında isə Bəybalı azərbaycanlı kəndi də var idi ki, o kənd də 1918-ci ilin mart-aprel aylarında Andronikin daşnak dəstələri tərəfindən dağıdılmış, kəndin əhalisi məhv edilmişdir. Bəybalı kəndinin nişanələri olan uçulmuş ev yerləri və qəbiristanlıq son dövrlərə qədər qalırdı.

1988-ci ildə Sofulu kəndi əhalisinin sayı son vaxtlarda kəskin şəkildə azalmağa başlamışdı. 1959-cu il siyahıya alınmasında kənddə 1.916 nəfər qeydə alınmışdısa, 1988-ci ildə əhalinin sayı 1.124 nəfərə enmişdi.

Kəndin içində çox qədim tarixə malik məscid olmuşdu. Məscidin nəzdində mollaxana fəaliyyət göstərirmiş. Sovet hakimiyyətinin 30-cu illərində bu məscid dağılmışdı. Püsək məhləsində hörmətlə yanaşılan pir

daşları həmin məscidin yadigar qala nişanələri idi. Kəndin ətrafında bir çox yerlərdə üstü yazılı çox şəkilli daşlar mövcuddur. Sovet dövründə ermənilər rayondan dövlət xətti ilə gəlib bu qədim daşları yük maşınları ilə daşıyırdılar. Kəndin şimal-qərbində, 4 km aralıda əzəmətli "Daş qala" adlı tanınmış müdafiə qalası vardı. Şeyx Əfəndinin (Nigari) yaxın dostu olmuş Molla Qəyibin (Qeyib) qəbri və piri də Sofulu qəbiristanlığındadır.

1988-ci ilin sonlarında Sofulu kəndinin camaatı da öz dədə-baba yurdlarını məcburi şəkildə tərk etdilər. Kənd camaatının çoxunun mal-heyvanı, ev əşyaları əlindən alındı. 98 ev dəyişilməmiş qaldı.

**Sofulu azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mal-qara üçün bina – | 10 əd. |
| İribuynuzlu mal-qara – | 600 baş |
| Xırdabuynuzlu mal-qara – | 4800 baş |
| Toyuq – | 1800 baş |
| Meyvə bağı – | 23 ha |
| K/t maşınları – | 12 əd. |
| Avtomaşınlar – | 24 əd. |
| Qaraj – | 1 əd. |
| Taxıl anbarı – | 2 əd. |
| Yanacaq anbarı – | 1 əd. |
| Kübrə anbarı – | 1 əd. |
| Dəmirçi sexi – | 1 əd. |
| Dülgərxana – | 1 əd. |
| Su nasos stansiyası – | 1 əd. |
| Enerji şəbəkəsi – | 2 əd. |
| Dəyirman – | 1 əd. |
| İdarə binası – | 2 əd. |
| Məktəb – | 1 əd. |
| Klub – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Pavilyon – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Mağaza – | 2 əd. |
| Yeməkxana – | 1 əd. |

## MURXUZ

Zəngəzur mahalının Qarakilsə rayonununda, rayon mərkəzindən 31 km cənubda kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ilin statistik məlumatlarında kənddə 22 təsərrüfatda 138 nəfər (84 kişi, 54 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

Murxuz Qarakilsə bölgəsinin ən ucqar kəndidir. 1988-ci ilə qədər 60 evlik bu kənddə 300 nəfər azərbaycanlı yaşayırdı.

Murxuz kəndi hər tərəfdən pirlərlə (Təkcə Pir, Nalbənd piri, Qırxlar piri, Daşqala piri) əhatə olunub. Bu pirlərdən Qırxlar xüsusilə müqəddəs hesab edilirdi.

Kəndin qərbində yerləşən qəbiristanlıq əski qəbiristanlıqdı. Buradakı qoç heykəlləri qəbiristanlığın əski tarixindən xəbər verir.

### Murğuz azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 2 əd. |
| İribuynuzlu mal-qara – | 200 baş |
| Xırdabuynuzlu mal-qara – | 800 baş |
| Toyuq – | 860 baş |
| Meyvə bağı – | 18 ha |
| K/t maşınları – | 3 əd. |
| Avtomaşınlar – | 8 əd. |
| Yanacaq anbarı – | 1 əd. |
| Kübrə anbarı – | 1 əd. |
| Dülgərxana – | 1 əd. |
| Su nasos stansiyası – | 1 əd. |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Dəyirman – | 1 əd. |
| İdarə binası – | 2 əd. |
| Məktəb – | 1 əd. |
| Klub – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Mağaza – | 1 əd. |

## ŞIXLAR (QIZILŞƏFƏQ)

Zəngəzur mahalının Qarakilsə rayonununda, rayon mərkəzindən 13 km cənub-qərbdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ilin statistik məlumatlarında kənddə 46 təsərrüfatda 306 nəfər (185 kişi, 121 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

Kəndin yaxınlığında qədim Alban kilsəsinin və 1918-ci ildə dağıdılmış müsəlman məscidinin qalıqları, eləcə də qədim qəbir daşları bu yerlərdə əhalinin ən azı 500 il öncə məskunlaşdığını göstərən əlamətlərdəndir.

1918-ci ilin martında Şıxlar kəndi Andranikin quldur dəstəsi tərəfindən dağıdılmış, əhalisinin bir hissəsi qılıncdan keçirilmiş, digər hissəsi isə Kala dağından aşaraq Culfa rayonuna pənah aparmışdır. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra Şıxlar camaatı da yenidən öz doğma kəndlərinə qayıtmışlar. 1931-ci ilin siyahıya alınmasında Şıxlar kəndində 411 nəfər əhali yaşadığı bildirilir.

1988-ci ilin noyabrında erməni millətçiləri bir həftə ərzində kəndin əhalisinin bütün mülkiyyətini, ev-eşiyini əlindən alıb, dağlarla Naxçıvana MR-a, Laçın, Kəlbəcər rayonlarına qovmuşlar. Kənd kolxozunun bütün mülkiyyəti ermənilərə qalmışdır.

1991-ci ildə ermənilər Qızıl Şəfəq kəndinin adını dəyişdirərək Torunik etmişlər.

### Şıxlar azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 8 əd. |
| İribuynuzlu mal-qara – | 750 baş |
| Xırdabuynuzlu mal-qara – | 3000 baş |
| Toyuq – | 1950 baş |
| Meyvə bağı – | 15 ha |
| K/t maşınları – | 10 əd. |
| Avtomaşınlar – | 20 əd. |
| Qaraj – | 1 əd. |
| Taxıl anbarı – | 1 əd. |
| Yanacaq anbarı – | 1 əd. |

| | |
|---|---|
| Kübrə anbarı – | 1 əd. |
| Dəmirçi sexi – | 1 əd. |
| Dülgərxana – | 1 əd. |
| Su nasos stansiyası – | 1 əd. |
| Enerji şəbəkəsi – | 2 əd. |
| Dəyirman – | 1 əd. |
| İdarə binası – | 2 əd. |
| Məktəb – | 1 əd. |
| Klub – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Mağaza – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Hamam – | 1 əd. |

## AĞÜDÜ

Zəngəzur mahalının Qarakilsə rayonununda, İşıqlı dağının ətəklərindən 10-12 km aşağıda, Bazarçay çayından 2 km yuxarıda dağ döşündə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə kənddə 125 təsərrüfatda 903 nəfər (500 kişi, 403 qadın) azərbaycanlı yaşamışdır.

1918-ci ildə Andranikin quldur dəstələri bir səhər tezdən qəfildən kəndə hücum edib, qaça bilməyən əhalinin hamısını qətlə yetirmiş, körpə uşaqları nizəyə keçirmiş, başlarını kəsib analarının sinələrinə qoymuşlar.

1922-ci ildə kəndin sağ qalmış qaçqın əhalisinin bir qismi doğma yurda qayıdıb, dağıdılmış, yandırılmış evlərini bərpa edərək, yaxud yenidən tikərək təzədən məskunlaşmış, kəndi abadlaşdırmışlar.

Artıq 1988-ci ildə kənddə 300 evdə 1.834 nəfər əhali yaşayırdı.

1988-ci ilin payızında Ağudi kəndinin bütün azərbaycanlı əhalisi doğma yurddan qovulub çıxarılmış və kənd ermənilər tərəfindən işğal edilmişdir.

Ağüdü kəndinin qarşısında Anabat adlı ərazi vardı. Uz kəndinin erməniləri Anabatı müqəddəs ocaq hesab edirdilər.

Ağüdü kəndindəki VI yüzilə aid ikiqülləli qəbirüstü abidə 1960-cı illərdə bərpa edilərkən adamların gözü qarşısında abidə sökülərək təzə yazılmış daşlarla təmir edilmişdir. Ümumiyyətlə, qəbir daşlarındakı müxtəlif naxışlar, qoç fiqurları və s. də kəndin qədimliyinə dəlalət edirdi.

### Ağüdü azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 10 əd. |
| İribuynuzlu mal-qara – | 600 baş |
| Xırdabuynuzlu mal-qara – | 5700 baş |
| Toyuq – | 14000 baş |
| Meyvə bağı – | 20 ha |
| K/t maşınları – | 20 əd. |
| Avtomaşınlar – | 16 əd. |
| Qaraj – | 1 əd. |

| | |
|---|---|
| Taxıl anbarı – | 1 əd. |
| Yanacaq anbarı – | 1 əd. |
| Kübrə anbarı – | 1 əd. |
| Dəmirçi sexi – | 1 əd. |
| Dülgərxana – | 1 əd. |
| Su nasos stansiyası – | 1 əd. |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Dəyirman – | 1 əd. |
| İdarə binası – | 2 əd. |
| Məktəb – | 1 əd. |
| Klub – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Pavilyon – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Mağaza – | 2 əd. |
| Hamam – | 1 əd. |

## URUD

Zəngəzur mahalının Qarakilsə rayonununda, rayon mərkəzindən 8 km cənub-şərqdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ilin statistik məlumatlarında kənddə 37 təsərrüfatda 211 nəfər (138 kişi, 73 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

Urud kəndinin qənşərində, Qalanın qarşısında, Bədir qayasının yanında, Bazar çayın sol sahilində tarixi 500 ildən yuxarı sayılan Urud qəbiristanlığı yerləşir. 1926-cı ildə Urud kəndində olmuş etnoqraf alim Ə.Ələkbərov Urud qəbiristanlığı haqqında ilk elmi məlumat dərc etdirmişdir. 1959-cu ildə Urudda olan akademik Ziya Bünyadov Urud qəbiristanlığındakı qəbir daşlarının dini-milli mənsubiyyəti və tarixi əhəmiyyəti barədə dəyərli fikir söyləmişdir.

Urud abidələrinə sözün əsl mənasında ikinci həyat verən, onları dünya etnoqrafiya elminin dəyərli nümunələri səfiyyəsində səciyyələndirən tarixçi-etnoqraf alim, professor Məşədixanım Nemətova olmuşdur. M.Nemətova 1961-ci ildə Urud kəndində uzun müddətli ezamiyyətdə olmuş, XV-XVII yüzillərə məxsus 100-ə qədər qəbir daşını tədqiq etmişdir.

Kəndin qəbiristanlığında olan köhnə qəbir daşlarında (hicri tarixi ilə 89-cu ildə) kəndin adı Rud yazılmışdır. Suvat dərəsinin yuxarı başında (şimalında) qayanın uca bir yerində mağara qayrılıb. Kəndin cənubunda köhnə kənd yeri vardır. Bu kənd yerinin cənub tərəfindən başqa, qalan yerləri sıldırım və cəbəllikdir. Buraya "Qala" deyirlər. Ona görə "Qala" deyirlər ki, onun 3 tərəfi təbii olaraq qayalar və dağlar ilə bağlıdır, bir tərəfi isə hasar olmuşdur. Ondan əlavə, bu yerin şərq tərəfi çox uca və sıldırım qayadır. Qaya kəndin səthindən çox ucadır. Həmin qaya əsl qaladır. Bunun bir tərəfindən açıq olan yerinə çox uca, çıxmaq mümkün olmayan daş divar çəkilibdir. Bu divar əhənglə çox möhkəm hörülərək, yalnız bir yerdən (çox çətin olan) yolu vardır. Həmin yol ilə çıxarmışlar ki, (indi də çıxmaq olur) kəndə daxil olsunlar. Bu qayanın başında 50-dən artıq kalafa - ev yerləri, hörgülər vardır. Ümumiyyətlə, bu köhnə kənd yeri (Qala) üç hissədən ibarətdir: Böyük kənd, Qazı damı, Qalanın başı.

Bu kəndin 14 yerində qədim qəbir yerləri vardır: 1) Çadır daşda, 2) Baydar kahasının şərq tərəfində, Gavur damının yanında, 3) Murad qəbri, 4) Taxtalarda, 5) Cidaxurda, 6) Gəncəli adasında, 7) Çay qırağında (Məşədi Əhməd yerində), 8) Qəzbağında, 9) Gilas dibində, 10) Xəşdərədə, 11) Qalaçanın dalında, 12) Pürüldə (kənd yerində və

təpələrdə), 13) Bədir qayasının dibində, 14) Kənd qəbiristanında.

Qəzibağında olan qəbir daşlarında xaç şəkli (nişanı) vardır. Qalan yerlərdəki qəbir daşlarında heç bir yazı və ya nişan yoxdur. Xəşdər (ola bilsin ki, "xaçlar") qəbiristanlığı bütöv daşlarla tikilmiş qəbirlərdir - yəni hər bir qəbrin boyu bərabərində bütün bir daş qoyulub, daş böyükdür və ağırlığına görə bitili daşa bənzəyir. Həmin daşın şərqə tərəfi dəlinib, oraya 2 metrə qədər ucalığında və nəhəng bir baş daşı bərkidilib.

**Urud azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mal-qara üçün bina – | 8 əd. |
| İribuynuzlu mal-qara – | 760 baş |
| Xırdabuynuzlu mal-qara – | 3500 baş |
| Toyuq – | 1300 baş |
| Meyvə bağı – | 40 ha |
| K/t maşınları – | 13 əd. |
| Avtomaşınlar – | 28 əd. |
| Qaraj – | 1 əd. |
| Taxıl anbarı – | 2 əd. |
| Yanacaq anbarı – | 1 əd. |
| Kübrə anbarı – | 1 əd. |
| Dəmirçi sexi – | 1 əd. |
| Dülgərxana – | 1 əd. |
| Su nasos stansiyası – | 2 əd. |
| Enerji şəbəkəsi – | 3 əd. |
| Dəyirman – | 1 əd. |
| İdarə binası – | 2 əd. |
| Məktəb – | 1 əd. |
| Klub – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Pavilyon – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Mağaza – | 2 əd. |
| Yeməkxana – | 1 əd. |
| Hamam – | 1 əd. |

# ƏRƏFSƏ (SƏFƏRALI, ŞƏHƏRCİK)

Zəngəzur mahalının Qarakilsə rayonununda, rayon mərkəzindən 26 km məsafədə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ilin statistik məlumatlarında kənddə 32 təsərrüfatda 148 nəfər (89 kişi, 59 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

1988-ci ildə kəndin bütün azərbaycanlı əhalisi doğma yurddan qovulub çıxarılmış və kənd ermənilər tərəfindən işğal edilmişdir.

**Ərəfsə azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mal-qara üçün bina – | 10 əd. |
| İribuynuzlu mal-qara – | 700 baş |
| Xırdabuynuzlu mal-qara – | 3500 baş |
| Toyuq – | 1700 baş |
| Meyvə bağı – | 8 ha |
| K/t maşınları – | 15 əd. |
| Avtomaşınlar – | 16 əd. |
| Qaraj – | 1 əd. |
| Taxıl anbarı – | 1 əd. |
| Yanacaq anbarı – | 1 əd. |
| Kübrə anbarı – | 1 əd. |
| Dəmirçi sexi – | 1 əd. |
| Dülgərxana – | 1 əd. |
| Su nasos stansiyası – | 1 əd. |
| Enerji şəbəkəsi – | 2 əd. |
| Dəyirman – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Klub – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Mağaza – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Hamam – | 1 əd. |

## COMARTLI (COMƏRDLİ)

Zəngəzur mahalının Qarakilsə rayonununda rayon mərkəzindən 14 km cənub-qərbdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə kənddə 43 təsərrüfatda 244 nəfər (152 kişi, 92 qadın), 1897-ci ildə 333 nəfər, 1914-cü ildə 405 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-ci ildə Andranikin ordusu Zəngəzuru qan çanağına döndərəndə daşnak generalı yüz nəfərlik bir birləşməni Comərdli kəndinin üstünə göndərir. Onlar saymazyana, heç nədən ehtiyat etmədən kəndin üzərinə hücum edirlər. Əlmərdan kişinin oğlu Əyyub sərrast atəşlə sərkərdəni vurandan sonra, onlar güllənin səsindən silahın Osmanlı çapı olduğunu yəqinləşdirib elə bilirlər ki, qala türk ordusu tərəfindən mühafizə olunur. Daşnaklar itki verərək qaçırlar. Ermənilərin yeni qüvvə ilə kəndə hücum edəcəyindən ehtiyyat edən kənd camaatı qərara alır ki, arvad-uşağı kənddən çıxarsınlar. Məsləhətləşirlər ki, qaçanlar Naxçıvanla Zəngəzur arasındakı Gəvik dağının Sisiyan yurdunda cəmləşsinlər, orada ölən, itən, yaralananlar haqda tam məlumat alıb, sonra dağı aşsınlar. Yolda camaat gizlənmiş Andranikin silahlı dəstəsi ilə üz-üzə gəlir və çoxlu itki verir. Quduzlaşmış erməni dəstələri Comərdli kəndini od vurub yandırırlar.

Bölgədə Sovet hakimiyyəti qurulandan sonra 1922-ci ildə kəndin sağ qalan qaçqın əhalisinin çox az bir hissəsi – cəmi 87 nəfər kəndə geri dönüb, dağıdılmış kəndlərini bərpa edirlər. Onların sayı 1931-ci ildə 149 nəfərə çatır. Adamların bir hissəsinin geri dönməməsinin səbəbi Zəngəzurun Ermənistanın tərkibinə qatılması və ermənilərə camaatda inamın olmaması idi.

1979-cu ildə Comərdli kəndində 860 nəfər azərbaycanlı əhali qeydə alınmışdır.

1988-ci ildə kəndin bütün azərbaycanlı əhalisinin mal-mülkü əllərindən alınaraq doğma yurdlarından qovulub çıxarılmışlar.

### Comardlı azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 2 əd. |
| İribuynuzlu mal-qara – | 300 baş |

| | |
|---|---|
| Xırdabuynuzlu mal-qara – | 800 baş |
| Toyuq – | 1200 baş |
| Meyvə bağı – | 6 ha |
| K/t maşınları – | 5 əd. |
| Avtomaşınlar – | 8 əd. |
| Qaraj – | 1 əd. |
| Taxıl anbarı – | 1 əd. |
| Yanacaq anbarı – | 1 əd. |
| Kübrə anbarı – | 1 əd. |
| Dülgərxana – | 1 əd. |
| Su nasos stansiyası – | 1 əd. |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Dəyirman – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Klub – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd |
| Mağaza – | 1 əd. |

## DƏSTƏGİRD (DƏSTƏKERT)

Zəngəzur mahalının Qarakilsə rayonunda, dəniz səviyyəsindən 2.000 m yüksəklikdə kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

1922-ci ildə kənddə 358 nəfər, 1926-ci ildə 338 nəfər, 1931-ci ildə 484 nəfər azərbaycanlı əhali yaşamışdır.

### Dəstəgird azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| İribuynuzlu mal-qara – | 280 baş |
| Xırdabuynuzlu mal-qara – | 900 baş |
| Toyuq – | 1200 baş |
| Meyvə bağı – | 3 ha |
| K/t maşınları – | 6 əd. |
| Avtomaşınlar – | 13 əd. |
| Qaraj – | 1 əd. |
| Yanacaq anbarı – | 1 əd. |
| Kübrə anbarı – | 1 əd. |
| Dəmirçi sexi – | 2 əd. |
| Dülgərxana – | 2 əd. |
| Su nasos stansiyası – | 2 əd. |
| Enerji şəbəkəsi – | 3 əd. |
| Dəyirman – | 1 əd. |
| İdarə binası – | 2 əd. |
| Məktəb – | 1 əd. |
| Klub – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Pavilyon – | 2 əd. |
| Xəstəxana – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Mağaza – | 3 əd. |
| Yeməkxana – | 2 əd. |
| Hamam – | 1 əd. |

## VAĞÜDÜ

Zəngəzur mahalının Qarakilsə rayonununda kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

1886-cı ildə Yelizavetpol quberniyasının Zəngəzur qəzasının 1-ci Qarakilsə nahiyəsinin **Birinci, İkinci və Üçüncü Vağudi kəndləri** kimi qeydə alınmış, kəndlərdə 137 təsərrüfatda 926 nəfər (571 kişi, 355 qadın) azərbaycanlının yaşadığı göstərilmişdir.

**Vağüdü azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mal-qara üçün bina – | 15 əd. |
| İribuynuzlu mal-qara – | 950 baş |
| Xırdabuynuzlu mal-qara – | 7500 baş |
| Donuz – | 500 baş |
| Toyuq – | 3000 baş |
| Meyvə bağı – | 70 ha |
| K/t maşınları – | 35 əd. |
| Avtomaşınlar – | 20 əd. |
| Qaraj – | 2 əd. |
| Taxıl anbarı – | 2 əd. |
| Yanacaq anbarı – | 1 əd. |
| Kübrə anbarı – | 1 əd. |
| Dəmirçi sexi – | 1 əd. |
| Dülgərxana – | 1 əd. |
| Su nasos stansiyası – | 1 əd. |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Dəyirman – | 2 əd. |
| İdarə binası – | 2 əd. |
| Məktəb – | 1 əd. |
| Klub – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Pavilyon – | 1 əd. |
| Xəstəxana – | 2 əd. |
| Mağaza – | 3 əd. |
| Hamam – | 1 əd. |

## ŞƏKİ

Zəngəzur mahalının Qarakilsə rayonununda, Qarakilsə (indiki Sisiyan) rayon mərkəzindən 5 km şimalda kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

1886-cı ilin statistik məlumatlarında kənddə 92 təsərrüfatda 657 nəfər (356 kişi, 301 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

Tarixi salnaməçilərin və bəzi erməni alimlərinin dediyinə görə Şəki kəndinin adı mənbələrdə V yüzildən etibarən çəkilməyə başlamışdır.

Şəki kəndi ilə yanaşı Şəki qalası da tarixin silinmz abidəsidir. Əslində Qafqaz Albaniyasına aid edilən bu qalanın hazırda xarabalığı indiki Sisiyan rayonunun Şəki kəndi yaxınlığında, Bazarçayın sol sahilindədir. Eyni adlı vilayətin mərkəzi olan Şəki qalası Biçənək aşırımında Arana gedən yolun üzərində mühüm müdafiə-nəzarət məntəqəsi rolu oynamışdır. Qala IX yüzilin 2-ci yarısında alban knyazı Səhl ibn Sumbatın əsas iqamətgahı olmuşdur. 837-ci ildə Babək həmin Səhl ibn Sumbatın xəyanəti nəticəsində Şəki qalasında ələ keçirilib ərəblərə təslim edilmişdir.

Tarixən Şəkidə azər türkləri yaşayıb. Ermənilər bu kəndə 1829-cu ildən sonra gəlməyə başlamışlar. İrandan qovulmuş 25 ailə o vaxt Şəkidə yerləşdirilmişdi. 1987-ci ildə kənddə 380 ailə yaşayırdı: 225 ailə azərbaycanlı, 155 ailə erməni (2000 nəfər azərbaycanlı, 700 nəfər erməni).

Şəkidə əvvəllər iki qəbirstanlıq var idi. Biri kahanın döşündə şiələrin, ikincisi Qumluq deyilən yerdə sünnülərin. 1922-ci ildən sonra isə gəlmə ermənilər Pirin döşündə məzarlıq salmışdılar. Sonralar kənddə sünnü-şiə məsələsi aradan göütürülmüş və hamı ölüsünü eyni qəbiristanlıqda dəfn etməyə başlamışdılar.

Bəzi tarixi qəbirlərin daşlarını 1987-ci ildə ermənilər dağıdıb sökərkən kəndin rəhbərlərindən olan Mirməhəmməd Seyidov onlardan bir neçəsini yazıya almış, qəbirlərin tarixini miladi tarixə çevirmişdir. Məs.:

1. Almurad ibn Hacıməmmədhüseyn - 1275-ci il.
2. Hacı Məmməd Hüseyn ibn Səməndər - 1224-ci il.
3. Almurad Camal ibn Məhəmməd - 1224-cü il.
4. İman ibn Sərxan - 1229-cu il.
5. Əli Mədət ibn Qasım Bəhmən - 1299-cu il.
6. Adıgözəl Əbülfəz ibn Həsən - 1277-ci il.

Göründüyü kimi, bu rəqəmlər 700-800 il bundan öncə Şəkidə azərbaycanlıların yaşadığını bir daha təsdiq edir.

**Şəki azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mal-qara üçün bina – | 13 əd. |
| İribuynuzlu mal-qara – | 860 baş |
| Xırdabuynuzlu mal-qara – | 6300 baş |
| Donuz – | 700 baş |
| Toyuq – | 25000 baş |
| Meyvə bağı – | 16 ha |
| K/t maşınları – | 22 əd. |
| Avtomaşınlar – | 32 əd. |
| Qaraj – | 1 əd. |
| Taxıl anbarı – | 2 əd. |
| Yanacaq anbarı – | 1 əd. |
| Kübrə anbarı – | 1 əd. |
| Dəmirçi sexi – | 1 əd. |
| Dülgərxana – | 1 əd. |
| Su nasos stansiyası – | 1 əd. |
| Enerji şəbəkəsi – | 3 əd. |
| Dəyirman – | 1 əd. |
| İdarə binası – | 2 əd. |
| Məktəb – | 1 əd. |
| Klub – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Pavilyon – | 2 əd. |
| Xəstəxana – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Mağaza – | 2 əd. |
| Yeməkxana – | 1 əd. |
| Hamam – | 1 əd. |
| Yem kombinatı – | 1 əd. |

## MEĞRİ RAYONU ÜZRƏ

Zəngəzur mahalı ərazisində ərayon. 1930-cu il sentyabrın 9-da yaradılıb. Ərazisi 664 kv.km-dir.

Rayon mərəkəzi şəhər tipli Meğri qəsəbəsdir.

Rayon mərkəzinə ən yaxın dəmiryol dayanacağı 5 km kənarda yerləşən Meğri stansiyasıdır.

Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 264 km-dir.

### 1988-ci ilə qədər Meğri rayonunda mövcud olan azərbaycanlı yaşayış məntəqələrinin siyahısı

**Xalis azərbaycanlı yaşayış məntəqələri**

1. Nüvədi
2. Aldərə
3. Lök (Vartanizor)

**Qarışıq yaşayış məntəqələri**

4. Maralzəmi
5. Lehvaz
6. Mehri
7. Astazur (22.04.1935-ci ildən – Şivanidzor)

### Meğri rayonu üzrə azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 21 əd |
| İribuynuzlu mal-qara – | 2300 baş |
| Keçi – | 5870 baş |
| Qoyun – | 19900 baş |
| Toyuq – | 3700 baş |
| Üzüm bağı – | 890 ha |
| Meyvə bağı – | 1550 ha |
| K/t maşınları – | 65 əd |
| Avtomaşınlar – | 77 əd |
| Qaraj – | 7 əd |

| | |
|---|---|
| Taxıl anbarı – | 8 əd |
| Yanacaq anbarı – | 6 əd |
| Kübrə anbarı – | 8 əd |
| Dəmirçi sexi – | 5 əd |
| Dülgərxana – | 6 əd |
| Artezian quyusu – | 1 əd |
| Su nasos stansiyası – | 10 əd |
| Enerji şəbəkəsi – | 7 əd |
| Dəyirman – | 1 əd |
| İdarə binası – | 5 əd |
| Məktəb – | 6 əd |
| Mədəniyyət evi – | 5 əd |
| Poçt şöbəsi – | 5 əd |
| Pavilyon – | 5 əd |
| Xəstəxana – | 5 əd |
| Uşaq bağçası – | 5 əd |
| Mağaza – | 9 əd |
| Hamam – | 5 əd |

# NÜVƏDİ

Zəngəzur mahalının Meğri rayonununda, rayon mərkəzindən 28 km şimal-şərqdə, Azərbaycan SSR-in Zəngilan rayonunun sərhədində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ilin statistik məlumatlarında kənddə 233 təsərrüfatda 1.083 nəfər (579 kişi, 504 qadın) əhalinin yaşadığı, onların isə 159 nəfərinin (94 kişi, 65 qadın) bəy ailəsindən olduqları göstərilmişdir.

Nüvədidə 1831-ci ildə 291 nəfər, 1873-cü ildə 705 nəfər, 1886-cı ildə 1.083 nəfər, 1897-ci ildə 952 nəfər, 1914-cü ildə 1.072 nəfər, 1922-də 662 nəfər, 1931-də 596 nəfər, 1959-da 763 nəfər, 1967-də 1.263 nəfər, 1974-də 1.300 nəfər, 1979-cu ildə 1.700 nəfər əhali yaşamışdır. 1988-ci ildə kənddə 300 təsərrüfatda 2.000 nəfərə yaxın əhali yaşayırdı.

Ermənilərin Nüvədiyə etdiyi ilk faciəli basqın 1918-ci ildə olmuşdur. Nüvədi kəndinin əhalisi ermənilərə mərdliklə müqavimət göstərmiş, döyüşlərdə özləri də xeyli itki vermişlər.

1929-cu il fevralın 18-də Nüvədi kəndi Azərbaycanın Zəngilan rayonundan qoparılaraq qeyri-qanuni şəkildə Ermənistan SSR-nin Meğri rayonuna verilmişdir. Azərbaycan KP MK bürosu isə 26 noyabr 1968-ci il tarixli iclasında məsələyə yenidən baxmış, Azərbaycan SSR Ali Soveti 1969-cu il 7 may tarixli fərmanı ilə bu yanlış sənədi təsdiq etmişdir.

1988-ci il Nüvədi əhalisi üçün 3 illik mübarizənin başlanğıcı oldu. Üç il müddətində indiki Ermənistan ərizisində yeganə türk kəndi kimi qalan Nüvədi bütün Ermənistanla vuruşmalı olmdu. Bu müddətdə nüvədililər dəfələrlə erməni hücumlarını dəf etməli oldular.

1991-ci il avqustun 7-dən 8-nə keçən gecə kənddəki ordu hissəsi kəndi tərk edərək öz yerlərini erməni quldurlarına təhvil verdilər. 3 tərəfdən silahlı ermənilərin əhatəsində olan əliyalın camaat avqustun 8-də kəndi tərk etmək məcburiyyətində qaldı.

**Nüvədi kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mal-qara üçün bina – | 10 əd |
| İribuynuzlu mal-qara – | 1000 baş |
| Keçi – | 4000 baş |

| | |
|---|---|
| Qoyun – | 15000 baş |
| Toyuq – | 2000 baş |
| Üzüm bağı – | 500 ha |
| Meyvə bağı – | 2000 ha |
| K/t maşınları – | 32 əd |
| Avtomaşınlar – | 24 əd |
| Qaraj – | 2 əd |
| Taxıl anbarı – | 4 əd |
| Yanacaq anbarı – | 2 əd |
| Kübrə anbarı – | 4 əd |
| Dəmirçi sexi – | 1 əd |
| Dülgərxana – | 2 əd |
| Artezian quyusu – | 1 əd |
| Su nasos stansiyası – | 5 əd |
| Enerji şəbəkəsi – | 3 əd |
| Dəyirman – | 1 əd |
| İdarə binası – | 1 əd |
| Məktəb – | 2 əd |
| Mədəniyyət evi – | 1 əd |
| Poçt şöbəsi – | 1 əd |
| Pavilyon – | 1 əd |
| Xəstəxana – | 1 əd |
| Uşaq bağçası – | 1 əd |
| Mağaza – | 3 əd |
| Hamam – | 1 əd |

## ALDƏRƏ

Zəngəzur mahalının Meğri rayonununda, rayon mərkəzindən 12 km cənub-şərqdə, Araz çayının sol sahilində, İrəvan-Bakı dəmir yolunun sol sahilində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ilin statistik məlumatlarında Yelizavetpol quberniyasının Zəngəzur qəzasının Qatar nahiyəsinin **Əlidərə (rusca: "Alidara") kəndi** kimi qeydə alınmış, kənddə 243 təsərrüfatda 1.077 nəfər (561 kişi, 516 qadın) azərbaycanlı əhalinin yaşadığı, onların isə 111 nəfərinin (57 kişi, 54 qadın) bəy ailəsindən olduqları göstərilmişdir.

Rayonun qədim kəndlərindən olan Aldərədə 1831-ci ildə 131 nəfər, 1873-cü ildə 911, 1886-cı ildə 1.077 nəfər, 1897-ci ildə 1.094 nəfər, 1914-cü ildə 1.987 nəfər əhali yaşamışdır. Rayonun iri kəndlərindən biri olan bu kənd də cəllad Andranikin qəzəbinə düçar oldu. Zəngəzur qəzası rəisinin Gəncə qubernatoruna 15 dekabr 1918-ci il tarixli 745 nömrəli raportunda Aldərə kəndinin dağıdılması belə təsvir edilir: "Qonşu kəndin erməniləri müsəlman kəndləri olan Aldərə, Mərzəğat və Tuğut kəndlərini dağıtmış və yandırmışlar". Beləliklə, 2.000 nəfərə yaxın əhalisi olan kənd dağıdılıb yandırıldı və əhalisinin salamat qalan hissəsi qonşu vilayətlərə, qəzalara qovuldu.

Bir neçə kənd sahibsiz qalaraq xarabalığa çevrildikdən sonra 1926-cı ildə kəndin əhalisinin təqribən 1/5-i, yəni 414 nəfəri öz doğma kəndinə qayıtmış, 1931-ci ildə kəndə qayıdanların sayı 490 nəfərə çatmışdır. 1930-cu illərdə kənd bərpa olunmuş, yeni bir və iki mərtəbəli yaşayış binaları tikilmiş, ciddi milli ayrı-seçkiliyə baxmayaraq, kolxoz təşkil edilmiş, orta məktəb açılmış, klub, kitabxana, tibb məntəqəsi, doğum evi və uşaq bağçası təşkil olunmuşdur. Qaçqınlıqdan sonra kəndin əhalisinin artım dinamikası belə olmuşdur. 1959-cu ildə 601 nəfər, 1970-ci ildə 831 nəfər, 1979-cu ildə 784 nəfər, 1988-ci ildə Aldərə kəndində 160 təsərrüfatda 560 nəfər azərbaycanlı yaşamışdır.

70 il ərzində əldə edilmiş nailiyyətlər, kənd əhalisinin isti ocağı, hökumət səviyyəsində erməni millətindən olan rayon, partiya, sovet və inzibati orqanlarının bilavasitə rəhbərliyi ilə söndürüldü. Onların bütün mülkiyyəti əlindən alınmış və onlar bir həftə ərzində 1988-ci il noyabr ayının 28-dək qovulmuşlar. Kolxozun milyon manatlarla hesablanan bütün mülkiyyəti, maşın-traktor parkları, bağları, hazır məhsulu və s. ermənilərə qalmışdır. Kəndin əhalisi Azərbaycanın müxtəlif rayonlarına səpələnmişdir. Qədim tarixə malik olan kənddə 14-16 yüzilliklərə aid çoxlu tarixi abidələrin, Alban kilsələrinin, qala və məscidlərin qalıqları vardı.

**Aldərə kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mal-qara üçün bina – | 4 əd |
| İribuynuzlu mal-qara – | 500 baş |
| Keçi – | 1000 baş |
| Qoyun – | 2000 baş |
| Toyuq – | 1000 baş |
| Üzüm bağı – | 200 ha |
| Meyvə bağı – | 300 ha |
| K/t maşınları – | 15 əd |
| Avtomaşınlar – | 10 əd |
| Qaraj – | 1 əd |
| Taxıl anbarı – | 1 əd |
| Yanacaq anbarı – | 1 əd |
| Kübrə anbarı – | 1 əd |
| Dəmirçi sexi – | 1 əd |
| Dülgərxana – | 1 əd |
| Su nasos stansiyası – | 2 əd |
| Enerji şəbəkəsi – | 1 əd |
| İdarə binası – | 1 əd |
| Məktəb – | 1 əd |
| Mədəniyyət evi – | 1 əd |
| Poçt şöbəsi – | 1 əd |
| Pavilyon – | 1 əd |
| Xəstəxana – | 1 əd |
| Uşaq bağçası – | 1 əd |
| Mağaza – | 2 əd |
| Hamam – | 1 əd |

# LÖK (VARTANİZOR)

Zəngəzur mahalının Meğri rayonununda, rayon mərkəzindən 9 km şimal-şərqdə, Mığrı çayının orta axınının sol sahilində, dəniz səviyyəsində 1.814 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ilin statistik məlumatlarında Yelizavetpol quberniyasının Zəngəzur qəzasının Qatar nahiyəsində **Vartanazur** adı ilə iki kənd qeydə alınmışdır: **Vartanazur kəndi** və **İkinci Vartanazur kəndi**. Vartanazur kəndində 83 təsərrüfatda 480 nəfər (278 kişi, 202 qadın), İkinci Vartanazurda isə 35 təsərrüfatda 174 nəfər (93 kişi, 81 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

Kənddə 1831-ci ildə 136 nəfər, 1873-cü ildə 316 nəfər, 1886-cı ildə 480 nəfər, 1897-ci ildə 506 nəfər, 1914-cü ildə 1.053 nəfər azərbaycanlı əhali olmuşdur.

1918-ci ildə Adranikin dəstəsi Sisyan və Qafan rayonlarının azərbaycanlı kəndlərini dağıdıb yandırdıqdan sonra Zəngəzurun digər rayonlarına, o cümlədən Mığrı rayonunun azərbaycanlı kəndlərinə hücum edirlər. I Vartanizorda 100 tüstü, II Vartanizorda 60 tüstü dağıtmış və 200 nəfər əhali qırmışlar.

Lök (Vartanizor) kəndi bir neçə il sahibsiz qalmış, xarabalığa çevrilmişdir. Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra tədricən rayonun azərbaycanlı kəndlərinin əhalisi öz doğma yurdlarına qayıtmağa başlamışlar. Vartanizor kəndinin 1.053 nəfər əhalisindən 1922-ci ildə cəmi 177 nəfəri qayıtmışdır. 1926-cı ildə onların sayı 187 nəfərə, 1931-ci ildə 243 nəfərə çatmışdır. Kəndə qaytımış didərginlər əvvəlcə dağıdılmış yaşayış binalarını bərpa etməyə, təsərrüfatı dirçəltməyə başlamışlar. Kəndlilər bağçılığı, meyvəçiliyi, taxılçılığı, tərəvəzçiliyi inkişaf etdirərək, qısa müddətdə özləri üçün güzəran yaratdılar. 1930-cu illərdə kolxoz qurdular, üzüm və başqa meyvələrin tədarükü məntəqəsini yaratdılar. Özləri üçün yeni yaşayış binaları tikdilər. Ümumi milli ayrı-seçkiliyə baxmayaraq, kənd camaatının öz qüvvəsi ilə kənddə məktəb, klub, kitabxana, kino qurğusu, məişət xidməti emalatxanası təşkil edilmiş, tibb məntəqəsi açılmışdır. 1988-ci ilin noyabrında rayonun partiya, sovet və inzibati orqanlarının zorakılıqla həyata keçirdikləri cəza tədbirləri ilə kəndin 1.000 nəfərdən çox əhalisini, uşaqlara, qadınlara, qocalara məhəl qoymadan bir həftə ərzində qaçmağa məcbur etmişlər. Kənddə kolxozun bütün mülkiyyəti, kolxozçuların evləri, bağları və ev əşyaları əllərindən alınmışdır.

**Lök kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mal-qara üçün bina – | 3 əd |
| İribuynuzlu mal-qara – | 450 baş |
| Keçi – | 250 baş |
| Qoyun – | 800 baş |
| Toyuq – | 500 baş |
| Üzüm bağı – | 50 ha |
| Meyvə bağı – | 80 ha |
| K/t maşınları – | 5 əd |
| Avtomaşınlar – | 10 əd |
| Qaraj – | 1 əd |
| Taxıl anbarı – | 1 əd |
| Yanacaq anbarı – | 1 əd |
| Kübrə anbarı – | 1 əd |
| Dəmirçi sexi – | 1 əd |
| Dülgərxana – | 1 əd |
| Su nasos stansiyası – | 1 əd |
| Enerji şəbəkəsi – | 1 əd |
| İdarə binası – | 1 əd |
| Məktəb – | 1 əd |
| Mədəniyyət evi – | 1 əd |
| Poçt şöbəsi – | 1 əd |
| Pavilyon – | 1 əd |
| Xəstəxana – | 1 əd |
| Uşaq bağçası – | 1 əd |
| Mağaza – | 1 əd |
| Hamam – | 1 əd |

## MARALZƏMİ

Zəngəzur mahalının Meğri rayonununda, rayon mərkəzindən 12 km şimal-qərbdə, Mığrı çayının sol sahilində kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

1831-ci ildə yarandığı iddia edilir. Əslində isə kəndin ərazisində olan qədim tarixi abidələr bu kəndin qədim tarixindən xəbər verir.

Kənddə 1831-ci ildə 118 nəfər, 1873-cü ildə 123 nəfər, 1886-cı ildə 174 nəfər, 1897-ci ildə 193 nəfər, 1904-cü ildə 951 nəfər əhalisi olmuşdur. XX yüzilliyin əvvəllərində birinci dəfə 1905-ci ildə, ikinci dəfə isə 1918-ci ildə erməni daşnak hökumətinin milli qırğına gətirib çatdıran siyasəti bu qısa müddətdə Maralzəmi kəndinin iki dəfə dağılmasına, min nəfərə yaxın əhalisinin bir hissəsinin qırılmasına, digər hissəsinin isə İranın və Azərbaycanın müxtəlif vilayətlərinə qaçmasına gətirib çatdırmışdı. Zəngəzur qəzası rəisinin 1918-ci il 26 noyabr tarixli raportunda Maralzəminin dağıdılması belə təsvir edilir: "Mığrı dərəsinin erməni dəstələri... Vartanizor I (100 tüstü) və Vartanizor II (Maralzəmi) (60 tüstü) müsəlman kəndlərini dağıtmış və 200 nəfər əhalini qırmışlar..." Maralzəmi kəndi də bir neçə il sahibsiz qalmış, xarabalığa çevrilmişdir. Yalnız Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra 1922-ci ildə qaçqınların 66 nəfəri (8 faiz) öz doğma yurduna qayıtmışdır.

1988-ci ildə Maralzəminin 33 təsərrüfatda 180 nəfərdən çox əhalisi - uşaq, qadın, qoca bir həftə ərzində üçüncü dəfə və demək olar ki, axırıncı dəfə öz doğma torpağından qovuldu.

### Maralzəmi kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 2 əd |
| İribuynuzlu mal-qara – | 150 baş |
| Keçi – | 120 baş |
| Qoyun – | 600 baş |
| Toyuq – | 200 baş |
| Üzüm bağı – | 40 ha |
| Meyvə bağı – | 70 ha |

| | |
|---|---|
| K/t maşınları – | 3 əd |
| Avtomaşınlar – | 8 əd |
| Qaraj – | 1 əd |
| Taxıl anbarı – | 1 əd |
| Yanacaq anbarı – | 1 əd |
| Kübrə anbarı – | 1 əd |
| Dəmirçi sexi – | 1 əd |
| Dülgərxana – | 1 əd |
| Su nasos stansiyası – | 1 əd |
| Enerji şəbəkəsi – | 1 əd |
| İdarə binası – | 1 əd |
| Məktəb – | 1 əd |
| Mədəniyyət evi – | 1 əd |
| Poçt şöbəsi – | 1 əd |
| Pavilyon – | 1 əd |
| Xəstəxana – | 1 əd |
| Uşaq bağçası – | 1 əd |
| Mağaza – | 1 əd |
| Hamam – | 1 əd |

## LEHVAZ

Zəngəzur mahalının Meğri rayonununda, rayon mərkəzindən 6 km şimal-qərbdə, Mığrı çayının sol sahilində kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

1886-cı ilin statistik məlumatlarında kənddə 70 təsərrüfatda 375 nəfər (202 kişi, 173 qadın) azərbaycanlı əhalinin yaşadığı, üstəlik həmin əhalinin 83 nəfərinin (49 kişi, 34 qadın) bəy ailəsinin üzvləri olduğu göstərilmişdir.

Kənddə 1831-ci ildə 15 nəfər, 1873-cü ildə 172 nəfər, 1886-cı ildə 375 nəfər, 1914-cü ildə 836 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə bütün Zəngəzurun azərbaycanlı kəndlərini ucdantutma dağıtdıqları kimi, ermənilər Lehvaz kəndinin də əhalisini qırmış, kəndi dağıtmış və yandırmışlar. Zəngəzur qəza rəisinin 26 noyabr 1918-ci il tarixli raportunda deyildiyi kimi, Mığrı dərəsinin erməniləri müsəlman kəndi Lehvazı dağıtmış və bir neçə kənddə olan 200 nəfər azərbaycınlını öldürmüşlər. Qırğından əvvəl kənddə olan 836 nəfər azərbaycanlıdan 1922-ci ildə cəmi 136 nəfəri öz doğma kəndinə qayıtmışdı. 1931-ci ildə isə kəndin bir hissəsinə yiyələnmiş ermənilər bu kənddə məskunlaşmağa başlamışlar. Həmin ildə kənddə 171 nəfər azərbaycanlı, 161 nəfər erməni yaşamışdır.

1988-ci ildə tarix yenə təkrar olundu. Lehvaz kəndinin 135 təsərrüfatda 1.002 nəfər azərbaycanlı əhalisi (ermənilər 118 nəfər olmuşdur) indi üçüncü dəfə, demək olar ki, birdəfəlik öz doğma yurdundan qovuldu. Rayon təşkilatlarının rəhbərliyi ilə erməni millətçiləri azərbaycanlıların bütün mülkiyyətini, ev əşyalarını əllərindən alıb uşaqlı, qadınlı, qocalı min nəfər azərbaycanlını kənddən qovmuşlar.

### Lehvaz kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 2 əd |
| İribuynuzlu mal-qara – | 200 baş |
| Keçi – | 500 baş |
| Qoyun – | 1500 baş |
| Üzüm bağı – | 100 ha |

| | |
|---|---|
| Meyvə bağı – | 100 ha |
| K/t maşınları – | 10 əd |
| Avtomaşınlar – | 25 əd |
| Qaraj – | 2 əd |
| Taxıl anbarı – | 1 əd |
| Yanacaq anbarı – | 1 əd |
| Kübrə anbarı – | 1 əd |
| Dəmirçi sexi – | 1 əd |
| Dülgərxana – | 1 əd |
| Su nasos stansiyası – | 1 əd |
| Enerji şəbəkəsi – | 1 əd |
| İdarə binası – | 1 əd |
| Məktəb – | 1 əd |
| Mədəniyyət evi – | 1 əd |
| Poçt şöbəsi – | 1 əd |
| Pavilyon – | 1 əd |
| Xəstəxana – | 1 əd |
| Uşaq bağçası – | 1 əd |
| Mağaza – | 2 əd |
| Hamam – | 1 əd |

## MEĞRİ

Zəngəzur mahalının Meğri rayonununda, Araz çayının qolu olan mığrı çayının sahilində kənd, 1958-ci ildən şəhərtipli qəsəbə.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

1886-cı ilin statistik məlumatlarında Yelizavetpol quberniyasının Zəngəzur qəzasının Qatar nahiyəsinin **Mığrı kəndi** kimi qeydə alınmış, kənddə 167 təsərrüfatda 947 nəfər (518 kişi, 429 qadın) erməni əhalinin yaşadığı göstərilmişdir.

Məlum mənbələrdə **Meğri** sözü ilk dəfə 1576-cı ildə qeydə alınmışdır. Sözün əslini tarixçilər Mığrı şəklində bərpa etmişlər.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı Maralzəminin bütün azərbaycanlı əhalisi - uşaq, qadın, qoca bir həftə ərzində öz doğma torpağından qovuldu.

## ASTAZUR

Zəngəzur mahalının Meğri rayonununda, rayon mərkəzindən 15 km məsafədə kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

1886-cı ilin statistik məlumatlarında Yelizavetpol quberniyasının Zəngəzur qəzasının Qatar nahiyəsinin **Astaz kəndi** kimi qeydə alınmış, kənddə 99 təsərrüfatda 795 nəfər (423 kişi, 372 qadın) erməni əhalinin yaşadığı göstərilmişdir.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı Astazur kəndinin bütün azərbaycanlı əhalisi qanlı qırğınlarla öz doğma yurdlarından qovulmuşlar.

# GORUS RAYONU

Zəngəzur mahalı ərazisində rayon. 1930-cu il sentyabrın 9-da yaradılıb. Ərazisi 752 kv.km-dir.

Rayon mərkəzi respublika tabeli Gorus (Qoris) şəhəridir.

Rayon mərkəzinə ən yaxın dəmiryol dayanacağı 70 km kənarda yerləşən Qafan stansiyasıdır (Qafan rayonu ərazisində).

Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 250 km-dir.

Tarixən Azərbaycanın Gəncə quberniyasının Zəngəzur qəzasına daxil olmuşdur.

1988-ci ilin hesabatına əsasən Gorus rayonunda cəmi beş azərbaycanlı yaşayış məntəqəsi olmuşdur: Şurnuxu, Ağbulaq, Şamsız, Qurdqalaq kəndləri bütövlükdə azərbaycanlı, Şahvedilər (Vorftan) qarışıq yaşayış məntəqələri idi.

Azərbaycanlıların sayı rayonda 110 nəfər olub. Kolxozlarda, şəxsi təsərrüfatlarda 1200 baş qaramal, 1000 baş qoyun olmuşdur. 32 avtomobil, 14 müxtəlif markalı traktorlar və bir çox kənd təsərrüfatı texnikası ermənilərə qalmışdır.

Gorus rayonundan 1988-ci ildə 6 nəfər azərbaycanlı öldürülmüşdür.

### 1988-ci ilə qədər Gorus rayonunda mövcud olan azərbaycanlı yaşayış məntəqələrinin siyahısı

**Xalis azərbaycanlı yaşayış məntəqələri**

1. Şurnuxu
2. Ağbulaq
3. Qurdqalaq
4. Şamsız

**Qarışıq yaşayış məntəqələri**

5. Şahverdilər

### Gorus rayonu azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 3 əd. |
| Klub – | 2 əd. |

| | |
|---|---|
| İdarə binası – | 4 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Həkim məntəqəsi – | 5 əd. |
| İribuynuzlu mal-qara – | 930 baş |
| Xırdabuynuzlu mal-qara – | 1620 baş |
| Mal-qara üçün tövlələr – | 7 əd. |
| Transformator – | 7 əd. |
| Anbar binası – | 4 əd. |
| Traktor – | 4 əd. |
| K/t texnikası – | 3 əd. |
| Məktəb – | 5 əd. |
| Su nasosu – | 4 əd. |
| Quşlar – | 33000 baş |
| Arı ailəsi – | 290 yeşik |
| Bağlar – | 31 ha |

## ŞURNUXU

Zəngəzur mahalının Gorus rayonununda, rayon mərkəzindən 30 km məsafədə, Gorus-Qafan avtomobil yolunun sağında, Şurnuxu çayının sol sahilində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1897-ci ildə kənddə 184 nəfər qeydə alınmışdır.

Kənd 1918-1920-ci illərdə Andranikin ermnəi quldur dəstələri tərəfindən dağıdılmış, bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisi geri qayıdıb kəndi bərpa etmişlər.

1979-cu ildə Şurnuxu kəndində 120 təsərrüfatda 560 nəfər azərbaycanlı yaşamışdır.

1988-ci ildə erməni millətçiləri Şurnuxu kənd azərbaycanlılarını sonuncu adamına qədər qovub kənddən çıxartdılar.

1989-cu ildə Şurnuxu kəndinə tarixdə ilk ermənilər – 80 ailə köçürüldülər.

### Şurnuxu kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| İribuynuzlu mal-qara – | 400 baş |
| Xırdabuynuzlu mal-qara – | 700 baş |
| Mal-qara üçün tövlələr – | 2 əd. |
| Transformator – | 3 əd. |
| Anbar binası – | 1 əd. |
| Traktor – | 1 əd. |
| K/t texnikası – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Su nasosu – | 1 əd. |
| Quşlar – | 6000 baş |
| Arı ailəsi – | 150 yeşik |
| Bağlar – | 12 ha |

## AĞBULAQ

Zəngəzur mahalının Gorus rayonununda, rayon mərkəzindən 15 km qərbdə, Gorus-Qafan avtomobil yolunun solunda kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1918-ci ildə kənd Andranikin quldur dəstələri tərəfindən dağıdılmış, yandırılmış, əhalisinin bir hissəsi qətlə yetirilmiş, sağ qalanlar Qubadlı rayonu ərazisinə qovulmuşdur.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisi geri qayıdıb kəndi bərpa etmişlər.

Kənddə 1926-cı ildə 66 nəfər, 1939-cu ildə 146 nəfər, 1959-cu ildə 187 nəfər, 1970-ci ildə 365 nəfər azərbaycanlı əhali yaşamışdır.

1988-ci ildə erməni millətçiləri Ağbulaq kənd azərbaycanlılarını sonuncu adamına qədər qovub kənddən çıxartdılar.

Kəndin yaxınlığında XVII yüzilin yadigarı olan Qələndər qalasının xarabalıqları qalırdı.

**Ağbulaq kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| İribuynuzlu mal-qara – | 300 baş |
| Xırdabuynuzlu mal-qara – | 500 baş |
| Mal-qara üçün tövlələr – | 3 əd. |
| Transformator – | 2 əd. |
| Anbar binası – | 1 əd. |
| Traktor – | 1 əd. |
| K/t texnikası – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Su nasosu – | 1 əd. |
| Quşlar – | 8000 baş |
| Arı ailəsi – | 50 yeşik |
| Bağlar – | 8 ha |

# QURDQALAQ

Zəngəzur mahalının Gorus rayonununda, rayon mərkəzindən 26 km cənub-şərqdə, Gorus-Qafan avtomobil yolunun sağında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1897-ci ildə kənddə 35 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-ci ildə kənd Andranikin quldur dəstələri tərəfindən dağıdılmış, bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisi geri qayıdıb kəndi təzədən bərpa etmişlər.

Kənddə 1926-cı ildə 37 nəfər, 1931-ci ildə 49 nəfər, 1979-cu ildə 36 təsərrüfatda 248 nəfər azərbaycanlı əhali yaşamışdır.

1988-ci ildə erməni millətçiləri Gorus rayonunun başqa kəndləri kimi, Qurdqalaq kəndinin azərbaycanlılarını da sonuncu adamına qədər qovub kənddən çıxartmış, onların evini, mal-mülkünü əllərindən almışlar.

**Qurdqalaq kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| İribuynuzlu mal-qara – | 150 baş |
| Xırdabuynuzlu mal-qara – | 250 baş |
| Mal-qara üçün tövlələr – | 2 əd. |
| Transformator – | 2 əd. |
| Anbar binası – | 1 əd. |
| Traktor – | 1 əd. |
| K/t texnikası – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Su nasosu – | 1 əd. |
| Quşlar – | 5000 baş |
| Arı ailəsi – | 20 yeşik |
| Bağlar – | 3 ha |

## ŞAMSIZ

Zəngəzur mahalının Gorus rayonununda kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1897-ci ildə kənddə 124 nəfər, 1926-cı ildə 54 nəfər, 1931-ci ildə 123 nəfər azərbaycanlı əhali yaşamışdır.

Sonralar kənd rəsmi sənədlərdə ləğv edilib, Şurnuxu kəndi ilə birləşdirilsə də kəndin əhalisi öz doğma kəndlərində yaşamaqda davam ediblər.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı erməni millətçiləri Gorus rayonunun başqa kəndləri kimi, Şamsız kəndinin azərbaycanlılarını da sonuncu adamına qədər qovub kənddən çıxartmış, onların evini, mal-mülkünü əllərindən almışlar.

**Şamsız kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| İdarə binası – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| İribuynuzlu mal-qara – | 50 baş |
| Xırdabuynuzlu mal-qara – | 100 baş |
| Mal-qara üçün tövlələr – | 1 əd. |
| Anbar binası – | 1 əd. |
| Traktor – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Su nasosu – | 1 əd. |
| Quşlar – | 5000 baş |
| Arı ailəsi – | 20 yeşik |
| Bağlar – | 3 ha |

## ŞAHVERDİLƏR

Zəngəzur mahalının Gorus rayonununda kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

1886-cı ildə kənddə 186 nəfər, 1897-ci ildə 217 nəfər, 1926-cı ildə 87 nəfər, 1931-ci ildə 52 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-ci ildə kənd Andranikin quldur dəstələri tərəfindən dağıdılmış, bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisi geri qayıdıb kəndi təzədən bərpa etmişlər.

1988-ci ildə erməni millətçiləri Gorus rayonunun başqa kəndləri kimi, Şahverdilər kəndinin azərbaycanlılarını da sonuncu adamına qədər qovub çıxartmış, onların evini, mal-mülkünü əllərindən almışlar.

**Şahverdilər kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| İdarə binası – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| İribuynuzlu mal-qara – | 30 baş |
| Xırdabuynuzlu mal-qara – | 70 baş |
| Məktəb – | 1 əd. |
| Quşlar – | 4000 baş |
| Arı ailəsi – | 30 yeşik |
| Bağ – | 3 ha |

## ÇƏMBƏRƏK (KRASNOSELO) RAYONU

Göyçə və Qaraqoyunlu mahalları ərazisində rayon.

1937-ci il dekabrın 31-də yaradılmışdır. Həmin ilə qədər isə Dilican rayonunun tərkibinə daxil olmuşdur.

Ərazisi 697 kv km-dir.

Rayon mərkəzi Ağstafaçay çayının qolu olan və Tərsa çayı kənarında yerləşən Qırmızıkənd (Mixaylovka, Krasnoselsk) kəndidir (indi şəhərtipli qəsəbədir).

Rayon mərkəzinə ən yaxın dəmiryol dayanacağı 16 km kənarda yerləşən Şorca stansiyasıdır.

Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 125 km-dir.

1970-ci ilin məlumatına görə rayonda cəmi 20 yaşayış məntəqəsi vardı.

### 1988-ci ilə qədər Çəmbərək (Krasnoselo) rayonunda mövcud olan azərbaycanlı yaşayış məntəqələrinin siyahısı

**Xalis azərbaycanlı yaşayış məntəqələri**

1. Cil
2. Ardanış
3. Şorca
4. Toxluca (19.04.1991-ci ildən – Draxtik)
5. Ağbulaq (19.04.1991-ci ildən – Axperek)
6. Gölkənd (19.04.1991-ci ildən – Ayqut)
7. Çaykənd (19.04.1991-ci ildən – Dprabak)
8. Əmirxeyir (19.04.1991-ci ildən – Kalavan)
9. Bəryabad (19.04.1991-ci ildən – Barenat)
10. Yanıqpəyə (25.01.1978-ci ildən – Meşəkənd, 19.04.1991-ci ildən – Antarameç)
11. Cıvıxlı
12. Qaraqaya (19.04.1991-ci ildən – Dzoravank)

**Qarışıq yaşayış məntəqələri**

13. Mixaylovka (sonralar – Krasnoselo)
14. Rubenakert (Orconikidze)

**Çəmbərək rayonu azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mədəniyyət evi – | 10 əd. |
| Klub – | 8 əd. |
| İdarə binası – | 11 əd. |
| Uşaq bağçası – | 6 əd. |
| Xəstəxana – | 5 əd. |
| Həkim məntəqəsi – | 5 əd. |
| İribuynuzlu mal-qara – | 10900 baş |
| Xırdabuynuzlu mal-qara – | 65100 baş |
| Mal-qara üçün tövlələr – | 78 əd. |
| Transformator – | 24 əd. |
| Dəyirman – | 8 əd. |
| Anbar binaları – | 28 əd. |
| Avtomaşın – | 133 əd. |
| Traktor – | 95 əd. |
| K/t texnikası – | 56 əd. |
| Məktəb, kitabxana – | 17 əd. |
| Su nasosu – | 6 əd. |
| Quşlar – | 7000 baş |
| Arı ailəsi – | 3 əd. |
| Bağlar – | 6 əd. |

## CİL

Göyçə mahalının Çəmbərək rayonununda, rayon mərkəzindən 34 km məsafədə, Göyçə gölünün kənarında yerləşdiyi kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1832-ci ildə kənddə 45 təsərrüfatda 265 nəfər (159 kişi, 106 qadın), 1873-cü ildə 40 təsərrüfatda 287 nəfər (156 kişi, 131 qadın), 1886-cı ildə 98 təsərrüfatda 587 nəfər (306 kişi, 281 qadın), 1897-ci ildə 442 nəfər, 1904-cü ildə 975 nəfər, 1914-cü ildə 1.035 nəfər, 1916-cı ildə 893 nəfər, 1919-cu ildə 888 nəfər azərbaycanlı yaşamışdır.

1919-cu ildə erməni quldur dəstələri kəndə hücum edib, onu yandırmış, əhalisinin bir hissəsini qətlə yetirmiş, sağ qalanlarını isə kənddən vəhşiəsinə qovmuşlar. Yalnız bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisi geri qayıtmışlar.

1922-ci ildə kənddə 697 nəfər, 1926-cı ildə 824 nəfər, 1931-ci ildə 1.041 nəfər, 1970-ci ildə 1.595 nəfər, 1979-cu ildə 1.490 nəfər, 1987-ci ildə 1.500 nəfər azərbaycanlı yaşayırdı.

1988-ci ildə isə kənddə 280 təsərrüfatda 1.400 nəfər azərbaycanlı vardı ki, onlar da erməni quldurları tərəfindən sonuncu nəfərinə qədər qovulub kənddən çıxarıldılar.

### Cil kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| İribuynuzlu mal-qara – | 700 baş |
| Xırdabuynuzlu mal-qara – | 4500 baş |
| Transformator – | 1 əd. |
| Dəyirman – | 1 əd. |
| Anbar binaları – | 2 əd. |
| Məktəb – | 1 əd. |
| Su nasosu – | 1 əd. |
| Quşlar – | 5000 baş |
| Arı ailəsi – | 1 yeşik |

## ARDANIŞ

Göyçə mahalının Çəmbərək rayonununda, Göyçə gölünün sahilində, göldən 2 km aralıda, rayon mərkəzindən 25 km məsafədə, Adatəpə burnunda kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1832-ci ildə kənddə 20 təsərrüfatda 119 nəfər (67 kişi, 52 qadın), 1873-cü ildə 48 təsərrüfatda 389 nəfər (241 kişi, 148 qadın), 1886-cı ildə 91 təsərrüfatda 602 nəfər (329 kişi, 273 qadın) azərbaycanlı yaşamışdır.

Kəndin məskunlaşması eradan əvvələ təsadüf edir. Kənddə alban kilsəsinin qalıqları, albanlara məxsus dağıdılmış qala divarlarının qalıqları, oğuz qəbiristanlığı və s. son dövrlərə kimi dururdu. Kəndin coğrafi mövqeyinə görə Göyçə mahalında yaşayan əhalinin şimala çıxışı bu kəndin içindən olmuş və "Topasan" deyilən ərazidən keçərək Gədəbəy rayonuna çıxmışdır. Müxtəlif dövrlərdə buradan müxtəlif sərkərdələr öz qoşunlarını Azərbaycana keçirmişdir. Bu gün də onların bir çoxunun adı ilə toponimlər mövcuddur: Koroğlunun başı, Şah ocağı, Şahın meydanı və s. Bu yoldan bir vaxtlar, Şah İsmayıl Xətai, Nadır şah kimi nəhənglər öz qoşunları ilə keçmişlər. Nadir şahın qoşununun taun xəstəliyinədən vəfat etmiş döyüşçülərinin qəbiristanlığı toxunulmaz yer kimi saxlanılırdı.

1918-ci ilin payızında Andranikin quldur dəstələri kəndə hücum etmiş və dinc əhalini qırmış, var-dövlətini talan etmişdir. Sağ qalanlar Azərbaycanın müxtəlif rayonlarına qaçmışlar. Azərbaycanda kəndin əhalisi birləşmiş, Məşədi Hümbət, İsmayıl, Qəhrəman, Hacı Qulu başda olmaqla onlar geri dönmüş və daşnakları kənddən qovmuşlar.

Kənddə 1922-c ildə 1.138 nəfər, 1926-cı ildə 1.235 nəfər, 1931-ci ildə 1.246 nəfər, 1970-ci ildə 1.993 nəfər, 1979-cu ildə 2.102 nəfər, 1986-cı ildə 2.500 nəfər azərbaycanlı yaşamışdır.

1988-ci ildə Ardanış kəndində azərbaycanlılar erməni soyqırımına məruz qalmış və öz ata-baba yurdlarından qovulmuşlar. 5 nəfər kənd sakini soyqırım nəticəsində həlak olmuşdur: Ələsgərov Bahar Süleyman qızı, Həsənov Həsən Şaban oğlu, İsmayılov Səməd İsmayıl oğlu, Xəlilov Firəngiz Hüseyn qızı, İsmayılov Əli Abbasəli oğlu.

1988-ci ildə kənddə 450 təsərrüfatda 2300 nəfər azərbaycanlı əhali yaşayırdı ki, onlar da erməni millətçiləri tərəfindən sonuncu nəfərinə qədər qovulub kənddən çıxarıldılar.

**Ardanış kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| İribuynuzlu mal-qara – | 800 baş |
| Xırdabuynuzlu mal-qara – | 5200 baş |
| Mal-qara üçün tövlələr – | 8 əd. |
| Transformator – | 1 əd. |
| Dəyirman – | 1 əd. |
| Anbar binaları – | 3 əd. |
| Avtomaşın – | 17 əd. |
| Traktor – | 15 əd. |
| K/t texnikası – | 11 əd. |
| Məktəb – | 1 əd. |
| Su nasosu – | 2 əd. |
| Arı ailəsi – | 1 əd. |

## ŞORCA (NADEJDİNO)

Göyçə mahalının Çəmbərək rayonununda, rayon mərkəzindən 13 km cənub-şərqdə kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonralar isə ruslar da yaşamışlar.

1832-ci ildə **Şor Əli kəndi** kimi qeydə alınmış, kənddə 24 təsərrüfatda 140 nəfər (86 kişi, 54 qadın) azərbaycanlının yaşadığı göstərilmişdir. 1873-cü ildə **Nadejdino (Şorcalı) kəndi** kimi siyahıya alınmış, kənddə 42 təsərrüfatda 311 nəfər (148 kişi, 163 qadın), 1886-cı ildə isə 44 təsərrüfatda 226 nəfər (103 kişi, 123 qadın) əhali yaşamışdır.

1988-ci ildə kənddə 150 təsərrüfatda 1000 nəfər azərbaycanlı əhali yaşayırdı ki, onlar da erməni quldurları tərəfindən sonuncu nəfərinə qədər qovulub kənddən çıxarıldılar.

### Şorca kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| İribuynuzlu mal-qara – | 1250 baş |
| Xırdabuynuzlu mal-qara – | 8000 baş |
| Mal-qara üçün tövlələr – | 6 əd. |
| Transformator – | 8 əd. |
| Dəyirman – | 1 əd. |
| Anbar binaları – | 4 əd. |
| Avtomaşın – | 12 əd. |
| Traktor – | 8 əd. |
| K/t texnikası – | 6 əd. |
| Məktəb – | 2 əd. |
| Su nasosu – | 2 əd. |
| Quşlar – | 2000 baş |

## TOXLUCA

Göyçə mahalının Çəmbərək rayonununda, rayon mərkəzindən 25 km cənub-şərqdə, Göyçə gölü yaxınlığında, Əyriçay çayının kənarında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1832-ci ildə kənddə 50 təsərrüfatda 296 nəfər (177 kişi, 119 qadın), 1873-cü ildə 63 təsərrüfatda 466 nəfər (263 kişi, 203 qadın), 1886-cı ildə 104 təsərrüfatda 681 nəfər (373 kişi, 310 qadın), 1897-ci ildə kənddə 935 nəfər, 1914-cü ildə 1.373 nəfər, 1916-cı ildə 1.330 nəfər, 1919-cu ildə 1.199 nəfər azərbaycanlı yaşamışdır.

1919-cu ilin martınında erməni quldur dəstələri kəndə hücum edib, onu yandırmış, əhalisinin bir hissəsini qətlə yetirmiş, sağ qalanlarını isə kənddən qovmuşlar. Yalnız bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra qaçqın əhali geri qayıtmışlar. 1922-ci ildə kənddə 1.176 nəfər, 1926-cı ildə 1.403 nəfər, 1931-ci ildə 1.723 nəfər, 1970-ci ildə 2.415 nəfər, 1979-cu ildə 2.632 nəfər, 1987-ci ildə 2.985 nəfər azərbaycanlı yaşamışdır.

1988-ci ildə kənddə 500 təsərrüfatda 3000 nəfər azərbaycanlı əhali yaşayırdı ki, onlar da 1988-ci il noyabrın sonlarında erməni quldurları tərəfindən sonuncu nəfərinə qədər qovulub kənddən çıxarıldılar.

### Toxluca kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| İribuynuzlu mal-qara – | 3700 baş |
| Xırdabuynuzlu mal-qara – | 32000 baş |
| Mal-qara üçün tövlələr – | 17 əd. |
| Transformator – | 3 əd. |
| Dəyirman – | 1 əd. |
| Anbar binaları – | 4 əd. |
| Avtomaşın – | 30 əd. |
| Traktor – | 16 əd. |
| K/t texnikası – | 18 əd. |
| Məktəb, kitabxana – | 4 əd. |

# AĞBULAQ

Göyçə mahalının Çəmbərək rayonununda, rayon mərkəzindən 12 km şimal-qərbdə, Göyçə gölünün kənarında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1832-ci ildə kənddə 26 təsərrüfatda 136 nəfər (79 kişi, 57 qadın), 1873-cü ildə 51 təsərrüfatda 422 nəfər (234 kişi, 188 qadın), 1886-cı ildə 83 təsərrüfatda 575 nəfər (318 kişi, 257 qadın), 1908-ci ildə kənddə 940 nəfər, 1914-cü ildə 982 nəfər, 1919-cu ildə 1.329 nəfər azərbaycanlı yaşamışdır.

Tarixi mənbələrin yazdığına görə, bünövrəsi XVI əsrin ikinci yarısında qoyulan Ağbulaq kəndinin cənub-qərbində həmin dövrdən çox-çox əvvəllər Yellicə adlı kənd olmuşdur.

1919-cu ildə erməni quldur dəstələri kəndə hücum etmiş, əhalisi qanlı qırğınlarla kənddən qovmuşlar. Yalnız bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra qaçqın əhali geri qayıtmışlar. 1922-ci ildə kənddə 1.053 nəfər, 1926-cı ildə 1.113 nəfər, 1931-ci ildə 1.392 nəfər, 1970-ci ildə 1.542 nəfər, 1979-cu ildə 1.450 nəfər azərbaycanlı yaşamışdır.

1988-ci il noyabrın 24-dən 28-dək kənd erməni quldurlarının hücumlarına məruz qalaraq sonuncu nəfərinə qədər qovulub kənddən çıxarıldılar.

**Ağbulaq kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| İribuynuzlu mal-qara – | 1000 baş |
| Xırdabuynuzlu mal-qara – | 13000 baş |
| Mal-qara üçün tövlələr – | 10 əd. |
| Transformator – | 2 əd. |
| Dəyirman – | 1 əd. |
| Anbar binaları – | 2 əd. |
| Avtomaşın – | 16 əd. |
| K/t texnikası – | 7 əd. |
| Məktəb – | 1 əd. |

## GÖLKƏND (QARAQOYUNLU)

Qaraqoyunlu mahalı ərazisində, Çəmbərək rayonununda, rayon mərkəzindən 20 km məsafədə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Gölkənddəki qəbirstanlıq Qaraqoyunlu dərəsində ən qədim qəbiristanlıqlardan biri idi. Ondan çox qədim qəbiristanlıq isə Murğuz dağının ətəyində yerləşirdi. Mürğüz dağında qədim pir var idi. İnsanlar o pirə pənah gətirir, qurbanlar kəsir, arzu və istəklərinə çatırdılar.

1918-1920-ci illərdə kənd erməni quldur dəstələri tərəfindən dağıdılmış, əhali ata-baba yurdundan didərgin salınmışdır. Gölkəndlilər sonralar geri dönüb, kəndi təzədən məskunlaşdırmışlar.

1931-ci ildə kəndin əhalisi 1.283 nəfərdən ibarət olmuşdur.

1988-ci ildə erməni quldur dəstələri 470 təsərrüfatda 2.700 nəfər azərbaycanlı əhalisi olan kəndi azərbaycanlılardan boşaltmışlar. Həmin günlərdə kənddən Cahan Qocayev də erməni xəyanətinin qurbanı olmuşdur.

### Gölkənd kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| İribuynuzlu mal-qara – | 1500 baş |
| Xırdabuynuzlu mal-qara – | 5000 baş |
| Mal-qara üçün tövlələr – | 12 əd. |
| Transformator – | 1 əd. |
| Dəyirman – | 1 əd. |
| Anbar binaları – | 2 əd. |
| Avtomaşın – | 22 əd. |
| Traktor – | 11 əd. |
| K/t texnikası – | 4 əd. |
| Məktəb – | 1 əd. |
| Arı ailəsi – | 1 yeşik |
| Bağ – | 1 ha |

## ÇAYKƏND

Qaraqoyunlu mahalı ərazisində, Çəmbərək rayonununda, rayon mərkəzindən 25 km məsafədə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Qara sudan başlayan kənd Tərsəçayın sağ və sol sahillərində, Murğuz dağının çaya yaxın olan təpə və yaylaları üstündə, qərbdə isə Girdman yüksəkliyində və meşələrin ətəklərində yerləşirdi.

Çaykənd kəndi Gəncə qəzasının Dilican nahiyəsinə daxil olan Qaraqoyunlu dərəsinin mərkəzi kəndlərindəndi. Kəndin əsası XVIII yüzildə, təxminən 1778-ci ildə qoyulmuşdur.

Kənd 1937-ci il dekabrın 31-nə kimi Dilican, sonra isə Çəmbərək rayonunun tərkibində olmuşdur.

Çaykənd kəndi Dilican-Krasnoselo şosse yolunun üzərində yerləşirdi, bu yol kəndi iki yerə bölürdü.

1919-cu ilin yazında - Novruz bayramında Andranikin daşnak qoşunu İcevan-Dilican istiqamətində Çayqarışandan Qaraqoyunlu dərəsindəki kəndləri dağıtmaq, talamaq, əhalini qılıncdan keçirmək məqsədi ilə hücuma keçmiş, bu zaman kəndin əli silah tutanları keçid və bərələri kəsmiş, daşnak dəstələrinə layiqli zərbələr endirmişlər. Azərbaycanlıların erməni daşnak dəstələrini pərən-pərən etməsi işində Qaraqoyunlu dərəsinin kovxası Hasanxan oğlu Mehralının əvəzsiz xidməti olmuşdur. Nəticədə camaat gözlənilən fəlakətdən qurtarmış, az itki ilə Gədəbəy rayonu ərazisinə keçə bilmişlər. Yalnız 1922-ci ildən sonra kəndin qaçqın əhalisi geri dönmüşlər. 1922-ci ildə Çaykənddə 569 nəfər, 1926-cı ildə 616 nəfər, 1931-ci ildə 662 nəfər, 1970-ci ildə 1.140 nəfər, 1979-cu ildə 1.096 nəfər, 1987-ci ildə 1.110 nəfər azərbaycanlı əhali yaşamışdır.

Kəndin qədim tarixə malik olmasını sübut edən faktlardan bu yerlərdə çoxlu oğuz qəbirlərinin və qədim kənd xarabalarının qalıqlarının olmasını göstərmək olar. Bu xarabalıqların hamısının yaxınlığında qəbiristanlıqlar var.

Qaraqoyunlu dərəsində məskunlaşmış kənd əhalisi dəfələrlə işğala məruz qalmış, düşmənlr tərəfindən talanmış, məhv edilmişdir. Təkcə 1895-ci ildən 1988-ci ilə kimi, təxminən yüz illik bir müddətdə Qaraqoyunlu dərəsinin kəndləri beş dəfə işğala məruz qalmış, mənfur erməni daşnak dəstələri tərəfindən öz doğma yurd-yuvalarından silah zoruna didərgin salınmışlar.

1988-ci il soyqırımı zamanı Əhmədov Nəsir Albaba oğlu ermənilər

tərəfindən öldürülmüşdür.

1988-ci ildə kənddə 270 təsərrüfatda 1250 nəfər azərbaycanlı əhali yaşayırdı ki, onlar da həmin ilin noyabrında erməni quldur dəstələri tərəfindən sonuncu adamına qədər qovuldular.

**Çaykənd kəndi azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| İribuynuzlu mal-qara – | 1200 baş |
| Xırdabuynuzlu mal-qara – | 4000 baş |
| Mal-qara üçün tövlələr – | 6 əd. |
| Transformator – | 2 əd. |
| Anbar binaları – | 4 əd. |
| Avtomaşın – | 12 əd. |
| Traktor – | 18 əd. |
| K/t texnikası – | 5 əd. |
| Məktəb, kitabxana – | 2 əd. |
| Su nasosu – | 1 əd. |
| Quşlar – | 5000 baş |
| Bağlar – | 1 ha |

## ƏMİRXEYİR

Qaraqoyunlu mahalı ərazisində, Çəmbərək rayonununda, rayon mərkəzindən 20 km məsafədə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kəndin tarixinin nə qədər qədim olmasını onun ərazisindəki xarabalıq və qəbiristan qalıqlarının çoxluğu da təsdiq edir. Məsələn, **Kalafalıq** deyilən ərazidə qədim kilsə, dəyirman qalığı vardı. **Çökək yurd** deyilən yerdə – qəbiristanlıq, küplər. **Div** – kəndə yaxın tala evlər, qəbirlər qalığı. **Alacıq daş** – evlər, qəbirstanlıq xarabaları. **Tik daş** – evlər, qəbirstan xarabaları. **Oğuz yurdu** – qədim oğuz tayfalarının məskunlaşdığı məskən, qəbir daşlarının hündürlüyü 2,5 metrə çatır. **Pir** – kəndin yaxınlığında Danalıqdan axan çayla Bəryabad çayının qovuşduğu bir talada yerləşir, kənd burada salınan gündən kənd adamları həmin Piri ziyarət edir.

1988-ci ildə kənddə 80 təsərrüfatda 500 nəfər azərbaycanlı əhali yaşayırdı ki, onlar da həmin ilin noyabrında erməni quldur dəstələri tərəfindən sonuncu adamına qədər qovuldular.

### Əmirxeyir kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| İribuynuzlu mal-qara – | 500 baş |
| Xırdabuynuzlu mal-qara – | 2500 baş |
| Tövlələr – | 14 əd. |
| Transformatorlar – | 1 əd. |
| Anbar binaları – | 2 əd. |
| Avtomaşın – | 7 əd. |
| Traktor – | 6 əd. |
| K/t texnikası – | 4 əd. |
| Məktəb binası | 1 əd. |
| Alma bağı | 3 ha |

## BƏRYABAD

Qaraqoyunlu mahalı ərazisində, Çəmbərək rayonununda, rayon mərkəzindən 30 km uzaqlıqda kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Dilican rayonunun tərkibinə, 1938-ci ilin əvvəlindən isə Çəmbərək rayonunun tərkibinə daxil olmuşdur.

1897-ci ildə kənddə 111 nəfər, 1919-cu ildə isə 96 nəfər azərbaycanlı yaşamışdır.

1919-cu ilin yazında Andranikin quldur dəstələri kəndə hücum edərək qocaları, arvadları, uşaqları öldürmüş, evləri yandırmış, əhalinin var-dövlətini talan etmişdir. Əhalinin bir hissəsi erməni quldurlarından gizlənərək Azərbaycanın Qazax-Gədəbəy-Tovuz kəndlərinə qaçmışlar. 1920-ci ildən sonra Bəryabad kəndinin əhalisi yenidən kəndə qayıtmış, 1920-ci ildə Bəryabadda 85 nəfər, 1926-cı ildə 91 nəfər, 1931-ci ildə 109 nəfər, 1939-cu ildə 205 nəfər, 1986-cı ildə 380 nəfər əhali yaşamışdır.

1988-ci il noyabrın sonlarında Qaraqaya, Yanıqpəyə, Çaykənd, Bəryabad, Əmirxeyir, Gölkənd və Cıvıxlı kəndləri Çəmbərək-Gədəbəy yolu ilə Azərbaycan torpağına pənah gətirdilər.

1988-ci ildə kənddə 50 təsərrüfatda 250 nəfər azərbaycanlı əhali yaşayırdı ki, onlar da həmin ilin noyabrında erməni quldur dəstələri tərəfindən sonuncu adamına qədər qovuldular.

### Bəryabad kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Tövlələr – | 2 əd. |
| Transformatorlar – | 2 əd. |
| Anbar binaları – | 1 əd. |
| Məktəb binası – | 1 əd. |
| Bağlar – | 3 ha |

## YANIQPƏYƏ (MEŞƏKƏND)

Qaraqoyunlu mahalı ərazisində, Çəmbərək rayonununda, Dilican-Qırmızıkənd (Krasnoselo) şose yolunun qərbində, Qaraqaya kəndindən 4 km, rayon mərkəzindən 32 km məsafədə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kəndin əhalisi 1897-ci ildə 133 nəfər, 1919-cu ildə 220 nəfər olmuşdur. Həmin illərdə daşnaklar kənd əhalisini qovub çıxarmış və əhali bir də bölgədə Sovet hakimiyyətinin qələbəsindən sonra öz doğma vətəninə qayıtmışdır. 1922-ci ildə kənddə 150 nəfər, 1926-cı ildə 167 nəfər, 1931-ci ildə 197 nəfər, 1970-ci ildə 505 nəfər, 1979-cu ildə 523 nəfər, 1986-cı ildə 450 nəfər azərbaycanlı yaşamışdır.

Yanıqpəyə camaatının illərdən bəri topladıqları var-dövlət, 1988-ci ildə erməni daşnaklarının əlinə keçdi, bu yerlərin qədim sakinləri isə doğma dədə-baba yurdlarından qovulub didərgin salındılar.

1988-ci ildə kənddə 70 təsərrüfatda 350 nəfər azərbaycanlı əhali yaşayırdı ki, onlar da həmin ilin noyabrında erməni quldur dəstələri tərəfindən sonuncu adamına qədər qovuldular.

### Yanıqpəyə kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| İribuynuzlu mal-qara – | 700 baş |
| Xırdabuynuzlu mal-qara – | 3500 baş |
| Tövlələr – | 7 əd. |
| Transformatorlar – | 1 əd. |
| Dəyirman – | 1 əd. |
| Anbar binaları – | 2 əd. |
| Avtomaşın – | 8 əd. |
| Traktor – | 5 əd. |
| K/t texnikası – | 5 əd. |
| Məktəb binası | 1 əd. |
| Alma bağı | 3 ha |

## CIVIXLI

Qaraqoyunlu mahalında, Qaraqoyunlu dərəsinin şərqində, Murğuz dağı ilə üzbəüz, Tərsəçayın sağ sahilindən 2-3 km yüksəklikdə, şosse yolundan 7 km-lik məsafədə meşələrlə əhatə olunmuş bir talada kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Cıvıxlıya yüksələn yolun sağ tərəfində qədim Alban məbədi yerləşirdi.

Çıvıxlının əsl adı Çibiklidir. Zəngəzurda yaşamış, digər adı Çinarlı olan Çivikli adlı Türk tayfasının adını göstərir.

1897-ci ildə kənddə 80 nəfər azərbaycanlı yaşamışdır.

1919-cu ilin yazında erməni quldur dəstələri kəndi dağıtmış, əhalisini qanlı qırğınlarla kənddən qovmuşlar. Yalnız bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndən sağ qalan əhalisi doğma kəndlərinə geri dönmüşlər. 1922-ci ildə kənddə 137 nəfər, 1931-ci ildə 132 nəfər, 1970-ci ildə 364 nəfər, 1979-cu ildə 351 nəfər, azərbaycanlı əhali yaşamışdır.

1988-ci ildə kənddə 50 təsərrüfatda 200 nəfər azərbaycanlı əhali yaşayırdı ki, onlar da həmin ilin noyabrında erməni quldur dəstələri tərəfindən sonuncu adamına qədər qovuldular.

### Cıvıxlı kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| İdarə binası – | 1 əd. |
| İribuynuzlu mal-qara – | 300 baş |
| Xırdabuynuzlu mal-qara – | 1500 baş |
| Tövlələr – | 3 əd. |
| Transformatorlar – | 1 əd. |
| Anbar binaları – | 1 əd. |
| Avtomaşın – | 4 əd. |
| Traktor – | 3 əd. |
| K/t texnikası – | 3 əd. |
| Məktəb binası | 1 əd. |
| Alma bağı | 1 ha |

## QARAQAYA

Qaraqoyunlu mahalı ərazisində, Çəmbərək rayonununda, Salah kəndinin 3 km-də, Tərsə çayın sol sahilindəki vadidə, ondan yuxarıda yerləşən üç yayla və kiçik təpələrin ətəyində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1938-ci ilə qədər Qaraqaya kəndi də Dilican rayonunun tabeliyində olmuş, sonralar isə (Krasnoselo) rayonu yaradılmış və onun tərkibinə daxil edilimşdir.

1918-1920-ci illərdə erməni quldur dəstələri Haqqıxlı kəndində 70 adamı tövləyə doldurub diri-diri yandırandan Polad, Salah və Alaçıqqaya, Göyərçin kəndlərinin sakinlərini əməlli-başlı soyub taladıqdan sonra Qaraqaya kəndi istiqamətində hərəkətə başlamışdılar. Qaraqaya uğrunda gedən döyüşlərdə ermənilər çoxlu itki verərək hər dəfə geri çəkilsələr də, müqavimət göstərməyin qeyri mümkün olduğunu görən qaraqayalılar, axır ki, kəndi tərk etmək məcburiyyətində qalmışdılar.

1988-ci ildə kənddə 50 təsərrüfatda 260 nəfər azərbaycanlı əhali yaşayırdı ki, onlar da həmin ilin noyabrında erməni quldur dəstələri tərəfindən sonuncu adamına qədər qovuldular.

### Əmirxeyir kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Həkim məntəqəsi – | 1 əd. |
| İribuynuzlu mal-qara – | 750 baş |
| Xırdabuynuzlu mal-qara – 2000 baş | |
| Tövlələr – | 3 əd. |
| Transformatorlar – | 1 əd. |
| Anbar binaları – | 2 əd. |
| Avtomaşın – | 5 əd. |
| Traktor – | 3 əd. |
| K/t texnikası – | 3 əd. |
| Məktəb binası | 1 əd. |
| Alma bağı | 1 ha |

## MİXAYLOVKA (KRASNOSELO, QIRMIZIKƏND)

Göyçə mahalı ərazisində, Çəmbərək rayonununda, Ağstafaça çayının qolu olan Tərsa çayının sahilində kənd, sonralar şəhərtipli qəsəbə, Çəmbərək rayonunun mərkəzi.

Kənddə Azərbaycan türkləri, ruslar və ermənilər yanaşı yaşamışlar.

1988-ci ildə qəsəbədə 80 təsərrüfatda 340 nəfər azərbaycanlı əhali yaşayırdı ki, onlar da həmin ilin noyabrında erməni quldur dəstələri tərəfindən sonuncu adamına qədər qovuldular.

## RUBENAKERT (ORCONİKİDZE)

Qaraqoyunlu mahalı ərazisində, Çəmbərək rayonununda, rayon mərkəzindən 5 km məsafədə kənd.

Kənddə Azərbaycan türkləri, ruslar və ermənilər yanaşı yaşamışlar.

1988-ci ildə kəndin bütün azərbaycanlı əhalisi erməni daşnakları tərəfindən soyqırımına məruz qalaraq qovulub kənddən çıxarılmış, onlara məxsus olan ev, mülk, mal və əmlak erməni quldurları tərəfindən əvəziödənilmədən mənimsənilmişdir.

## QAFAN RAYONU

Zəngəzur mahalı ərazisində rayon. 1930-cu il sentyabrın 9-da yaradılmışdır. Ərazisi 1345 kv.km-dir.

Rayon mərkəzi respublika tabeli Qafan şəhəridir.

Rayon mərkəzindən Bakı-Naxçıvan-İrəvan dəmiryol xətti keçir.

Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 320 km-dir.

Qafan rayonu Zəngəzur mahalının ən qədim və böyük yaşayış məskənlərindən biri olmuşdur. Rayon əhalisi əvvəllər bütövlükdə azəri türklərindən ibarət olmuşdur. Ermənilərin şovinist milli siyasəti nəticəsində 1988-ci ildə rayonda cəmi 16.200 nəfər azəri türkü qalmışdı. Və həmin il ərzində rayonda azərbaycanlı əhaliyə qarşı aparılan soyqırımı siyasəti nəticəsində azərilər tamamilə rayon ərazisini tərk etmişlər. Rayonda azərbaycanlılar yaşayan kolxoz və sovxozlarda 120 yük avtomobili, 62 ədəd müxtəlif markalı traktorlar, 42 ədəd kombayn, çoxlu müxtəlif kənd təsərrüfatı aqreqatları ermənilərin ixtiyarına keçmişdir. 30 min baş xırda buynuzlu və 4 min baş iribuynuzlu heyvan (bir o qədər də şəxsi təsərrüfatın mal-qarası) erməni cəlladlarının əlinə keçmişdir.

1988-1989-cu illərdə münaqişə zəminində Qafan rayonundan 7 nəfər ermənilər tərəfindən qətlə yetirilmişdir.

### 1988-ci ilə qədər Çəmbərək (Krasnoselo) rayonunda mövcud olan azərbaycanlı yaşayış məntəqələrinin siyahısı

**Xalis azərbaycanlı yaşayış məntəqələri**

1. Gığı
2. Kirs
3. Kurud
4. Gərd (19.04.1991-ci ildən – Kard)
5. Mahmudlu (01.06.1940-cı ildən – Çaykənd)
6. Pəyəhan
7. Acıbac (19.04.1991-ci ildən – Acibac)
8. Həçəti
9. Kehpəşin
10. Aşağı Pürülü (19.04.1991-ci ildən – Geğavank)
11. Yuxarı Pürülü
12. Qovşud (19.04.1991-ci ildən – Kavçut)
13. Zeyvə (29.06.1949-cu ildən – David-bek)

14. Müsəlləm
15. Davudbəy (Quşçulu, Qanlızəli)
16. Yuxarı Girədağ
17. Aşağı Girədağ
18. Açağu
19. Şəhərcik
20. Dovrus
21. Qaradığa
22. Xələc
23. Oxtar
24. Cıbılı
25. Gödəkli
26. Aşağı Gödəkli
27. Bəydaş (19.04.1991-ci ildən – Xordzor)
28. Şabadin (19.04.1991-ci ildən – Yeğek)
29. Siznək
30. Qaraçimən
31. Baharlı
32. Aşağı Daşbaşı
33. Aşağı Davruz
34. Yuxarı Davruz
35. Hünüd
36. Novruzlar
37. Qatar
38. Atqız
39. Çiriş

**Qarışıq yaşayış məntəqələri**
40. Qafan
41. Qacaran (Oxçu)
42. Sünik sovxozu

## GIĞI (KİÇİK SOFULU, SARALLI)

Zəngəzur mahalının Qafan rayonununda, rayon mərkəzindən 35 km şimal-qərbdə, Gığı çayının sağ sahilində, Gığı çayı ilə kəndin sol tərəfindən axan, Gığı çayının qolu olan Qarlı dərə çayının birləşdiyi geniş düzənlik yerdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ilin statistik məlumatlarında **Gığı Sofulu** adı ilə qeydə alınmış kənddə 51 təsərrüfatda 254 nəfər (152 kişi, 102 qadın) azərbaycanlı əhali yaşamışdır.

Bu kənd 1918-ci ildə aran kəndlərinin Qafan rayonunda axırıncı sığınacaq məntəqəsi olub.

Kənddə X yüzilə aid Gığı qalasının özülü hələ də dururdu. Qafan şəhərindən 28 km şimal-qərbdə Gığı çayının sağ sahilində **Gığı məscididi** deyilən abidənin qalıqları qalırdı.

Gığı kəndində1831-ci ildə 131 nəfər, 1886-cı ildə 254 nəfər, 1897-ci ildə 213 nəfər, 1922-ci ildə 335 nəfər, 1926-cı ildə 313 nəfər, 1931-ci ildə 396 nəfər, 1939-cu ildə 491 nəfər, 1959-cu ildə 570 nəfər, 1970-ci ildə 932 nəfər, 1979-cu ildə 1.115 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-1919-cu illərdə ermənilər dalbadal iki dəfə kəndi dağıtmış, əhalini qırmış, sağ qalanları əvvəl Naxçıvana, 1919-cu ildə isə Zəngilana qovmuş, var-yoxlarını əllərindən almış, evlərini yandırmışlar.

1922-ci ildən sonra kəndə qayıdan camaat quru yurda gəlmiş, yenidən ev tikib, özlərinə güzəran düzəltmişdilər.

Nəhayət, 1965-ci ilin yanvar ayında 7 kolxozun bazası əsasında "Gığı" heyvandarlıq sovxozu yaradılmış və o, 1988-ci ilin qaçqınlığına qədər davam etdi. 1988-ci ildə ermənilər kəndin bütün azərbaycanlı əhalisini qovub rayondan çıxartdılar.

### Gığı kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Tibb məntəqəsi – | 1 əd. |

| | |
|---|---|
| Enerji şəbəkəsi – | 1 əd. |
| Anbar binaları – | 1 əd. |
| Kənd təsərrüfatı maşınları – | 3 əd. |
| İribuynuzlu mal-qara – | 4600 baş |
| Xırdabuynuzlu mal-qara – | 10000 baş |
| Məktəb – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Poçt – | 1 əd. |

Gığı kəndi Gığı sovxozuna daxil olan kəndlərdən biri idi və yuxarıdakı əmlak Gığı kəndinə məxsus idi. Bundan əlavə, Gığı sovxozuna onun tərkibinə daxil olan kəndlərin (Pürülü, Gığı, Mahmudlu, Gərd, Həcəti, Pəyəhan, Acıbac, Kurud, Kırs) hər birinə aid olan aşağıdakı əmlak da məxsus idi.

**Gığı sovxozu azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 7 əd. |
| Xəstəxana – | 2 əd. |
| Tibb məntəqəsi – | 7 əd. |
| İribuynuzlu mal-qara üçün tövlə – | 28 əd. |
| Xırdabuynuzlu mal-qara üçün tövlə – | 30 əd. |
| Enerji şəbəkəsi – | 7 əd. |
| Anbar binaları – | 7 əd. |
| Məscid – | 3 əd. |
| Avtomaşınlar – | 23 əd. |
| Kənd təsərrüfatı maşınları – | 16 əd. |
| İribuynuzlu mal-qara – | 13000 baş |
| Xırdabuynuzlu mal-qara – | 8400 baş |
| Məktəb – | 13 əd. |
| Kitabxana – | 7 əd. |
| Baytarlıq məntəqəsi – | 7 əd. |
| Yeməkxana – | 3 əd. |
| Poçt – | 4 əd. |

## KIRS

Zəngəzur mahalının Qafan rayonununda, rayon mərkəzindən 43 km şimali-şərqdə, Qəhhar çayının yuxarı axarında, Kurud çayının iki qolları - Əyri çay və Sarı dərə çayının arasında, Cidalı dağ silsiləsinin düzənliyə enən yerində geniş bir ərazidə, dəniz səviyyəsindən 2.300 m yüksəklikdə, Kurud kəndinin lap yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kirs kəndi qədimdən azərbaycanlıların kəndi olmuşdur. Kənddə yaşayanların azərbaycanlı (müsəlman) olduğunu sübut edən qəbiristanlıq, qoç heykəli və s. vardır.

1886-cı ildə kənddə 130 nəfər, 1926-cı ildə 78 nəfər, 1931-ci ildə 104 nəfər əhalisi yaşamışdır.

1918-ci il qaçqınlığından sonra Kırs kəndinin əhalisinin təqribən yarısı öz vətəninə qayıtmış, qalanları isə Ordubadda qalmışdır.

1922-ci ildə kəndə qayıdanlar ermənilərin yandırıb dağıtdıqları evləri yenidən bərpa etmiş, 1933-cü ildən sonra kolxoz təşkil etmişlər, 1936 -cı ilin sonunda Kurud kolxozu ilə birləşmiş və 1965-ci ildə isə Gığı heyvandarlıq sovxozuna birləşdirilmişlər. İşsizlik ucbatından camaatın bir hissəsi 1967-ci ildən sonra Ordubada və Culfa rayonlarının dağ kəndlərinə köçmüş və orada məskunlaşmışlar. Kənddə qalanları isə 1988-ci ilin dekabr ayında Ermənistan hökuməti və onun inzibati orqanlarının təzyiqi nəticəsində öz kəndlərindən qovulmuş, bütün varidatlarına, evlərinə, binalarına, bağlarına, heyvanlarına ermənilər sahib olmuşlar.

## KURUD

Zəngəzur mahalının Qafan rayonununda, rayon mərkəzindən 40 km şimal-şərqdə, Şotalı çayının yuxarı axarında, Kurud çayının hər iki tərəfində, Pireyvəd və Piralata dağlarının arasında, çay qırağında, dəniz səviyyəsindən 2.200 m yüksəklikdə, dağətəyi düzənlikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kurud kəndi Qafanla, Naxçıvanın Ordubad rayonu ilə bilavasitə həmsərhəddir. Kənddə 1897-ci ildə 245 nəfər, 1922-ci ildə 172 nəfər, 1931-ci ildə 220 nəfər əhali yaşamışdır.

1918-ci ildə 30 azərbaycanlı kəndinin qaçqınları bu kəndin dağları ilə Ordubada qaçıb pənah aparmışlar. 1922-ci ildə kəndin əhalisinin ancaq bir qismi yenidən buraya qayıtmışlar.

1950-ci illərdə kolxozların sovxozlara çevrilməsi kənd zəhmətkeşlərinin vəziyyətini bir az da pisləşdirdi və getdikcə Azərbaycana axın artdı. Bu kəndlərə 70 il ərzində nə qaz çəkildi, nə də yol.

1988-ci ildə kəndin 600 nəfərdən artıq əhalisi var-yoxları əllərindən alınmaqla qovulmuşlar.

### Kurud-Kırs azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı:

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Tibb məntəqəsi – | 1 əd. |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Anbar binaları – | 1 əd. |
| Avtomaşınlar – | 4 əd. |
| Kənd təsərrüfatı maşınları – | 3 əd. |
| İribuynuzlu mal-qara – | 4000 baş |
| Xırdabuynuzlu mal-qara – | 7000 baş |
| Məktəb – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Poçt – | 1 əd. |

## GƏRD (AŞAĞI GƏRD)

Zəngəzur mahalının Qafan rayonununun Gığı dərəsində, Qafan şəhərindən 33 km şimal-qərbdə, Gığı çayının sağ qolu olan Gərd çayının sağ və sol sahillərində, Çaykənd kəndindən 3 km məsafədə, dəniz səviyyəsindən 2.000 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1897-ci ildə kənddə 60 nəfər, 1926-cı ildə 71 nəfər, 1931-ci ildə 115 nəfər, 1939-cu ildə 40 ailədə 170 nəfər, 1959-cu ildə 250, 1970-ci ildə 295, 1979-cu ildə 61 nəfər əhali yaşamışdır. 1988-ci ildə kənd əhalisinin sayı artıq 194 ailədə 959 nəfərə çatmışdı.

Gərd (Aşağı Gərd) kəndi 1918-ci ildə erməni daşnakları tərəfindən dağıdılmış, yandırılrmış, əhalisinin bir qismi vəhşicəsinə qətlə yetirilmiş, sağ qalanlar Ordubad və Culfa rayonlarına qovulmuş, kəndin varidatı talan edilərək qonşu Gecalana (erməni kəndi) aparılmışdır. Bununla ürəyi soyumayan ermənilər Qarovun dərə ilə qaçan gərdlilərin qarşısını Arpalıq adlanan yerdə kəsib, onları vəhşicəsinə qırmışlar. Qaçqın əhalinin bir qismi də dağlarda soyuqdan-çovğundan, sonralar da aclıqdan ölmüşlər.

1919-cu ilin yayında dağları aşıb qayıdan kənd camaatı doğma yurdlarında yaşamağa başlamışlar. Bundan xəbər tutan ermənilər kəndə yeni hücumlar təşkil etmiş, həmin ilin axırlarında camaatı yenidən kənddən qovub çıxarmış, bu dəfə Baharlı-Boğacıq arasında qarşılarını kəsib qırmış, var-yoxlarını qarət etmişlər. Həmin gün ermənilər Gərd kəndindən 34 nəfəri qətlə yetirmişlər, 10 ailə isə demək olar ki, tamamilə məhv edilmişdi.

Gərd camaatından sağ qalanlar həmin qışı Zəngilan və Qubadlı rayonlarının kəndlərində qışlamış, Sovet hakimiyyəti qurulduqdan sonra təzədən doğma kəndə qayıtmışlar.

1988-ci il hadisələri zamanı doğma yurdu tərk etməyə məcbur olan gərdlilər isə daha çox Sumqayıt və Bakı şəhərlərinə pənah gətirmişlər.

Kənddə XVII əsrə aid birtağlı alban kilsəsi vardı, 1968-ci il zəlzələsinə qədər tam salamat olan bu kilsə binası parçalandı və bir qədər sürüşdü. Altından içməli su - bulaq axırdı. XVII yüzilə aid bir qalanın izləri isə hələ də qalırdı.

Kəndin quzeyində Böyük armud ağacının altındakı düzənlikdə yerləşən qədim oğuz qəbiristanlığı kəndin qədimliyini və azər-türk xalqına mənsubluğunu təsdiqləyən mühüm amillərdən idi. Bu qəbiristanlıqdakı qəbirlərin üstündə 2 m uzunluğunda daşlar vardı.

Kəndin hazırkı qəbiristanlığı isə kənddən xeyli aralıda, Gərd çayının sol sahilində, Qırıntı dərəsinin sağ və sol sahillərində yerləşirdi. Əvvəllər dərənin ancaq sağ sahilində salınmış qəbiristanlıq dolduqdan sonra XX yüzilin əvvəllərində Əhmədalı İmamquliyev dərənin sol sahilindəki öz torpaqlarını da qəbiristanlığa vermiş və bundan sonra qəbiristanlıq dərənin sol sahili boyunca uzanmışdı.

Gərd və Yuxarı Gərd kəndlərinin əkin sahələrində, yaylaqlarda (Dübəklidə, Məçitlidə, Zərnəli yurdunda) da tez-tez qədim müsəlman qəbirləri aşkar edilirdi ki, bu da həmin ərazilərin əvvəllərdən xalqımıza mənsubluğunu təsdiqləyən amillərdəndir.

Gərd kəndində yol qırağında "Pir Palıd" adlı nəhəng bir palıd ağacı vardı. Yerli camaat onu müqəddəs sayırdı. 1932-ci ildə ona od vurub bir tərəfini yandıran bir erməni ertəsi gün xəstələnib ölmüşdü. Bu hadisə pirə azərbaycanlıların inamını daha da artırmış, ermənilərin isə gözünü qorxutmuşdu.

Əvvəllər kənd Aşağı Gərd adlanmışdır. Kənddən 2-3 km şimalda isə Yuxarı Gərd kəndi yerləşirdi. Lakin 1918-ci ildə daşnaklar tərəfindən yandırılan Yuxarı Gərd kəndi sonralar həmişəlik xaraba qaldı.

İlk vaxtlar Aşağı Gərd kəndi Gərd çayının ancaq sol sahilində yerləşirdi, 1960-cı illərdən sonra çayın sağ sahilində də evlər tikilməyə başlandı.

**Gərd-Həcəti azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Tibb məntəqəsi – | 1 əd. |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Anbar binaları – | 1 əd. |
| Avtomaşınlar – | 2 əd. |
| Kənd təsərrüfatı maşınları – | 5 əd. |
| İribuynuzlu mal-qara – | 3600 baş |
| Xırdabuynuzlu mal-qara – | 5300 baş |
| Məktəb – | 1 əd. |
| Kitabxana – | 1 əd. |

## MAHMUDLU (ÇAYKƏND)

Zəngəzur mahalının Qafan rayonununda, rayon mənkəzindən 29 km şimal-şərqdə, Gığı çayının yuxarı axarında, sol sahilində, düzənlikdə, Qafan şəhərindən 26-27 km şimal-qərbdə, dəniz səviyyəsindən 1.700 metr yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kənddə 1831-ci ildə 42 nəfər, 1873-cü ildə 301 nəfər, 1886-cı ildə kənddə 92 təsərrüfatda 404 nəfər (226 kişi, 178 qadın), 1914-cü ildə 423 nəfər, 1922-ci ildə 120 nəfər, 1931-ci ildə 170 nəfər əhali yaşamışdır.

1918-ci ildə erməni daşnakları Keypəşinlə Mahmudlu kəndini yandırmış, əhalisinə divan tutmuşlar. Əhali dağlarla qaçıb, Ordubada pənah gətirmişdir. 1919-cu ildə onlar yenə də kəndə qaytmışlar. Payız əkdikləri taxılı yığıb qurtardıqdan sonra ermənilər yenə kəndə hücum etmiş, 1919-cu ilin sonunda camaatın bir hissəsini qırmış, bir hissəsini isə Zəngilana qovub tökmüşlər. Topladıqları taxıl isə ermənilərə qalmışdır. Ona görə də 1922-ci ildə kənd əhalisinin sayı 120-yə enmişdir.

Ancaq bu da çox uzun çəkməmiş, 1988-ci ildə hamı bir nəfər kimi doğma yurddan qovulmuşdur.

Mahmudlu ən qədim azərbaycanlı kəndi olmuşdur. Hətta XIX əsrin ortalarına qədər Gığı və Kurud kəndlərinə vəfat edənləri də aparıb bu kəndin qəbiristanlığda dəfn edərmişlər.

### Mahmudlu azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Tibb məntəqəsi – | 1 əd. |
| Avtomaşınlar – | 1 əd. |
| Kənd təsərrüfatı maşınları – | 3 əd. |
| İribuynuzlu mal-qara – | 2800 baş |
| Xırdabuynuzlu mal-qara – | 4500 baş |
| Məktəb – | 1 əd. |
| Kitabxana – | 1 əd. |

## PƏYHAN

Zəngəzur mahalının Qafan rayonununda, rayon mərkəzindən 31 km şimal-qərbdə, rayon mərkəzindən 31 km şimal-qərbdə, Gığı çayının sol sahilində, dəniz səviyyəsindən 2.000 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1897-ci ildə kənddə 55 nəfər, 1922-ci ildə 70 nəfər, 1926-cı ildə 63 nəfər, 1931-ci ildə 96 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ildə başqa azərbaycanlı kəndləri kimi, pəyhanlıları da erməni-daşnak ordusu qovub kənddən çıxarmış, əhalisinin bir hissəsini qırmış, sağ qalanlar şaxtada Qazangöldən, Eşşək meydanından aşıb Naxçıvanın rayonlarına getmiş, yollarda çoxlu tələfat vermişlər.

1919-cu ildə geri dönmüş qaçqınları erməni daşnakları ikinci dəfə qaçqın salıb, Zəngilan rayonuna qovmuşlar. Yenə də camaat itkilər vermiş, sağ qalanlar bölgədə Sovet hakimiyyəti qurulandan sonra vətənlərinə dönmüşlər. 1920-ci ildə pəyhanlılar Geypəşin kəndinin əhalisi ilə birlikdə kolxoz təşkil edərək kəndi yenidən abadlaşdırmışlar.

1988-ci il noyabr ayının əvvəlində qəfildən azərbaycanlıları köçürmək tapşırığı verildi, yolları bağlandı, azərbaycanlıları işdən çıxarıb döyüb qovdular. Digər kəndlər kimi, Pəyhan kəndi də bu faciəni yaşadı, dekabrın birinci həftəsi hamı ev-eşiyini, var-yoxunu qoyub Zəngilana qaçdı.

**Pəyhan azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Tibb məntəqəsi – | 1 əd. |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Anbar binaları – | 1 əd. |
| Məscid – | 1 əd. |
| Avtomaşınlar – | 3 əd. |
| Kənd təsərrüfatı maşınları – | 3 əd. |
| İribuynuzlu mal-qara – | 3400 baş |
| Xırdabuynuzlu mal-qara – | 6200 baş |
| Məktəb – | 1 əd. |
| Kitabxana – | 1 əd. |

## ACIBAC

Zəngəzur mahalının Qafan rayonununda, Qafan şəhərindən 40 km məsafədə, Qazangöldən 20 km cənubda, Bərgüşad sıra dağlarının cənub-şərqində, Gığı dərəsinin şimal-qərbində, Gığı çayının sol qolu olan Acıbac çayının sol və sağ sahilində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə kənddə 38 təsərrüfatda 202 nəfər (109 kişi, 93 qadın) azərbaycanlı əhali yaşamışdır.

1918-ci ildə Andronikin rəhbərliyi ilə nizami ordu kəndin əhalisinin bir hissəsini qırmış, qalanı isə dağlara, bu kəndə yaxın olan Ordubad qəzasına qaçmışlar. 1922-ci ildən sonra öz doğma yurdlarına qayıtmış qaçqınlar dağıdılan kəndi yenidən bərpa edib öz təsərrüfatlarını yaratmışlar.

1926-cı ildə kənddə 90 nəfər, 1939-cu ildə 134 nəfər, 1959-cu ildə 190 nəfər, 1970-ci ildə 227 nəfər, 1979-cu ildə 202 nəfər əhali olmuşdur.

1988-ci il dekabrın 4-də rayonun erməni rəhbərləri bir həftə ərzində o biri kəndlərlə bərabər, bu kəndi də bütöv köçürtmüş, bütün varidatları ermərilərə qalmışdır.

### Acıbac azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Tibb məntəqəsi – | 1 əd. |
| Anbar binaları – | 1 əd. |
| Avtomaşınlar – | 1 əd. |
| Kənd təsərrüfatı maşınları – | 2 əd. |
| İribuynuzlu mal-qara – | 3000 baş |
| Xırdabuynuzlu mal-qara – | 4200 baş |
| Məktəb – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Poçt – | 1 əd. |

## HƏÇƏTİ

Zəngəzur mahalının Qafan rayonununda, rayon mərkəzindən 38 km şimal-qərbdə, Gığı çayının sağ sahilində, çaydan və Kığı kəndindən 3 km məsafədə, dağın döşündə nisbətən düzənlik yerdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1897-ci ildə burada 30 nəfər əhali yaşayıb. 1918-ci il faciəsindən sonra 1922-ci ildə 9 nəfər, 1926-cı ildə 41 nəfər, 1931-ci ildə 71 nəfər əhalisi olub. 1988-ci ildə Həcəti kəndi də başqa kəndlər kimi boşaldılmışdır. Həcəti kəndində X yüzilin alban abidələrinin qalıqları indi də saxlanılır.

1918-ci ilin dekabr ayı başqa kəndlər kimi, Həçəti kəndini də erməni-daşnak hökumətinin qoşunu dağıtmış, kəndin camaatını dağlardan Naxçıvan mahalına qovmuşlar. 1919-cu ildə qayıdıb gəlmiş qaçqınları ermənilər yenidən Zəngilan rayonuna qovmuş, varidatlarını əllərindən almışlar. Hər iki qaçqınlıqda ölənlər, yaralananlar çox olmuşdur.

Həçəti kəndinin əhalisi 1897-ci ildə 30 nəfər, 1922-ci ildə cəmi 9 nəfər, 1926-cı ildə 41 nəfər, 1931-ci ildə 71 nəfər olmuşdur.

1939-cu ildə Həçəti kəndini Gığı kəndinə köçürmüş, Həçəti kəndini isə söküb dağıtmışlar. Gığı kəndində yaşamağın çətin olduğunu görən Həçəti camaatı 1946-cı ildə yenidən öz kəndlərinə qayıtmış, təzədən ev tikmiş, həyət-baca düzəltmişlər.

Son vaxtlar kənddə ailələrin sayı 30, əhalinin sayı 160 nəfər idi, hər ailə yeni ev tikmişdi.

1988-ci ilin dekabr ayının əvvəlində ermənilərin Həçəti kəndini də zorla köçürmüş, əhalinin var-dömlətinə, mal-mülkünə sahib çıxmışlar.

## KEYPƏŞİN

Zəngəzur mahalının Qafan rayonununda, rayon mərkəzindən 38 km şimal-şərqdə, Gığı çayının yuxarı axarında, Kərd çayı ilə Kığı çayının birləşdiyi mənzərəli yerdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1897-ci ildə kənddə 68 nəfər, 1926-cı ildə 85 nəfər, 1959-cu ildə 1.372 nəfər əhali yaşamışdır.

Kənd əhalisi 1918-1920-ci illərdə iki dəfə qaçqınlığa məruz qalmışdır. 1918-ci ilin dekabr ayında erməni daşnakları kəndi dağıtmış, əhalinin bir hissəsini qırmış, bir hissəsi isə qışın qarlı-boranlı vaxtı dağdan aşıb, yollarda xeyli itki verə-verə Naxçıvan ərazisinə keçmişdir.

1919-cu ildə yenə də öz kəndlərinə qayıdıb, payız əkdikləri taxılı yığdıqdan və yandırılmış evləri bərpa etdikdən sonra erməni ordusu kəndi gülləboran etmiş və köçmələrini tələb etmişlər. Əlacsız xalq bu dəfə dağ yolu bağlı olduğu üçün Zəngilana köçmüşdü. Yığdıqları taxıl və evlərində olan varidat hamısı ermənilərə qalmışdı.

Qaçqın camaat bir də Sovet hakimiyyəti qurulduqdan sonra öz vətənlərinə qayıtmış, kəndi bərpa etmiş, Pəyhan kəndi ilə birləşərək kolxoz yaratmışlar.

Keypəşin kəndinin əhalisinin xeyli hissəsi Hücütüdə yaşayırdı, sonradan kəndə yığışmışdılar. Kəndin aşağısında Acıbac çayının sol sahilində qəbiristanlıq yerləşirdi. Pəyhan kəndi də ölüləri gətirib orada dəfn edirdilər, sonra məktəbin qabağında, quzeydə qəbiristanlıq saldılar.

1931-ci ildə isə camaat bir ildə iki bəla ilə üzləşmişdir: 1931-ci ilin 28 aprelində baş vermiş 9 bal gücündə zəlzələ kənddə on il ərzində tikdikləri evləri dağıtmış, ağır fəlakətlər törətmişdir. Digər tərəfdən, kollektivləşmə başlamış, camaatın olub-qalan mal-qarası kolxoza yığılmış, başbilən varlıları tutub sürgün etmişlər.

1988-ci ildə erməni daşnakları kənd camaatını yenə də və bu dəfə həmişəlik qovub kənddən çıxarmış, bütün evlərini, mal-dövlətlərini əllərindən almışdır.

## PÜRÜLÜ

Zəngəzur mahalının Qafan rayonununda, rayon mərkəzindən 24 km şimal-qərbdə, Gığı çayının sol sahilində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1831-ci ildə kənddə 41 nəfər, 1873-cü ildə 138 nəfər, 1886-cı ildə 49 təsərrüfatda 257 nəfər (138 kişi, 119 qadın), 1897-ci ildə 240 nəfər əhali yaşamışdır.

1918-ci il qırğınında əhali Ordubada qaçmış və 1922-ci ildə qaçqınların ancaq 126 nəfəri öz doğma ocaqlarına qayıtmışlar. 1931-ci ildə kənddə 254 nəfər azərbaycanlı yaşamışdır.

1988-ci ildə bu kəndin də əhalisi var-yoxları əlindən alınaraq zorla qovulmuşdur.

Ərazinin relyefi yaxşı olmadığı üçün Pürülü kəndi dağınıq şəkildə yerləşmişdir: **Kənd Pürülü, Daşbaşı, Xış Pürülü, Gərmə, Vərgəzür, Suxan, Pşan, Ulusurt (Ceyran), Pəsi düşən** kimi balaca kəndlərin hamısına birlikdə Pürülü kəndi deyilirdi. Pürülü kəndi çox qədim kənd olub, orda ancaq azərbaycanlılar yaşayıblar.

1988-ci ilin dekabr ayında bir həftə ərzində ermənilər kəndi köçürmüş, var-yoxlarına sahib olmuşlar. Pürülü kəndinin talan edilməsində Gorus erməniləri də iştirak etmiş, dağdan aşıb gələrək kənd camaatının malqarasını yığıb aparmışlar (1988-ci ilin noyabr-dekabr aylarında).

### Pürülü azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Tibb məntəqəsi – | 1 əd. |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Anbar binaları – | 1 əd. |
| Avtomaşınlar – | 2 əd. |
| İribuynuzlu mal-qara – | 3500 baş |
| Xırdabuynuzlu mal-qara – | 7000 baş |
| Məktəb – | 1 əd. |
| Kitabxana – | 1 əd. |

## QOVŞUD

Zəngəzur mahalının Qafan rayonununda, rayon mərkəzindən 17 km şimal-şərqdə, Gığı çayının sağ sahilində, Gığı və Oxçu çaylarının birləşdiyi Zeyvə qalasının yaxınlığında, həmin yerdən 3 km aralı, dağın dibində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1897-ci ildə kənddə 163 nəfər, 1914-cü ildə 320 nəfər əhali yaşamışdır.

1918-ci ilin dekabr ayında erməni daşnaq hökumətinin dəstələri kəndi dağıtmış, əhalinin bir hissəsini qırmış, salamat qalanlar Naxçıvana qaçmışlar.

1922-ci ildən sonra kəndin əhalisindən cəmi 108 nəfər qayıtmış, kəndi yenidən bərpa etmiş, kolxoz təsərrüfatını kənddən 25 km uzaqda olan Kürdükan (erməni kəndidir) heyvandarlıq sovxozuna birləşdirmişlər.

1988-ci ildə bütün rayon əhalisi kimi, Qovşud kəndinin də 200 nəfərdən artıq əhalisi hökumət səviyyəsində rayon partiya, sovet və inzibati orqanlarının rəhbərliyi ilə zorakılıqla, qırğın və talanlarla qovulmuşdur. Kəndin camaatının bütün mülkiyyəti, kolxoz əmlakı, evi, bağı əlindən alınmışdır.

### Qovşud-Atqız azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Tibb məntəqəsi – | 1 əd. |
| İribuynuzlu mal-qara üçün tövlə – | 5 əd. |
| Xırdabuynuzlu mal-qara üçün tövlə – | 6 əd. |
| Anbar binaları – | 1 əd. |
| Avtomaşınlar – | 2 əd. |
| Kənd təsərrüfatı maşınları – | 2 əd. |
| İribuynuzlu mal-qara – | 1400 baş |
| Xırdabuynuzlu mal-qara – | 3500 baş |
| Məktəb – | 1 əd. |
| Kitabxana – | 1 əd. |

## ZEYVƏ

Zəngəzur mahalının Qafan rayonununda, Rayon mərkəzindən 16 km şimal-qərbdə, Oxçu çayı ilə Gığı çayının birləşdiyi yerdə, Gığı çayının sol sahilində, Oxçu və Gığı çaylarının qovuşduğu yerdən 1 km şimalda kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1926-cı ildə kənddə 14 nəfər, 1931-ci ildə 49 nəfər azərbaycanlı əhalisi yaşamışdır. Sonralar Kığı kənd istehlak cəmiyyətinin bazasına çevrilmişdir.

1930-cu illərin əvvəllərində kənd ləğv edilmiş və əhalisi qonşu kəndlərə köçürülmüşdür. Yerində istehlak cəmiyyətinin bazası yaradılmışdır.

Zeyvə qəsəbəsi 1968-ci ildə baş vermiş 9 bal gücündə zəlzələdən sonra salınmışdır.

1970-ci ildə Gərd kəndini Zeyvə qəsəbəsinə köçürmüşlər, ətraf kəndlərdən də gəlib yaşayanlar var idi.

1983-cü ildə Baharlı plana düşdü. Baharlı kəndinin yerində 12 mln. kub metr tutumu olan su gölü tikintisinə başladılar. Ona görə də Baharlı, Suxan, Pşan kəndlərini köçürtdülər. Köçənlərin bir hissəsi Abşerona getdi, qalanları isə Zeyvədə tikilmiş daş binada məskunlaşdılar.

Yeni məktəb binası tikildi və istismara verildi. Baharlı məktəbi də Zeyvə orta məktəbinə birləşdirildi. Yeni binanan açılışı 1988-ci ilin iyul ayında oldu.

Həmin məktəb 1988-ci il dekabrın 1-ə qədər işlədi.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin bütün azərbaycanlı əhalisi doğma yurdundan qovulub çıxarılmış, kənd əhalisinə mənsub bütün əmlak ermənilər tərəfindən mənimsənilmişdir.

## MÜSƏLLƏM

Zəngəzur mahalının Qafan rayonununda, rayon mərkəzindən 17 km şimal-qərbdə, Oxçu çayına birləşdiyi düzənlik yerdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1897-ci ildə kənddə 34 nəfər, 1922-ci ildə 36 nəfər, 1926-cı ildə 44 nəfər, 1931-ci ildə 104 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-ci ildə erməni daşnak qüvvələri kəndi qanlı qırğınlarla qovmuşlar. Sovet hakimiyyətinin ilk illərində kəndin 104 nəfər qaçqın əhalisindən cəmi 30-35 nəfəri geri qayıtmış, 1940-cı illərin axırlarında kəndin əhalisi 500 nəfəri keçmişdir.

1988-ci il noyabrın 20-dən 28-dək bütün əhali var-dövlətləri əllərindən alınaraq qovulmuşdur.

### Müsəlləm azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Tibb məntəqəsi – | 1 əd. |
| İribuynuzlu mal-qara üçün tövlə – | 3 əd. |
| Xırdabuynuzlu mal-qara üçün tövlə – | 4 əd. |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Anbar binaları – | 1 əd. |
| Avtomaşınlar – | 2 əd. |
| Kənd təsərrüfatı maşınları – | 3 əd. |
| İribuynuzlu mal-qara – | 1500 baş |
| Xırdabuynuzlu mal-qara – | 4000 baş |
| Məktəb – | 1 əd. |
| Kitabxana – | 1 əd. |

## DAVIDBƏY (QANLIZƏMİ) QƏSƏBƏSİ

Zəngəzur mahalının Qafan rayonununda, Qafan şəhərindən 11 km şimalda, Oxçu çayının sol sahilində düzənlik yerdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Davıd bəy qəsəbəsi fəhlə qəsəbəsi idi, əhalisi azərbaycanlılardı. 1940-cı ildə yaranmışdı. Aşağı Girətağ kəndi ilə Davıdbəy qəsəbəsi arasındakı yüksək təpəlikdə yerləşən Qafan qalasına Davıdbəy adı verildiyi üçün qəsəbənin adı da Davıdbəy adlandırılmışdı.

1988-ci ildə bütün azərbaycanlılar qovulduqdan sonra qəsəbə ermənilər tərəfindən zəbt edilib. 1988-ci ildə qəsəbədən qovulanların sayı 560 nəfərdən çox olmuşdur.

## YUXARI GİRƏTAĞ

Zəngəzur mahalının Qafan rayonununda, Qafan şəhərindən 13 km şimal-qərbdə, Oxçu çayının sol qollarından biri olan Girətağ çayının sol sahilində, Qafan-Gecalan avtomobil yolundan 4-5 km şimal-şərqə doğru Gəzbel dağının aşağı ətəyində dağlıq sahədə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə kənddə 537 nəfər, 1897-ci ildə 328 nəfər, 1931-ci ildə 391 nəfər, 1959-cu ildə 310 nəfər, 1979-cu ildə 120 nəfər azərbaycanlı əhalisi olmuşdur.

1918-ci il faciəsinin mərkəzində olan Girətağ kəndi Andranikin təpədən-dırnağa silahlanmış quldur dəstəsinin qarşısında dayana bilməyib, qonşu Şəhərcik, Açağu, Aşağı Girətağ kəndəlirinin əhalisi ilə birlikdə qarlı dağlarla Ordubad vilayətinin müxtəlif kəndlərinə sığınmışlar. Dağlarda çoxlu tələfat vermişlər.

Bölgədə Sovet hakimiyyəti qurulandan sonra didərginlər öz doğma kəndlərinə qaytmışlar.

1988-ci ildə isə erməni millətçiləri kəndin camaatının bütün var-dövlətini, o cümlədən kolxoz mülkiyyətini əlindən alıb, birdəfəlik kənddən qovdular.

## AŞAĞI GİRƏTAĞ

Zəngəzur mahalının Qafan rayonununda, Qafan şəhərindən təqribən 12 km şimal-qərbdə, Oxçu çayının sol sahilində, Yuxarı Kirətağ kəndindən 3 km cənubda kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1897-ci ildə kənddə 87 nəfər, 1922-ci ildə 82 nəfər, 1926-cı ildə 87 nəfər, 1931-ci ildə 126 nəfər, 1939-cu ildə 139 nəfər, 1959-cu ildə 167 nəfər, 1979-cu ildə 148 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-ci ildə Andranikin quldur dəstələri kəndi dağıtmış, əhalisini qırmışlar. Adamlar Gığı mahalının azərbaycanlıları ilə birlikdə Ordubada qaçmış, 1922-ci ildə öz kəndlərinə qayıtmış, kəndi yenidən bərpa etmişlər.

1988-ci ilin noyabr ayında hökumət səviyyəsində inzibati orqanların köməyi ilə bir həftə ərzində rayondan qovulmuşlar.

Qafandan Zəngilana gedən yolun üstündə nəzarət postu qoyulmuşdu, rayondan çıxan yüklü maşınlara şəhərin içində od vurub yandırdılar.

1988-ci il dekabr ayının 8-dən 10-na qədər bütün kəndlər boşaldı. O cümlədən bizim Yuxarı və Aşağı Girətağ kəndlərinin qalan sakinləri də, əvvəl Zəngilan rayonuna, sonra isə Abşeron ərazisinə köçdülər.

### Aşağı Girətağ-Yuxarı Girətağ kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 2 əd. |
| Klub – | 2 əd. |
| İdarə binası – | 2 əd. |
| Tibb məntəqəsi – | 2 əd. |
| İribuynuzlu mal-qara üçün tövlə – | 5 əd. |
| Xırdabuynuzlu mal-qara üçün tövlə – | 7 əd. |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Anbar binaları – | 2 əd. |
| Avtomaşınlar – | 5 əd. |
| Kənd təsərrüfatı maşınları – | 6 əd. |
| İribuynuzlu mal-qara – | 1500 baş |
| Xırdabuynuzlu mal-qara – | 4500 baş |
| Məktəb – | 2 əd. |
| Kitabxana – | 2 əd. |

## AÇAĞU

Zəngəzur mahalının Qafan rayonununda, Qafan şəhərindən 10 km şimal-qərbdə, Bərgüşad sıra dağlarına daxil olan Qır qalası dağının sağ ətəyində, Qafan-Gecəlan avtomobil yolunun sağ kənarında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1897-ci ildə kənddə 126 nəfər, 1926-cı ildə 98 nəfər, 1939-cu ildə 165 nəfər, 1959-cu ildə 186, 1963-cü ildə 300 nəfər azərbaycanlı əhalisi yaşamışdır.

1918-ci ilin axırında kəndin əhalisi erməni nizami ordusunun təzyiqi altında öz doğma yerlərini tərk edib dağlara, Ordubadın müxtəlif kəndlərinə pənah aparmışlar.

Bölgədə Sovet hakimiyyəti qurulandan sonra yenidən öz vətənlərinə qayıdanlar kəndi bərpa etmiş, kolxoz təşkil etmişlər. 1950-ci illərdə kolxoz qonşu Şəhərcik kənd kolxozu ilə birləşdirilmiş, bir qədər sonra isə kolxoz tamamilə ləğv edilib mülkiyyəti "Sünik" erməni sovxozuna verilmiş, kəndin əhalisi isə oradan 25 km uzaqlıqda olan Gecəlan mis-molibden kombinatında işləməyə məcbur edilmişdir.

Kənddə əvvəlcə ibtidai, sonra isə səkkizillik məktəb açılmış, klub və kitabxanası olmuşdur.

1988-ci ilin noyabrında rayon partiya, sovet və inzibati orqanlarının təkidi ilə bir həftə ərzində kəndin bütün əhalisi qovulmuş, onların bütün mal-mülkü zorla əllərindən alınmışdır.

## ŞƏHƏRCİK

Zəngəzur mahalının Qafan rayonununda, rayon mərkəzindən 7 km şimalda, Oxçu çayının sol sahilində, şimaldan, şərqdən və qərbdən meşəliklərlə, meyvə bağları ilə və yüksək dağlarla əhatə olunmuş kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kənddə 1831-ci ildə 337 nəfər, 1873-cü ildə 362 nəfər, 1886-cı ildə 49 təsərrüfatda 371 nəfər (200 kişi, 171 qadın), 1897-ci ildə 796 nəfər, 1914-cü ildə 649 nəfər əhalisi olmuşdur.

Kənd üç hissədən – Aşağı kənd, Cəfərli və Yuxarı kənddən ibarətdi.

Kəndin qəbiristanlığında Bəndər padşahın qəbri və daşüstü yazısı saxlanılır ki, indiyədək o müqəddəs yer pir kimi tanınır (VII-VIII yüzillər), daha sonra qeyd etmək lazımdır ki, kəndin yaxınlığında Alban padşahı Sənakərimin qızının 913-cü ildə tikdirdiyi kilsənin daşı üzərindəki yazılar bunun Alban kilsəsi olduğunu sübut edir.

Şəhərcik qəbiristanlığının tarixi çox qədimdir. Üç min ilə yaxın tarixi olan bu məzarıstanlıq əslində bəzəkli bir şəhərə bənzəyirdi. Qəbiristanlığın ayağında üzərində mixi yazıları olan bir pir vardı. **Bəndər şahın piri** deyirdilər ona.

Kənddəki qəbiristanlıqların arasında yeni yol salınanda aydın oldu ki, köhnə qəbiristanlıqdakı məzarlar "üç mərtəbədir". Üç qatında da qəbirlərdə mərhumlar xalqımızın adət-ənənələrinə uyğun qayda ilə dəfn edilmişdir. Qəbiristanlıqdakı bu qatlardan hər birinin tarixi təqribən min il hesablanarsa, belə qənaətə gəlmək olar ki, bu oğuz yurdunun üç min ilə yaxın tarixi var.

1918-ci ilin avqust ayında Andranikin və Nijdehin quldur dəstələri kəndə hücum edəndə Şəhərcik sakinləri bu hücumun qarşısını alamış, Andranikin ən yaxın silahdaşlarını, komandirlərini öldürərək onları geri otuzdura bilmişlər. Cəmi 200 evlik Şəhərcik Andranikin, Njdehin təlim görmüş silahlı dəstələrinin yolunu mərdliklə kəsmişdi. Payızın son günlərində Halizordan atılan ağır topların aramsız atəşindən sonra Qır qalasına toplanmış kənd əhalisi Ordubada qaçmışdır. Şəhərcik kəndinin qaçqınları iki ildən artıq bir müddətdə Ordubadda yaşamışlar.

1922-ci ildə 566 nəfər qaçqın geriyə qayıdaraq öz doğma kəndlərində məskunlaşmışlar.

1988-ci ilin noyabrında erməni hökuməti yerli millətçilərin köməkliyi ilə əhalini zorla Şəhərcikdən qovdular.

## DOVRUS

Zəngəzur mahalının Qafan rayonununda, Oxdar kəndinin 3 km-də kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1831-ci ildə kənddə 184 nəfər, 1886-cı ildə 27 təsərrüfatda 184 nəfər (102 kişi, 82 qadın), 1897-ci ildə 303 nəfər, 1914-cü ildə 297 nəfər əhali yaşamışdır.

1918-ci ildə dovruslular da qanlı qırğınlarla öz vətənlərindən qovulmuşlar. Zəngəzur qəzası idarəsinin 1919-cu il 11 fevral tarixli nömrəsiz protokolunda bu kəndlərin başına açılan oyunları görmək olar. Orada deyilir: "Dovrus kəndinin sakini Əmir Muxtar oğlu göstərir ki, dornulu Rüstəm oğlu Əliyevlə, bizim kəndimizi ermənilər yandırandan sonra erməni kəndi olan Xotananda qalıb nökər olduq. Bu yaxnlarda ermənilər Gorusdan tapşırıq alıblar ki, kəndi müsəlmanlardan təmizləsinlər - ya bizi öldürsünlər, ya da qovlasınlar müsəlman rayonuna, buna görə də yoldaşı Əliyevi öldürmüş, özünü isə uşaq olduğu üçün qovmuşlar..."

1988-ci ildə ermənilər kənd əhalisinin 70 il ərzində əldə etdiklərini talan edib, yenidən onları Azərbaycana qovdular.

### Dovrus kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Tibb məntəqəsi – | 1 əd. |
| İribuynuzlu mal-qara üçün tövlə – | 5 əd. |
| Xırdabuynuzlu mal-qara üçün tövlə – | 7 əd. |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Anbar binaları – | 1 əd. |
| Avtomaşınlar – | 3 əd. |
| Kənd təsərrüfatı maşınları – | 4 əd. |
| İribuynuzlu mal-qara – | 1400 baş |
| Xırdabuynuzlu mal-qara – | 4000 baş |
| Məktəb – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |

## QARADIĞA

Zəngəzur mahalının Qafan rayonununda, Qafan şəhərindən 12 km şimal-şərqdə, Ecanın çayının sağ sahilində mənzərəli bir yamacda kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ilin statistik məlumatlarında kənddə 42 təsərrüfatda 332 nəfər (211 kişi, 121 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

Kənddə 1831-ci ildə 25 nəfər, 1873-cu ildə 200 nəfər, 1886-cı ildə 332 nəfər, 1897-ci ildə 213 nəfər, 1931-ci ildə 125 nəfər əhali yaşamışdır.

1918-ci ildə kənd qarət edilmiş və sağ qalanlar qonşu Qubadlı və Zəngilan rayonlarına qaçmışdır. Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra kəndin salamat qalan sakinləri 1922-ci ildə yerlərinə qayıtmış və dağıdılmış evlərini bərpa etməyə başlamışlar.

1988-ci ilin noyabr ayında evlərini, bağlarını, mülklərini, bütün ev əşyalarını kənddə qoyub qaçmağa məcbur edilmişdir.

**Qaradığa-Hünüt kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mədəniyyət evi – | 2 əd. |
| Klub – | 2 əd. |
| İdarə binası – | 2 əd. |
| Tibb məntəqəsi – | 2 əd. |
| İribuynuzlu mal-qara üçün tövlə – | 4 əd. |
| Xırdabuynuzlu mal-qara üçün tövlə – | 6 əd. |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Anbar binaları – | 2 əd. |
| Avtomaşınlar – | 2 əd. |
| Kənd təsərrüfatı maşınları – | 4 əd. |
| İribuynuzlu mal-qara – | 1200 baş |
| Xırdabuynuzlu mal-qara – | 3500 baş |
| Məktəb – | 2 əd. |
| Kitabxana – | 2 əd. |
| Poçt – | 1 əd. |

## XƏLƏC

Zəngəzur mahalının Qafan rayonununda, rayon mərkəzindən 4 km şimal-şərqdə, Ecanan (Xələc) çayının sol sahilində təpəlik üzərindəki düzənlikdə, Qafan-Oxdar avtomobil yolunun sağ tərəfində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kənddə 1831-ci ildə 123 nəfər, 1886-cı ildə 45 təsərrüfatda 200 nəfər (106 kişi, 94 qadın), 1897-ci ildə 329 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illədə daşnak silahlı dəstələrinin basqınından sonra bu kənddən də əhali zorla qovulmuş, qırılan qırılmışdır. Artıq 1922-ci ildə kənddə cəmi 132 nəfər əhali olmuşdur. 1931-ci ilin siyahıya alınmasında isə 780 nəfər əhali qeydə alınmışdır. Ölü kəndlərə çevrilən Baydaq, Təcədin, İncəvar, Yeməzli kəndlərinin torpaq sahələri Xələc kolxozuna qatılmışdır.

1988-ci ildə Xələc kəndi yenidən, üçüncü dəfə təqibə məruz qalmış, əhali zorla öz yurd-yuvalarından qovulmuşdur.

### Acıbac azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Tibb məntəqəsi – | 1 əd. |
| İribuynuzlu mal-qara üçün tövlə – | 4 əd. |
| Xırdabuynuzlu mal-qara üçün tövlə – | 4 əd. |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Anbar binaları – | 1 əd. |
| Avtomaşınlar – | 2 əd. |
| Kənd təsərrüfatı maşınları – | 4 əd. |
| İribuynuzlu mal-qara – | 1300 baş |
| Xırdabuynuzlu mal-qara – | 6000 baş |
| Məktəb – | 1 əd. |
| Kitabxana – | 1 əd. |

## OXDAR

Zəngəzur mahalının Qafan rayonununda, rayon mərkəzindən 15 km şərqdə, Ecanan (Oxdar) çayının sol sahilində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə kənddə 51 təsərrüfatda 338 nəfər (207 kişi, 131 qadın) azərbaycanlı əhali yaşamışdır.

1918-ci ildə Oxdar kəndi də erməni daşnaklarının hücumlarına məruz qalmışdı. Qonşu erməni kəndlərində daldalanmış daşnaklar hər gün kəndi gülləyə tutur, ancaq hər dəfə də cavablarını alırdılar. Kənd müdafiəçilərinin patron ehtiyatı yavaş-yavaş tükənirdi. Ağsaqqallar kənddən çıxmağı məsləhət gördülər. Bir gün yığışıb, gecə ikən kənddən çıxdılar. Ağgöldən keçib, Süsən meşəsindən keçib, Qubadlıya, Zəngilana sığındılar.

1926-cı ildə cəmi 13 nəfər öz kəndinə qayıtmış, 1931-ci ildə daha 164 nəfər kəndə dönmüşdür. Əhalisi 1959-cu ildə 900 nəfərə çatmışdır.

1988-ci ildə isə üçüncü və axırıncı dəfə tam çıxarılmışdır.

### Oxtar-Çobanlı azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 2 əd. |
| Klub – | 2 əd. |
| İdarə binası – | 2 əd. |
| Xəstəxana – | 1 əd. |
| Tibb məntəqəsi – | 1 əd. |
| İribuynuzlu mal-qara üçün tövlə – | 6 əd. |
| Xırdabuynuzlu mal-qara üçün tövlə – | 8 əd. |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Anbar binaları – | 2 əd. |
| Avtomaşınlar – | 3 əd. |
| Kənd təsərrüfatı maşınları – | 6 əd. |
| İribuynuzlu mal-qara – | 1500 baş |
| Xırdabuynuzlu mal-qara – | 4500 baş |
| Məktəb – | 2 əd. |
| Kitabxana – | 2 əd. |
| Yeməkxana – | 1 əd. |
| Poçt – | 1 əd. |

## CIBILLI

Zəngəzur mahalının Qafan rayonununda, rayon mərkəzindən 6-7 km cənub-şərqdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1873-cü ildə kənddə 80 nəfər, 1886-cı ildə 160 nəfər, 1897-ci ildə 82 nəfər, 1922-ci ildə 52 nəfər, 1926-cü ildə 53 nəfər, 1931-ci ildə 77 nəfər əhalisi yaşamışdır.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin bütün azərbaycanlı əhalisi sonuncu nəfərinə qədər kənddən qovulmuş, mal və mülkləri ermənilər tərəfindən mənimsənilmişdir.

## GÖDƏKLİ ZJİQAN

Zəngəzur mahalının Qafan rayonununda kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ilin statistik məlumatlarında kənddə 39 təsərrüfatda 206 nəfər (107 kişi, 99 qadın) azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

1897-ci ildə 56 nəfər azərbaycanlı əhalisi olmuşdur. Binaların uçuqları və kəndin qəbiristanlığı Qaraçimən kəndinin yaxınlığındadır.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin bütün azərbaycanlı əhalisi sonuncu nəfərinə qədər qovulmuş, mal və mülkləri ermənilər tərəfindən mənimsənilmişdir.

**Gödəkli (3 kəndi birləş.) azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mədəniyyət evi – | 3 əd. |
| Klub – | 3 əd. |
| İdarə binası – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Tibb məntəqəsi – | 3 əd. |
| İribuynuzlu mal-qara üçün tövlə – | 8 əd. |
| Xırdabuynuzlu mal-qara üçün tövlə – | 6 əd. |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Anbar binaları – | 3 əd. |
| Avtomaşınlar – | 3 əd. |
| Kənd təsərrüfatı maşınları – | 6 əd. |
| İribuynuzlu mal-qara – | 1500 baş |
| Xırdabuynuzlu mal-qara – | 4000 baş |
| Məktəb – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Poçt – | 1 əd. |

## BƏKDAŞ

Zəngəzur mahalının Qafan rayonununda, Qafan şəhərindən 6 km şimal-şərqdə, Qafan-Gorus avtomobil yolunun sağ tərəfində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kənddə 1897-ci ildə 87 nəfər, 1907-ci ildə 100 nəfər, 1928-ci ildə 27 nəfər, 1939-cu ildə 42 nəfər, 1959-cu ildə 60 nəfər azərbaycanlı yaşamışdır.

1908-ci ildə Baydak kəndinə, 1916-cı ildə isə qonşu erməni kəndi olan İrsəvənnik kəndinə birləşdirilmişdir. Bununla da kənd dağıdılmış və 1950-ci illərin axırlarında ləğv edilmiş, əhalisi Gödəkli kəndinə köçmüşdür.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin bütün azərbaycanlı əhalisi sonuncu nəfərinə qədər qovulmuş, mal və mülkləri ermənilər tərəfindən mənimsənilmişdir.

## ŞABADİN

Zəngəzur mahalının Qafan rayonununda, rayon mərkəzindən 13 km şimal-şərqdə, Qafan-Gorus avtomobil yolunun sol tərəfində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1831-ci ildə kənddə 51 nəfər, 1873-cü ildə 198 nəfər, 1886-cı ildə 261 nəfər (147 kişi, 114 qadın), 1897-ci ildə 316 nəfər, 1914-cü ildə 375 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-ci ildə daşnaklar Andranikin rəhbərliyi ilə Şabadin kəndini də yandırmış, kəndi xarabalığa çevirmişlər.

1922-ci ildə kənd əhalisinin 151 nəfəri geri qayıtmış, dağılmış evləri bərpa edərək təsərrüfat yaratmışlar. 1950-ci ildə kənddə yaradılan kolxoz yenidən dağıdılmış, kəndin mülkiyyəti isə kənddən 15 km uzaqlıqda olan erməni Sünik sovxozuna verilmişdir.

1959-cu ildə kəndin əhalisi 380 nəfərdən artıq olmuşdur.

1988-ci ildə erməni millətçiləri kəndə hücum edərək əhalini qovmuşlar. Kənddə X-XIII yüzilliklərdən yadigar qalan tarixi abidələr, daş üzərində yazılar vardı.

**Şabadin azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Tibb məntəqəsi – | 1 əd. |
| İribuynuzlu mal-qara üçün tövlə – | 6 əd. |
| Xırdabuynuzlu mal-qara üçün tövlə – | 6 əd. |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Anbar binaları – | 1 əd. |
| Avtomaşınlar – | 3 əd. |
| Kənd təsərrüfatı maşınları – | 4 əd. |
| İribuynuzlu mal-qara – | 1500 baş |
| Xırdabuynuzlu mal-qara – | 4500 baş |
| Məktəb – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Poçt – | 1 əd. |

## SİZNƏK

Zəngəzur mahalının Qafan rayonununda, rayon mərkəzindən 4 km cənub-şərqdə, Oxçu çayının sol sahilində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kənddə 1886-cı ildə 180 nəfər, 1897-ci ildə 174 nəfər, 1931-ci ildə 121 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə erməni daşnakları kəndə hücum edərək əhaliyə divan tutmuş, salamat qalanlar isə qovulmuşlar.

1922-ci ildə öz kəndlərinə qayıdan azərbaycanlı didərginlər dağıdılmış binaları yenidən qurmuş, özlərinə güzəran düzəltmiş, təsərrüfatı dirçəltmişlər. Kənddə məktəb, kitabxana, klub, tibb məntəqəsi yaratmışlar.

1959-cu ildə kənddə 409 nəfər, 1979-cu ildə 432 nəfər azərbaycanlı əhali yaşamışdır.

1988-ci ildə əhali zor gücünə qovulmuşdur.

### Siznək azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Tibb məntəqəsi – | 1 əd. |
| İribuynuzlu mal-qara üçün tövlə – | 4 əd |
| Xırdabuynuzlu mal-qara üçün tövlə – | 6 əd. |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Anbar binaları – | 1 əd. |
| Avtomaşınlar – | 3 əd. |
| Kənd təsərrüfatı maşınları – | 6 əd. |
| İribuynuzlu mal-qara – | 1200 baş |
| Xırdabuynuzlu mal-qara – | 3000 baş |
| Məktəb – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Baytarlıq məntəqəsi – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |

## QARAÇİMƏN

Zəngəzur mahalının Qafan rayonununda, rayon mərkəzindən 5 km şimal-şərqdə, Qafan-Gorus avtomobil yolunun sağ tərəfində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə kənddə 34 təsərrüfatda 225 nəfər (136 kişi, 89 qadın) azərbaycanlı yaşamışdır.

1918-1920-ci illərdə kənd erməni quldur dəstələri tərəfindən dağıdılmış, əhalisi doğma yurddan qovulmuşdur. Sonralar kənd yenidən bərpa olunsa da, 1988-ci ildə kənd camaatı sonuncu adamına qədər ermənilər tərəfindən qovuldu.

Qaraçimənin qəbiristanlığı Aşağı Qaraçiməndə idi. Təkcə qaraçimənlilər deyil, gödəklilər, irzaqulular da öz ölülərini burada dəfn edirdilər. Qaraçimənlilər də 1963-cü ilə qədər ölülərini orada dəfn edirdilər. 1963-cü ildə Qaraçimənlidə təzə qəbiristanlıq salınır.

1960-cı illərdə kəndin üst tərəfində Zoğallar deyilən yerin yuxarısında sahəni traktorla şumlayıranda köhnə qəbir daşları və insan sümükləri çıxır, məlum oldu ki, Həsənxan yalı deyilən yerdə Alban kəndi var imiş.

### Qaraçimən azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Tibb məntəqəsi – | 1 əd. |
| İribuynuzlu mal-qara üçün tövlə – | 4 əd. |
| Xırdabuynuzlu mal-qara üçün tövlə – | 5 əd. |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Anbar binaları – | 1 əd. |
| Avtomaşınlar – | 2 əd. |
| Kənd təsərrüfatı maşınları – | 5 əd. |
| İribuynuzlu mal-qara – | 1000 baş |
| Xırdabuynuzlu mal-qara – | 2300 baş |
| Məktəb – | 1 əd. |
| Kitabxana – | 1 əd. |

## BAHARLI

Zəngəzur mahalının Qafan rayonununda, Gığı çayının sol sahilində, Qafan şəhərindən 17 km şimal-qərbdə, Qafan qalasından 5-10 km məsafədə, dağın döşündə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1831-ci ildə kənddə 62 nəfər, 1886-cı ildə 12 təsərrüfatda 61 nəfər (34 kişi, 27 qadın), 1897-ci ildə 74 nəfər, 1926-cı ildə 113 nəfər, 1959-cu ildə 249 nəfər, 1970-ci ildə 380 nəfər, 1979-cu ildə 358 nəfər azərbaycanlı olmuşdur.

1918-1920-ci illərdə iki dəfə - Ordubada və Zəngilana qaçqınlığa məruz qalıblar, erməni daşnakları camaatın bir hissəsini qırmış, qışın şaxtalı vaxtında dağlardan aşıb Ordubada gedərkən çox itki vermişlər. Ermənilər kəndi bütöv yandırmış, camaatın var-yoxunu talan edib aparmışlar.

1983-cü ildə Baharlının əhalisi 428 nəfər olmuşdur.

Qarabaş kəndi 1939-cu ilədək ayrıca kənd idi, 1939-cu ildən sonra bu kənd ləğv edilmiş, Baharlı kəndinə birləşdirilmişdir.

Baharlı kəndi 1983-1985-ci illərdə köçürüldü, kəndin bir hissəsi Zeyvədə yerləşdirildi, bir hissəsi də Abşerona köçdü. Gecalan kombinatına su vermək üçün kəndin yerində göl tikdilər.

1988-ci ildə erməni quldurları gecə ikən məktəbə və yaşayış binalarına partlayıcı maddə qoyarkən tutulmuşlar. Ertəsi gün rayon rəhbərliyi camaatın köçməsini tələb edib və belə bəhanələr qoyublar ki, "sizin təhlükəsizliyinizi təmin edə bilməyəcəyik, köçməlisiniz!".

1988-ci il dekabrın 3-də Zeyvə qəsəbəsini boşaltdılar və ermənilərdən bir qədərini gətirib orada yerləşdirdilər, hər şeyə ermənilər sahib oldu.

## DAŞBAŞI

Zəngəzur mahalının Qafan rayonununda, rayon mərkəzindən 23 km şimal-qərbdə, Gığı çayının sol sahilində, dəniz səviyyəsindən 2.300 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1897-ci ildə kənddə 53 nəfər, 1922-ci ildə 42 nəfər, 1931-ci ildə 65 nəfər əhali yaşamışdır.

Daşbaşı və Pürülü kəndləri bir-birindən 2-3 km aralı olsa da, tarixən bir kənd kimi əlaqəli omuşlar. Bu kəndlər dağlıq ərazidə rayondan tam təcrid şəraitində yaşamışlar. 70 ildə kəndə adi yol da çəkilməyib.

1918-ci il qırğınlarından sonra kəndlər xeyli sahibsiz qalmış, yalnız 1922-ci ildə bu kəndlərin əhalisi öz yerlərinə qayıtmağa başlamış, 3 kənddə bir kolxoz təşkil edilmişdir. 1950-ci illərdə bu kolxoz da Gığı heyvandarlıq sovxozuna birləşdirilmişdir.

1988-ci ildə erməni bandit dəstələri kəndin bütün əhalisinin var-yoxunu əllərindən alıb qovmuşlar.

Kənd 15-20 ailədən ibarət idi. Maşın yolu yox idi, piyada və ulaqla gedirdilər. Kəndin arxası sıldırım qayalıqlar idi.

1968-ci ilin 1 və 9 sentyabrında baş vermiş 9 bal gücündə zəlzələdən sonra Daşbaşıda təmir-tikinti işi görmək çətinləşdi, ona görə də Gığı kəndinin Dırnacar adlanan kövşənində sovxoz 20 ədəd ev tikdirib daşbaşılıların istifadəsinə verdi. Onlar təzə ağac evlərə köçdülər, özləri də təzə əlavə tikililər, mal-qara üçün tövlə binaları tikdilər.

Daşbaşılılara çayın kənarında sulu torpaqlar verildi, bağ saldılar, əkin əkdilər. Təqribən 20 il orada yaşadılar. 1988-ci ilin dekabr ayında erməni hökumətinin hökmü ilə daşbaşılılar da varidatlarını orada qoyub Azərbaycana üz tutdular.

## DOVRUS

Zəngəzur mahalının Qafan rayonununda, Ecanın mahalının şimal-şərqində, Oxdar kəndinin 3 km-də kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

azərbaycanlı əhalinin yaşadığı göstərilmişdir.

Dovrus kəndi hər tərəfdən meşələrlə əhatə olunmuşdur. Şimala doğru dağlar və yaylaqlar uzanır.

1831-ci ildə kənddə 184 nəfər, 1886-cı ildə 27 təsərrüfatda 184 nəfər (102 kişi, 82 qadın), 1897-ci ildə 303 nəfər, 1914-cü ildə 297 nəfər əhali yaşamışdır.

1918-ci ildə dovruslular da qanlı qırğınlarla öz vətənlərindən qovulmuşlar.

1988-ci ildə ermənilər kənd əhalisinin 70 il ərzində əldə etdiklərini talan edib, yenidən onları Azərbaycana qovdular.

Kəndin tarixi qədimdir. IX yüzilə aid olan bir abidəni ermənilər təqdim etdikdən sonra xristianlara aid olmadığını görüb onu gizlətmək istəyərkən qarşısını almışlar. İndi həmin daş yazısı Dovrusdadır.

### Dovrus azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Tibb məntəqəsi – | 1 əd. |
| İribuynuzlu mal-qara üçün tövlə – | 5 əd. |
| Xırdabuynuzlu mal-qara üçün tövlə – | 7 əd. |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Anbar binaları – | 1 əd. |
| Avtomaşınlar – | 3 əd. |
| Kənd təsərrüfatı maşınları – | 4 əd. |
| İribuynuzlu mal-qara – | 1400 baş |
| Xırdabuynuzlu mal-qara – | 4000 baş |
| Məktəb – | 1 əd. |
| Kitabxana – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |

## HÜNÜT

Zəngəzur mahalının Qafan rayonununda, rayon mərkəzindən 15 km şimal-şərqdə, Ecanan çayının sağ sahilində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Ağ göldən bir qədər aşağı meşəlik və bağlarla əhatə olunmuşdur. Qaradığa kəndinə yaxındır.

1897-ci ildə 74 nəfər əhalisi olmuşdur.

1988-ci il qaçqınlığına qədər 26 təsərrüfatı, 120 nəfərdən artıq əhalisi olub. Lakin qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin bütün azərbaycanlı əhalisi ermənilər tərəfindən qovulub kənddən çıxarılmış, mal və əmlakları isə mənimsənilmişdir.

## NOVRUZLAR

Zəngəzur mahalının Qafan rayonununda kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin bütün azərbaycanlı əhalisi ermənilər tərəfindən qovulub kənddən çıxarılmış, mal və əmlakları isə mənimsənilmişdir.

# QATAR

Zəngəzur mahalının Qafan rayonununda, Oxçu çayından azca aralı, torpağı sarıya çalan dağın qatında salınmış kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1886-cı ildə kənddə 43 təsərrüfatda 250 nəfər (138 kişi, 112 qadın) azərbaycanlı əhali yaşamışdır.

Qatar Qafan mahalında ən iri azərbaycanlı kəndi sayılırdı. Kənd Qafan şəhərinin bir hissəsini və Oxçu çayının sol sahilində indi də Qatar şamı adlandırılan düzənlikdən başlamış Kavard kəndinədək uzanan mədən şəhərciyini əhatə edirdi. XIX yüzilin ikinci yarısında fransızlar tərəfindən istismara verilmiş mis-filiz mədənləri məhz kəndin yanında idi. Ona görə də mədənlərdə işləmək istəyənlər bu kənddə məskən salmış və XX yüzilin əvvəllərində bu kənddə 750 tüstü, 2.700 nəfərdən artıq əhali yaşamışdır.

Qatar kəndi birinci dəfə 1905-ci ildə ermənilər tərəfindən dağıdılmış, kəndin əhalisi aldadılaraq məscidə yığılıb yandırılmışdır.

1916-cı ildə 5.124 nəfər azərbaycanlı əhalisi olan bu kəndi ermənilər 1918-ci ildə yenidən yerlə-yeksan etdilər. Əhalisinin salamat qalan hissəsinin bir qismi dağlarla Naxçıvana və Ordubada, digər hissəsi Qarabağ zonasına qaçmışdır. Sovet dövründə Qatar kəndlilərinin yenidən öz kəndinə qayıtmasına yerli sovet icazə vermədi. Orada Lenin mədənləri adlanan qəsəbə saldılar (əhalisi ermənilərdən ibarət), qatarlılara isə yalnız Qafan şəhərində məskən salmağa icazə verdilər.

1988-ci ildə erməni millətçilərinin Qafan şəhərindən qovub çıxardıqları 5.000 nəfərdən artıq azərbaycanlının əksəriyyəti qədim Qatar kəndinin sakinləri idi. Lakin onlar hamısı erməni millətçiləri tərəfindən öz tarixi torpaqlarından qovulub çıxarıldılar.

## ATQIZ

Zəngəzur mahalının Qafan rayonununda, Oxçu çayının sol sahilində, Oxçu kəndindən 2 km şimalda Pirhəmzə dağının cənub-qərbində – Gecəlan avtomobil yolundan 2 km şimalda dağın döşündə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1831-ci ildə kənddə 37 nəfər, 1886-cı ildə 18 təsərrüfatda 120 nəfər (71 kişi, 49 qadın), 1897-ci ildə 242 nəfər, 1926-cı ildə 74 nəfər, 1939-cu ildə 193 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-ci ildə Oxçu kəndində azərbaycanlılar yandırılan dövrdə bu kəndin əhalisi də Ordubad qəzasına qaçmış, sonralar 32 ailə qaçqınlıqdan qayıdaraq kənddə abad binalar tikmiş, kolxoz yaratmışlar. 1959-cu ildə kəndi zorla, inzibati yolla Gecəlan şəhərinə birləşdirmiş, əkin sahələrini Gürdükan sovxozuna vermişlər.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin bütün azərbaycanlı əhalisi ermənilər tərəfindən qovulub kənddən çıxarılmış, mal və əmlakları isə mənimsənilmişdir.

## ÇİRİŞ

Zəngəzur mahalının Qafan rayonununda, rayon mərkəzindən 43 km şimal-şərqdə, Kurud kəndindən 3 km şərqdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1897-ci ildə kənddə 27 nəfər, 1922-ci ildə 73 nəfər, 1926-cı ildə 79 nəfər, 1931-ci ildə 95 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-ci ildə kənd erməni daşnaklarının hücumuna məruz qalmış, kənddən didərgin düşmüş, bir də 1920-ci illərdə bir hissəsi öz doğma kəndlərinə geri dönmüşlər.

1930-cu illərdə Kurud kəndi ilə bir yerdə kolxoz təşkil etmişlər.

1950-ci illərdə Kurud kolxozu Gığı heyvandarlıq sovxozuna birləşdirilmişdir.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı Kurud və Kirs kəndlərinin əhalisi ilə bir yerdə Çiriş kəndinin də əhalisi doğma yurdlarından qovulub çıxarılmışlar.

## QAFAN

Zəngəzur mahalının Qafan rayonununda kənd. Qafan rayonunun inzibati mərkəzi.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılar və ermənilər yanaşı yaşamışlar.

Qafan 1938-ci ildən respublika tabeli şəhər statusu almışdır.

Şəhərin adı keçmişdə mövcud olan, indiki Qafan şəhərindən 10 km şimal-qərbə doğru, Oxçu çayının sağ sahilində yerləşmiş Qafan kəndinin adı ilə bağlıdır.

Qafan rayonunun mərkəzi olan Qafan şəhəri İrəvandan 320 km, Bakıdan 380 km məsafədədir. 1976-cı ilin statistikasına görə, əhalisi 36 min nəfər idi ki, onlar da əsasən azərbaycanlılar və ermənilər idilər.

Şəhər təsərrüfatının qabaqcıl sahəsi dağ-mədən sənayesidir. XIX yüzilin 2-ci yarısında fransızlar misəritmə sənayesini yaradaraq mis filizi mədənlərinin sənaye üsulu ilə istifadə edilməsinə başlamışlar. Sonralar Zəngəzur mis-molibden kombinatı yaradılmışdır.

1988-ci il noyabrın 28-dən şəhərdə yaşayan bütün azərbaycanlılar zorla qovulmuşlar.

## QACARAN

Zəngəzur mahalının Qafan rayonununda, rayon mərkəzindən 32 km, İrəvan şəhərindən 352 km məsafədə kənd. 1958-ci ildən respublika tabeli şəhər.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılar və ermənilər yanaşı yaşamışlar.

Ən yaxın dəmiryol dayanacağı 32 km kənarda yerləşən Qafan stansiyasıdır.

1886-cı ilin statistik məlumatlarında Yelizavetpol quberniyasının Zəngəzur qəzasının Qatar nahiyəsinin **Gecanan (Qacarants) kəndi** kimi qeydə alınmış, kənddə 46 təsərrüfatda 465 nəfər (256 kişi, 209 qadın) erməni əhalinin yaşadığı göstərilmişdir.

1918-ci ildə kəndin azərbaycanlı əhalisi erməni daşnaklarının təcavüzünə məruz qalmış və kənddən qovulub çıxarılmışlar.

Qacaran azərbaycanlıları belə faciəni 1988-ci ildə də yaşamışlar. Həmin ildə onlar doğma yurdlarından qanlı qırğınlarla qovulmuş, bütün mülk və əmlakları ermənilər tərəfindən əllərindən alınmışdır.

## SÜNİK

Zəngəzur mahalının Qafan rayonununda, Oxçu çayı ilə Ecanan (Xələc) çayının birləşdiyi düzənlik yerdə kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

Siznək sovetliyinə tabe olmuşdur.

1897-ci ildə kənddə 28 nəfər erməni, 13 nəfər azərbaycanlı, 1926-cı ildə 35 nəfər erməni, 5 nəfər azərbaycanlı, 1931-ci ildə 21 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-ci ildə kənd erməni quldur dəstələri tərəfindən dağıdılmış, əhalisi kənddən qovulub çıxarılmışdır.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin bütün azərbaycanlı əhalisi yenidən ermənilər tərəfindən soyqırımına məruz qalmış, qovulub kənddən çıxarılmış, mal və mülkləri əvəziödənilmədən mənimsənilmişdir.

## KEŞİŞKƏND (MİKOYAN, YEĞEQNADZOR) RAYONU

Dərələyəz mahalı ərazisində rayon.

1931-ci il oktyabrın 15-də yaradılıb, 1935-ci il yanvarın 3-nə qədər Keşişkənd rayonu, həmn tarixdən 1957-ci il dekabrın 6-na qədər Mikoyan rayonu, ondan sonra isə Yeğeqnadzor rayonu adlandırılıb.

Ərazisi 1134 kv. km-dir.

Rayon mərkəzi şəhər tipli Keşişkənd (Yeğeqnadzor) qəsəbəsidir.

Rayon mərkəzinə ən yaxın dəmiryol dayanacağı 58 km kənarda yerləşən Arazdəyən (Yerasx) stansiyasıdır (Vedi rayonu ərazisində).

Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 122 km-dir.

### 1988-ci ilə qədər Keşişkənd (Mikoyan, Yeğeqnadzor) rayonunda mövcud olan azərbaycanlı yaşayış məntəqələrinin siyahısı

**Xalis azərbaycanlı yaşayış məntəqələri**

1. Qabaxlı
2. Ələyəz (19.04.1991-ci ildən – Yexegis)
3. Qovuşuq (19.04.1991-ci ildən – Yermon
4. Aysəsi (10.09.1946-cı ildən – Qızılgül, 19.04.1991-ci ildən – Arates)
5. Qalaser
6. Qoduxvəng (sonralar – Gədikvəng)
7. Qaraqaya
8. Gülüdüz (19.04.1991-ci ildən – Vardahovit)

**Qarışıq yaşayış məntəqələri**

9. Əmağu
10. Sallı
11. Hors
12. Ağkənd (03.07.1968-ci ildən – Ağncadzor)
13. Çivə

**Keşişkənd rayonu azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Qaraj – | 12 əd |
| Anbar binaları – | 36 əd |
| Dəmirçi sexi – | 12 əd |
| Dülgər sexi – | 13 əd |
| Enerji şəbəkəsi – | 12 əd. |
| Dəyirman – | 12 əd |
| İdarə binası – | 12 əd. |
| Məktəb – | 12 əd. |
| Mədəniyyət evi – | 12 əd. |
| Uşaq bağçası – | 10 əd. |
| Poçt binası – | 11 əd. |
| Yeməkxana – | 10 əd. |
| Mağaza – | 13 əd. |
| Hamam – | 19 əd. |
| Yem sexi – | 12 əd. |
| Mal-qara üçün tövlə – | 125 əd. |
| İribuynuzlu mal-qara – | 6900 baş |
| Xırdabuynuzlu mal-qara – | 76800 baş |
| Üzüm bağı – | 230 ha |
| Meyvə bağı – | 325 ha |
| Kənd təsərrüfatı maşınları – | 253 əd. |
| Avtomaşınlar – | 123 əd. |

# QABAXLI

Dərələyəz mahalının Keşişkənd (Yeğeqnadzor) rayonunda, rayon mərkəzindən 28 km məsafədə, dəniz səviyyəsindən 1.824 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Qabaxlı Ələyəz dərəsi adlanan yerdə ən böyük kəndlərdən biridir. Bu kənddən Səfolar İstisuyuna (Cermuka) gedən yol Şərurdan Sisiyana gedən magistral yola, oradan da Sisyan, Qafan, Şuşa, Ağdam istiqamətində Azərbaycana birləşir. Həmin İstisudan gedən yolun bir qolu da Kəlbəcərlə birləşir.

Qovuşuq kənd Sovetliyinə daxil idi. Çox zaman Qovuşuq kəndi ilə sovxoz şəklində birləşdirilmiş, bəzən də ayrılıqda fəaliyyət göstərmişdir.

1831-ci ildə kənddə 45 nəfər, 1873-cü ildə 268 nəfər, 1886-cı ildə 429 nəfər, 1897-ci ildə 566 nəfər, 1904-cü ildə 614 nəfər, 1914-cü ildə 675 nəfər, 1916-cı ildə 763 nəfər azərbaycanlı əhali yaşamışdır.

1918-ci ilin əvvəllərində Ermənistanın daşnak hökumətinin göstərişi ilə erməni quldur dəstələri kəndi talan eləmiş, dağıtmış, əhalisinin bir hissəsini qırmış, salamat qalanlarını isə kənddən qovmuşlar. Kənd əhalisinin yeganə çıxış yolu dağlarla, dərələrlə Naxçıvana və digər yaxın yerlərə qaçmaq olmuşdur.

1922-ci ildə qaçqınlardan yalnız 59 nəfər öz kəndinə qayıda bilmişdir. 1931-ci ilədək kəndin əhalisinin sayı 330 nəfərə çatmışdır.

1948-1953-cü illərdə Dərələyəzin Ələyəz dərəsindəki digər 8 kəndin hamısı sözü bir yerə qoyaraq və el ağsaqqallarının sözünə əməl edərək köçməkdən imtina etmişlər. Bu səbəbdən bu 8 kəndin əhalisi ermənilərin böyük təzyiqlərinə məruz qalmışlar.

Qabaxlı kəndinin qəbiristanlığında qəbirlərin üstündə çoxlu qoç daşları, at şəkli olan daşlar olmuşdur. Lakin ermənilər bunları hissə-hissə tədricən oğurlayıb aparmışlar. Bundan başqa, bu kəndin aşağı hissəsində qədim bir abidə, bir neçə tağdan ibarət və qapısı qibləyə baxan böyük bir abidə olmuşdur ki, sonra bunları ermənilər dağıtmış və kənd əhalisi bunun daşlarını evlərinin divarlarına hörmüşlər. Rayon alban türklərinə məxsus olan bu qədim abidəni qorumağa səy göstərməmiş və bu abidə tamamilə dağılıb getmişdir.

Kənddə aşağıdakı pir-ocaqlar olmuşdur: 1. Seyid Abbasın ocağı, 2. Seyid Hüseynin ocağı, 3. Lüləpər ocağı.

**Qabaxlı kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Qaraj – | 1 əd |
| Anbar binaları – | 3 əd |
| Dəmirçi sexi – | 1 əd |
| Dülgər sexi – | 1 əd |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Dəyirman – | 1 əd |
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Poçt binası – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Mağaza – | 1 əd. |
| Hamam – | 1 əd. |
| Yem sexi – | 1 əd. |
| Mal-qara üçün tövlə – | 14 əd. |
| İribuynuzlu mal-qara – | 1000 baş |
| Xırdabuynuzlu mal-qara – | 20000 baş |
| Meyvə bağı – | 5 ha |
| Kənd təsərrüfatı maşınları – | 30 əd. |
| Avtomaşınlar – | 12 əd. |

## ƏLƏYƏZ

Dərələyəz mahalının Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Ələyəz kəndi Dərələyəzin ən qədim məskənlərindən biridir. Tarixi mənbələrdə "Alagöz", "Kərimxan məzrəsi", "Ələyəz mahalı" adı ilə də tanınır.

1894-cü ilə qədər Ələyəz kəndi Dərələyəzdə 20 kəndin mərkəzi olmuşdur. Lakin 1894-cü ildən sonra çar Rusiyası bu mərkəzi Həsənkəndə (1828-ci ildən sonra azərbaycanlıları zorla çıxarıb erməniləri yerləşdirdikləri kəndə) köçürmüşlər.

1831-ci ildə kənddə 32 nəfər, 1873-cü ildə 223, 1886-cı ildə 356 nəfər, 1897-ci ildə 412 nəfər, 1904-cü ildə 524 nəfər, 1914-cü ildə 576 nəfər, 1916-cı ildə 322 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ildə daşnak Yaponun, Doluxanovun və Keşişovun başçılıq etdiyi nizami ordu bu kəndə hücum etmiş, kəndi dağıtmış, əhalisinin çoxunu qırmış, sağ qalanlar isə qaçıb müxtəlif yerlərə getmişlər.

1922-ci ildə cəmi 180 nəfər qaçqın kəndə qayıtmışdır. "1959-cu ildə burada 499, 1970-cı ildə 884, 1979-cu ildə 963 nəfər azərbaycanlı" yaşamışdır.

1988-ci ildə ermənilər kəndi mühasirəyə alaraq bura bulud dağıdan toplardan atəş açmış, topun mərmiləri bəzi evləri (İsmayıl Gülməmmədovun evini) xeyli dərəcədə dağıtmışdı. Bundan bir qədər sonra ermənilər kənd əha-lisini zor ilə kənddən qovmuşlar.

Salsal qalasının ətəyində yerləşən şəhərtipli qədim qəsəbə və yaxud şəhərlə həmsərhəd olan Ələyəz kəndində çoxlu tarixi abidələr vardır. Bu kənddə və kəndin ərazisində 6-7 abidə (vəng və kilsə) vardır.

Alban türklərinin bu abidələrini ermənilər XIII yüzilə aid edirlər. Qeyd edək ki, Ələyəz kəndində haranı qazırsansa, oradan qədim tarixə aid bir əşya, bir yadigar çıxır.

### Ələyəz kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Qaraj – | 1 əd |
| Anbar binaları – | 3 əd |

| | |
|---|---|
| Dəmirçi sexi – | 1 əd |
| Dülgər sexi – | 1 əd |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Dəyirman – | 1 əd |
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Poçt binası – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Mağaza – | 1 əd. |
| Hamam – | 1 əd. |
| Yem sexi – | 1 əd. |
| Mal-qara üçün tövlə – | 14 əd. |
| İribuynuzlu mal-qara – | 500 baş |
| Xırdabuynuzlu mal-qara – | 10000 baş |
| Üzüm bağı – | 20 ha |
| Meyvə bağı – | 50 ha |
| Kənd təsərrüfatı maşınları – | 15 əd. |
| Avtomaşınlar – | 8 əd. |

## QOVUŞUQ//QAVUŞUQ//QAVIŞIQ

Dərələyəz mahalının Keşişkənd (Yeğeqnadzor) rayonunda, dəniz səviyyəsindən 1.792 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Arpa çayının əsas qolunun biri bu kəndin içindən keçir. Ümumiyyətlə, bu kənddə ətrafdan gələn 4 çay qovuşur, ətraf kəndlərə gedən yolun dördü də buradan keçir. Məhz bu relyefə görə kəndə Qovuşuq adı verilmişdir.

Kənddə 1831-ci ildə 96 nəfər, 1873-cü ildə 158 nəfər, 1886-cı ildə 190 nəfər, 1897-ci ildə 232 nəfər, 1904-cü ildə 172 nəfər, 1914-cü ildə 190 nəfər, 1916-cı ildə 376 nəfər əhali olmuşdur.

1918-ci ildə Yaponun quldur dəstəsi bu kəndi də dağıtmış, yandırmış, əhalisinin əksəriyyətini qırmış, sağ qalanlar isə qaçıb Şəmkirə, Gəncəyə, Laçına, Kəlbəcərə, Ağdama, Goranboya, Şərura getmişlər.

1922-ci ildə kəndə 138 nəfər adam qayıtmışdır. Bu say 1926-cü ildə 260-a, 1931-ci ildə 325-ə çatmış, 1988-ci ildə isə bu kənddə 800 azərbaycanlı yaşamışdır.

1948-1953-cü illərdə bu kəndin əhalisi qonşu 7 kəndlə birlikdə hökumətin qərarına qarşı çıxmış və köçməmişdir.

Kəndin 800 nəfər əhalisi ermənilər tərəfindən 1988-ci ildə zorla kənddən çıxarılmışdır.

Bu kəndin lap qədim qəbiristanlığı var. Burada qəbir üstündəki qoç daşların, daş atların sayı-hesabı yox idi.

1988-ci ilin payızında ermənilər Qovuşuq kənd əhalisini, həmçinin ətrafdakı 6 kəndin camaatını deportasiya edəndə, onları yükünü özü boşaldan samasvalt maşınlara doldurub var-dövlətlərini əllərindən alıb çıl-çılpaq şəkildə kənddən qovdular.

Nəhayət, Dərələyəz qaçqınları ölümün pəncəsindən qurtarıb, Naxçıvana sığındılar.

### Qovuşuq kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Qaraj – | 1 əd |
| Anbar binaları – | 3 əd |

| | |
|---|---|
| Dəmirçi sexi – | 1 əd |
| Dülgər sexi – | 1 əd |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Dəyirman – | 1 əd |
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Poçt binası – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Mağaza – | 1 əd. |
| Hamam – | 1 əd. |
| Yem sexi – | 1 əd. |
| Mal-qara üçün tövlə – | 5 əd. |
| İribuynuzlu mal-qara – | 500 baş |
| Xırdabuynuzlu mal-qara – | 6000 baş |
| Üzüm bağı – | 50 ha |
| Meyvə bağı – | 100 ha |
| Kənd təsərrüfatı maşınları – | 150 əd. |
| Avtomaşınlar – | 53 əd. |

## AYSƏSİ

Dərələyəz mahalının Keşişkənd (Yeğeqnadzor) rayonunda, rayon mərkəzindən 29 km məsafədə, Qovuşuq kəndindən 4 km şimalda, dəniz səviyyəsindən 2.084 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kənddə 1873-cü ildə 219 nəfər, 1886-cı ildə 313 nəfər, 1897-ci ildə 311 nəfər, 1904-cü ildə 412 nəfər, 1914-cü ildə 453 nəfər əhali olmuşdur.

1918-ci ildə daşnak Yapon və polkovnik Doluxanovun quldur dəstələri başqa kəndlərdə olduğu kimi, bu kəndin də əhalisini qırmış və sağ qalanlarını kənddən qovmuşlar. Azərbaycanın müxtəlif yerlərinə səpələnən bu kənd əhalisindən 1922-ci ildə 254 nəfəri yenidən kəndə qayıtmış və 1931-ci ildə kəndin əhalisinin sayı 288 nəfərə çatmışdır.

1930-cu ildə kənddə kolxoz qurulmuş, 1960-cı ildə kənd Qovuşuq kəndi ilə bir sovxozda birləşdirilmişdir. 1946-cı ildə ermənilər qədim türk tayfasının adı ilə bağlı olan bu kəndin adını dəyişərək "Qızılgül" qoymuşlar. Guya "Ayısəsi" birləşməsində birinci tərəf heyvan adı ilə bağlıdır. Bununla da ermənilər Oğuz tayfasının adı ilə bağlı olan bu adı da tarixdən silmək istədilər.

1988-ci ildə ermənilər Qərbi Azərbaycanda yaşayan digər azərbaycanlılar kimi bu kəndin də əhalisini zorla kənddən çıxarmış, kənddən qovmuş və var-dövlətlərinə, mülklərinə sahib olmuşlar.

Bu "kənddə və onun ətrafında VII, X-XI yüzillərə aid bir sıra tarixi abidələr vardır". Məşhur "Gələsən görəsən"//"Gəl gör" adlı alban türklərinə məxsus kilsə bu kənddədir.

Bu kənd özünün qədim və heyrətamiz abidəsi olan, VII əsrdə əsası qoyulan, XII-XIII yüzillərdə bərpası və tikilişi başa çatdırılan kilsəsi ilə məşhurdur. Bundan başqa, bu kəndin ərazisində qədim qəbiristanlıqlar və xarabalıqlar da vardır. Qəbir daşlarının çoxunun üzərində alban yazıları həkk olunmuşdur. Kəndin qəbiristanlığından təxminən 200 metr aralıda 3 m uzunu, 1 m eni olan daş təhnə vardır. Bu təhnə bozalt daşından yonulub hazırlanmış və 500 m aralıda olan bulağın suyu bu təhnə daşa gətirilmişdir. Kilsənin yaxınlığındakı balaca qəbiristanlıqda isə başdaşlarının üstündə naxışlar və alban əlifbasında olan yazılar (cənub üzündə), şahə qalxmış at üstündə əlində qılınc, qalxan, yay, ox olan bir cəngavər oğlan təsvir edilmişdir. Oğlanın çiynində saz da təsvir edilmişdir. Şahə qalxan atın qabağında isə pəncəsini açan aslan təsvir edilmişdir.

**Aysəsi kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Qaraj – | 1 əd |
| Anbar binaları – | 3 əd |
| Dəmirçi sexi – | 1 əd |
| Dülgər sexi – | 1 əd |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Dəyirman – | 1 əd |
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Poçt binası – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Mağaza – | 1 əd. |
| Hamam – | 1 əd. |
| Yem sexi – | 1 əd. |
| Mal-qara üçün tövlə – | 6 əd. |
| İribuynuzlu mal-qara – | 200 baş |
| Xırdabuynuzlu mal-qara – | 1800 baş |
| Meyvə bağı – | 10 ha |
| Kənd təsərrüfatı maşınları – | 5 əd. |
| Avtomaşınlar – | 4 əd. |

## QALASER

Dərələyəz mahalının Keşişkənd (Yeğeqnadzor) rayonunda, Ələyəz dərəsində, rayon mərkəzindən 26 km, Qovuşuq kəndindən isə 1 km məsafədə, dəniz səviyyəsindən 2.000 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kənddə 1873-cü ildə 108, 1886-cı ildə 154, 1897-ci ildə 184, 1904-cü ildə 154, 1914-cü ildə 170, 1916-cı ildə 248, 1922-ci ildə 46, 1926-cı ildə 104, 1931-ci ildə 142 nəfər əhali yaşamışdır.

Ermənistan hökuməti 1980-ci illərdə azərbaycanlılar yaşayan Amağu, Gədikvəng (Qoduxvəng) və Qalaser kəndlərini köçürmək üçün yeni bir hiyləyə əl atdılar. Bu kəndlərə erməni mütəxəssislərini göndərdilər və onlar belə bir qərara gəldilər ki, guya bu kəndlər və bunların üstündəki dağ sürüşür, camaat təcili kənddən çıxmalıdır. Bununla da bu kəndlərin əhalisini vahiməyə salıb camaatı yavaş-yavaş köçürməyə başladılar. 1986-1987-ci illərdə bu kənd camaatını tamamilə kənddən çıxartdılar və evləri dağıtdılar. Lakin indiyədək nə o kəndlər sürüşüb, nə də onların üstündəki dağ.

### Qalaser kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Qaraj – | 1 əd |
| Anbar binaları – | 3 əd |
| Dəmirçi sexi – | 1 əd |
| Dülgər sexi – | 1 əd |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Dəyirman – | 1 əd |
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Mağaza – | 1 əd. |
| Yem sexi – | 1 əd. |
| Mal-qara üçün tövlə – | 8 əd. |
| İribuynuzlu mal-qara – | 300 baş |
| Xırdabuynuzlu mal-qara – | 5000 baş |
| Kənd təsərrüfatı maşınları – | 5 əd. |
| Avtomaşınlar – | 2 əd. |

## QODUXVƏNG//XIRDA VƏNG//GƏDİKVƏNG

Dərələyəz mahalının Keşişkənd (Yeğeqnadzor) rayonunda, dəniz səviyyəsindən 2.200 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kənddə 1873-cü ildə 142 nəfər, 1886-cı ildə 201 nəfər, 1897-ci ildə 206, 1904-cı ildə 126, 1914-cü ildə 138, 1916-cı ildə 273 nəfər əhali olmuşdur.

1918-ci ildə erməni qulduru Yaponun və Doluxanovun vəhşi dəstələri bu kəndi də dağıtmış, əhalisinin çox hissəsini qırmışlar. 1922-ci ildə cəmi 70 nəfər öz kəndinə qayıtmışdır. Bu kənddə 1931-ci ildə 171 nəfər, 1959-cu ildə 313 nəfər, 1970-ci ildə 396 nəfər, 1979-cu ildə 537 nəfər, 1988-ci ildə isə 600 nəfər əhali yaşamışdır.

1986-1987-ci illərdə ermənilər kəndin üstündəki dağın sürüşəcəyi bəhanəsi ilə kəndi köçürmək istəsələr də, kənd camaatı ermənilərin bu hiyləsini başa düşüb kənddən çıxmadılar. 1988-ci ildə isə erməni daşnakları kənd əhalisini zorla öz doğma yurdundan qovub çıxartdılar.

### Qoduxvəng kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Qaraj – | 1 əd |
| Anbar binaları – | 3 əd |
| Dəmirçi sexi – | 1 əd |
| Dülgər sexi – | 1 əd |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Dəyirman – | 1 əd |
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Poçt binası – | 1 əd. |
| Mağaza – | 1 əd. |
| Yem sexi – | 1 əd. |
| Mal-qara üçün tövlə – | 13 əd. |
| İribuynuzlu mal-qara – | 400 baş |
| Xırdabuynuzlu mal-qara – | 8000 baş |
| Kənd təsərrüfatı maşınları – | 5 əd. |
| Avtomaşınlar – | 6 əd. |

## QARAQAYA

Dərələyəz mahalının Keşişkənd (Yeğeqnadzor) rayonunda, dəniz səviyyəsindən 2.040 m yüksəklikdə, dağlar qoynunda kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kənddə 1873-cü ildə 141 nəfər, 1886-ci ildə 214 nəfər, 1897-ci ildə 259 nəfər, 1904-cü ildə 177 nəfər, 1914-cü ildə 194 nəfər, 1916-cı ildə 303 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ildə kənd erməni quldurları tərəfindən yerlə-yeksan edilmiş, əhalinin bir hissəsi qırılmış, bir hissəsi isə kənddən qovulmuşdur.

Bir neçə il xaraba qalmış, kəndə 1922-ci ildə 97 nəfər qayıtmış, 1931-ci ildə əhalinin sayı 193 nəfər olmuşdur.

1930-cu ildə kənddə kolxoz qurulmuş, 1960-cı ildə bu kolxoz Gülüdüz kəndinin sovxozuna birləşdirilmişdir.

1988-ci ildə kəndin 400 nəfərdən artıq əhalisi dədə-baba yurdlarından qovulmuşdur.

### Qaraqaya kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Qaraj – | 1 əd |
| Anbar binaları – | 3 əd |
| Dəmirçi sexi – | 1 əd |
| Dülgər sexi – | 1 əd |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Dəyirman – | 1 əd |
| Məktəb – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Poçt binası – | 1 əd. |
| Mağaza – | 1 əd. |
| Yem sexi – | 1 əd. |
| Mal-qara üçün tövlə – | 12 əd. |
| İribuynuzlu mal-qara – | 600 baş |
| Xırdabuynuzlu mal-qara – | 4000 baş |
| Kənd təsərrüfatı maşınları – | 3 əd. |
| Avtomaşınlar – | 4 əd. |

## GÜLÜDÜZÜ

Dərələyəz mahalının Keşişkənd (Yeğeqnadzor) rayonunda, Ələyəz dərəsində, rayon mərkəzindən 32 km şimal-şərqdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Gülüdüzü kəndində 2 kənd birləşdirilmişdir. Aşağı Gülüdüzü və Yuxarı Gülüdüzü kəndləri. Aşağı Gülüdüzü kəndinin bir adı da Nəbilərdir. Nəbilər kəndi 30-cu illərə qədər ayrıca kənd kimi fəaliyyət göstərmişdir. Lakin 30-cu illərdən ermənilər azərbaycanlı kəndlərinin sayını azaltmaq məqsədilə bu kəndi köçürüb Yuxarı Gülüdüzü kəndi ilə birləşdirdilər.

Kənddə 1831-ci ildə bu kənddə 115 nəfər, 1873-cü ildə 115 nəfər, 1886-cı ildə 217 nəfər, 1897-ci ildə 263 nəfər, 1904-cü ildə 151 nəfər, 1914-cü ildə 166 nəfər, 1916-cı ildə 407 nəfər əhali (azərbaycanlı) olmuşdur.

1918-ci ildə Dərələyəzin 70-dən artıq azərbaycanlı kəndi kimi Gülüdüzü kəndini də erməni millətçiləri dağıtmış, talan etmiş, əhalisini qırmış və qovmuşlar.

Kənddə 1926-cı ildə 32 nəfər (qaçqınlıqdan sonra), 1939-cu ildə 67, 1959-cü ildə 256, 1970-ci ildə 362, 1979-cu ildə 369 nəfər əhali yaşamışdır.

1988-ci ildə ermənilər rayon partiya və icra komitələrinin, hüquq-mühafizə orqanlarının köməyi ilə kənd əhalisinin var-yoxunu, malını, mülkünü əlindən alıb zorla kənddən çıxardılar.

Uzunluğu 54 km olan məşhur Arpa-Sevan tuneli bu kəndin altından keçir və bu səbəbdən ermənilər bu kənddə 1960-1970-ci illərdə xeyli ev tikmiş və buraya çoxlu erməni ailəsi köçürmüş, buranı qəsəbəyə çevirmişlər. 1967-ci ildə isə ermənilər kəndin adını dəyişib **Vardahovid** qoymuşlar.

Kəndin tarixi çox qədimlərə gedib çıxır. Bu kəndin və Aşağı Gülüdüzü (Nəbilər) kəndinin qəbiristanlığında qoç daşlarının həddi-hesabı yox idi. Buradakı qədim qəbirlərin hamısının üstündə qoç daşları (heykəl) ucalırdı. Lakin ermənilər 1940-cı illərin 2-ci yarısından başlayaraq, bu qəbir daşlarını gizli yollarla, xüsusən, gecələr yük maşınlarına doldurub rayon mərkəzinə doğru aparmış və orada məhv etmişlər. Bir sözlə, türk dünyasına aid abidələri, əşyaları silib atmağa çalışmışlar.

**Gülüdüzü kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Qaraj – | 1 əd |
| Anbar binaları – | 3 əd |
| Dəmirçi sexi – | 1 əd |
| Dülgər sexi – | 1 əd |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Dəyirman – | 1 əd |
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Poçt binası – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Mağaza – | 1 əd. |
| Hamam – | 1 əd. |
| Yem sexi – | 1 əd. |
| Mal-qara üçün tövlə – | 14 əd. |
| İribuynuzlu mal-qara – | 1000 baş |
| Xırdabuynuzlu mal-qara – | 8000 baş |
| Kənd təsərrüfatı maşınları – | 10 əd. |
| Avtomaşınlar – | 8 əd. |

## AMAĞU//ƏMƏĞU

Dərələyəz mahalının Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kənd X yüzildən mövcud olması barədə mənbələrdə məlumatlar var. Amağu kəndinin ərazisində, kəndin altındakı dərədə X-XII yüzilə aid qədim abidələr, Alban kilsələri də bunu sübut edir.

Kənddə 1831-ci ildə 31 nəfər, 1873-cü ildə 198 nəfər, 1886-cı ildə 240 nəfər, 1897-ci ildə 354 nəfər, 1904-cü ildə 350 nəfər, 1914-cü ildə 385 nəfər, 1916-cı ildə 510 nəfər əhali yaşamışdır.

1918-ci ildə erməni daşnaklarının Keşişkənddə olan quldur dəstəsinin başçısı Yapon və polkovnik Doluxanov ətrafda yaşayan ermənilərin köməyi ilə bu kəndi dağıtmış, yandırmış və əhalisinə divan tutaraq qovmuşlar.

1918-ci ildə ermənilərin Amağu kəndində törətdikləri cinayət heç vaxt yaddaşlardan silinən deyil. Ermənilərin hücumunu yaxşı dəf etmək üçün Qurdqulaq və digər kənd əhalisi də Amağuya yığışır və Qurdqulaq kəndində yalnız gözətçilər qalır. Ermənilər gözətçiləri qəflətən tutur, hiylə ilə kəndə girirlər. Onlar qadınları, uşaqları böyük bir ev damına yığır, yandırır, kişiləri isə qollarını bağlayıb kəndin altındakı uçurum qayadan bir-bir aşağı atırlar. Burada əli silah tutan kişilərdən yalnız bir nəfəri – Tanrıverdi ölümün pəncəsindən qurtara bilir və qaçıb məsələni Şərura xəbər verir.

Erməni-müsəlman davasından sonra, 1922-ci ildə kəndə cəmi 97 adam qa-yıtmışdır. Bu say 1926-cı ildə 104, 1931-ci ildə 131 nəfərə çatmışdır.

Kəndin əhalisi 1959-cu ildə 385 nəfərə, 1970-ci ildə 526 nəfərə, 1979-cu ildə 685 nəfərə çatmışdır. 1988-ci ildə ermənilər əhalinin əmlaklarını, var-dövlətlərini əllərindən almış, özlərini bir həftə ərzində, noyabrın 28-dək kənddən qovmuş, kənd əhalisinə divan tutmuşlar.

### Amağu kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Qaraj – | 1 əd |
| Anbar binaları – | 3 əd |

| | |
|---|---|
| Dəmirçi sexi – | 1 əd |
| Dülgər sexi – | 1 əd |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Dəyirman – | 1 əd |
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Poçt binası – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Mağaza – | 1 əd. |
| Hamam – | 1 əd. |
| Yem sexi – | 1 əd. |
| Mal-qara üçün tövlə – | 11 əd. |
| İribuynuzlu mal-qara – | 800 baş |
| Xırdabuynuzlu mal-qara – | 5000 baş |
| Üzüm bağı – | 20 ha |
| Meyvə bağı – | 30 ha |
| Kənd təsərrüfatı maşınları – | 7 əd. |
| Avtomaşınlar – | 8 əd. |

## SALLI

Dərələyəz mahalının Keşişkənd (Yeğeqnadzor) rayonunda, Səlim gədiyindən gələn çayın, Dərələyəzdən Göyçəyə (Qaranlığa) gedən magistral yolun üstündə kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

1831-ci ildə kənddə 77 nəfər, 1873-cü ildə 422 nəfər, 1886-cı ildə 560 nəfər, 1897-ci ildə 668 nəfər, 1904-cü ildə 624 nəfər, 1914-cü ildə 675 nəfər, 1916-cı ildə 678 nəfər azərbaycanlı əhali olmuşdur.

1918-ci ildə daşnak quldur dəstəsinin başçısı Yapon və polkovnik Doluxanov bu kəndin əhalisinə divan tutmuş və əksəriyyətini qırmışlar. Salamat qalanlar pərən-pərən olmuş, hərəsi bir tərəfə qaçmışdır.

1922-ci ildə kəndə cəmi 147 nəfər qayıtmış, bu kənddə məskunlaşan ermənilərlə birgə yaşamağa məcbur olmuşlar. 1926-cı ildə bu kənddə azərbaycanlıların sayı 204, 1931-ci ildə 242 olmuşdur. Son illərdə bu rəqəm xeyli artmışdı.

1948-1953-cü illərdə azərbaycanlılar rayonun başqa kəndləri kimi, bu kənddən də deportasiya olunmuş, Salyan rayonuna göndərilmişdir. Burada əhalinin bir hissəsi iqlimə uyğunlaşa bilmədiyi üçün Bərdənin İmirli kəndinə gəlmiş və orada da bəziləri yenidən doğma Sallıya qayıtmışdır. Nəhayət, 1988-ci ildə burada yaşayan azərbaycanlıların var-dövləti əlindən alınmış və kənddən qovulmuşlar. İndi həmin kəndin əhalisi Azərbaycanın müxtəlif bölgələrinə səpələnmişlər.

Bu qədim azərbaycanlı kəndində X-XII yüzillərə aid tarixi abidələr, Alban kilsələri vardır.

### Sallı kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Qaraj – | 1 əd |
| Anbar binaları – | 3 əd |
| Dəmirçi sexi – | 1 əd |
| Dülgər sexi – | 1 əd |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Dəyirman – | 1 əd |

| | |
|---|---|
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Poçt binası – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Mağaza – | 1 əd. |
| Hamam – | 1 əd. |
| Yem sexi – | 1 əd. |
| Mal-qara üçün tövlə – | 9 əd. |
| İribuynuzlu mal-qara – | 500 baş |
| Xırdabuynuzlu mal-qara – | 1000 baş |
| Üzüm bağı – | 20 ha |
| Meyvə bağı – | 30 ha |
| Kənd təsərrüfatı maşınları – | 10 əd. |
| Avtomaşınlar – | 9 əd. |

## HORS

Dərələyəz mahalının Keşişkənd (Yeğeqnadzor) rayonunda, Arpa çayının sol qolunun şimali-şərqində, rayon mərkəzindən 9 km aralıda, Dərələyəzdən Göyçənin Qaranlıq rayonuna gedən yolun, Səlim gədiyindən aşan məşhur ipək yolunun yaxınlığında, dəniz səviyyəsindən 1.707 m yüksəklikdə kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, 1918-ci ildən sonra azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

1905-ci ildə ermənilər bu kənddən çoxlu adam qırmışlar. 1905-ci il Dərələyəz malahında "Hors yanan il" adı ilə məşhurdur. Səbəb odur ki, 1905-ci il erməni-müsəlman davasında ermənilər öncə Hors kəndinə hücum etmiş, kəndi yandırmış və əhalisini amansızcasına qırmışlar.

Statistik və tarixi mənbələrdə göstərilir ki, 1831-ci ildə bu kənddə 126 nəfər, 1873-cü ildə 649, 1886-cı ildə 904 nəfər, 1897-ci ildə 1136 nəfər, 1904-cü ildə 971 nəfər, 1914-cü ildə 971 nəfər, 1916-cı ildə 1337 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ildə ermənilər zorla azərbaycanlı evlərinə sahib çıxaraq burada məskunlaşmışlar. 1948-1953-cü və 1988-ci illərdə isə ermənilər Ermənistan hökumətinin köməyi ilə bu kənddən azərbaycanlıları tamamilə qovub çıxarmış və bu yurdsuz-yuvasız qalan əhali Azərbaycan Respublikasının müxtəlif bölgələrinə səpələnmişdir.

1922-ci ildə 192 nəfər, 1926-cı ildə 172 nəfər, 1931-ci ildə 325 nəfər azərbaycanlı yaşamışdır. 1922-ci ildən sonra bu kənddə azərbaycanlıların sayının az olmasının başlıca səbəbi odur ki, ermənilər bu kənddə məskunlaşmış və azərbaycanlıları öz evlərinə qayıtmağa qoymamışlar.

Kənddə XII-XIV yüzillərə aid çoxlu tarixi abidələr, Alban kilsələrinin qalıqları, oğuz qəbiristanlığı və s.

Kəndin iki qəbiristanlığı olmuşdur: Köhnə qəbiristanlıq, Təzə qəbiristanlıq.

### Hors kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Qaraj – | 1 əd |
| Anbar binaları – | 3 əd |

| | |
|---|---|
| Dəmirçi sexi – | 1 əd |
| Dülgər sexi – | 1 əd |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Dəyirman – | 1 əd |
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Poçt binası – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Mağaza – | 2 əd. |
| Hamam – | 1 əd. |
| Yem sexi – | 1 əd. |
| Mal-qara üçün tövlə – | 5 əd. |
| İribuynuzlu mal-qara – | 600 baş |
| Xırdabuynuzlu mal-qara – | 7000 baş |
| Üzüm bağı – | 60 ha |
| Meyvə bağı – | 30 ha |
| Kənd təsərrüfatı maşınları – | 6 əd. |
| Avtomaşınlar – | 5 əd. |

## AĞKƏND

Dərələyəz mahalının Keşişkənd (Yeğeqnadzor) rayonunda, rayon mərkəzi Keşkənddən 17 km şimal-şərqdə, Səlim gədiyinin ayağında, Səlim çayının yanında kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

Kənddə 1832-ci ildə 222, 1873-cü ildə 498, 1886-cı ildə 546, 1897-ci ildə 670, 1904-cü ildə 918, 1914-cü ildə 1010, 1916-cı ildə 704 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci il qaçqınlığı və soyqırımından sonra kəndin əhalisi azalmış, 1921-1922-ci ildən sonra kəndə əhalinin yarıdan azı, təxminən 300 nəfəri qayıda bilmişdir. 1918-ci ildə qaçqın düşən əhalinin hamısı kəndə qayıda bilməmişdir.

Kənd 1918-ci ildə ermənilər tərəfindən tutulmuş və onlar qaçqınlıqdan qayıdıb gələn kənd əhalisinin çoxunu kəndə qoymamışlar. Bu dövrdən etibarən kənddə azərbaycanlılarla yanaşı ermənilər də yaşamağa başlamışlar. Həmin vaxtdan başlayaraq kənddə azərbaycanlılar get-gedə sıxışdırılmış, ermənilərin sayı isə çoxalmışdır.

1939-cu ildə burada 621 nəfər azərbaycanlı qeydə alınmış və son illərdə bu rəqəm xeyli çoxalmışdır. Lakin 1988-ci ildə kənddəki azərbaycanlılar ermənilər tərəfindən tamamilə çıxarılmışdır.

Bu kəndin əhalisi ayrı-ayrı dövrlərdə, xüsusən 1905-1907, 1918-1920, 1948-1953-cü illərdə Azərbaycana qaçmağa məcbur olmuş və Azərbaycanın müxtəlif bölgələrində məskunlaşmışlar.

Ermənilər 1968-ci ildə 3 iyulda bu kəndin adını dəyişdirərək **Ağnsadzor** qoymuşdur.

Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı zamanı kəndin bütün azərbaycanlıları qovularaq kənddən çıxarılmış, mal və mülkləri əllərindən alınmışdır.

# ÇİVƏ

Dərələyəz mahalının Keşişkənd (Yeğeqnadzor) rayonunda, kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, 1918-ci ildən etibarən isə azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı kənd olmuşdur.

Kənddə 1831-ci ildə 129 nəfər, 1873-cü ildə 294 nəfər, 1886-cı ildə 431 nəfər, 1897-ci ildə 689 nəfər, 1904-cü ildə 562 nəfər, 1914-cü ildə 612 nəfər, 1916-cı ildə 612 nəfər azərbaycanlı əhalisi olmuşdur.

1918-ci il erməni-müsəlman davasından qaçıb qurtaran əhalinin bir hissəsi 1922-ci ildə kəndə qayıtmış, lakin ermənilər bunların ev-eşiyini zəbt etdiyi üçün onların xeyli hissəsi ora-bura dağılmışlarr.

1922-ci ildə kənddə 391 nəfər, 1926-cı ildə isə 367 nəfər azərbaycanlı yaşamışdır.

1949-1950-ci illərdə kəndin əhalisi də başqa kəndlərdə olan azərbaycanlılar kimi deportasiya edilərək Azərbaycanın Bərdə rayonunun İmirli və Həsənqaya kəndlərinə köçürülmüşdür. 1953-cü ildən sonra onların bir hissəsi yenidən kəndə qayıtsa da 1988-ci ildə ermənilər onları tamamilə kənddən qovmuşlar. Bu kəndin əhalisi indi, əsasən, Bərdənin İmirli kəndində, Tərtərdə, Şəkidə və Bakıda məskunlaşmışlar.

Çivə kəndində qalan bir neçə azərbaycanlı ailəsi (Abbasov Eldar Abbas oğlunun, Camalova Zeynəb İsmayıl qızının, Hüseynov Nemət Əli oğlunun, Cəfərov Məcid Məmməd oğlunun ailələri) 1988-ci ildə zorla ermənilər tərəfindən kənddən çıxarıldı.

**Çivə kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Qaraj – | 1 əd |
| Anbar binaları – | 3 əd |
| Dəmirçi sexi – | 1 əd |
| Dülgər sexi – | 2 əd |
| Enerji şəbəkəsi – | 1 əd. |
| Dəyirman – | 1 əd |
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Mədəniyyət evi – | 1 əd. |

| | |
|---|---|
| Uşaq bağçası – | 2 əd. |
| Poçt binası – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Mağaza – | 1 əd. |
| Hamam – | 1 əd. |
| Yem sexi – | 1 əd. |
| Mal-qara üçün tövlə – | 14 əd. |
| İribuynuzlu mal-qara – | 500 baş |
| Xırdabuynuzlu mal-qara – | 1000 baş |
| Üzüm bağı – | 60 ha |
| Meyvə bağı – | 70 ha |
| Kənd təsərrüfatı maşınları – | 7 əd. |
| Avtomaşınlar – | 4 əd. |

## PAŞALI (ƏZİZBƏYOV, VAYK) RAYONU

Dərələyəz mahalı ərazisində rayon.

1931-ci il oktyabrın 15-də yaradılıb. 1956-cı il oktyabrın 12-nə qədər Paşalı rayonu, həmin tarixdən etibarən isə Əzizbəyov rayonu adlandırılıb. 1991-ci il ildə adı yenidən dəyişdirilərək Vayk rayonu qoyulub.

Ərazisi 1.173 kv.km-dir. Rayon mərkəzi şəhər tipli Soylan (Əzizbəyov, Vayk) qəsəbəsidir.

Rayon mərkəzinə ən yaxın dəmiryol dayanacağı 75 km kənarda yerləşən Arazdəyən (Yerasx) stansiyasıdır (Vedi rayonu ərazisində).

Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 139 km-dir.

Paşalı rayonu qədim Dərələyəz mahalının bir hissəsidir. Əvvəllər bütövlükdə Azərbaycan türkləri yaşayan bu ərazidə son vaxtlar, yəni 1988-ci ildə cəmi 5 kənd bütövlükdə azərbaycanlılara məxsus idi. Köçbək, Terp, Axta, Gomur, Gabud, Kotanlı, Kendvaz, Her-her, Cermuk məntəqələrində azərbaycanlılarla ermənilər qarışıq yaşayırdılar.

Sonra qaçqınlıq dövründə rayonda cəmi 4000 azərbaycanlı var idi. 3000 baş iribuynuzlu, 10000 baş xırdabuynuzlu heyvan (təxminən bir o qədər də şəxsi təsərrüfatlarda var idi) ermənilərə qaldı.

Paşalı rayonunda azərbaycanlılara məxsus 400-ə qədər maşın traktor və digər kənd təsərrüfatı texnikası ermənilər tərəfindən mənimsənildi.

Paşalılar 1988-ci ildə 15 nəfər həmyerlilərini itirdilər.

### 1988-ci ilə qədər Paşalı rayonunda mövcud olan azərbaycanlı yaşayış məntəqələrinin siyahısı

**Xalis azərbaycanlı yaşayış məntəqələri**

1. Köçbək (19.04.1991-ci ildən – Yeğedzor)
2. Terp (27.02.1960-cı ildən – Saravan)
3. Axta
4. Gomur (19.04.1991-ci ildən – Komk)
5. Gabut (03.07.1968-ci ildən – Kapuyt)
6. Gülüstan (19.04.1991-ci ildən – Nor Aznaberd)
7. Zeytə (19.04.1991-ci ildən – Zedsa)

**Qarışıq yaşayış məntəqələri**

8. Kotanlı (sonralar – Karmraşen)
9. Gindivaz
10. İstisu (Səfolar İstisuyu)

**Paşalı rayon azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mədəniyyət evi – | 8 əd. |
| Klub – | 9 əd. |
| İdarə binası – | 8 əd. |
| Uşaq bağçası – | 4 əd. |
| Xəstəxana – | 5 əd. |
| Tibb məntəqəsi – | 8 əd. |
| İribuynuzlu mal-qara üçün tövlə – | 26 əd. |
| Xırdabuynuzlu mal-qara üçün tövlə – | 25 əd. |
| Enerji şəbəkəsi – | 14 əd. |
| Anbar binaları – | 19 əd. |
| Məscid – | 7 əd. |
| Avtomaşınlar – | 223 əd. |
| Kənd təsərrüfatı maşınları – | 82 əd. |
| İribuynuzlu mal-qara – | 2385 baş |
| Xırdabuynuzlu mal-qara – | 5620 baş |
| Məktəb – | 9 əd. |
| Kitabxana – | 9 əd. |
| Bay tarlıq məntəqəsi – | 8 əd. |
| Yeməkxana – | 7 əd. |
| Poçt-rabitə şöbəsi – | 7 əd. |
| Əczəxana – | 6 əd. |
| Mağaza – | 10 əd. |

## KÖÇBƏK

Dərələyəz mahalının Paşalı rayonunda, Arpa çayının qolu üstündə, Terp kəndi yaxınlığında, dəniz səviyyəsindən 2006 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kənddə 1831-ci ildə 35 nəfər, 1873-cü ildə 226 nəfər, 1886-cı ildə 312 nəfər, 1897-ci ildə 417 nəfər, 1904-cü ildə 425 nəfər, 1914-cü ildə 470 nəfər, 1916-cı ildə 537 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ildə kənd erməni millətçiləri tərəfindən dağıdılmış, əhalisinə divan tutulmuş və zorla öz doğma ocağından qovulmuşdur. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra 1922-ci ildə 470 nəfərdən cəmi 103 nəfər qaçqın öz kəndinə qayıtmış, 1931-ci ildə onların sayı yenidən 365-ə çatmışdır.

Onlar 1930-cu illərdə kəndi bərpa etmiş, kolxoz qurmuş, səkkizillik məktəb, klub, kitabxana açmışlar. 1972-ci ildə kəndin 91 təsərrüfatı, 564 nəfər əhalisi, 1988-ci ildə isə 100 təsərrüfatı (evi), 600-ə yaxın əhalisi olmuşdur.

1988-ci ilin noyabrında hökumətin göstərişi ilə kəndin bütün əhalisi bir həftə ərzində erməni millətçiləri tərəfindən kənddən qovulmuşlar.

Köçbək kəndinin adını dəyişərək Uğeqzor (Hedzor) qoymuşlar.

### Köçbək kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mədəniyyət evi – | 1 əd. |
| Klub – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
